İxtisas: Psixologiya
Kafedra: Psixologiya, pedaqogika və sosial fənlər
Fənn: Mədəniyyətlərarası psixologiya
Müəllim: Kosayeva A.V.
Mühazirə.

Movzu 1.Mədəniyyətlərarası psixologiyanın bir elm kimi səciyyəsi

Plan:

1. Mədəniyyət haqqında anlayış
2. Mədəniyyətlərarası psixologiyanın məqsədi
3. Mədəniyyətlərarası psixologiyanın vəzifələri

Ədəbiyyat

1. Məmmədova S. Mədəniyyətşünaslıq- -Bakı-2001
2. Bayramov Ə.S, Əlzadə Ə.Ə.Psixologiya, Bakı, 2002
3. Əliyev R.İ. Mentalitet.Bakı, 2009
4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
5. Bayramov Ə.S.Etnik psixologiya, Bakı,2001.
6. C.V.Berri Mədəniyyətlərarası Psixologiya- -2002

Mövzu ilə bağlı elektorn resurslar:

https://prezi.com/d9rcaq61bvbq/kultur-nedr-kulturler-arasi-psikoloji-ve-kulturel-psikoloj/

https://www.verywellmind.com/what-is-cross-cultural-psychology-2794903

1. Mədəniyyət haqqında anlayış

Mədəniyyət – insanın və cəmiyyətin inkişafının müasir səviyyəsi, insanın yaratdığı və nəsildən-nəsilə ötürdüyü maddi və mənəvi dəyərlər.
"Mədəniyyət" anlayışının latın dilindən tərcüməsi "kulture" – "becərmək", "bəsləmək", "yaxşılaşdırmaq" deməkdir. Bu sözün ilkin mənası – torpağın becərilməsi, əkinçilik, torpağın işlənilməsi idi. Tədricən insanların fəaliyyət dairəsi genişləndi və "mədəniyyət" sözü daha geniş bir məna daşımağa başladı: maarifçilik, savad, tərbiyə.

Mədəniyyət haqqında bir çox alimlər öz fikirlərini bildirmişlər. Qədim Roma natiqi Siseron kənd təsərrüfatına aid ifadəni ruhun inkişaf etməsi kimi fəlsəfi bir kateqoriyaya tətbiq edərək cultura animi –"ruhun bəslənməsi" məfhumunu yaratdı. O, mədəniyyəti barbarlığın müxtəlif təzahürlərinin dəf edilməsi vasitəsi və insanın mükəmməl bir vətəndaşa çevrilməsi aləti kimi görürdü.

Məşhur rus dilşünası Vladimir Dal özünün "İzahatlı lüğət"ində yazır:"Mədəniyyət – işlədilmə, becərmə, üzərində çalışmadır, bu əqli və əxlaqi savaddır".

Mədəniyyət fenomenini təhlil edən F.Hegel ona "insan tərəfindən yaradılmış ikinci təbiət" adını vermişdir. Mədəniyyət – təbiət tərəfindən bizə bəxş edilmiş sərvətdir, insanlar tərəfindən yaradılmış və toplanılmış maddi və mədəni dəyərləri, bizi əhatə edən təbiəti qiymətləndirmək üçün bizə verilmiş şansdır.

Mədəniyyət – hər bir insanın az və ya çox dərəcədə əldə etdiyi bilik və vərdişlər, ictimai və istehsalat həyatı, savad və tərbiyə, yaradıcılıq və mənəvi-əxlaqi fəallıqdır. Eyni zamanda, buraya insan tərəfindən yaradılmış sərvətlər (o cümlədən maddi sərvətlər) də daxildir.

Mədəniyyət – insanların həyat fəaliyyəti formalarının müxtəlifliyi, mücərrəd anlayışda həyatın becərilməsi, onun insaniləşdirilməsi, xalqların tarixi yaddaşıdır. O, sivilizasiyaların və etnosların ayrılmaz cəhətidir. Planetimizdə mədəniyyətlərin müxtəlifliyi insan birliklərinin ən böyük dəyəridir; buna, bəzən, inteqral mədəniyyət deyilir. İnsan mədəniyyət vasitəsi ilə özünün müstəqil fərd, cəmiyyətin üzvü, bütövlülüyün bir cəhəti olduğunu dərk edir.

Mədəniyyət- bir qrup insanın bir çox xüsusiyyətlərini, o cümlədən bir nəsildən digərinə ötürülən münasibət, davranış, adət və dəyərlərini ifadə edir. Dünyadakı mədəniyyətlər bir çox oxşar cəhətləri bölüşür, lakin əhəmiyyətli fərqlərlə özünü göstərir.

İllər boyu aparılan araşdırmalar qərbdən başqa digər ölkələrdə son illər psixologiyanın inkişafı mədəniyyətlərarası psixologiyanın yaranmasına və bu sahəyə marağın artmasına yol açmışdır. Əslində psixologiyada XX yüzilliyin ortalarında yeni bir anlayış kimi görünməyə başlayan mədəniyyətlərarası psixologiyanın kökü XIX yüzilliyin sonuna və XX yüzilliyinin əvvəlindəki araşdırmlara qədər gedə bilər. Lakin, o zaman müxtəlif mədəniyyətlərdə aparılan araşdırmalar o illərdəki mədəniyyət fərqliliyini ortaya çıxarmaqda çətinlik çəkmişdir. Keçmiş araşdırmalara baxıldıqda 1920-ci ilin ortalarından rus psixoloqlarından Viqotski, Leontev və digərlrinin sosial-tarixi psixologiyasına dair yanaşmaları ön plana çəkilir.

Mədəniyyətlərarası psixologiya nəyi öyrənir? Cavab əsasən öyrənmə obyekti üçün götürdüyümüzdən asılıdır: qrupa (etnik qrup) daxil olan insanlar, etnik qrup və ya şəxsiyyət. Etnik tədqiqat obyekti onun tərkibinə daxil edilmiş etnos və şəxsiyyət olacağını əsas götürsək, tədqiqat mövzusu xalqların psixologiyasının, xüsusən fərdin etnik-mədəni davranışının kütləvi hadisələri olacaqdır. Fərdi etnik tədqiqatın əsası

kimi nəzərdən keçirildikdə, araşdırma mövzusu müəyyən bir qrupun (cəmiyyətin) fərdlərinin fərdi xüsusiyyətləridir.

Əksər tədqiqatçılar Mədəniyyətlərarası psixologiyanın obyekti milli birliyin bütövlüyünə töhfə verən amillər kimi sabit, dinamik bir sistemlə təmsil olunan etnik bir cəmiyyət olduğunu düşünürlər. Etnik icmaların aşağıdakı növləri fərqləndirilir: qəbilə, millət və s. Bəşər tarixində ilk etnik icma ibtidai sistemin parçalanma dövründən sonra yaranmış bir qəbilədir. İnsanların etnik icmasının ən yüksək və son forması millətdir. Onun üçün ərazi, iqtisadiyyat, siyasət, dil, mədəniyyətdə və həyatda təzahür edən zehni ağılın yaxınlığı əhəmiyyətlidir.

Bildiyimiz kimi "millət" anlayışları yuxarıda sadalanan anlayışlardan daha genişdir. Ölkədə yaşayan millətlər və digər etnik qruplar dedikdə bir fərdin və ya bir qrup şəxsin müəyyən bir milliyyətə mənsubiyyətini ifadə edir. Eyni zamanda, bu xalqın milli kimliyidir. Bir qəbilə, bir millət, daha çox milli etnik icmaların tarixi növləri adlanır. "milli" anlayışı "etnik" anlayışından daha geniş anlayışdır.. Etnik bir cəmiyyət ortaq bir ərazi, sosial-iqtisadi birlik, dil, mədəniyyət, habelə şüurlu öz müqəddəratını təyinetmə həqiqəti ilə xarakterizə olunan hər hansı bir toplumdur.

- ***Mədəniyyətlərarası psixologiya*** **müxtəlif mədəni və etnik qruplara mənsub şəxslərin psixologiyasındakı oxşarlıq və fərqləri, habelə psixoloji fərqlər ilə yanaşı sosial-mədəni, ekoloji və bioloji xüsusiyyətlər arasındakı əlaqəni araşdıran bir elmdir**
- ***Mədəniyyətlərarası psixologiya*** **mədəni universallıqları nəzərə alaraq mədəniyyətlərarası bir perspektivdə xüsusi psixoloji funksiyaları, parametrləri və qanunları öyrənir.**

Mədəniyyətlərarası tədqiqatın aspektləri isə aşağıdakılardır:

- *Mədəni dəyişikliklər (fərqlər və universallar)*
- *Bioloji dəyişikliklər (qidalanma, genotip, fizioloji proseslər)*
- *Ekoloji dəyişikliklər(ətraf aləmə adaptasiya,əhali sıxlığı*

2. Mədəniyyətlərarası psixologiyanın məqsədi

Mədəniyyətlərarası psixologiya qlobal bir dünyada mədəniyyətlərarası ünsiyyət bacarıqlarına sahib olmaq, həyatda və işdə uğur qazanmaq, birbaşa xarici həmkarlar, tərəfdaşlar, müştərilər və dostlar ilə güclü əlaqələr qurmaq və s kimi məsələləri ön plana çəkir.

Psixologiya əsasən Avropa və Şimali Amerikada meydana gəldiyindən, tədqiqatçılar bir vaxtlar universal olduğuna inandığı müşahidələrin və fikirlərin əksəriyyətinin bu ərazilərdən kənar mədəniyyətlərə tətbiq oluna biləcəyinə şübhə ilə yanaşmağa başladılar.Mədəniyyətlərarası psixoloqlar araşdırmalarda mövcud ola biləcək önyarginin əksəriyyətini aradan qaldırmaq və Avropa və Şimali Amerika

mədəniyyətlərində kecerli olan mədəni nümunələrin dünyanın digər yerlərində etibarlı olub olmadığını müəyyən etmək üçün çalışırlar.

Hər bir elmin özünün vəzifələri məqsəd və vəzifələri olduğu kimi Mədəniyyətlərarası Psixologiyanın da özünə məxsus məqsəd və vəzifələri vardır.

3. Mədəniyyətlərarası psixologiyanın vəzifələri

Mədəniyyətlərarası psixologiyanın vəzifələri aşağıdakılardır:

- *Dünyanı insanların dəyərləri və fikirləri ilə təmsil etməyin yolları;*
- *Milli mədəni şəxsiyyət və onun düşüncə, davranış qaydalarının mədəni şəkildə müəyyənləşdirilməsi;*
- *Psixologiyanın anlayışları və vasitələri ilə birlikdə Antropologiyanın etnoqrafik tədqiqat metodlarından istifadə etməklə mədəni kontekst və insan davranışı arasındakı əlaqələrin araşdırılması*
- *Mədəniyyətlərarası münaqişələrin həllinin effektiv yollarının araşdırılması*
- *Mədəni uyğunlaşma prosesləri, mədəni stereotiplər və dəyərlərin qarşılıqlı əlaqəsinin öyrənilməsi*

Mədəniyyətlərarası psixologiya psixologiyanın digər sahələrindən nə ilə fərqlənir? Psixologiyanın bir çox başqa sahəsi insanların digər insan davranışlarına necə təsir etdiyinə diqqət yetirir, lakin əksəriyyəti mədəniyyətin fərdi insan dvranışlarına güclü təsirini nəzərə almır. Mədəniyyətlərarası psixologiyadaha çox mədəniyyətin təsirini nəzərə alaraq insan davranışını öyrənməyə diqqət yetirir.

Mövzu3 --Mədəniyyətlərarası psixologiyanın əsas anlayıları və tədqiqat metodları

Plan:

1. Mədəniyyətlərarası psixologiyanın əsas anlayıları
2. Mədəniyyətlərarası psixologiyada müşahidə metodunun özünəməxsusluğu
3. Sənədlərin öyrənilməsi metodu.
4. Korrelyasiya metodu.
5. Eksperiment və onun növləri.
6. Sorğu metodu.
7. Test metodu.

Ədəbiyyat

- Məmmədova S. Mədəniyyətşünaslıq- -Bakı-2001
- Bayramov Ə.S, Əlzadə Ə.Ə.Psixologiya, Bakı, 2002
- Əliyev R.İ. Mentalitet.Bakı, 2009
- Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
- Bayramov Ə.S.Etnik psixologiya, Bakı,2001.
- C.V.Berri Mədəniyyətlərarası Psixologiya- -2002

*** Mövzu ilə bağlı elektorn resurslar**

https://tr.wikipedia.org/wiki/K%C3%BCltC3%BCrleraras%C4%B1_psikoloji

https://studfile.net/preview/2915574/page:11/

1. Mədəniyyətlərarası psixologiyanın əsas anlayıları

Mədəniyyətlərarası psixologiyanın əsas anlayışlarına aşağıdakılar daxildir:

1. **Mədəniyyət**-Mədəniyyətlərarası psixologiyada geniş istifadə olunan anlayışlardan biri də mədəniyyət terminidir. Bu anlayış öz tətbiq sahəsindən asılı olaraq müxtəlif mənalarda işlədilir. Fəlsəfi mənada mədəniyyət dedikdə təbiət tərəfindən deyil, yalnız insan tərəfindən yaradılan bütün şeylər başa düşülür. Latın dilindən götürülən "kultura" anlayışı "hazırlanmış", "emal edilmiş", "becərilmiş" sözlərinə uyğun gəlir. Zaman keçdikcə "mədəniyyət" anlayışı altında texniki nailiyyətlərin əsas inkişaf səviyyəsini, yazılı ədəbiyyatın və incəsənətin inkişafını, sosial təşkilatların inkişaf səviyyəsini anlamağa başladılar. Qərb ədəbiyyatında Qərbi Avropanın "mədəni" xalqlarının digər "mədəniyyətsiz", "az mədəniyyətli" "təbii" xalqlara qarşı qoyulması bu mənada başa düşülür. Ümumi fəlsəfi anlayış olan "mədəniyyət" anlayışı etnoqrafiyada bir xalqı başqasından fərqləndirən maddi və mənəvi həyat amillərinin xüsusiyyətləri şəklində izah edilir. Bu xüsusiyyətlər bir qayda olaraq etnosun öz dilində əks olunur

2**. Mədəniyyətlərarası rabitə** - müxtəlif mədəniyyətlərin nümayəndələrinin qarşılıqlı əlaqəsi, məlumat, bilik, obyekt, fikir mübadiləsi.

3. **Akkulturasiya** - insanın psixikasında digər mədəniyyətlərin nümayəndələri ilə təmas nəticəsində baş verən mədəni dəyişikliklər. **Akkulturasiya** – mədəniyyətlərin qarşılıqlı nüfuzu deməkdir. Bu halda müstəqil mədəniyyətlərin öz əvvəlki modelləri dəyişikliyə məruz qalır. Əksər hallarda xarici etnoqrafiyada akkulturasiya avropalaşmanın sinonimi hesab olunur. Akkulturasiya Avropa mədəniyyətinin, təsərrüfat qaydalarının, sosial institutlarının Asiya, Afrika, Amerika və Okeaniya xalqlarının arasında yayılması deməkdir.**Akultrasion stressi**- bir insanın mədəniyyətlərarası ünsiyyətdə yaranan problemlərlərlə başa çıxması halına verdiyi reaksiyadır.

Mədəniyyətlərarası psixologiyaya dair vəsaitlərdə küllü miqdarda ixtisas terminlərinə rast gəlinir ki, bunlar da çox vaxt geniş oxucu kütləsinə aydın olmur. Elmlərin diferensiasiyası və inteqrasiyası baş verdiyi bir əsrdə terminologiya problemi çox ciddi əhəmiyyət kəsb edir. Belə ki, başqa bir elm sahəsində istifadə olunan eyni bir termin orada əvvəlkindən fərqli məna kəsb edə bilir. Mədəniyyətlərarası psixologiyayanın terminləri başlıca olaraq ictimai quruluşu, insan münasibətlərini, maddi və mənəvi mədəniyyəti hər tərəfli əhatə edir. Bəzi terminlər isə ümumi, elmi əhəmiyyət kəsb edir.

Mədəniyyətlərarası psixologiyaya ilə məşğul olan tədqiqatçılar bir çox elm sahələrindən- tarix, fəlsəfə, coğrafiya, linqvistika, antropologiya, mədəniyyətşünaslıq və s. ixtisas sahələrindən çoxlu terminlər mənimsəyib istifadə edirlər. Ən çox istifadə olunan belə terminlərə misal olaraq aşağıdakıları göstərmək olar:

İrq – antropoloji termin olmaqla, mənşə etibarilə qohum olan insanların müəyyən bir qrupunu ifadə edir. Tarixən konkret bir ərazidə qərarlaşan, nəsildən-nəslə keçən fiziki əlamətlər kompleksinə görə bir-birindən fərqlənən böyük insan qruplarına irq deyilir. İrqlər ümumi, oxşar xarici fiziki əlamətlərinə görə bir-birindən seçilirlər. Canlı orqanizmin ətraf fiziki-coğrafi mühitə uyğunlaşmasının irqlərin formalaşması prosesində böyük rolu olmuşdur. İrqlərin formalaşması yuxarı paleolit dövründə (40-16 min il) əsasən başa çatmışdır. İrqlərin ətraf mühitə uyğunlaşması nəticəsində elə xarici fiziki əlamətlər kompleksi yaranmışdır ki, bu əlamətlərə görə dünya xalqalrına əvvəllər "ağ", "qara" və "sarı" rənglərə və üç əsas irqə ayırırdılar: avropoid,ekvatorial (neqroid) və monqoloid. Son vaxtlarda monqoloid irqindən amerikanoid, ekvatorial irqindən avstraloid irqinin ayrılması tövsiyyə olunur. İrqləşmə, yəni insan qruplarının irsən keçən fiziki əlamətlərinin dəyişməsi müasir dövrdə də davam edir. Lakin burada adaptasiya, yəni uyğunlaşma deyil, ictimai-iqtisadi proseslər həlledici rol oynayır. Etnoqrafiya irqləri deyil, elə insan qruplarını öyrənir ki, onların fiziki xüsusiyyətləri irqlərin tarixi əlaqələri nəticəsində dəyişikliyə məruz qalmış və yeniləşmişdir. Antropoloji ədəbiyyatda bu cür insan qruplarını antropoloji tip adlandırırlar.

Genezis – yunan sözü olub mənşə, mənbə, yaranma mənalarında işlədilir. Bu termin etnoqrafiyada müəyyən bir xalqın, etnik birliyin mənşəyini öyrənən zaman qarşıya çıxır. Adi Mədəniyyətlərarası psixologiya təcrübəsində bəzən müəyyən etnosun mənşəyindən, əmək alətləri tiplərinin, yaşayış evləri və xalq geyimlərinin genezisindən, müəyyən toy adətlərinin təşəkkülündən bəhs edir.

Etnik proseslərin xarakterini müəyyənləşdirmək üçün əksər hallarda **inteqrasiya, konsolidasiya və assimilyasiya** kimi latın terminlərindən istifadə olunur. **İnteqrasiya** hərfi mənada ayrı-ayrı hissələrin vahid bir tamda birləşməsi deməkdir. Bu müxtəlif etnik mədəniyyətlərin qarşılıqlı əlaqəsi zəmnində mədəniyyətlərin yaxınlaşmasına aiddir. Müstəqil xalqların və ya onların böyük qruplarının böyük etnoslar şəklində birləşməsinə **konsolidasiya** deyilir. Adətən bu cür birləşmələrin vahid dili və mədəniyyəti olur. Məs, telenkitlərin, çelkanların, kumandinlərin və teleutların vahid Altay etnosunda birləşməsi kimi, **Assimilyasiya** isə artıq formalaşmış etnosların qarşılıqlı təsiredici əlaqə prosesidir. Bu cür etnoslar əksər hallarda mənşə, dil və mədəniyyət cəhətcə müxtəlif olurlar. Qarşılıqlı güclü əlaqələr nəticəsində bir etnosun nümayəndələri başqasının dili və mədəniyyətini bütünlüklə mənimsəyir və öz keçmiş mənsubiyyətini tamamilə itirmiş olur. **Assimilyasiya** həm könüllü, həm də zorakı yolla baş verə bilər. Axırıncı amil mürtəce qüvvələrin hökm sürdüyü ölkələrdə baş verir ki, orada assimilyasiya siyasəti azlıqda qalan xalqların mədəniyyətinin məhvinə doğru yönəldilmişdir.

Adaptasiya – insanların yeni etnik mühitə uyğunlaşmasına deyilir. Adaptasiya və ya akkomodasiya ən çox biologiyada işlədilir.

Urbanizasiya – etnoqrafiya terminlərinə Qərbi Avropa sosiologiyası və etnoqrafiyasından daxil edilmişdir (latınca "Urbanus"-şəhər sayağı deməkdir). ***Urbanizasiya*** sənayenin və əhalinin iri şəhərlərdə toplanmasına deyilir. Etnoqrafik ədəbiyyatda bu anlayış belə bir məna kəsb edir ki, şəhər mədəniyyətinin standart tiplərinin hər yanda yayılması nəticəsində kəndlə şəhər arasındakı mədəni fərqlər aradan qalxır.

Stereotip – Sosial psixologiyadan stereotip anlayışı da qəbul edilmişdir (yunanca "stereos"-möhkəm, "tipos"-iz, şəkil). Bu anlayış etnoqrafiyada, etnik birlik daxilində nəsildən-nəslə keçirilərək saxlanılan, gündəlik həyat təcrübəsi ilə möhkəmləndirilən davranış normalarını xarakterizə edərkən işlədilir. Məs., etnik stereotip, mədəni stereotip və s..

Oykumena. Etnoqrafiyada istifadə olunan bir çox terminlər biologiya və sosiologiyadan mənimsənilmədir.*Oykumena* – yunan sözü olub yaşamaq sözündən götürülmüşdür. Başqa sözlə bu termin yer kürəsinin insanlar tərəfindən məskunlaşmış hissəsi deməkdir. Etnik ərazi müəyyən bir etnosun təşəkkül tapdığı yer, həmin etnosun əsas hissəsinin yerləşdiyi ərazi deməkdir.

Miqrasiya – (latınca "miqrasio" – köçmə) etnik qrupları etnik ərazi daxilində hərəkəti və yaxud onların başqa rayonlara köçməsi deməkdir. Xarici ədəbiyyatda miqrasiya termini ən çox mədəniyyətə aid edilir və miqrasiya prosesi müəyyən bir mədəniyyətin yad etnik və mədəni vilayətə nüfuzu kimi başa düşülür.

Mədəniyyətlərarası psixologiyada elmi maddi və mənəvi mədəniyyət elementlərinə görə insan kollektivlərinin keçmiş tarixini bərpa edərkən mərasim, ayin, adət, qalıq, ənənə kimi anlayışlardan da geniş istifadə edir.

Adət – müəyyən etnik birlik daxilində qəbul edilmiş davranış qaydalarıdır.

Mərasim – etnosun müəyyən sosial, ailə və mənəvi həyatı ilə bağlı olan reqlamentli hadisələrdir. Bunları birbirindən fərqləndirmək üçün onlar aşağıdakı söz birləşmələri şəklində işlədilir: dəfn mərasimi, toy mərasimi, qonqpərvərlik adəti, oğulluğa götürmə adəti və s.

Qalıq – ictimai və mənəvi həyatın müasir vəziyyətinə yabançı olan, keçmiş mədəni mərhələlərdən bu günə qədər gəlib çatan və etnik birliyin üzvləri tərəfindən bir vərdiş kimi icra edilən mədəni amildir. Bunlar qədim mərasim və adətlərin qalığı kimi yaşaya bilir.

Ənənə - (latınca "traditsiya"- ötürülən, keçirilən deməkdir) etnosun həyatını qoruyub saxlamaq üçün maddi və mənəvi mədəniyyətin, ailə və ictimai həyatın elə bir amilidir ki, cəmiyyətin üzvləri onu nəsildən-nəslə keçirirlər. Bəzən insanların məqsədyönlü fəaliyyəti nəticəsində maddi və mənəvi mədəniyyətin yeni formaları meydana çıxır ki, bunlara yenilik, innovasiya deyilir. Tədricən bunlar ənənəyə çevrilir.

Tolerantlıq- Dini dözümlülük. Yəni digər inanc və əqidlərə dözümlü yanaşma kimi adlanır.

Multikulturalizm- Çöxmədənilik, bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyəti ifadə edir.

Qloballaşma-latınca kürə, fransızca «ümumi" mənasını ifadə edir. **Qloballaşma-** Beynəlxalq əhəmiyyətli müxtəlif siyasi, iqtisadi, mədəni, informasiya təyinatlı amillərin ayrı-ayrı ölkələrin sosial varlığına hərtərəfli artan təsir prosesini izah edir. Qloballaşma termini ilk dəfə kim tərəfindən elmə T.Levit tərəfindən 1983-cu ildə gətirilmişdir.

Enkulturasiya- Enkulturasiya termininden ilk ilk dəfə Melvill Herskovits istifadə etmişdir. Amerika antropoloqu, etnoqrafı Melvill Herskovitsə görə "Fərdin mədəniyyətin formasına daxil olmasını, fərd tərəfindən mədəniyyəti təşkil edən təfəkkürün və hərəkətlərin, davranış modellərinin mənimsənilməsidir" fikri enkulturasiya terminini izah edir.

Diskriminasiya(Fərqlədirmə) - Dövlətlərin, hüquqi və fiziki şəxslərin digər dövlətlər, hüquqi və fiziki şəxslərlə müqayisədə hüquqlarının boğulmasını bildirir.

BMT-nin 20 dekabr 1993-cü il tarixli Deklarasiyası Qadına qarşı zorakılığın aradan qaldırılmasından bəhs edir.

Feminizm- Qadınların hüquqları uğrunda ictimai-siyasi hərəkat adlanır.

Emansipasiya- Tabeçilikdən, istismardan azad olmaq , asılıqlıqdan arzusu,hüquqlarda bərabərləşdirmə adlanır.

Transeksuallıq- Fərdin davranışlarından çox onun daxili dünyasında özünü qarşı cinsin nümayəndəsi kimi görməsi və hissetməsidir.
Transvestit- Qadın geyiminə üstünlük verən kişilər və kişi libası geyməyi xoşlayan qadınların davranış normalar
Gender- Kişi və qadının vəzifəsi, kişi və qadın davranışı, habelə onların cəmiyyətdə tutduqları yer barədə təsəvvürlərin məcmusudur.

2. Mədəniyyətlərarası psixologiyada müşahidə metodunun özünəməxsusluğu

Müşahidə metodu—aşağıdakı növlərini ayırırlar;
1) daxildən müşahidə 2) kənardan müşahidə 3) açıq müşahidə 4) gizli müşahidə 5) çöl müşahidəsi 6) laboratoriya müşahidəsi.

Daxildən müşahidə zamanı tədqiqatçı müəyyən müddət ərzində eksperimental qrupun üzvü olur. Məsələn: dərsdə, gəzintidə, düşərgədə, iməcilikdə, yarış zamanı və s. Bu müşahidə kənardan müşahidədən daha çox üstünlüyə malikdir.

Kənardan müşahidə -o müşahidə növüdür ki, bu müşahidə prosesində tədqiqatçı sınanan qrupun üzvü olmur və müşahidəni kənardan aparır. Kənardan müşahidə daxildən müşahidəyə nisbətən daha dəqiq planlaşdırılmalı və təşkil olunmalıdır. Müşahidənin bu növündən əksər hallarda tədqiqatın proqramını hazırlayarkən, yaxud fərziyyənin dəqiqləşdirilməsində, konkret tədqiqat metodlarının seçilməsində və eləcədə bu və ya digər reallığın elmi şərhində istifadə olunur.

Məktəb praktikasında tez-tez açıq müşahidədən istifadə olunur ki, bununda spesifikliyi ondan ibarətdir ki, sınanılanlar onların üzərində müşahidə aparıldığını bilirlər.

Gizli müşahidə--zamanı isə sınanılanlar bilmirlər ki, onların üzərində müşahidə aparılır. Bu zaman maqnitofonlardan,gizli kino kameralardan, xüs. otaq lardan istifadə olunur (etika normalarını nəzərə almaq şərtilə)

Çöl müşahidəsində--müşahidə obyekti real sosial proses olur və adamların davranışı təbii şəraitdə öyrənilir. Çöl müşahidəsi sosial psixoloji eksperimentin xarici validliyini yüksəltməyin ən yaxşı vasitəsidir.

Laborator müşahidəsində isə- eksperimental situasiya müşahidə olunur. Müşahidənin nəticələri qeydə alınır. Bu zaman protokoldan,qeydiyyat və yazılardan istifadə olunur. Tez-tez müşahidəçi xüsusi müşahidə cədvəli hazırlayır və burada müşahidə vahidlərinin qeydiyyatını aparır.müşahidə aparılıb qurtarandan sonra mü şahidə vahidləri statistik cəhətdən işlənir və təhlil olunur. Şagirdin dərsdə yoldaşına müraciət etməsinin sayı, tənəffüsdə yoldaşları ilə kontaktı, dərsdə aktivliyi (əlini qaldırması və s) müşahidə vahidləri kimi nəzərdən keçirilə bilər. Deməli sosial psixologiyada müşahidə vahidləri dedikdə fərdin qrupdakı davranışının müxtformaları nəzərdə tutulur. Müşahidə zamanı müşahidə vahidlərinin düzgün

seçilməsi, qarşıya qoyulan məqsədə nə dərəcədə uyğun olması alınmış nəticələrin keyfiyyətinə təsir göstərir.

Müşahidənin nəticələri, etibarlı, əsaslanmış və dəqiq olmalıdır. Adətən sosial psixoloji tədqiqatlarda müşahidədən ayrı-ayrılıqda deyil, eksperiment, sorğu, sənədlərin öyrənilməsi və başqa metodlarla 1-likdə istifadə olunur.

Köməkçi metodlar adətən əsas metodlarla qarşılıqlı əlaqədə tətbiq olunur. Aşağıda Amerikan psixoloqların (E.Aronson, T. Uilson, R.Eykert 2002) təfsiri kökündə müasir araşdırmalarda geniş tətbiq olunan üç tip metod- müşahidə, korrelyasiya və eksperiment metodu nəzərdən keçirilir.

Müşahidə metodu özünəməxsus texnikadır: bu zaman tədqiqatçı adamları müşahidə edir və onların davranışını sistemli təsbit edir. Sosial psixologiyada müşahidə özünəməxsus ölçülərlə tətbiq olunur. Müşahidə prosesində sosial psixoloqu ayrı-ayrı sosial psixoloji fenomenlər, məsələn aqressivliyin təzahür xüsusiyyətləri maraqlandırır. Bu metod müxtəlif variantlarda tətbiq olunur.

3. Arxiv materiallarının təhlili

Arxiv materiallarının təhlili də müşahidənin özünəməxsus növü hesab edilir. Bu zaman tədqiqatçı arxiv materialları, məs. gündəlikləri, romanları, jurnal və qəzetləri, toplanılmış sənədləri nəzərdən keçirir və onların məzmununu təsvir edir. Əgər tədqiqatçının məqsədi hər hansı sosial fenomeni təsvir etməkdən ibarətdirsə, müşahidə bu baxımdan ən səmərəli üsuldur. Lakin onun məhdud cəhətləri və çatışmamazlıqları da vardır. Əvvala ona görə ki, davranışın müəyyən növlərini, məs. intim həyat hadisələrini sadəcə olaraq müşahidə etmək mümkün deyil. Bundan başqa müşahidə üsulu bir qayda olaraq hələ öyrənilən sosial fenomenlərin mahiyyətini, sosial-psixoloji qanunauyğunluqlarını açıqlamaq imkanı vermir. Bu məsələləri araşdırmaq üçün tədqiqat prosesində müşahidə üsulları ilə birlikdə korrelyasiya və eksperiment metodlarından istifadə olunur.

4. Korrelyasiya metodu.

Korrelyasiya metodu da özünəməxsus texnikadır. Lakin ondan mahiyyətcə fərqlənir. Korrelyasiya metodu vasitəsilə iki və ya daha çox kəmiyyət sistematik surətdə ölçülür. və onların arasında təbii surətdə əmələ gələn qarşıqlı münasibət müəyyən olunur. Müəyyən olunmuş mühüm kəmiyyətlər korrelyasiya metodu vasitəsilə təbii surətdə öyrənilir. Müşahidə metodunda olduğu kimi tədqiqatçı çox vaxt adamların davranışını bilavasitə müşahidə edir. Məs. psixoloq korrelyasiya metodu vasitəsilə uşaqların aqressiv davranışı ilə zorakılığı göstərən televiziya verilişlərinin qarşılıqlı əlaqəsini yoxlamaq imkanına malikdir. Lakin bu

zaman qarşıda müşahidə metodundan fərqli olan məqsəd meydana çıxır: korrelyasiya metodunda müşahidədən fərqli olaraq uşaq aqressivliyi ilə başqa amillər arasındakı qarşılıqlı əlaqə və ya korrelyasiya qiymətləndirilir. (Bu kəmiyyətlər arasındakı korrelyasiyanı bilavasitə müşahidə etmək əslində mümkün deyil). Bəs həmin kəmiyyətlər arasındakı əlaqə korrelyasiya metodu ilə necə müəyyən olunur? Bunu D. Mayersin təfsirində bir misalla izah edək.

Psixoloqlar bir araşdırma zamanı:

a) adamların sosial iqtisadi statusu;

b) sağlamlığı kimi iki önəmli kəmiyyət müəyyən etmişlər. Onları bir məsələ maraqlandırırdı: görəsən, adamların sosial-iqtisadi statusu ilə sağlamlığı arasında nə kimi əlaqə var?

Psixoloqlar (Corc Devi Smit və Pol Benneti) məsələnin mahiyyətin aydınlaşdırmaq üçün Qlazqo şəhərinin qədim qəbiristanlığını öyrənməyə başladılar. Onlar sağlamlığın ölçü vahidi kimi 842 fərdin ömrünü uzunluğunu göstərən qəbir yazılarını ayırd etdilər. Statusun göstəricisi kimi isə qəbirdə baş daşlarının hündürlüyünü fərqləndirdilər. Alimlər belə hesab edirlər ki, baş daşlarının hündürlüyü onların baha olmasını, deməli həm də "ölülərin" dövlətli olmasını əks etdirirdi. Müəyyən edildi ki, baş daşları hündür olan kişi və qadınların da ömrü uzun olmuşdur. Bu tədqiqatlar göstərdi ki, adamların statusu ilə onların uzun ömürlü olması qarşılıqlı surətdə əlaqədardır.

Korrelyasiya metodunun mahiyyətini açıqlamaq üçün bir cəhəti zəruri surətdə qeyd etmək lazımdır: korrelyasiya metodu ilə ancaq və ancaq iki kəmiyyət arasındakı qarşılıqlı əlaqə ölçülür. Onun səbəbi isə açıqlanmır. Bu zaman yalnız A-nın V ilə əlaqədar olduğu müəyyən olunur. Onların arasındakı səbəb-nəticə münasibətləri isə aydınlaşdırılmır. Korrelyasiya araşdırmaları eksperimental tədqiqat deyil, lakin ilk baxışda eksperimentə oxşayır. Bu cəhəti nəzərə alaraq onu bəzən kvazieksperiment adlandırırlar.

5. Eksperiment və onun növləri.

Eksperiment metodu. Ayrı-ayrı kəmiyyətlər arasında səbəb-nəticə münasibətləri ancaq bir yolla - eksperiment metodu ilə müəyyən olunur. Bu metodun əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir;

- eksperiment metodu səbəb-nəticə əlaqələri haqqında informasiyanı müəyyən edir;
- bu zaman tədqiqatçı eksperiment iştirakçılarını təsadüfi surətdə müxtəlif situasiyalara salır və şəraitin identik olmasını təmin edir;
- bir və ya bir neçə faktoru (asılı olmayan kəmiyyətləri) dəyişir;
- ancaq o biri faktorları olduğu kimi saxlayaraq onlara nəzarət edir.

Eksperiment prosesində iki qrup - eksperimental və kontrol qruplar yaradılır. Eksperimental qrupun materialları kontrol qrupun materiallarına nəzərən təhlil olunur. Eksperimentin digər növlərində olduğu kimi, sosial-psixoloji eksperimentin də iki əsas komponenti olur: onlardan birinə asılı olmayan kəmiyyət (1), digərinə isə asılı kəmiyyət (2) deyilir. Tədqiqatçı asılı olmayan kəmiyyəti dəyişir və ya variantlaşdırır, bu zaman o yoxlayır ki, asılı olmayan kəmiyyət başqa faktorlara necə təsir göstərir.

Çöl eksperimentləri. Eksperimentin özünəməxsus bir forması çöl eksperimenti sayılır. Çöl eksperimentində laboratoriya eksperimentindən fərqli olaraq adamların davranışı təbii şəraitdə öyrənilir. Çöl eksperimenti sosial-psixoloji eksperimentin xarici validliyini yüksəltməyin ən yaxşı vasitəsi sayılır. Çöl eksperimentlərində situasiyaya, ilk növbədə, xarici kəmiyyətlərə qədərincə nəzarət etmək olmur. Bu baxımdan laboratoriya eksperimentləri əvəzsizdir. Ancaq bununla belə, laboratoriya eksperimentlərindən fərqli olaraq çöl eksperimentində onun iştirakçıları eksperiment aparıldığını hiss etmirlər, onları təbii hadisələr kimi qavrayırlar. Real həyatı çöl eksperimenti vasitəsilə daha yaxşı dərk etmək olur. Bu baxımdan laboratoriya və çöl eksperimentlərindən hər birinin öz xüsusiyyətləri var. Onlar bir-birini nəinki inkar etmirlər, əksinə yeni materiallarla bir-birini tamalayırlar.

1934-cü ildə ABŞ da La Pyer tərəfindən ilk təbii eksperiment aparılmışdır. Psixologiya tarixinə La Pyer paradoksu kimi daxil olan bu eksperimentdə məqsəd bir xalqda başqa bir xalqla bağlı formalaşan etnik münasibətin yaratdığı sosial yönəlişliyin təsirini öyrənmək olmuşdur. Bu məqsədlə La Pyer bir nəfər çinli ilə 67 mehmanxanada qalmış və 184 restoranda nahar etmişlər. Bu görüşlərin yalnız birində onlara yer verməkdən imtina etmişlər. Bu eksperimentdən 6 ay sonra La Pyer çinli tələbə ilə qaldıqları mehmanxana sahiblərinə məktub göndərmiş və onlardan belə bir suala (“əgər çinli sizin daimi müştəriniz olsa ona necə münasibət göstərərdiniz”) cavab vermələrini xahiş etmişdir. Mehmanxana sahiblərinin 92%-nin bu məktubdakı suala cavabı mənfi olmuşdur.

Hər hansı etnik qrupa, millətə mövcud münasibəti öyrənmək üçün istifadə olunan tədqiqat metodikasından bir elan texnikasıdır. Elan lövhəsində iki oxşar məlumat yerləşdirilir: “Gənc ailə kirayə ev axtarır”. Elanlar bir-birindən kirayişinlərin milli mənsubiyyətinə görə fərqlənir. Verilmiş telefon nömrələrində oturan eksperimentatorun köməkçiləri hər bir elan üzrə vurulmuş zənglərin qeydiyyatını aparır. Metodikaya görə hansı telefon nömrəsinə zəng çox gəlirsə, deməli, sorğu aparılan əhali arasında həmin etnik qrupa münasibət daha yaxşıdır. Digər geniş şəkildə istifadə olunan metodlardan biri “itrilmiş əşyalar metodu” adlanır. Buna bənzər texnika “itirilmiş məktub” ilk dəfə 1948-ci ildə

istifadə olunmuşdur. İlkin variantda metodikaya görə üzərində çatdırılacaq ünvanı göstərilən çoxlu sayda məktub ictimai yerlərdə guya ki, düşüb itir. Yoldan ötən seçim qarşısında qalır: ya məktubu götürüb yola salmaq, ya əhəmiyyət verməmək, ya da cırıb tullamaq. Metodika müəllifinin fikrinə görə birinci seçim, əslində məktubun ünvanlandığı şəxsə, onun milliyətinə olan müsbət münasibətin göstəricisidir. Uyğun olaraq hansı ünvana daha çox məktub yetişirsə bu müsbət münasibətin olduğunu göstərir. Məktubun üzərində öyrənilən etnosun, millətin nümayəndəsi kimi adressantın adı, atasının adı, familiyası göstərilir.

Başqa bir maraqlı metod şərti olaraq "səhv nömrə" adlanır.

Əvvəlki metodikada olduğu kimi burada da hər hansı kömək və xidmətin göstərilməsi müsbət münasibətin olduğunu göstərir. Hər şey telefon zənginin ətrafında cərəyan edir. Eksperimentator maşının yolda xarab olduğu üçün avtotəmir xidmətinə zəng etdiyini bəhanə gətirərək yoxlanılan şəxsdən təcili kömək istəyir. Yoxlanılan şəxs abonentin nömrəni düz yığmadığını başa düşür və izah edir ki, bura təmir sexi yox, mənzildir. Belə olan halda eksperimentator həyəcanla ucqar bir məkanda olduğunu və təkrar zəng üçün telefonunda enerjinin olmadığını söyləyir və yoxlanılan şəxsdən kömək etməsini xahiş edir. Belə olan halda yoxlanılan seçim qarşısında qalır. Bu eksperimentdə təmir sexinə edilən zənglərin sayı asılı dəyişən, müstəqil dəyişən isə - çətin vəziyyətə düşənin cinsi, etnik mənsubiyyəti, nitq xüsusiyyəti, ləhcəsi və s.

1933-cü ildə ABŞ-da Priston Universitetində Kats və Berkli tərəfindən eksperimental tədqiqat aparılmışdır. Onlar "keyfiyyətin aid edilməsi" metodikası ilə

Priston Universitetinin tələbələrinə 84 adda xarakter əlaməti olan siyahını təqdim edirlər. Tələbələrə, həmin siyahıdan amerikanlar, ingilislər, çinlilər, almanlar, irlandlar, italyanlar, yəhudilər, neqrlər, türklər və yaponlar üçün səciyyəvi olan keyfiyyətləri seçmək təklif olunur.

Müasir Mədəniyyətlərarası psixologiyada tədqiqatların üç əsas nəzəri

istiqaməti var. Bunlar aşağıdakılardır: **relyativizm; absolyutizm; universalizm. Relyativizm** (latınca relativus nisbi deməkdir) insan idrakının, biliyinin obyektiv məzmuna malik olduğunu inkar edən, onun subyektiv, şərti və nisbiliyi haqqında olan idealist təlimdir. Mədəni relyativizm əsasən XIX əsrdə etnoqraf və səyyahların qeyri avropa xalqlarını varvar, geridə qalan xalq kimi qiymətləndirməsinə, yəni avropa etnosentrizminə qarşı olan reaksiya kimi əmələ gəlmişdir. Relyativist yanaşma texnoloji inkişafı xalqın əqli və mənəvi inkişafı ilə bərabərləşdirməyin əleyhinə çıxırdı və hesab edir ki, hər bir mədəniyyətin mövcud şəraitə özünəməxsus uyğunlaşama üsulu var. Relyativistlər belə hesab edirlər ki, bütün

mədəniyyətlər bərabərdir, lakin müxtəlifdir. Onlar, etnosu öz dili ilə, öz mənəvi dəyərlər aspektindən yanaşmağı və dərk etməyi daha düzgün hesab edirlər. Relyativistlərə görə, bütün psixoloji hadisələr mədəniyyətlə şərtlənir. Relyativist yanaşma XIX əsrdə səyyah və etnoqrafların böyük əksəriyyətinin qeyri avropa xalqlarında hər şeydən əvvəl varvarlıq və gerilik əlamətlərini qabartaması və görməsinə cavab reaksiyası kimi meydana gəlmişdir. Yeni konsepsiyanın tərəfdarları hesab edirlər ki, texnoloji inkişaf heç də xalqın, millətin və ya etnosun əqli və mənəvi inkişafının göstəricisi kimi götürülə bilməz. Yaxud əksinə, texniki tərəqqinin olmaması əqli və mənəvi gerilik, varvarlıq əlaməti hesab olunmamalıdır. Relyativistlər etnopsixologiyada *emic* tədqiqatların aparılmasını vacib hesab edirlər. Çünki, bu yanaşma ilə tədqiqatçı hətta, kannibalizmin və ya uşaqların diri-diri basdırılmasının həmin mədəniyyət üçün hansı məna daşıdığını başa düşməyə kömək edəcəkdir. Relyativistlər çalışırlar ki, xalqı, milləti və ya müəyyən etnik birliyi onların öz dili ilə onların dəyərlər sisteminə istinad etməklə başa düşsünlər. Məsələn: çinlilər intellektə sosial cavbdehlik və təqlidetmə keyfiyyətlərini də daxil edirlər. Halbuki, avropa mədəniyyəti üçün bu yaddır. Azərbaycanlılar üçün övlad borcu anlayışı, amerikanların adekvat anlayışından fərqli məzmun daşıyır.

Absolyutizm tam fərqli nəzəri istiqamətdir və mədəniyyətlərarası fərqləri mütləqləşdirir. Absolyutizm tərəfdarları belə hesab edirlər ki, mədəniyyətlər eynidir, amma bərabər deyildir. Onlar etnosentrizmin mövcudluğunu qəbul etmir və mədəniyyətin tədqiqatçıya etdiyi təsiri qəbul etmirlər. Ona görə də müqayisəli-mədəni tədqiqatlar aparan zaman ABŞ və Qərbi Avropada istifadə olunan metodikalardan istifadə edirlər. Ən yaxşı halda həmin metodikaların linqvistik ekvivalentliyi yoxlanılır. Belə olan halda intellektə eyni fenomen kimi baxmağı tövsiyyə edirlər. Əgər belə olan halda etnomədəni fərqlər meydana çıxırsa, onda həmin faktı həmin xalqa aid edirlər. Belə ki, bir mədəniyyətə mənsub olanlar daha ağıllı və qabiliyyətli olurlar. Bu yanaşmada tədqiqatçı öz mədəniyyətinin normalarına istinad etməklə tədqiqat aparırı və nəticəyə gəlir. Elə bu yanaşmanın ən nöqsanlı cəhəti odur ki, mədəniyyət fərqləri nəzərə alınmır. Absolyut (mütləq) yanaşma əsasında çox asanlıqla bir xalqı ağıllı, bacarıqlı, xeyirxah digərini isə geridə qalmış, tənbəl, avam göstərmək olar.

Universalizm üçüncü nəzəri istiqamətdir. Bu yanaşmanın tərəfdarları hesab edir ki, təməl psixoloji proseslər hər yerdə və bütün xalqlarda, mədəniyyətlərdə eynidir, lakin psixi və sosial inkişafa təsir isə hər yerdə müxtəlifdir. Mədəniyyətlər bərabərdir, zahirən müxtəlifdir, əsasına görə isə eynidir. Universalistləri mədəniyyətin hansı yolla insanların daxili aləminə təsir göstərməsi məsələləsi maraqlandırır. Bu suallara cavab tapmaqla müəyyən etmək olar ki, hansı psixoloji fenomenlər universaldır və

onun köməyi ilə istənilən mədəniyyətdə insanın davranış və fəaliyyətini təsvir etmək olar.

II—Sənədlərin öyrənilməsi-metodundan əksər hallarda köməkçi metod kimi istifadə olunur. Bu metoddan ya tədqiqatın əvvəlində obyekt haqqında məlumat almaq üçün, ya da tədqiqtın sonunda nəticələrin daha dəqiq şərhi üçün istifadə olunur. Bəzi hallarda isə informasiya almaq üçün vahid metod rolunu oynayır. Sənəd kimi əlyazmalarını, çap materiallarını, maqnitofon yazılarını, kinoplyonkaları vəs. öyrənmək olar. Sənədlərin öyrənilməsi metoduna (kontent-analiz—ing. s sözü olub mənası məzmun deməkdir) Kontent analiz zamanı tədqiqatçı məzmun vahidlərini ayırmalı və statistik cəhətdən işləməli,sonra isə şərh etməlidir. **Sorğu** metodu-sosial psixologiyanın əsas metodlarından 1dir. Burada ilk məlumat 2 cür bilavasitə - (müsahibə, intervyü) və vasitəli (anket) formada alınır.Sorğu aparılan adama respondent deyilir. Sorğu metodunun aparılmasına az vaxt sərf olunur. Sorğu metodunun ən çətin cəhəti etibarlı və əsaslanmış informasiya almaqdır.Buna isə respondentin ustanovkasının olması və ya olmaması(cavab verərkən), respondentlə kontaktın yaranması,eksperimentatorun şəxsi keyfiyyətləri,bacarığı təsir göstərir. Deməli alınan informasiya subyektiv xarakter daşıyır. Sorğu qrup şəklində və fərdi formada aparıla bilər. Əyani və qiyabi, şifahi və yazılı formada aparıla bilər. Müsahibə ilə intervyü 1-1ndən fərqlənir.

Müsahibə	İntervyü
əks əlaqə olur	yazılı plan olmur
Qabaqcadan hazırlanmış plan üzrə aparılır	

İstər intervyüdə, istərsədə müsahibədə inamlı, dostluq münas.rinin yaranması əsas şərtdir. Uşaqlarla işləyən tədqiqatçı yaş xüs. rini nəzərə almalıdır. Sorğunun ən geniş yayılmış formalarından 1i anketdir. Anketi aparmaq və nəticəsini işləmək asandır. Lakin onu tərtib etmək çox çətindir və tədqiqatçıdan yüksək bacarıq tələb edir. Anketdə qoyulmuş suallar tədqiqatçının məqsədinə uyğun olmalıdır. Anketin sualları formasına görə açıq və bağlı, 1başa və dolayı ola bilər.

Kross mədəni tədqiqatlar—hər 1 xalqın özünəməxsus bənzərsiz mədəniyyəti vardır. şəxsiyyət bu mədəniyyət kontiniumunda doğulur, böyüyür. Görəsən hər hansı mədəniyyət məs. Amerika mədəniyyəti çərçivəsində aparılmış sosial psixoloji tədqiqatın nəticələri başqa mədəniyyətlər tutaq ki, Fransa, Almaniya və ya Azərbaycan mədəniyyəti axarında da özünü eyni ölçülərlə göstərir? Kross-mədəni tədqiqatlar əsasən 2 yönümdə aparılır.

a) müxtəlif mədəniyyətlər axarında müqayisəli araşdırmalar təşkil olunur. Bu müqayisələrin ana xətti oxşarlığına görə, müxtəlif olan xalqların psixoloji durumunda universal məziyyətlərin müəyyənləşdirilməsi ilə bağlıdır.

b) hər bir xalq üçün səciyyəvi olan özünəməxsus olan xüsusiyyətlər müəyyənləşdirilir. Əsas psixoloji proseslərin formalaşmasına və inkişafına mədəniyyət hansı ölçülərlə təsir göstərir?

Kross-kultural tədqiqatlarda bu sual əsaslı təhlil olunur. Psixi xüsusiyyətlərin formalaşmasında mədəniyyət faktoru əsas rol

oynayır. Məsələn: N.Gəncəvinin "Yeddi gözəl", M.F.Axundzadənin "Müsyö Jordan və ya dərviş Məstəli şah" əsərində xalqların müqayisəsi verilmişdir. Fransız yazıçısı A.Düma "Qafqaz səfəri" əsərində azərbaycanlıları ermənilərılə müqayisə edərək yazır: "Erməni biləndə ki, doğru söz demək ehtiyatsızlıqdır, bu ehtiyatsızlıq onu iflas edər, dilsizə və sxtakara çevrilər, dünənki himayədarı bu gün bərk ayaqdadırsa, ona nankorluq edər."

Kross-kultural psixologiya tədqiqatlar zamanı *etik,* mədəni-psixoloji antropologiya (psixoloji antropologiya) isə *emik* yanaşmadan istifadə edilir. *Emik* (subyektiv, daxili) yanaşmada hər hansı adət, ənənə aid olduğu xalqın öz nöqteyi-nəzərindən təhlil və izah olunur, həmin xalqın həyatında oynadlığı rol araşdırılır. "Etik" (obyektiv, xarici) yanaşmada bir mədəniyyət üçün səciyyəvi olan xüsusiyyətin, başqa mədəniyyətdə bənzəri axtarılır, müqayisəli şəkildə öyrənilir. Etik-emik-etik yanaşma müasir etnopsixoloji tədqiqatlarda ən mükəmməl yanaşmadır. "Emik və etik" terminləri ilk dəfə amerikan linqivisti K.Payk tərəfindən istifadə edilmişdir. Bu terminlər qədim yunan mənşəyli elm adlarından; fonetiki və fonemiki sözlərindən götürülmüşdür. Emik yanaşma -faktın, hadisənin öyrənilən mədəniyyətin özündə hansı mahiyyət kəsb etdiyini, nə demək olduğunu, etik yanaşma isə hadisənin universal tərəfini, yəni başqa mədəniyyətlə müqayisəli şəkildə izah edən yanaşmadır. M.Mid yazır ki, "kulturantropoloq uzaq ekspedisiyaya gedərkən öz ağlının qabaqcadan hasil olan yanlış qənaətlərdən azad etməlidir və mədəniyyəti, başqa mədəniyyətlərlə müqayisə etmədən öyrənməlidir".

Mədəniyyətlərarası psixologiya üzrə tədqiqatlar apararkən mədəniyyətin təsirinə məruz qalmayan tədqiqat metodu tapmaqla bağlı çətinliklər olur. Bu mənada amerikan kulturantropoloqu Triandis qeyd edir ki, kross-mədəni tədqiqatlar zamanı biz psevdo-etik yanaşmadan istifadə edirik. Çünki, onu aparanlar heç də öz təfəkkürlərini aid olduqları mədəniyyətin təsirindən azad edə bilmirlər. Bu sahədə tədqiqatlar zamanı yadda saxlamaq lazımdır ki, obyektiv (müşahidə edənin nöqteyi-nəzəri) və subyektiv (müşahidə olunanın nöqteyi-nəzəri) faktlar bəzən bir-birini tamamlayır, bəzən isə uyğun gəlmir.

Sorğu metodu.Test metodu.

Testlər—Psixologiyada XIX əsrin sonlarından başlayaraq testlərdən ist. olunur. Müxtəlif tapşırıqlar, suallar şəklində mütəxəssislər tərəfindən hazırlanır. Testin diaqnostik dəyəri elmi eksperimentin səviyyəsindən və testin əsasına qoyulmuş psixoloji faktın mötəbərliyindən, yəni həmin testin hansı tərzdə qurulmasından, qabaqcadan aparılmış işin nəticəsi təxmini və təsadüfi şərhi, müşahidələrin nəticəsi olmasından əhəmiyyətli dərəcədə asılıdır. Kifayət qədər əsaslandırılmamış və yoxlanılmamış psixoloji testlər ciddi səhvlərə səbəb ola bilərki, bu da psixi inkişafınn qüsurlarının və müvəqqəti ləngiməsinin diaqnostikası zamanı xeyli zərər yetirə bilər.Testlərin müxtəlif növləri var. Onlardan ən geniş yayılanı aşağıdakılardır;

a) Müvəffəqiyyət testləri b) İntellekt testləri c) Kreativ testlər d) Şəxsiyyət testləri e) Proyektiv testlər.

Müvəffəqiyyət testinin köməyi ilə yoxlananların konkret bilik, bacarıq və vərdişlərə yiyələnmə dərəcəsi aşkara çıxarılır.

Intellekt testləri—yoxlanılanların əqli inkişaf səviyyəsini aşkara çıxarmağa xidmət edir. İntellekt testləri haqqında ilk fikir Halton (1822—1911) tərfindən irəli sürülmüşdür. Sonralar fransız psixoloqu Alfred Bine ilk psixoloji testləri yaratmışdı (1905)

Intellekt testlərindən fərqli olaraq xüsusi qabiliyyət testlərindən də ist.olunur. Bu cür testlərin köməyi ilə insanların nə kimi xüsusi qabiliyyətlərə (musiqi, riyazi, texniki) malik olduqları aşkara çıxarılır.

Kreativ testlər—insanlarda yaradıcılıq qabiliyyətlərini aşkara çıxarmaq üçün tətbiq edilir. Ən çox tanınan C. Gilfordun və E. Forrensin testlərini aid etmək olar. Bu testin əsasında yeni, qeyri-adi ideyaları irəli sürə bilmək qabiliyyətini aşkara çıxarmaq dayanır. Bu testdə tapşırıqlar sistemi elə qurulmuşdur ki, yoxlanan adam şəraiti dəyişmək, obyektə başqa cür yanaşa bilmək imkanına malik olsun.

Şəxsiyyət testləri-fərdin şəxsiyyətinin müxtəlif cəhətlərini tədqiq etmək üçün istifadə olunur.

Proyektiv testlərə gəldikdə onlar daxili proyeksiya dinamikası doğuran q\ müəy.stimulların təqdimi əsasında yoxlananların şəxsiyyətini tamlıqda öyrənməyə imkan verən metodikadır. Bu cür testlərə Rorşaxın testini, tematik appersepsiya testi (TAT) vəs. TATın tətbiqi zamanı yoxlanan adam ona təqdim olunan şəkildə baş verən hadisələri təsvir edir və bu zaman həmin hadisələrə öz daxili hiss və məramını ifadə edir. Şəkillər elə tərtib olunur ki, onları müxtəlif şəkildə şərh etmək mümkün olsun.

Mədəniyyət və şəxsiyyət
Plan:

1. Fərd, şəxsiyyət və fərdiyyət anlayışları
2. Şəxsiyyətin təşəkkülündə bioloji və sosial amillər
3.Şəxsiyyətin strukturu

4.Mədəniyyət və şəxsiyyət konsepsiyası

Ədəbiyyat

1. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyev Psixologiya, Bakı-2007.

2. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı,2000
3. Bayramov Ə. Etnik psixologiya. B., 2001
4. Əlizadə. Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003. 352 səh.
5. *Крысько В.Г.* Этническая психология: Учеб. пособие для студ. высш. учеб. заведений. – М.: Издательский центр «Академия», 2002.
6. *Лебедева Н.М.* Этническая и кросс-культурная психология // Под ред.

Mövzu ilə bağlı elektorn resurslar

http://www.anl.az/down/meqale/respublika/2010/oktyabr/138777.htm

https://allbest.ru/o-2c0b65625a3ac68a5c43a89521206d37-3.html

https://nauchniestati.ru/bank/primery/referat-na-temu-psihologija-lichnosti/

1. Fərd, şəxsiyyət və fərdiyyət anlayışları

Müxtəlif dövrlərdə hər iki fenomenə – mədəniyyət və şəxsiyyətə fərqli yanaşmalar mövcud olmuşdur. İstər mədəniyyət, istərsə də şəxsiyyət tarixi təkamülün məhsulu kimi meydana gələrək biri-birini şərtləndirən və ayrılıqda mövcud olmayan reallığa çevrilmişlər. Əlbəttə, insanın təbii mühitdən tədricən özünü uzaqlaşdıraraq yeni bir mühitin yaradılmasına cəhdi, demək olar ki, uğurla nəticələndi. Bu uğur yeni mühit olan və yalnız insan üçün mövcud ola biləcək, onun inandığı bir gerçəklik-mədəniyyət formasında təzahür edərək insanın bütün həyatını dəyişdirmiş oldu. Əslində, bu, insanın öz mahiyyətini dəyişməsi, özünü yeni bir keyfiyyətdə görmək istəyi, özünün yeni məzmunda – şəxsiyyət kimi təzahürü idi. Mədəniyyət və şəxsiyyət ayrılıqda mövcud olan fenomenlər deyil, yəni biri digərini şərtləndirən sabit və dəyişən amillər kimi nəzərdən keçirilə bilməzlər. Mədəniyyət – fərdlərin təbiət vasitəsilə biri-birlərinin qarşılıqlı əlaqəsi və yeni münasibətlər sistemidir.

Bəs insan nə deməkdir? Bu suala fəlsəfə, antropologiya, psixologiya və sosiologiya kimi bir çox elmlər cavab verməyə çalışmışlar. Insan hər şeydən əvvəl bioloji varlıqdır və bioloji təsnifata görə «Homo Sa¬piens» (ağıllı insan) növünə daxildir. Bioloji növ kimi xüsusi bədən quruluşuna və deməli, müəyyən anatomik-fizioloji imkanlara malik olur. Elə imkanlara ki, onlar bu növün şəxsiyyətə çevrilməsini mümkün edir. Ona görə də demək olar ki, insan – gələcəkdə şəxsiyyətə çevrilə biləcək, anadangəlmə irsi imkanlara malik canlı varlıq¬dır. Insan öz təbiəti etibarilə bioloji olduğu halda, mahiyyət etibarilə sosialdır. Insanı fərqləndirən xüsusiyyətlərdən biri ondan ibarətdir ki, o, özünün subyektiv aləmində gedən prosesləri dərk edir. Həm filogenetik və həm də ontogenetik inkişaf prosesində özünüdərketmə insanın inkişafının zirvəsini təşkil edir.

Insanı orqanizm, fərd və şəxsiyyət kontekstində xarakterizə etmək olar. Orqanizm anlayışı bioloji elmlər, şəxsiyyət anlayışı isə sosial elmlər kontekstində formalaşmışdır. Psixologiya insanı fərd və şəxsiyyət kimi öyrənir. İnsanın bioloji varlıq kimi psixoloji keyfiyyətlərini fərd termini, sosial varlıq kimi psixoloji keyfiyyətlərini isə şəxsiyyət termini ilə ifadə edirlər.

Fərd insan nəslinin özünəməxsus ümumi, spesifik cəhətləri özündə birləşdirən ayrıca nümayəndəsidir. Deməli, fərd cəmiyyəti və sosial qrupu təşkil edən nümayəndələrdən biri kimi özünü göstərir. Fərd – özünəməxsus psixoloji xüsusiyyətləri olan, heç kəsə oxşamayan təbii varlıq deməkdir. Fərd həm bioloji, həm sosial, həm də psixi tərəflərə malikdir.

Yəni biz fərd dedikdə, buraya yenicə doğulmuş körpəni, yaşlı adamı və ağıldankəm, elementar vərdişləri belə mənimsəyə bilməyən ağılsızları da aid edə bilərik.İnsan fərd kimi doğulur, cəmiyyətdə müəyyən sosial keyfiyyətlər kəsb edir və şəxsiyyətə çevrilir. Şəxsiyyət sözü azərbaycan, rus və inglis dillərində faktiki olaraq eyni etimologiyaya malikdir. Azərbaycan dilində şəxsiyyət sözü öz əsasının ərəb sözü olan "şəxs" sözündən götürmüş və hər hansı bir konkret şəxsi simanı bildirir. Rus dilində "şəxsiyyət" (личность) sözü də лично (öü, sifət) sözləri ilə bağlıdır. İngilis dilində şəxsiyyət mənasını ifadə edən "phersonality" sözü öz əsasının iki latın sözündən "per" və "sona" sözlərindən götürmüşdür.

Bütün qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirilməsinə inkan verən davamlı fiziki və psixi xarakteriskaların məcmusundan ibarətdir.

Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək, fərdin özünəməxsus simasının yaranması prosesidir. Məhz bu ierarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir (Prof. B.Əliyev).

Şəxsiyyət dedikdə, hər şeydən əvvəl, fərdi bu və ya digər cəmiyyətin üzvü kimi xarakterizə edən sosial keyfiyyətlərin sistemi nəzərdə tutulur. O, münasibət subyektinə, şüurlu fəaliyyət subyektinə çevrilir. Yəni, şəxsiyyət ancaq

şüur və mənlik şüurunun yaranması ilə birlikdə əmələ gəlir. Şəxsiyyət – yüksək düşüncəsi, öz hərəkət və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqətini və başqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır. Şəxsiyyət – müstəqil, sosial, fəal olan adamdır. Əgər şəxsiyyət öz mahiyyətinə görə sosialdırsa, mövcudluq üsuluna görə fərddir.

Şəxsiyyətə hansı tərəfdən yanaşsaq görərik ki, şəxsiyyət o adamdır ki, onun bir sıra psixoloji keyfiyyətləri olsun. Onları aşağıdakı kimi xarakterizə edə bilərik:

1. Şəxsiyyət o adamdır ki, başqalarını qavrayıb qiymətləndirməklə bərabər öz mənliyini də dərk edib qiymətləndirsin.
2. Şəxsiyyət o adamdır ki, mühitə aydın dərk olunmuş münasibəti olsun.
-Cəmiyyəti təşkil edən insanlara münasibəti;
-Onu əhatə edən əşyalara münasibəti;
-Əməyə münasibəti;
-Öz məninə münasibəti;
-Adət – ənənəyə münasibəti.
3. Şəxsiyyət o adamdır ki, özünün əqidəsi, sərvət meyli var.
4. Şəxsiyyət fəal insandır. O adam ki, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir, özünü də təkmilləşdirir, özünə nəzarət edir.

Anadan təzəcə doğulmuş uşaq hələ şəxsiyyət deyil. O, ünsiyyət və fəaliyyət prosesində ictimai münasibətləri mənimsədikcə şəxsiyyətə çevrilir. Fərdin cəmiyyətdə şəxsiyyət kimi inkişafı çoxcəhətlidir. Burada dialektik surətdə iki proses uzlaşır. Bir tərəfdən, şəxsiyyət ictimai münasibətlər sisteminə daha geniş daxil olur; onun insanlarla və ictimai həyatın müxtəlif sahələri ilə əlaqələri genişlənir və dərinləşir, məhz bunun sayəsində o, ictimai təcrübəyə yiyələnir, onu mənimsəyir, oz sərvətinə çevirir. Şəxsiyyətin inkişafının bu cəhəti onun ictimailəşməsi (sosializasiyası) kimi xarakterizə olunur. Digər tərəfdən, şəxsiyyət ictimai həyatın müxtəlif sahələrinə qovuşduqca, eyni zamanda daha çox müstəqillik, nisbi avtanomluq kəsb edir, yəni onun cəmiyyətdə inkişafının mühüm cəhətini fərdiləşmə prosesi təşkil edir.

Fərd şəxsiyyətə çevrildikdə həm də fərdiyyət xüsusiyyətlərini kəsb edir. Fərdiyyət və şəxsiyyət anlayışları məzmunca qismən yaxındır. Belə ki, əgər fərdiyyət anlayışı insanın təkrarolunmaz xüsusiyyətlərini, orijinallığını ifadə edirsə, şəxsiyyət anlayışı daha çox insan müstəqilliyini, əqidə möhkəmliyini, şəxsi simasını, prinsipiallığını, çətin vəziyyətlərdə sərbəst qərar qəbul etmək (ağ¬lın çevikliyi) qabiliyyətini göstərir. Fərdiyyət dedikdə, buraya xarakter, temperament, psixi proseslərin cərəyanetmə xüsusiyyətləri, üstünlük təşkil edən hissələrin və fəaliyyət motivlərinin məcmuyu, formalaşmış qabiliyyətlər daxildir.

Şəxsiyyətin təsirilə fərdin bütün xüsusiyyətləri inteqrasiyaya uğrayır,

riyazi terminlə desək onlar hamısı şəxsiyyət adlanan ümumi məxrəcə gətirilir. Psixologiyada bu cəhəti təhlil etmək üçün inteqral (latınca inteqer – bütöv deməkdir) fərdiyyət anlayışından istifadə olunur. İnsana bir fərd kimi xas olan xüsusiyyətlər şəxsiyyətin təsirilə yeni məzmun və forma kəsb edirlər.

2. Şəxsiyyətin təşəkkülündə bioloji və sosial amillər

Şəxsiyyətin formalaşması hansı amillərə əsaslanır? Şəxsiyyətin forma¬laşması dedikdə, hər şeydən əvvəl, ***təbii, bioloji və anadangəlmə amillərlə xarici, yəni tərbiyənin, təlimin və sosial mühitin*** qarşılıqlı təsiri nəticəsində baş verən inkişaf prosesi nəzərdə tutulur. Şəxsiyyətin təşəkkülündə ***bioloji və sosial*** amillər məsələsi hələ də mübahisəli şəkildə qalır. Lakin məlumdur ki, insan bioloji, təbii quruluşa malik olsa da o, tarixi inkişafın məhsuludur. Insanın bütün psixi prosesləri ictimai amillərin təsiri ilə şərtlənir.

Bu da məlumdur ki, şəxsiyyətin mahiyyəti öz təbiəti etibarilə ictimaidir və onun bütün psixi xassə və keyfiyyətlərinin inkişaf mənbəyi və yaradıcı fəallığı sosial mühitdə və cəmiyyətdədir. Lakin bütün bunlar heç də şəxsiyyətin bioloji, təbii varlıq olduğunu inkar etmək deyildir. Aydındır ki, insanın psixi inkişafı üçün müvafiq təbii, bioloji imkanının olması da zəruridir. Insanın beyni, sinir sistemi və s. olmalıdır. Insanın təbii xassələri psixi inkişafın zəruri şərtini təşkil edir. Lakin bununla bərabər, təbii xassələr özlüyündə nə insanın xarakterini, qabiliyyətlərini, nə də maraqlarını, əqidələrini, ideallarını təyin etmir. Beynin quruluşu bir biolojiorqan kimi şəxsiyyətin əsasıdır. Şəxsiyyətin bütün keyfiyyət və xassələri isə ictimai varlığın məhsuludur. Ona görə də normal beyinə malik uşaq cəmiyyətin xaricində böyüdülərsə, o heç vaxt şəxsiyyətə çevrilə bilməz. Insanın sinir sistemi ətraf aləmi dərk etmək üçün müəyyən anadangəlmə imkanlara malikdir. Lakin insanın müvafiq qabiliyyəti məhz fəaliyyət prosesində, ictimai həyat şəraitində təlim – tərbiyə nəticəsində formalaşır.

Pedaqogika və psixologiya elmində şəxsiyyətin inkişafı və tərbiyəsi ilə bağlı üç əsas konsepsiya vardır ki, onları aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

1)Bioloji konsepsiya;

2) Sosioloji konsepsiya;

3) Biososial konsepsiya.

Bioloji konsepsiyanın nümayəndələri **(Ziqmund Freyd (1856-1939) və b.)** şəxsiyyəti sırf təbii varlıq hesab etməklə onun bütün davranışını anadan olarkən özü ilə gətirdiyi, ona xas olan tələbatların, maraqların, instinktlərin təsiri ilə izah

edirlər. Sosioloji konsepsiyanın nümayəndələri insanın bioloji varlıq kimi doğulmasını qəbul etməklə yanaşı, ünsiyyətdə olduğu sosial qrupların təsiri ilə tədricən sosiallaşması fikrini müdafiə edirlər. İnsanın sosial inkişafı onun cəmiyyət həyatına daxil olması ilə başlayır. Biososial konsepsiyanın nümayəndələrinin fikrincə, psixi proseslərin (duyğu, qavrayış, təfəkkür və s.) bioloji təbiəti (xassəsi) olsa da, şəxsiyyətin təcrübəsi, siyasi, əxlaqi-mənəvi baxışları, maraqları, qabiliyyətləri və s. sosial hadisələr kimi formalaşır.

Psixologiya tarixinə nəzər salsaq şəxsiyyətin formalaşması sahəsində bir-birinin əksini təşkil edən iki nəzəriyyənin – inkişafın endogen və ekzogen nəzəriyyəsinin mövcud olduğunu görərik.
Endogen (yunanca endo – daxili, genes – mənşə deməkdir) nəzəriyyələr şəxsiyyətin inkişafını bioloji amillərlə əlaqələndirərək irsiyyətin roluna xüsusi əhəmiyyət verir.
Ekzogen nəzəriyyələrdə isə insan bir növ tabula rasaya (ağ lövhə) bənzədilir, şəxsiyyətin formalaşması ancaq sosial amillərin təsirilə izah olunur. Şəxsiyyətin sosializasiyası ilə bağlı müasir burjua nəzəriyyələrini də mahiyyət etibarilə ekzogen nəzəriyyələr sırasına aid etmək lazımdır.

Xarici ölkələrin müasir psixologiyasında insan şəxsiyyətində iki amilin – bioloji və sosial amillərin təsirilə formalaşan iki başlıca yarımstrukturu ayırd edən nəzəriyyələr əsas yer tutur.

Şəxsiyyət haqqında bir sıra nəzəriyyələr vardır. Bu nəzəriyyələri fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, bunların heç də hamısı bir başa şəxsiyyətin psixo¬loji mahiyyətini müəyyənləşdirməyə yönəldilməyib.

Psixoanalitik **Z.Freyd** qeyd edir ki, şəxsiyyət bir sistem kimi inkişafının konkret hərəkətverici mexa¬nizmlərinə malikdir. O, şəxsiyyətin strukturunu müəyyənləşdirib. Freydə görə ***3 instansiya*** əsas yer tutur:
1) İd (o)
2) Eqo (Mən)
3) Super Eqo (Super Mən)

Freyd belə hesab edirdi ki, şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi, hər şeydən əvvəl, libido, cinsi enerjidir. Freydin fikrincə, həyata keçirilməyən arzular nevroz yaradır. O, qeyd edir ki, insana heç vaxt ağıldan bəla gəlmir, bəla arzudan gəlir. Arzuların çoxluğu patologiya yaradır. Arzu və onun ödənilməməsi arasındakı uyğunsuzluq insanın xəstələnməsinə səbəb olur. Bütün bunları əsas götürən Freydin fikrincə, şəxsiyyətin formalaşmasında həmin tələbatların ödənilməsi şəxsiyyətin normal inkişafını təmin edir. Həmçinin o qeyd edirdi ki, qorxunu qorxu ilə müalicə etmək olar.

Şəxsiyyət haqqında digər nəzəriyyə **Pavlovun** nəzəriyyəsidir. Bu nəzəriyyədə biogen, psixogen və sosiogen elementlərin sintezinin yaradılmasına cəhd edilir.

3. Şəxsiyyətin strukturu

Rus sosioloqu I.Kon belə hesab edir ki, şəxsiyyət anlayışı çoxmənalıdır. Bir tərəfdən o, fəaliyyət subyekti kimi konkret fərdi, onun fərdi xüsusiyyətləri (təkcə) ilə sosial rollarını (ümumi) vəhdəti ilə birlikdə göstərir. Digər tərəfdən şəxsiyyət fərdin sosial xüsusiyyəti kimi, onda cəmlənmiş sosial əhəmiyyət daşıyan müəyyən şəxsin başqa adamlarla vasitəsiz və vasitəli qarşılıqlı təsir prosesində yaranmış və öz növbəsində, onu əmək, idrak və ünsiyyət subyekti edən xüsusiyyətlərin toplusu kimi başa düşülür.
Ayrı-ayrı adamların fəaliyyətində, davranışında uyğun cəhətlər vardır. Ona görə də insanların uyğun, oxşar sosial əlamətlərinə görə qruplara ayırmaq olar ki, bunu da adətən şəxsiyyət tipləri adlandırırlar. Alman psixoloqu **E.Şpanqer şəxsiyyətin 6 tipini** nəzərdən keçirir: **nəzəri tip** (həqiqəti aşkara çıxarmağa meyllilik, tənqidi yanaşma), **iqtisadi tip** (faydaya meyllilik, praktiklik) **estetik tip** (dünyanın obrazlı qurulmasına meyllilik), **sosial tip** (insanlara sevgi), **siyasi tip** (hakimiyyətə meyllilik), **dini tip** (fövqəltəbiiliyə inam).

Amerika psixoloqu **K.Xorni** şəxsiyyətin **3 tipini** qeyd edir: **güzəştə gedən** (insanlara istiqa¬mətlənmə), **təcrid edilmiş** (insanlardan), **düşmən** (insanlara qarşı).

İsveçrə psixoloqu **K.Yunq** əsas psixoloji tipləri **2 qismə** ayırır: **Ekstrovertlər** (“xaricə” meyilli) **və introvertlər** (“daxilə” meyilli)

Psixoanalitik E.Fromm şəxsiyyət tiplərini iki böyük qrupa ayırıb: qeyri-məhsuldar (qeyri-sağlam) və məhsuldar (sağlam) tiplər. **Qeyri-məhsuldar** kateqoriyaya: **reseptiv, istismarçı,yığımcıl və bazar tipləri** aiddir.

Reseptiv tip. Onlar əmindirlər ki, həyatda yaxşı olan hər şeyin mənbəyi özlərindən kənarda yerləşir. Onlar aydın şəkildə asılı və passivdirlər. Kənardan kömək olmadan hər hansı işiyerinə yetirə bilmirlər. Düşünürlər ki, onların həyatdakı əsas vəzifəsi-sevən deyil, sevilən olmaqdır. Reseptiv fərdləri: passiv, təsir altına düşən və sentimental kimi xarakterizə etmək olar.

Istismarçı tip. Özlərinə lazım olanı, arzuladıqlarını güc,yaxud qabiliyyətləri ilə əldə edirlər. Onlarda da yaradıcılıq qabiliyyətləriyoxdur,yaxud zəifdir. Buna görə də başqalarının ideya və qabiliyyətlərindən istifadə edərək ətrafdakıların sevgisini qazanmağa çalışırlar. Istismarçı xarakterin neqativ xüsusiyyətləri aqressivlik və özündənrazılıqdır. Özünəmərkəzləşməyə və tərifə meyllidirlər. Müsbət xüsusiyyətləri: özünəinam, şəxsi qürurluluq hissi və impulsivlikdir.

Yığımcıl tip. Mümkün olduğu qədər çox maddi sərvət, hakimiyyət və sevgi əldə etməyə çalışırlar. Əvvəlki iki tipdən fərqli olaraq «yığıcılar»ı keçmiş həyatı özünə daha çox cəlb edir,yeni olanlar isə qorxudur. Onlar şübhəli davranır və tərslik edirlər. Fromma görə onların bir neçə müsbət xüsusiyyətləri də var: ehtiyatlılıq, loyallıq və səbrlilik.

Bazar tipi. Onlar şəxsiyyəti satıla,yaxud dəyişdirilə bilən mal kimi qiymətləndirirlər. Bu insanlar xoşagəlimli xarici görünüşü saxlamaqda lazım olan

insanlarla tanışlıqda maraqlıdırlar. Onların uğurunu artıra biləcək bütün şəxsiyyət xüsusiyyətlərini göstərməyə hazırdırlar. Ətrafdakılara münasibəti dayazdır. Bu tipin şüarı belədir: «Mən sizin görmək istədiyiniz kimiyəm».
Məhsuldar tip. Bu tip-azad, ləyaqətli, sakit, insanpərvər vəyaradıcıdır. Onlar sosial dəyərli işlərə maraq göstərir vəyerinəyetirirlər. Məhsuldar tip belə sosial bələdləşməyə cəmiyyətə lazım olan insan varlığının formalaşması zərurətinə cavab kimi yaranır, özündə də mühitin tələb etdiyi keyfiyyətləri aşılamağa çalışırlar. Məhsuldar təfəkkür vasitəsilə insanlar özlərinin kim olduqlarını öyrənir, ondan nümunə götürür, özünüaldatmadan azad olurlar. Məhsuldar sevginin gücü insanlarayer üzündəki canlıları sevmək imkanı verir (biofiliya).

Hələ keçən əsrin başlanğıcında məhşur italyan kriminalist – psixoloq Lombrozo qeyd edirdi ki, cəmiyyətdə cinayətkarlıq edən o adamlardır ki, onlarda cinayətkarlıq etmək irsidir, anadangəlmədir. Yəni əgər şəxs anadangəlmə cinayətkardırsa, onda o cinayətə meyllidir və bu onda təzahür edib-etməməsindən asılı olmayaraq, onun mütləq cinayətkar olmasına dəlalət edir.

Fərd ictimai münasibətləri öz-özünə deyil, ancaq özünün aktiv fəaliyyəti vasitəsilə mənimsəyir. Bu nöqteyi-nəzərdən fəaliyyət şəxsiyyətin formalaşmasının əsas şərtlərindən biri kimi qiymətləndirilməlidir. Fəaliyyətin müxtəlif növləri var. Çağalıq dövründən gənclik dövrünədək əsasən aşağıdakı **fəaliyyət növlərinə** rast gəlinir. (**D.B.Elkonin** və b.)

a) **vasitəsiz emosional ünsiyyət**
b) əşyavi-manipulyativ fəaliyyət
c) rollu oyunlar
d) təlim fəaliyyəti
e) intim şəxsi ünsiyyət
f) tədris-peşə fəaliyyəti

Vasitəsiz emosional ünsiyyət çağanın anası ilə özünəməxsus dialoqudur.Əşyavi-manipulyativ fəaliyyət prosesində uşaq şeyləri sökə-sökə, bu yandan o yana sürüyə-sürüyə, bir-birinə calaya-calaya onların xassələrini dərk edir. Rollu oyunlar isə mahiyyət etibarı ilə insan münasibətlərinin mənimsənilməsi prosesidir.

Təlim fəaliyyətində uşaqlar ictimai təcrübəni məqsədəuyğun surətdə mənimsəyirlər. Bilik, bacarıq və vərdişlərə yiyələndikcə uşaqların həyatında yoldaşın rolu artır. İntim-şəxsi ünsiyyət onun həyatının mühüm hissəsinə çevrilir. Fəaliyyətin vəzifələri tədricən dəyişilir, o, gələcəyə yönəlməyə başlayır və peşə-təlim xarakteri kəsb edir.
Bu fəaliyyət tiplərini xarakterinə görə iki qrupa bölmək olar:
Birinci qrupa, vasitəsiz emosional fəaliyyət, rollu oyunlar, intim şəxsi ünsiyyət

daxildir. Bu prosesdə uşaqlar insan münasibətlərini, onların vəzifə və normalarını mənimsəyir.

Ikinci qrupa, manipulyativ fəaliyyet, təlim fəaliyyəti, tədris-peşə fəaliyyəti aiddir. Bu zaman isə uşaq və yeniyetmələrdə idrak prosesləri, intellektual fəaliyyətlər inkişaf edir.

4. Mədəniyyət və şəxsiyyət konsepsiyası

Şəxsiyyətin formalaşması mədəniyyət daxilində baş verən sosial-psixoloji prosesdir. "Mədəniyyət və şəxsiyyət" konsepsiyasının tərəfdarlarını maraqlandıran əsas məsələ şəxsiyyətin mədəniyyət daxilində inkişafı məsələsinin öyrənilməsidir. Uşaq etnik xüsusiyyətləri necə mənimsəyir? Bu suallara dolğun cavab axtarışı etnopsixologiya və kulturoantropologiyanın təkində yeni bir elmi istiqamətin differensiasiya olunaraq əmələ gəlməsi ilə nəticələndi. Yeni elmi istiqamət uşaqlığın etnoqrafiyası adlanır. Bu sahənin mütəxəsisslərini uşaqların doğulduqdan sonra necə qidalandırılmasından, bələnməsindən tutmuş, gigiyenik vərdişlərə necə yiyələmələrinə qədər olan hər bir məsələ maraqlandırırdı.

Məsələn, britaniyalı tədqiqatçı **C.Qorerə** görə rus xarakerinin bəzi xüsusiyyətlərinin (avtoritarizmə meyillilik, konformluq) kökü, körpə olarkən onların bələkdə iplə möhkəm-möhkəm bələnməsi ilə bağlıdır. "Bələk determinizmini" həddindən çox şişirtmək düzgün olmadığı kimi, onu universal hadisə kimi tamamən şəxsiyyətə heç bir təsir göstərmədiyini də etiraf etmək olmaz. Emosiyanın cilovlanması, uzun müddət daxildə yaşanılması və birdən ətrafa çıxarılması rus xarakteri üçün səciyyəvi olan psixoloj xüsusiyyətdir. Necə ki, bələyi açılan körpə əlləri və ayaqları ilə dayanmadan hərəkət edir.

Amerikalı psixoanalitik **A.Kardiner** uşağın erkən yaş dövrünü, onun şəxsiyyətinin formalaşmasının əsası hesab edirdi. O belə hesab edir ki, uşağa onu əhatə edən sosial mühit, xüsusilə qayğı və yanaşma üsulu daha güclü təsir göstərir. "Uşaq insanın atasıdır" aforizmi Kardiner postulatı kimi qəbul edilir. Məsələn, uşağın süddən birdəfəlik olaraq, qəti şəkildə ayrılması onda rədd olunma kimi acı xatirəyə səbəb olur. Bu həmin uşağın şəxsiyyət kimi xarakterində özünü göstərən aşağı özünüqiymətləndirmə, emosional soyuqluqda tapır.

Amerikan etnoqrafı və psixoloqu **Marqaret Midin** (1901-1978) Yeni Qvineyada, Samoa adalarında apardığı "çöl tədqiqatları" uşaqlığın etnoqrafiyasının elm sahəsi kimi formalaşmasında böyük rolu olmuşdur. M.Midin "Samoa adasında böyümə" adlı kitabı dünyanın 17 dilinə tərcümə edilərək 2 milyon tirajla nəşr edilmişdir. M.Mid heç də öyrəndiyi xalqların ekzotik mənəviyyatı, adət-ənənəsini şərh etməklə kifayətlənmirdi, o həmçinin müşahidə etdiklərini nəzəri təhlildən keçirərək bir faktı sübut edirdi ki, insan təbiəti heç də bioloji determinizmin tərəfdarlarının təsdiq etdiyi möhkəm, dəyişməz deyil, o plastikliyi ilə fərqlənir. O, inamla qeyd edirdi ki, məhz mədəniyyət ən başlıca faktor kimi uşağı cəmiyyətdə necə fikirləşməyi, hiss etməyi və davranmağı öyrədir. Uşaqlıq mədəniyyətin demurqu (yaradıcısı) deyil, o öz qanunları ilə inkişaf edir və uşaqlığın məzmununu müəyyyənləşdirir.

Istənilən cəmiyyətdə uşaq universal bioloji xüsusiyyətlərlə (yaşlılardan asılılıq, köməksizlik, cins və yaş xüsusiyyətləri və s.) doğulur, amma hər bir cəmiyyət bu "açarlardan" özünəməxsus tərzdə istifadə edir. M.Midin mühüm xidmətlərindən biri insan haqqında olan başqa elm sahələri üçün də tipik olan androsentrizmdən (kişi davranışı normativ davranış kimi götürülməsi) uzaqlaşa bilməsi olmuşdur. Belə ki, oğlan və qızların davranış və sosializasiyasındakı fərqlərə diqqət yetirmiş və onları qeydə almışdır. O, da Kardiner kimi xarakterdə əmələ gələn hər hansı əlamətləri, sosializasiyanın xüsusiyyətləri ilə əlaqələndirirdi.

M.Midin Samoa adalarında apardığı tədqiqatlar yeniyetməlik haqqında yeni elmi təsəvvürlərin yaranmasında mühüm rol oynadı. O, sübut etdi ki, yeniyetməlik dövründə konfliktlərin əmələ gəlməsinin mütləqliyi fikri əsassızdır. Samoa adasında uşağın doğulduğu günə əhəmiyyət vermirlər və bu gün ailə üçün heç bir mərasim əhəmiyyəti kəsb etmir. Ailədə uşaqların faktiki yaşına yox, nisbi yaşına əhəmiyyət verirlər.Böyük bacı və qardaşın statusu yüksək olur və onların balacaları cəzalandırmaq hüququ var. Samoa adasında uşaqların tez-tez qohumgilə getmək mərasimi var. Bu mərasimin ailə həyatında öz psixoloji əhəmiyyəti var. Ailədəki konflikt şəraiti onun hesabına yumşalır. Samoa mədəniyyətində uşağın emosional həyatı bizdəki qədər valideynlərlə sıx bağlı olmur. Ona görə də o valideynlərini başqalarından kəskin surətdə fərqləndirmir. Bu səbəbdən yeniyetməlik dövründə konfliktlər biolji amillərlə deyil, sosial amillərlə şərtlənir.

Avstriya psixoterapevti **Ziqmund Freyd** "Totem və tabu"(2012) əsərində göstərir ki, totemizmin hökm sürdüyü icmalarda qohumluq iki fərd arasındakı münasibətlə yox, fərdlə qrup arasındakı əlaqəyə görə müəyyən olunurdu. Buna görə də uşaq heç də yalnız öz valideynlərinə deyil, anası ilə evlənə biləcək bütün kişilərə "ata", atasına arvad ola bilən bütün qadınlara "ana" deyirlər. Yaxud da valideyn ilişgisində ola biləcək bütün uşaqlara bacı və ya qardaş deyirlər.

Munduqumorlar qəbiləsində uşaqlar sərt, soyuq, qayğı və nəvazişdən məhrum şəraitdə böyüyürlər. Ona görə də aqressiv və zalım olurlar. Əksinə arapeş qəbiləsində isə uşaqlar valideynlərin qayğısı ilə əhatə olunurlar. M.Mid belə qənaətə gəlir ki, aqressivlik sevgi və qayğı çatışmamazlığı ücbatından yaranır. Diqqət və nəvaziş isə uşaqlarda xeyirxahlıq və patsifizmi inkişaf etdirir.

Lakin, bunu heç də universal qanun kimi qəbul etmək düzgün deyil. Çünki, elə döyüşkən xalqlar var ki, onlar öz uşaqlarına kifayət qədər sevgi və qayğı göstərirlər. Amma, buna baxmayaraq həmin uşaqların davranış və rəftarında təcavüzkarlıq, davakarlıq kimi keyfiyyətlər özünü göstərir. Deməli, əsas məsələ müvafiq hərəkətə ətrafdakıların necə münasibət bəsləməsi, onu necə qiymətləndirməsindən asılıdır.

Avstriya kulturantropoloqu **İ.Eybl-Eybesfeld** qeyd edir ki, uşağın sevgi və diqqətlə əhatə olunması, onu həm döyüşkən, həm də sülhpərvər şəxsiyyət kimi formalaşdıra bilər. Əgər aqressivlik böyüklər tərəfindən alqışlanırsa və bu cür hərəkət müntəzəm olaraq davranışda möhkəmləndirilirsə onda heç şübhəsiz uşaq aqressiv olacaq. Yox əgər əksinə baş verirsə, onda uşaq daha çox sakit olacaqdır. İ.Eybl-Eybesfeldin gəldiyi qənaət belədir ki, nəvaziş və qayğı defsiti uşaq şəxsiyyətini zədələyir, onun öz ailəsinə və daxil olduğu qrupla əlaqəsini

zəiflədir, aidlik hissini yox edir. Bəs onda öz uşaqlarını "sevməyən" munduqumorlar necə olur? R.Roner məhz belə etnoloji faktlara əsaslanaraq yeni bir konsepsiyasını irəli sürdü (valideyn rəğbəti və imtinası konsepsiyası). O, valideyn münasibətini üç yerə ayırd etmişdir.

1) nəvazişli münasibət
2) acıqlı və ya aqressiv münasibət
3) laqeyd münasibət.

Ronerə görə bütün valideynlər öz uşaqlarını sevirlər. Valideyn münasibətini əslində həmin mədəniyyət çərçivəsində relyativist yanaşma əsasında qiymətləndirsək, onu başa düşə bilərik. Məsələn, Koreyada uşağa ciddi valideyn nəzarəti, heç də uşağa qarşı sərt və amansız münasibətlə bağlı deyil. Koreya mədəniyyəti üçün bu əslində valideyn qayğıkeşliyi kimi qəbul olunur. Almaniyada isə bu cür yanaşma uşaq üzərində işgəncə, valideyn zorakılığı kimi səciyyələndirilir.

Uşaqların yaşlılar dünyasına qoşulması hər bir mədəniyyətdə fərqli şəkildə baş verir. Bu proses etnopsixologiyada ***initsiasiya*** termini ilə ifadə olunur. İnitsiasiya üç mərhələdən ibarət olan etnopsixiloji hadisədir.

- **uşaq statusundan ayrılma**
- **yaşlılığa hazırlıq mərhələsi**
- **yaşlılar dünyasına qəbul olunma**

Məsələn, yəhudi mədəniyyətində uşaqlıq dövründən yaşlılıq mərhələsinə keçid Tövrat qanunları ilə tənzimlənir. Belə ki, hər bir yəhudi gənci dini-sosial məzmun kəsb edən ritualdan keçməklə özünün uşaqqlıq dövrünün başa çatmasını rəsmi qayda da təsdiq edirlər. Yəhudi adətinə görə uşaqlıq illərinin başa çatması oğlanlarda 13 yaşda, qızlarda isə 12 yaşda qeyd olunur.

Uşaqlığın etnoqrafiyası sahəsində ən fundamental tədqiqatlardan biri 1937 ildə ABŞ da başlamış olan "İnsani münasibətlərin regional kartotekası" (HRAF-Human Relations Area Files) lahiyəsidir. Dünya xalqlarını həyatının müxtəlif tərəfləri, o cümlədən uşaqların sosializasiyası ilə bağlı olan olan məlumatları əks etdirən və 500.000 səhifə həcmində olan material ABŞ-da Yel Universitetində saxlanılır.. Sonrakı dövrdə HRAF-ın materialları əsasında "Etnoqrafik atlas" tərtib olundu və 1962-ci ildən etibarən xalqlar haqqında etnoqrafik materiallar "Etnologiya" jurnalında çap olunur.

Buraya daxil olan materiallarda insani münasibətlərin, xüsusilə uşaqların sosializasiyasının əks etdirən məlumatlara daha geniş yer verilmişdir: məsələn, yeniyetmə oğlanların cinsi yetişmə dövründə qadınlardan seqreqasiyası (lat.seqreqatio-ayrılma) 5 dərəcə üzrə verilir: **seqreqasiya yoxdur**, yeniyetmə ana və bacıları ilə bir otaqda yatır. **Qismən seqreqasiya**, yeniyetmələr ailə ilə birlikdə yaşayır, qidalanır amma ayrı yatırlar. **Tam seqreqasiya**, yeniyetmələr öz nuklear ailəsindən uzaqlaşır, qohumları ilə birlikdə yaşayır. **Tam seqreqasiya**, yeniyetmələr ailədən çıxır və özgələrlə birgə yaşayır, məsələn, sənətkar yanında qalır və s. **Tam seqreqasiaya**, yeniyetmələr öz həmyaşıdları ilə birlikdə evdən ayrı bir yerdə qalır. Uşaqlığın etnoqrafiyasına həsr olunmuş krosskultural tədqiqatlardan biri Harvard Universitetinin proffesorları **Beatris və Con Vaytinqin** rəhbərliyi altında keçrilən "Altı mədəniyyət lahiyəsidir". Bu lahiyədə

görkəmli psixoloqlardan R.Siers və E.Makkobi də iştirak etmişdir. Digər tədqiqatlardan U.Makkeyin "Paternalist davranışın parametrləri (1974-1981)", Kanadalı psixoloq U.Lambertanın uşaqların tərbiyəsinin və sərvət dəyərlərinin tədqiqi adlı lahiyəsini göstərmək olar. Uşaqlığın tarixi ilə bağlı ən geniş psixoanalitik konsepsiya amerikan psixoanalitiki **Lloyd Demoza** məxsusdur. L.Demoza görə psixotarix müstəqil bilik sahəsi kimi ayrı-ayrı tarixi dövr və mərhələləri şərh etmir, o valideyn və uşaqların qarşılıqlı münasibətində kök salan və tarixi inkişafın ümumi qanunlarını və səbəbini müəyyənləşdirir. O, "tarixin psixogen nəzəriyyəsi" adlı konsepsiyasında qeyd edir ki, tarixdə inkişafın, dəyişikliyin əsas qüvvəsi texnika və iqtisadi göstərici yox, bir-birini əvəz edən nəsillərin, valideyn və uşaqların şəxsiyətində baş verən "psixogen" dəyişikliklərdir. L.Demoz uşaqlıın tarixini 6 mərhələyə (infatisid, imtina və ya rədd etmə, ambivalent, zəhlə tökən, sosializasiya, kömək edən) bölmüşdür və hər bir mərhələdə valideyn və uşaqlar arasında münasibət və tərbiyəvi təsirin özünəməxsus üslubu olduğunu göstərmişdir.

Mövzu 6:Mədəniyyət və sivilizasiya

Plan:
1.Mədəniyyət bütöv sosial sistem kimi
2. Şərq və qərb sivilizasiya tipləri
3. Texniki sivilizasiyalar

Ədəbiyyat:

- Bayramov Ə.S.,Əlizadə Ə.Ə. Psixologiya, B.: Maarif,2003.
- S.Məmmədova- Mədəniyyətşünaslıq-Bakı-2001
- Məmmədov.F. Kulturologiya Mədəniyyət Sivilizasiya-Bakı 2016

Mövzu ilə bağlı elektorn resurslar

https://www.turkyurdu.com.tr/yazar-yazi.php?id=746

http://old.ihst.ru/~biosphere/03-1/mitro.htm

https://en.wikibooks.org/wiki/Thai_Civilization/Culture_%26_Civilization

1. Mədəniyyət bütöv sosial sistem kimi

Mədəniyyət sözü latınca: **cultura** sözündən olub torpağın becərilməsi, tərbiyə, inkişaf mənasında başa düşülmüşdür. İlk dövrlərdə mədəniyyət insanın

təbiətə məqsədəuyğun təsiri, torpağın əkilib becərilməsi, yəni yaxşı məhsul almaqdan ötrü onun dəyişdirilməsi kimi anlaşılmışdır.

İntihab dövrünün filosofları mədəniyyətə ideal, universal şəxsiyyətin formalaşması vasitəsi, hərtərəfli təhsil, tərbiyə almağa, elmə və incəsənətə təsir etməyə, dövlətin möhkəmləndirilməsinə kömək etməyə qadir bir qüvvə kim baxırdılar. Onlar eyni zamanda barbarlıqdan fərqlənən müəyyən ictimai quruluş kimi sivilizasiya problemini də irəli sürürdülər.

XIX əsrdə mədəniyyətin təkamül inkişafı nəzəriyyəsi yarandı. Bu kulturoloji konsepsiyanın tanınmış nümayəndələridən biri ingilis etnoqrafı və tarixçisi **Eduard Bernet Taylor** (1832– 1917) olmuşdur. Taylorun anlamında mədəniyyət yalnız mənəvi mədəniyyətdir: bilik, incəsənət, etiqad, hüquqi və əxlaqi normalar və s.– dir. Taylor qeyd edirdi ki, mədəniyyət təkcə ümumbəşəri yox, həm də ayrı– ayrı xalqlar üçün spesifik olan dəyərlər kimi də götürürlür. Taylor mədəniyyətin inkişafında təkcə onun daxili təkamülünü deyil, həm də tarixi təsirini və tarixi mənimsənilmənin əhəmiyyətini də qeyd etmişdi. Taylor sübut etməyə çalışırdı ki, bəşəriyyət ibtidai cəmiyyət üçün səciyyəvi olan primitiv mədəniyyətdən müasir sivilizasiyaya qədər vahid bir təkamül yolu keçmişdir. İnsan təbiətin ayrılmaz bir hissəsi olduğuna görə onun inkişafı təbiətdə hökm sürən ümumi qanunlara uyğun olaraq baş verir. Buna görə də bütün xalqlar oxşar mədəniyyətlər yaradır və öz tarixləri ərzində ardıcıl olaraq eyni təkamül mərhələlərindən keçirlər. Mədəniyyətlər arasındakı fərqlər ondan irəli gəlir ki, müxtəlif xalqlar vahid tarixi təkamül prosesinin mərhələlərini eyni zamanda deyil, müxtəlif vaxtlarda keçirlər. Xalqlar müxtəlif olsa da, bəşəriyyətin vahid tarixi mövcuddur və buna görə də tarixi proses vəhdət təşkil edir.

Bununla yanaşı, o, tənəzzül imkanlarını, geriyə hərəkəti, mədəni deqradasiyanı da inkar etmirdi. Maraqlıdır ki, tənəzzül və tərəqqi münasibətlərini təhlil edərkən O, tərəqqinin qələbəsinə şübhə etmədiyini bəyan edirdi.Taylorun vahid xətt təkamül nəzəriyyəsi XIX əsrin sonunda həm yenikantçılar və M.Veber tərəfindən, həm də «Həyat fəlsəfəsinin nümayəndələri, O.Şpenqler, A.Toynbi tərəfindən tənqid edilmişdir.

Yeni kantçı **Rikkert Hendriks** təklif etmişdir ki, mədəniyyətə dəyərlər sistemi kimi baxılsın. O, aşağıdakı dəyərləri sadalayır: həqiqət, gözəllik, ilahi müqəddəslik, mənəviyyat, xoşbəxtlik, xüsusi müqəddəslik. Dəyərlər xüsusi aləmi, xüsusi fəaliyyət növü yaradır ki, burada insanın dünyanı mənəvi mənimsəməsinin bəzi cəhətləri görünür.

Vilhelm Vindelband qeyd etmişdir ki, mədəniyyət insanın dünyanı anlaması və dərk etməsindən asılı olaraq dəyərlər dünyası– məsuliyyəti hiss etmək dünyasıdır. Dəyərlər şüurdadır, onların gerçəklikdəki təcəssümü hər cür rifahın yaradılması deməkdir.

Alman filosofu **İohann Qotfrid Gerder** (1744-1803) Keniqsberq Universitetinin ilahiyyat fakültəsində təhsil alarkən İ.Kantın mühazirələrini dinləmiş və öz dövründə həyata şəxsi mütərəqqi baxışı ilə fərqlənmişdir. Onun fikirincə, insan təkamülün sonuncu məhsuludur. İnsanı digər canlılardan fərqləndirən də məhz mədəniyyətdir. Gerderə görə mədəniyyət həm təbiət, həm də insan təbiəti üzərində tikilini xatırladır ki, bu da eyni zamanda tarixi inkişafın nəticəsi və səbəbi kimi dəyərləndirilməlidir. Alman filosofuna görə mədəniyyətin ən mühüm elementləri

dil, elm, peşə, sənətkarlıq, incəsənət, ailə münasibətləri, din və dövlətdir. Məhz bu xüsusiyyətlərinə görə Gerder mədəniyyəti hər hansı bir cəmiyyətin özəyi, başlanğıcı kimi qiymətləndirir. Gerderin mədəniyyət haqqındakı məşhur ifadəsindən biri təxminən aşağıdakı kimidir: «Əgər insan digərləri ilə bir yerdə yaşayırsa, deməli o, artıq mədəniyyətdən aralı, təcrid olunmuş hesab edilə bilməz, - mədəniyyət ona forma bəxş etməklə yanaşı, əksinə, onu eybəcərləşdirə də bilər, ənənələr insanı özünə cəlb etməklə onun başını və bədəninin bütün üzvlərini formalaşdırır.Gerder mədəniyyətin tarixinə müxtəlif, bir-birindən təcrid olunmuş unikal mədəni dəyərlərin, sərvətlərin yaranma tarixi kimi yanaşır. Bu və ya digər mədəniyyətin inkişafı zahiri meyarlarala deyil, daxili stimulu ilə ölçülməlidir. Gerder mədəniyyətin ən ali məqsədini məhz bu ideyada – humanizmin yayılmasında görür. İ.Gerderin mədəniyyət konsepsiyasında özünəməxsus yer tutan məsələlərdən biri də mədəni tərəqqi haqqındakı kulturoloji baxışlardır. O belə fikirləşirdi ki, heç bir mədəniyyət özünün ardıcıl, eyni miqyaslı səviyyədə inkişaf tərəqqisi ilə öyünməməlidir; cəmiyyətdə elm və incəsənətin ayrı-ayrı sahələri kamillik səviyyəsinə çata bilər, lakin bu vəziyyət insanların tamahkarlıq və digər əxlaqsızlığının aradan qaldırılması üçün əsas meyar hesab edilmir. Bir fəaliyyət sahəsindəki tərəqqi, inkişaf üstünlüyü, digər fəaliyyət üçün zəmin ola bilmir. Ona görə də mədəniyyətin hərtərəfli tərəqqisi, alman filosofunun məntiqi nəticəsinə görə qeyri mümkündür. İ.Q.Gerderin mədəniyyət haqqındakı mütərəqqi fikir və ideyaları özündən sonra gələn digər kulturoloji nəzəriyyə və konsepsiyalar üçün – zəngin mənəvi irs və mənbə rolunu oynayır.

Mədəniyyətin morfologiyası haqqında nəzəriyyə yaradan digər dünya kulturoloqlarından biri də alman alimi **Osvald Şpenqler** (1880-1936) hesab edilir. Şpenqlərə görə, tarix ayrı– ayrı qapalı mədəniyyətlərin bir– birini əvəz etməsidir. Şpenqlerə görə, mədəniyyət – sözün əsil mənasında canlı bir orqanizmdir. O, «tarixi şəxsiyyət» olub, təkrarolunmaz «fizioqnomik xasiyyətlər»in kompleksini birləşdirir. Ona görə də mədəniyyət tarixi hadisə olaraq xalqın taleyini müəyyən edir və xalqın taleyi ilə müəyyən olunur. Şpenqler öz ritmi, taktı olan səkkiz mühüm mədəniyyət növünü təsnif edir; misir, hind, babil, çin, «apollon» (yunan-roma), «sehrli, magik» (bizans-ərəb), «faust» (Qərbi Avropa) və mayyaların mədəniyyəti. Bununla yanaşı, müəllif rus-sibir mədəniyyətinin təşəkkülü, formalaşmasını da istisna etmirdi. Şpenqlerin fikrincə Sivilizasiya mədəniyyətin zəruri taleyidir.Ona görə, tale elə anlayışdır ki, onu izah etmək qeyri– mümkündür, onu yalnız hiss etmək olar. Tale mədəniyyəti istiqamətləndirir, onun konkret məzmunu isə xalqın ruhu ilə müəyyən olunur. Ruh özünün bütün imkanlarını– xalqlar, dillər, etiqadlar, incəsənət, dövlət, elm və s. vasitəsilə gerçəkliyə çevirdikdən sonra mədəniyyət ölür. Şpenqlərə görə, mədəniyyət– xalqın ruhunun xarici təzahürüdür.

Sivilizasiya dedikdə o, hər bir mədəniyyətin mövcudluğunun son mərhələsini başa düşür. Şpenqlər belə hesab edir ki, sivilizasiya mənəvi tənəzzül epoxasıdır.Ona görə mədəniyyət potensialın açılması, imkanların gerçəkləşməsidirsə, sivilizasiya mədəni varlığın böhranı və sonudur. Yaxud, «Sivilizasiya mədəniyyətin qocalığıdır». Əgər bu ifadənin dərindən təhlilinə diqqət yetirsək məntiqi bir cavab əldə edərək, insan müdrikliyə qocalıqda çatdığı kimi, mədəniyyət də sivilizasiyaya sonda çatır.

Mədəniyyətin tədqiqində klassik kulturoloji məktəb və nəzəriyyələr kulturologiyanın nəzəri bünövrəsini təşkil edir. Nümunəvi əhəmiyyət kəsb edən bu klassik konsepsiyalardan İ.Q.Gerder, N.Y.Danilevski, O.Şpenqler, Z.Freyd, P.Sorokin, A.Toynbinin nəzəriyyə və məktəblərinin adları mütləq sadalanmalıdır. Həm forma, həm də məzmun keyfiyyətlərinə görə bu nəzəriyyəçilərin kulturoloji təlimləri böyük əhəmiyyət kəsb edirş

Görkəmli rus kulturoloqu **N.A.Berdyayev** isə yazır ki, hər bir mədəniyyətin sivilizasiyaya çatması labüddür. Bu, mədəniyyətin taleyidir. O, ölümlə nəticələnir. Bəs mədəniyyət sivilizasiyadan nə ilə fərqlənir? Görkəmli kulturoloqun fikirincə mədəniyyət öz əsasına görə dini, sivilizasiya isə, dini deyildir. Mədəniyyətin kökü dini inamdan, ayindən gəlirsə, sivilizasiyada dünyəvi, bəşəri güc daha mühüm amildir. Mədəniyyət milli, sivilizasiya isə beynəlmiləldir. «Sivilizasiya bəşəri bir şəhərdir».

Bir sıra kulturoloji konsepsiyalar sübut edir ki, vahid mədəniyyətin yaranması qeyri– mümkündür. Onlar Qərb və Şərq mədəniyyətinin əksliyini göstərərək mədəniyyət və sivilizasiyanın texnoloji determinasiyasını əsaslandırırlar. Bəs, əslində mədəniyyət nədir? Çoxsaylı tədqiqatçıların bu fikri ilə razılaşmaq lazımdır ki, mədəniyyət sırf sosial hadisə olub, insanların həyat fəaliyyəti ilə əlaqədardır. Doğrudur, mədəniyyət prosesləri bütün ictimai hadisələrlə qarşılıqlı əlaqədə baş verir. Lakin bütün hallarda mədəniyyət spesifik cəhətlərə malik olur, yəni özündə ümumbəşəri dəyərləri cəmləşdirir. Bu zaman mədəni yaradıcılıq tarixi yaradıcılıqla üst– üstə düşmür. Bunu başa düşməkdən ötrü maddi və mənəvi mədəniyyətləri bir– birindən fərqləndirmək lazımdır. Maddi mədəniyyət– insan əməyi və zəkası ilə yaradılmış maddi sərvətlərin məcmusudur; istehsal vasitələri, əmək cismi ictimai varlığın maddi əsaslarıdır. Maddi mədəniyyət insanın təbii gerçəkliyi mənimsəməsinin göstəricisidir. Yaşayış vasitələri– binalar, paltar, memarlıq nümunələri, körpülər, kanallar, meşə zolaqları, bitki və heyvan növləri və s. buraya daxildir. Mənəvi mədəniyyətə isə, hər şeydən əvvəl, elm və onun nailiyyətlərinin istehsal prosesinə tətbiqi səviyyəsi, təhsillilik və maarif, tərbiyə, incəsənət, tibbi xidmət, cəmiyyət üzvlərinin mənəviyyatı və davranış normaları, adətlər, ənənələr, adamların tələbatı və mənafelərin inkişaf səviyyəsi və s. daxildir. Qeyd etmək lazımdır ki, mənəvi mədəniyyəti mənəvi istehsalla eyniləşdirmək olmaz. Mənəvi istehsal– ideyaların, normaların, dəyərlərin məcmusudur. Mənəvi mədəniyyət daha geniş anlayış olub, mənəvi istehsalı da özünə daxil edir. Deməli, mədəniyyət maddi və mənəvi dəyərlərin məcmusudur. Konkret olaraq mədəniyyətə belə bir tərif vermək olar. **Mədəniyyət– cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onları nəsildən– nəsilə vermək bacarığıdır.** Mədəniyyət insanın sirli– sehirli dünyasıdır. Onun özünü dərk etməsi və şəxsiyyətin mövcudluq üsuludur.

«**Sivilizasiya**» latınca **civilis** sözündəndir, «**vətəndaşlıq**», «**dövləti**» mənalarını verir, cəmiyyətdə əldə edilmiş maddi və mənəvi nailiyyətləri, cəmiyyətin inkişafı ilə bağlı uğurları bildirir. Təsadüfi deyildir ki, bir sıra tədqiqatçılar cəmiyyətin ümumdünya tarixi inkişaf prosesini bildirmək üçün «sivilizasiya» anlayışını işlətmişlər. «Ailənin, xüsusi mülkiyyətin və dövləti mənşəyi» adlı

əsərində F.Engels Morqanla birlikdə bəşər tarixinin vəhşilik, barbarlıq və sivilizasiya dövrlərindən ibarət olduğunu qeyd etmişdir. L.Morqanın bəşəriyyəti üç əsas mərhələyə bölməklə tarixi inkişafın sonuncu, üçüncü mərhələsini «barbarlıq», vəhşilikdən sonrakı tərəqqi kimi adlandırır ki, bu da sivilizasiyadır.

Ümumiyyətlə, son dövrlərdə sivilizasiya problemi ön plana çıxmışdır. Bununda bir sıra səbəbləri vardır. Birincisi, müasir dünyada elmi– texniki inqilabın genişlənməsi Qərbin və Şərqin bütün ölkələrində istehsal texniki vasitələrinin və üsullarının inkişafına kömək etmişdir. İkincisi, keçmiş SSRİ– də sosializm quruculuğuna yeni baxış, kapitalist inkişafına istiqamət götürülməsi iki əsas Şərq–Qərb sivilizasiyası haqqında mübahisənin güclənməsinə səbəb olmuşdur\

Kanta görə, insan öz həyatı və davranış qaydalarını müəyyənləşdirdikdən sonra sivilizasiya başlanır. Sivilizasiyalı adam heç vaxt başqasına pislik etməyən adamdır. O, mədəni və nəzakətlidir, diqqətli və mehribandır. Kant mədəniyyəti mənəvi qəti imperativ ilə əlaqələndirir. Qəti imperativ praktiki qüvvəyə malikdir və əqlə uyğun olaraq insan əməlini hamı tərəfindən qəbul edilmiş normalara uyğun məcraya istiqamətləndirir.

Sivilizasiya dedikdə, bir tərəfdən, cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi, digər tərəfdən isə mədəni dəyərlərin (maddi və mənəvi) mənimsənilməsi səviyyəsi nəzərdə tutulur ki, bu da bütün ictimai həyatı və onun spesifikasını göstərir. Şübhəsiz, müəyyən sivilizasiyadan söhbət gedərkən, sivilizasiya ən çox mədəniyyətlə eyniləşdirilir. E.Taylor öz tədqiqatlarında belə də yazmışdır: «Mədəniyyət və yaxud sivilizasiya». Lakin O, eyni zamanda bəzi fərqləri də göstərə bilmişdir. Sivilizasiyanın əsas əlaməti– mədəniyyətin mənimsənilməsi üsulu– ədəbiyyatda çox az işlənmişdir. Praktika sübut edir ki, bu əlamət olduqca vacibdir. Çünki bəşər tarixi bir daha göstərir ki, mədəniyyətin mənimsənilməsi üsulu necədirsə, sivilizasiya da elədir.

Mədəniyyət və sivilizasiya anlayışlarını müxtəlif aspektlərdən tədqiq edənlərin hamısını bir nöqteyi-nəzər birləşdirir ki, bu da bir neçə məqam ilə izah edilir. Bunlar ilk növbədə aşağıdakılardır: birincisi «mədəniyyət» anlayışı «sivilizasiya» anlayışına nisbətən daha genişdir. Belə ki, «mədəniyyət» anlayışı həm bir tayfa və ya birliyə, həm də miqyası olduqca geniş əraziyə aid ola bilər,. Məsələn, «Azərbaycanlıların mədəniyyəti» və ya «Avropa mədəniyyəti» və s; ikincisi, «mədəniyyət» özündə elmi-texniki tərəqqi ilə yanaşı, nəsillərdən ötürülən mənəvi - humanist varisliyi də əhatə edir, «sivilizasiya»da isə maddi-istehsal üstünlüyü daha qabarıq şəkildə özünü büruzə verir; üçüncüsü, «mədəniyyət» irqi və insan qruplarının milli-etnik xüsusiyyətləri ilə izah edilirsə, «sivilizasiya» daha ümuminsani, qlobal miqyası özündə əks etdirir; və nəhayət, dördüncüsü, «mədəniyyət» anlayışı dini başlanğıca malikdirsə, «sivilizasiya»da bunlar labüd deyildir. Bütün bu deyilənlərdən belə bir qısa nəticə əldə etmək olar ki, mədəniyyətin kökündə daha çox mənəvi əsaslar, ideyalar dururs a, «sivilizasiya»nın kökündə maddi amillər üstünlük təşki edir.

A.J.Toynbiinin tədqiqat sistemində “lokal sivilizasiya” anlayışı əsas yer tutur. Onun fikrincə, tarixi tədqiqatların əsl sahəsi milli dövlətlər deyil, zaman və məkanda uzun müddət davam edən cəmiyyətlər olmalıdır. Onlar “lokal sivilizasiyalar” adlanırlar. O, bilavasitə primitiv cəmiyyətlərdən törəyən birinci,

birincilərdən törəyən ikinci, hətta üçüncü sivilizasiyaları bir-birindən fərqləndirir. O, bəşər tarixində inkişaf etmiş cəmi 28 sivilizasiya olduğunu qeyd edir. Bunlardan 13-ü müstəqil sivilizasiyadır – qərb, ind, ellin, suriya, and, misir, islam, egey, pravoslav, orta amerika, şumer-akkad, hind çin. 15 asılı (başqasına bənzər) sivilizasiyadır – hett, iran, rus, yapon, koreya, missisipi, cənub-qəri (Şimali Amerikada), şimali-and, cənubi-and, elam, urartu, vyetnam, italiya, cənub-şərqi-asiya, tibet.

Toynbinin sivilizasiya konsepsiyasında bütün ümumdünya tarixi inkişafı əvvəlcədən müəyyənləşdirilmiş "lokal sivilizasiyalar" yığımından ibarət sistemsiz bir toplu kimi nəzərdən keçirilir. Toynbi bəzi cəmiyyətlərin öz inkişaflarının ilk mərhələsində hərəkətsiz olması, sivilizasiyaya keçə bilməməsi, digərlərinin isə buna nail olmasının səbəblərini nə irqi amillə, nə coğrafi mühitlə, nə həmin cəmiyyətdəki yaradıcı azlıqla əlaqələndirmir. Sivilizasiyanın yüksəlişi texniki tərəqqi və cəmiyyətin fiziki təbiət üzərindəki hökmranlığının daim artması ilə də məhdudlaşmır və ondan irəli gəlmir. Texniki tərəqqi ilə sivilizasiyanın tərəqqisi arasında heç bir qarşılıqlı nisbət mövcud deyildir. Toynbiyə görə sivilizasiyanın yüksəlişi onun mütərəqqi daxili özünütəyin etməsi və özünün ifadə etməsindən, daha "sərt", kobud din və mədəniyyətdən daha "incə" din və mədəniyyətə keçməsindən ibarətdir. Yüksəlməkdə olan sivilizasiya daima vəhdətdən ibarətdir. Yüksəliş prosesi nəticəsində inkişafda olan sivilizasiyaların bütövlüyü və fərdi özünəməxsusluğu aşkar olunur.

Elmi ədəbiyyatlarda sivilizasiyanın tiplərini də ayırırlar. Sivilizasiyanın tipi dini, siyasi, sosial və mədəni proseslərdə yerinə, texniki-iqtisadi inkişaf dərəcəsinə, iqtisadi və sosial proseslərin xarakterinə və s. görə müəyyənləşir. Sivilizasiya tiplərinin müxtəlif təsnifatı məlumdur. Məsələn, avropa və qeyri-avropa tipi. Qeyri-avropa tipi çoxluq təşkil edir (Toynbi 21-nin adını çəkir). Bu sivilizasiyalar təkrarolunmazdırlar, lakin onların da ümumi cəhətləri vardır. Ənənəvi sivilizasiya tipi avropa sivilizasiyasından əvvəl yaranmışdır. Ənənəvi cəmiyyət çox ləng inkişaf edir və mövcud həyat tərzini yüzillərlə, hətta minillərlə təkrar istehsal edir. Ənənəvi sivilizasiyanın xarakterik cəhətləri despot hakimiyyəti, təəbələrin hüquqsuzluğu, qəbilə strukturu, hüququn (qanunların) inkişaf etməməsidir. Bu cəmiyyətin məhv olması sivilizasiya tipinin özünün dəyişməsinə gətirib çıxarmır.

Avropa sivilizasiyasi antik dünyanın mədəniyyəti və avropa xristianlıq ənənələrinin əsasında XV-XVII əsrlərdə formalaşıb. Bu sivilizasiya hüquqi dövlətin yaranmasına, ali dəyər kimi şəxsiyyətin ictimai həyatın mərkəzinə qoyulmasına əsaslanıb. Bu tipdə texnika və texnologiya yüksək inkişaf etmişdir. Texnogen sivilizasiyanın əsas xüsusiyyətlərindən biri insanlar arasında intensiv ünsiyyət və effektiv kommunikasiya vasitələrinin formalaşmasıdır. Avropa sivilizasiyasına Qərbi, Şərqi, Cənub-Şərqi Avropa, eləcə də, ABŞ və Kanada aiddir.

2. Şərq və Qərb sivilizasiya tipləri

Bəşər tarixinə müraciət etsək, görərik ki, hələ ən qədim dövrlərdən Şərq və Qərb sivilizasiyası bir– birindən fərqlənmişdir. Tarixçilərin tədqiqatları sübut edir ki, lap əvvəldən sivilizasiyanın spesifikası adamların əmək fəaliyyətinin xüsusiyyətləri ilə əlaqədar olmuşdur. Həmin əmək fəaliyyətlərinə də öz növbəsində coğrafi mühit, əhalinin sıxlığı və digər amillər təsir göstərmişdir. Bir mərkəzdən su ilə təminatın idarəsinə əsaslanan düyü əkinçiliyi sistemi Asiya istehsal üsulunun

inkişafını bir növ həvəsləndirmişdir. Bunun üçün isə bir rəhbərlik və işin «ictimai» xarakteri, sosial imtiyazlar ierarxiyası, mənəvi sahədə isə dünyanın sahibinə– mütləq hökmdara– allaha (səmaya, günəşə) və onun yerdəki nümayəndələri imperatora, yaxud feodala, ağaya tabe olmaq səciyyəvi hal hesab olunurdu. Göründüyü kimi, ictimai həyatın spesifikasına maddi dəyərlərin mənimsənilməsinin texnoloji və sosial iqtisadi üsulları böyük təsir göstərmişdir. Buraya həmçinin düyü sahələrinin suvarılmasının təşkili, düyünün yığılması, ierarxik idarə strukturu və s. də daxildir. Sivilizasiyanın inkişafına və xüsusiyyətlərinə ictimai şüurun dini və fəlsəfi formalarının məzmunu, və ya həmçinin cəmiyyətin digər dəyərlərinin mənimsənilməsində mühüm vasitə kimi istifadə edilməsi də təsir göstərmişdir. Çində buddizm və konfutsiçilik, Hindistanda buddizm, brəhmənizm yoqların fəlsəfəsi insanın bütün həyat fəaliyyətinin reqlamentasiyasının müəyyən edilməsində, başlıca rol oynamışdır.

Şərq sivilizasiyası üçün maddi və mənəvi dəyərlər mənimsəmək, həmçinin avtoritar paternalizm, ümumi tabelik, dövlətdə, icmada, ailədə başçının qəbul edilməsi şəraitində onların istehsalı xarakterikdir. İnsanın sözə baxan, xeyirxah, ləyaqətli kimi formalaşması şərq ölkələri adamının bütün həyat tərzinə möhürünü vurmuşdur. Bu, həm də mədəniyyət və onun mənimsənilməsi üsullarına da öz təsirini göstərmişdir. Spesifik insan başlanğıcı kimi həmin hal burada tam şəkildə mühüm əhəmiyyət daşıyır.

Qərb sivilizasiyası monolit strukturu və tək hakimiyyətliyin təsirinə az məruz qalmışdır. O, daha çox fəal surətdə elmin, incəsənətin və siyasətin təsiri altında dəyişmişdir. Qərb sivilizasiyası üçün texnika və texnologiyanın surətli inkişafı, predmet dünyasının və adamların sosial əlaqəsinin surətlə dəyişməsi xarakterikdir. Təsadüfi deyildir ki, onun mədəniyyətində elmi rasionallıq xüsusi bir qüvvə kimi üstünlük təşkil edir.

Şərq və Qərb sivilizasiyaları öz aralarında qarşılıqlı təsir göstərirdi. Bu qarşılıqlı təsir nəticəsində öz mədəniyyəti əsasında yeni mədəniyəti mənimsəyən müxtəlif «hibrid» cəmiyyətlərin yaranması mühüm rol oynamışdır. Bu gün Qərb– «inkişaf etmiş ölkələr»in sinonimidir. Bu əlamətə əsasən bəzi politoloqlar Yaponiyanı Qərbə aid edirlər ki, bu qətiyyən düzgün deyildir. Qərb ölkələri ilə ümumi texnoloji bazisə malik olmasına baxmayaraq, Yaponiya hətta ümumbəşəri dəyərlərin mənimsənilməsi baxımından belə Şərq sivilizasiyası ölkəsi olaraq qalmaqdadır. Biz tam hüquqla nəinki Şərq və Qərb sivilizsiyası haqqında danışa bilərik, həmçinin Qərb və Şərq mənəvi sivilizasiyası haqqında da söhbət aça bilərik. Sivilizasiya bütövlükdə sosial– mədəni hadisə olmasına, baxmayaraq, mədəniyyətin özünün varlığının mənasıdır, bütün ictimai həyata təsir etmək mənasıdır. Onun «nüvəsi» mənəvilikdir.

3. Texniki sivilizasiyalar

Texnikanın inkişaf səviyyəsi ilə xarakterizə olunan sivilizasiyalar mövcuddur. Qərbdə sivilizasiyanın tədqiqatçıları (D.Bell, Q.Kan, Z.Bjezinski, R.Aron və başqaları) onun **«industriala qədər», «industrial» və «postindustrial»** kimi xarakterizə etmişlər. Axırıncını hazırda «informasiyalı», «texnotronlu» və s. də adlandırırlar. Həqiqətən də adını çəkdiyimiz texniki sivilizasiyaların hər biri öz texniki səviyyəsinə, insanın istehsal alətləri ilə birləşməsi, onun əmək vərdişləri və

istehsal təcrübəsi, istehsalın idarə formaları və s. daxildir. Həmin texniki sivilizasiyaların hər biri üçün texnikanın və texnoloji subyekt kimi insanın inkişafının öz səviyyəsi səciyyəvidir. Texnikanın səviyyəsi bu və digər istehsal aləti tipinin, o cümlədən maşının yayılması dərəcəsindən asılıdır. Məsələn, Ptolomey dövrü Misirində (b.e.ə. 100 və 50– ci illər arasında) «mühəndis» Geron eolepil, bir növ buxar maşını (bu buxarın praktiki olaraq işlənməsindən 18 əsr qabaq olmuşdur) kəşf etmişdi ki, o da öz növbəsində məbədin ağır qapısını müəyyən məsafədən açmağa qadir mexanizm idi. Bu kəşf o zaman digər kəşflərlə (sorucu nasos, termometr və s.) birlikdə çox məşhur olmuşdur. Kəşflər qruplarla, çoxsaylı seriyalarla davam etmişdir. Horizontal su dəyirmanları yalnız buğdanı döymək üçün yararlı idi. Buxar isə maraqlı və sirli oyuncaqlara xidmət etmək üçün istifadə edilmişdi.

«İndustriala qədərki sivilizasiya» üçün keyfiyyətcə yeni texnika xasdır.Ona su və yel dəyirmanları, onlarla bərabər yaranan ağackəsən, mahud toxuyan maşınlar, kağız istehsalını da aid etmək olar. . Burada əməyin ən ümumi bölgüsü baş verirdi ki, bu da öz növbəsində istehsal alətlərinin rəngarəngliyini tələb edirdi. «İndustriala qədərki sivilizasiya» dövründə, xüsusilə XV əsrdə elmi– texniki kəşflər atmosferi özünü göstərir. Leonardo da Vinçidən sonra yüzlərlə italyan öz qeyd dəftərçələrini möcüzəvi maşınların proyektləri ilə doldururdular. Onda belə bir sual alınır? Nə üçün «industriala qədər sivilizasiya» dövründə, antik dövrdə olduğu kimi, kəşflər kütləvi xarakter ala bilmədi. Buna marksizm belə cavab vermişdir. Həmin dövrdəki mövcud tələbatlara əməyin məhsuldarlıq səviyyəsi tamamilə uyğun gəlirdi. Çünki ucuz işçi qüvvəsi kifayət qədər idi.

«İndustrial sivilizasiya» XVI– XVII əsrlərin sənaye inqilabları və iqtisadi yüksəlişlə əlaqədar idi. Sənaye inqilabı texniki sivilizasiyanın «industrial sivilizasiya» tipini müəyyənləşdirir. Texnikanın keyfiyyət dəyişikliyi təkcə özü ilə, iqtisadiyyatın inkişafı ilə əlaqədar olmuşdur. Yenilik bazarın marağı və tələbatı ilə əlaqədar idi. Kömür sənayesi digər sahələrin, xüsusilə buxarın istifadə olunmasına həvəs oyatmışdır.
«İndustrial sivilizasiyası» cəmiyyətin bütün həyat tərzinin dəyişməsinə, o cümlədən kənd təsərrüfatının, nəqliyyatın, rabitənin, peşə vərdişlərinin, təhsilin, tərbiyənin və mədəniyyətin dəyişməsinə böyük təsir göstərmişdir.

Bu gün filosof və sosioloqlar insan cəmiyyətini yeni, bütün xalqlar üçün ümumi olan vahid **«postindustrial (informasiyalı, texnotronlu) »** sivilizasiyaya daxil olduğunu elan edirlər. Belə bir sual yaranır. Görəsən hansı: formasion, yaxud sivilizasion yanaşma düzgündür. Əslinə qalanda onların biri o birisini rədd etmir. «Postindustrial sivilizasiya» üçün səciyyəvi olan cəhət maşınların mexaniki sistemi deyil, mikroenergetika və informatikaya, ən yeni intellektual texnologiyaya əsaslanan istehsalın avtomatlaşdırılmasıdır. Bu yeni texniki və texnoloji baza insan və cəmiyyətin bütün həyat tərzini dəyişir. Asudə vaxt problemi, özü də mənəvi sivilizasiya texniki sivilizasiyanın simasını müəyyən edir, milli mədəniyyətə münasibətini ifadə edir. Mədəniyyət yeni olana laqeyd deyildir. Din, etika, sosial qaydalar, ictimai şüur da cəmiyyətdə mövcud olan maddi və mənəvi sərvətlərə laqeyd deyildir. Bunu alman sosioloqu M.Veber «Protestant etikası və kapitalizm ruhu» adlı əsərində çox yaxşı göstərmişdir. Onun fikrincə, protestant etikası sənaye

istehsalının inkişafına, sahibkarlıq fəaliyyətinə həlledici təsir göstərir. Bu etikaya görə allah tərəfindən seçilmiş insan sahibkarlıq üçün yeni əxlaqi keyfiyyətlərə malik olur.

Onda bəs Yapon möcüzəsini nə ilə izah etmək olar? Şübhəsiz, Yapon texniki sivilizasiyası öz kökləri ilə yapon mədəniyyətinə, yapon mənəvi mədəniyyətinə söykənir. Yaponiya çox bacarıqla ənənəvini mədəniyyətdə əks etdirir ki, bu da onun texniki sivilizasiyasına kömək edir. Misilsiz əməksevərlik ən yeni texnika və işləmək bacarığı ilə birləşir. Bəşəriyyətin gələcəyi kimi postindustrial cəmiyyətdən danışarkən texnoloji bazis baxımından bütün xalqlar üçün ümumi olmasına baxmayaraq ayrı– ayrı xalqlara və mədəniyyətlərə tətbiqi öz spesifikasına malik olacaqdır.

Mövzu 7:Sosial davranışın tənzimlənməsinin mədəni müxtəlifliyi

Plan:

1. Davranış haqqında anlayış
2. Sosial davranışın formaları
3. İndividualizm və kollektivizm

Ədəbiyyat

7. Məmmədova S. Mədəniyyətşünaslıq- -Bakı-2001
8. Bayramov Ə.S, Əlzadə Ə.Ə.Psixologiya, Bakı, 2002
9. Əliyev R.İ. Mentalitet.Bakı, 2009
10. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
11. Bayramov Ə.S.Etnik psixologiya, Bakı,2001.
12. C.V.Berri Mədəniyyətlərarası Psixologiya- -2002

Mövzu ilə bağlı elektorn resurslar

https://www.sciencedirect.com/science/article/pii/S235215461500025X

https://www.researchgate.net/publication/273486563_Culture_and_social_behavior

https://psyera.ru/4956/kultura-i-socialnoe-povedenie

1. Davranış haqqında anlayış

Davranış “öz-özünə”, kortəbii qaydada meydana gəlib formalaşmır; o, şəxsiyyətin bütün ömrü boyu mənimsədiyi və əməli fəaliyyətində istifadə etdiyi mənəviyyat normaları, dünyagörüşü, həyat tərzi, cəmiyyətdəki adət-ənənələr, rəftar, etiket və hərəkətlər əsasında formalaşmış xüsusi qabiliyyətdir, ümumiləşmiş mənəviyyat normalarının məcmusudur. Davranış ictimai varlığın inikası, sosial həyat tərzinin ifadəsidir. Buna görə də davranış bir çox hallarda cəmiyyətdəki ən ümumi əlaqə və münasibətlərlə əlaqədardır, ümumi olanı əks etdirir .

"Davranış" ifadəsinin mənası hərəkət və fəaliyyət kimi ənənəvi fəlsəfi anlayışların mənalarından fərqlidir. Fəaliyyət aydın bir məqsədi olan, müəyyən şüurlu metod və vasitələrin iştirakı ilə həyata keçirilən bir strategiya kimi rasional əsaslandırılmış bir hərəkət kimi başa düşülürsə, davranış yalnız canlı bir insanın xarici və daxili dəyişikliklərə reaksiyasıdır. Belə bir reaksiya həm şüurlu, həm də şüursuz ola bilər. Beləliklə, sırf emosional reaksiyalar - gülüş, ağlamaq və s. davranışdır.

Sosial davranış fiziki və sosial ehtiyacların ödənilməsi ilə əlaqəli və ətrafdakı sosial mühitə reaksiya olaraq ortaya çıxan insanın davranış proseslərinin məcmusudur. Sosial davranışın predmeti fərdi və ya bir qrup ola bilər.

Əgər sosial səviyyədəki sırf psixoloji amilləri və səbəbləri nəzərə almırıqsa, fərdin davranışı ilk növbədə ictimailəşmə yolu ilə müəyyən edilir. Bir insanın bioloji varlıq kimi sahib olduğu fitri instinktlərin minimumu bütün insanlar üçün eynidir. Davranış fərqləri ictimailəşmə prosesində qazanılmış keyfiyyətlərdən və müəyyən dərəcədə doğma və qazanılmış psixoloji fərdi xüsusiyyətlərdən asılıdır.

Bundan əlavə, fərdlərin sosial davranışı sosial quruluş, xüsusən cəmiyyətin rol quruluşu ilə idarə olunur. Davranişin 2 növü müəyyən olunmuşdur

- **Təbii davranış** - fərdi hədəflərə çatmağa yönəldilmiş, qarşıya qoyulan məqsədlərə uyğun davranışdir ki, bir insanın norma və imkanlarından kənara çıxmır;
- **Ritual davranış** ("mərasim" adlandırılan) fərdi olmayan bir davranışdır. Bu davranış sayəsində bir cəmiyyətin fəaliyyəti, müəyyən bir cəmiyyətin hər hansı bir xüsusi ritual xüsusiyyətinə söykənir.

Sosioloji və psixoloji elmlərdə tədqiqatçılar subyektin sosial davranışının və ya daha geniş ictimai birliyin dörd əsas səviyyəsini müəyyənləşdirirlər:

- subyektin cəmiyyətdəki mövcud sosial və mövcud vəziyyətə, habelə qəsdən və ya özbaşına baş verən hadisələrə və proseslərə reaksiyası;
- Fərdi və ya geniş bir sosial qrup üçün davranış elementləri kimi işləyən adi hərəkətlər. Bu hərəkətlərdə bir subyektin digər sosial subyektlərlə sabit əlaqələri ifadə olunur;

- Mövzudan daha uzaq məqsədlərə çatmaq üçün həyatın müəyyən bir sferası daxilində baş verən ictimai hərəkətlərin ardıcıllığı. Bir insanın həyatında, varlığının hər mərhələsində bu cür hədəflər bir universitetə qəbul olmaq, lazımi peşə əldə etmək, ailə qurmaq, həyat tərzi təşkil etmək ola bilər;
- Bir şəxsin və ya daha böyük bir sosial qrupun həyatında əsas strateji hədəflərin reallaşdırılması.

2. Sosial davranışın formaları

Psixoloqlar **sosial davranışın** kütləvi davranış, qrup davranışı, cins rolu davranışı, prosessual davranış, rəqabətli davranış, itaətkar davranış, deviant davranış, qanunsuz davranış, problemli davranış, analıq davranışı və digər formalarını ayırd etmişlər.

Kütləvi davranış, təşkilati və müəyyən bir məqsədi olmayan böyük kütlələrin zəif idarə olunan bir ictimai fəaliyyətidir. Bu davranış buna görə də kortəbii adlanır. Kütləvi davranış növlərinə, məsələn, çaxnaşma, söz-söhbətlər, moda, iqtisadi, siyasi, dini cərəyanlar və s.

Qrup davranışı - bəzi mütəşəkkil, orta və ya kiçik sosial qrupda birləşən insanların hərəkətləridir. Bu davranış müvafiq qrupda baş verən proseslərin nəticəsidir. Qrup davranışı qrupun ayrı-ayrı üzvlərinin qrup xaricində olduqları zaman bir-biri ilə qarşılıqlı əlaqə yaratmadan etdikləri əməllərdən danışır.

Cins-rol (gender-rol) müəyyən cinsdən olan bir şəxs üçün xarakterik olan və eyni cinsdən olan insanların müəyyən bir cəmiyyətin həyatında (mədəniyyətində) oynadığı tipik sosial rollarla əlaqəli sosial davranış deyilir.

Hər bir cəmiyyətin (əlbəttə geniş mənada), sosial qrupun, xalqın, etnosun, kollektivin, fərdin öz davranış qaydaları mövcuddur. Təbii ki, bu cəhətdən kişi və qadın davranış qaydaları istisnalıq təşkil etmir. Yeni ictimai mahiyyət kəsb edən "gender" anlayışı təşəkkül mərhələsini yaşamaqla hazırda bir sıra elmlərin anlayışlar sistemində özünün konkret yerini müəyyənləşdirməkdədir. Mənşəcə ingilisdilli ədəbiyyata aid olan, "cins" anlayışını verən gender, bu gün fəlsəfi ədəbiyyatda kişi və qadının vəzifəsi, kişi və qadın davranışı, habelə onların cəmiyyətdə tutduqları yer barədə təsəvvürlərin məcmusudur.

Son illərdə bütün dünyada gender tədqiqatlarının miqyası, əhatə dairəsi, mövzu diapozonu xeyli genişlənmişdir. Bu isə heç də təsadüfi səciyyə daşımır. Bu gün müxtəlif din və dil qrupuna, habelə müxtəlif irqlərə mənsub olan qadınların çeşidli problemləri mövcuddur. Lakin gender tədqiqatları qətiyyən lokal xarakter daşımır. Bu tədqiqatların mərkəzində insan hüququ problemi dayanır. Burada

xatırlatmağı vacib bilirik ki, gender heç də bəzilıərinin təsəvvür etdiyi kimi, təkcə kişi və qadın arasındakı "fərqləri" öyrənmir.

Fəlsəfə və sosiologiyada "gender" anatomik-bioloji cinsi xüsusiyyətlərin deyil, əsasən tarixi, etno-mədəni, sosial determinləşdirilmiş şərtlərlə müəyyənləşdirilən cinsi xüsusiyyətlərin məcmusu kimi, başqa sözlə ifadə edilsə, "sosial cins" kimi qiymətləndirilmişdir. Lakin zaman keçdikcə genderin tədqiqat obyekti daha da dəqiqləşdi. Artıq çagdaş şəraitdə **gender** fəlsəfədə kişi və qadının vəzifəsi, kişi və qadın davranışı, onların cəmiyyətdə tutduğu mövqe barədə təsəvvürlərin məcmusu kimi qiymətləndirilir. Qeyd etdiyimiz meylin sosial psixologiyada da öz yeri vardır; "**psixologiyada gender elə bir sosial-bioloji məfhumdur ki, onun vasitəsilə insanlar kişi və qadın anlayışlarını izah edirlər"**

Şərq və Qərb təfəkküründə qadına münasibət erkən inkişaf mərhələsində də büsbütün fərqli olmuşdur. Əgər Şərq uzun əsrlər boyu qadını "örtülü" şəkildə görmək istəmişsə, Qərb bu incə məxluqu daha çox "diqqət mərkəzində" saxlamağa üstünlük vermişdir, lakin hər iki halda, mütləq qadın azadlığı arxa planda qalmışdır. Belə ki, birinci halda qadın əsasən nəsil artıran varlıq kimi qəbul olunmuşsa, ikinci halda əsasən eyş-işrət obyekti kimi təsəvvür edilmişdir. Elmi və bədii əsərlərin əksəriyyətində müəlliflər qadının kişiyə tabeçiliyini hər vəchlə əsaslandırmağa çalışmışlar. Elə buna görə də cəmiyyətdə qadın sosial həyatın əksər sahəsində mütəmadi olaraq diskriminasiyaya məruz qalmışdır. Cəmiyyət tarixində qadın probleminin digər sosial qruplardan və təbii ki, kişilərdən ayrı öyrənilməsi qeyri-mümkündür. Femininsiz maskulin (və ya əksinə) mövcud ola bilməz. Əslində, ***gender*** qadın problemini deyil, ümumiyyətlə, qadın və kişinin şəxsi və davranış xüsusiyyəti haqqında təsəvvürlər məcmusudur. İki müxtəlif qütb kimi götürüldükdə, həmin xüsusiyyətlər bir qütbdə **qadınlı- ğı (femininliyi**) və digər qütbdə **kişiliyi (maskulin**liyi) təyin edir. Mütəşəkkil qadın hərəkatının, yəni köhnə feminizmin və yeninin (neofeminizmin) əsasında daim bir **emansipasiya - qadının tabeçilikdən, istismardan azad olmaq arzusu** dayanmışdır. Bir çox qadın təşkilatları, xüsusən, feminist hərəkatın əksər nümayəndələri, dünya sərvətlərinin qeyri-bərabər, həm də çox hallarda kişilərin xeyrinə bölündüyünü israr edirlər. Həqiqətən, BMT-nin yaydığı məlumata görə, qadınlar dünya əmtəə məhsullarının üçdə iki hissəsini yaratdıqları halda, ümumdünya gəlirinin cəmi 10 faizini alır və dünya mülkiyyətinin yalnız bir faizinə sahibdirlər (39: 134). Həmin problemlərin öyrənilməsi və heç olmazsa interpretasiyası müasir genderşünaslığın əsas tədqiqat hədəflərindəndir. Gender əsasən şəxsiyyətlərarası münasibətləri, davranış normalarını səciyyələndirsə də, onun əhatə dairəsi genişdir. Belə ki, o, cəmiyyətin əsas institutlarında təşkilat iyerarxiyalarında sosial münasibətləri təyin edən bir hadisədir.

Davranışın müəyyənedici standartları qadınların ailə və cəmiyyətdə müəyyən şəxslərlə münasibətlərini məhdudlaşdırır. Bu, bir çox ölkələrin yazılmamış "əxlaq

kodekslərində" mühüm yer tutur. Məsələn, Avstraliya aborigenlərinin bir çox davranış qaydaları buna misal ola bilər. Həmin məkanda yaşayan kişi və qadınların münasibət və davranışlarında "üstüörtülü" məqamlar çoxdur. Ən qəribəsi odur ki, burada hətta qardaş-bacı, həmçinin kürəkən-qayınana (və qayınata) arasında da "dəmir pərdə" qalmaqdadır. İkincilər (kürəkən-qayınana) arasında isə "xüsusi dil" mövcuddur (166: 65-67). Analoji vəziyyət Sibirdə yaşayan yukagirlərə də aiddir. Yukagirlərin adət və davranış normaları tələb edir ki, qayınata gəlinlə, qayın gəlinlə, evli qardaşlar isə bir-biri ilə danışmasın. Burada qohumların bir-birinə deyəcəkləri fikirləri "özgələr" çatdırır (253: 126-127). Avstraliyada yaşayan bəzi yerli tayfalar ənənəvi davranış etiketlərinə daima ciddi əməl edirlər. Qadın cidd-cəhdlə çalışmalıdır ki, onun öz əri ilə yaxınlığından doğma qardaşının belə xəbəri olmasın. Truk adalarında (Mikroneziya) isə qohumlar arasında nikah qəti qadağan edilsə də, daha maraqlı davranış ənənələri qalmaqdadır. Belə ki, bacı öz qardaşının yanında gülüb sevincini büruzə verə bilməz. Dünyanın bir çox ölkələrində qadın-kişi davranışlarında ciddi etiketlər qalmaqdadır. Bəzi millət və xalqların əks cinsə mənsub olan nümayəndələri heç vaxt bir-biri ilə rəftarda qabarıq müşahidə olunan ünsiyyət formalarına müraciət etmirlər. Xüsusilə yeni ailə qurmaq istəyən oğlan və qızın münasibətlərindəki incə çalarlar bu deyilənlərə yaxşı nümunə ola bilər. Bir çox millətlərdə olduğu kimi Azərbaycanda da əksər hallarda ailə qurmaq istəyən oğlan və qızı ya yaxın qohumları, ya da ki, dostları tanış edirlər. Adətən, qohum olan tərəflər bir-birinin nəsil – kökünə və sosial vəziyyətinə yaxşı bələd olur. Valideynlər belə hesab edirlər ki, ailə quran, qohum olan tərəflər cəmiyyətdə "paritet" mənsəb və statusa malik olmalıdır; məhz bu cür şəraitdə ailənin uzunömürlülüyü təmin edilə bilər. Yeni qurulan ailələrin gənc üzvləri öz valideynləri ilə ailə ənənələri çərçivəsində davranmağa üstünlük verirlər. Hətta ailə üzvləri arasında xüsusi davranış, ünsiyyət, müraciət formaları da yaranır.

Gender fərqi isə insanların qarşılıqlı əlaqə və münasibətləri prosesində meydana çıxır. Əlbəttə cinsi xüsusiyyətlərə daha çox əhəmiyyət verən gender təfəkkürü çox zaman zahiri davranış formalarına diqqət yetirir. Burada xatırlatmaq lazımdır ki, bu və ya digər şəxsi, gender kateqoriyasına aid etməyin iki prinsipi mövcuddur. Birinci prinsipi çox vaxt **transvestit** adlandırırlar. Bu zaman qadın geyiminə üstünlük verən kişilər və kişi libası geyməyi xoşlayan qadınların davranış normaları diqqəti çəkir. Kişi paltarı geymiş qadının və ya əksinə - qadın paltarı geymiş kişinin davranış qaydalarında hansı əlamətlərin üstünlük təşkil etdiyi bəzən birmənalı qarşılanmır. Və əksər hallarda, geyim əlamətlərinin, kişi və qadınları gender və etik nöqteyi-nəzərdən qeyri-adi disharmoniyaya düçar etmədiyinin şahidi olduq; yəni zahiri cəhətlər onların davranışına kəskin təsir göstərmir. İkinci prinsip **transseksuallı**q adlanır. Bu kateqoriyaya daxil olan insanlar transvestit prinsipə aid edilən şəxslərdən xeyli fərqlənir. Belə ki, erkək ola-ola qadına və ya dişi ola-ola

kişiyə çevrilən (cinsi cəhətdən) transseksualın davranışlarında konkret fərqlərin olduğu inkaredilməzdir. Qadın və kişi arasında fərqlərin mövcudluğuna olan münasibət, istər-istəməz əməyin cinsi əlamətlərinə görə bölünməsinə səbəb olur. Elə bunun nəticəsidir ki, ev-ailə təsərrüfatının, mülkiyyətin qadın və kişi arasında bölgüsündə cinsi əlamətlərin əsas şərtlərdən biri kimi götürülməsi az qala ənənəvi hal almışdır. Ailə ocağından tutmuş, cəmiyyətin iyerarxiya pillələrinin yuxarı mərhələsinə kimi – bütün məqamlarda qadın və kişi münasibətləri birtərəfli qiymətləndirilir. Əksər hallarda, ailə və cəmiyyətdə liderlik kişilərə etibar edilir. Ən maraqlısı isə budur ki, kişilərin lider kimi irəli sürülməsi heç də bütün hallarda kişilərin özlərinin təşəbbüsü ilə həyata keçirilmir; kişiləri daha çox dəstəkləyən, onların liderliyini müdafiə edən elə qadınlar özləri olur. Gender münasibətlərinin və gender tədqiqatlarının əsasında dominant baxışların dayandığı məlumdur. Bəziləri feminizmə yalnız qadın hərəkatının tərkib hissəsi kimi baxır ki, bu kökündən yanlış təsəvvürdür. Artıq qeyd olunduğu kimi, qadın və kişi arasında əsasən anatomik baxım- dan fərqlər mövcuddur. Cins bioloji prinsiplərə əsaslandığı üçün insanlar müvafiq olaraq "kişi" və "qadın" kateqoriyalarına bölünmüşlər. Gender isə daha çox sosial və psixoloji atributlara bölünür. Antropoloqlar (məsələn, Marqaret Mid), həmçinin bir çox psixoloq və sosioloqlar qeyd edirlər ki, **gender bioloji olaraq yox, sosial olaraq və mədəniyyət vasitəsilə müəyyən edilir, özü də mədəniyyət və tarixə görə nisbidir. Tarixi dəyişmələr obyekti olaraq onun əhəmiyyəti, şərhi və ifadəsi həm mədəniyyətin daxilində, həm də mədəniyyət arasında dəyişir**. Sosial amillər – sinif, yaş, irq və etnos da genderin xüsusi əhəmiyyətini, ifadə və təcrübəsini yaradır və o fakt xüsusi qeyd olunur ki, hansısa bir bəsitləşdirilmiş üsulla onu cins və ya seksuallıqla bərabərləşdirmək olmaz (167: 109-110). Onu da demək lazımdır ki, XX əsrin sonunda fəlsəfi və ümumhumanitar fikir, cinslərarası əlaqəyə və qadın məsələsi deyilən problemə yeni baxış tətbiq etdi. Artıq cinsin sosiallaşması mexanizmləri hakimiyyət diskursu mexanizmləri olaraq tam aydınlığı ilə üzə çıxarılmaqdadır. Sosiumun ən aktual problemləri – hakimiyyət, zorakılıq, özünü anlama və şəxsiyyət azadlığı postsənayeləşmiş cəmiyyətdə fərdin cinsi eyniləşmə və müvafiq sosial rollar problemi kimi qarşıya qoyulur. İnsan mahiyyəti problemi, insan mövcudluğunun məna və gərəkliliyi, məkan və zaman kimi əsas fəlsəfi məsələlər gender ölçüsünə çevrilməkdə, həmin müddəanın dərki isə bütün dünyada geniş yayılan gender tədqiqatlarında öz əksini tapmaqdadır

Yuxarıda göstərilən sosial davranış növləri sosial funksiyaları və maraqlarından asılı olaraq qrupları və fərdləri xarakterizə edir. Sosial davranışın aşağıdakı növləri bir insanı digər insanlarla münasibətlərində səciyyələndirir.

Bir insanın davranışı digər insanlara kömək etmək və dəstəkləmək istəyinə əsaslanan davranış **prososial davraniş** adlanır. Bu davranış ehtiyacı olanlara birbaşa

yardımın göstərilməsi ilə əlaqədardır və kömək adlanır (kömək davranış - İngilis dili). "Kömək davranışı" ifadəsi, başqa bir şəxsə kömək edən bir insanın könüllü olaraq, məcbur etmədən və heç bir mükafat və ya fayda götürmədən, habelə davranışının həqiqi mənada olmadığı həyat vəziyyətlərində istifadə olunur.

Rəqabət - bu, ətrafdakıları real və ya potensial rəqib kimi qəbul edən, rəqabətə girən və ya onlarla mübarizə aparan bir davranışdır. Rəqabətli davranış, ümumiyyətlə, rəqabəti qazanmaq, üstün olmaq, digər insanları məğlub etmək üçün hazırlanmışdır. Bəzən Səbirsizlik, əsəbilik, düşmənçilik, kinsizlik və insanlara qarşı inamsızlığı ilə fərqlənən bir insanı da xarakterizə edir., insanların xoş niyyətlərlə rəqabət etmək istəməməsi ilə xarakterizə olunur.

"**Itaətkar davranış**" termini insanların sosial qarşılıqlı fəaliyyətlərinin mədəni, sivil formalarını təmin edən (asanlaşdıran, asanlaşdıran) sosial davranış formalarını ifadə etmək üçün istifadə olunur. "Itaətkar davranış" termininin mənşəyi, ağlabatan itaət ənənəvi olaraq, uşaqlıqda ondan böyüdülən bir insanın müsbət şəxsiyyət xüsusiyyəti kimi qəbul edildiyi, bu cür davranış formalarının insanların hörmət və anlaşmasına töhfə verməsi ilə əlaqədardır. Rusdilli ədəbiyyatda bəzən qanunlara tabe olan bu cür davranış problemli, qanunsuz və deviant davranışları müqayisə edir. Sosial davranışın bu növləri aşağıdakı kimi müəyyən edilir.

"Problemli davranış" ifadəsi, insanın psixoloji problemləri olan hər hansı bir davranış deməkdir. Problemli davranış ümumiyyətlə bir insanın ətrafındakı insanlar üçün anlaşılmaz və ya qəbuledilməz, antisosial, dağıdıcı və ya zərərli kimi çıxış edə biləcək sosial davranış formalarını əhatə edir.

Cəmiyyətdə mövcud hüquq normalarını pozan davranış **qanunsuzdur.** Bu cür davranış məhkəmə tərəfindən qınanıla bilər və bir şəxs tətbiq olunan qanunlara uyğun olaraq cəzalandırıla bilər.

Deviant - cəmiyyətdə qəbul edilən sosial, mənəvi və ya etik normalardan kənar olan, yəni onları pozan bir insanın davranışıdır. Bununla belə davranış qanunla məhkum edilə bilən bir davranışdır.

Sosial davranış növləri arasında insanların yaxın münasibətlərini xarakterizə edən davranişlar da var var. Bunlar ana və bağlılıq tipli davranışlardır. Ən ümumi formada ana uşağa münasibətdə xarakterik olan davranış və ya hər hansı bir insanın digər insanlara münasibətində davranışı, ananın uşağına münasibətini xatırladan davranış kimi təyin olunur.

Cəmiyyətdə formalaşan insanların münasibətləri ilə əlaqəli bir sıra digər sosial davranış növləri mövcuddur. Bu davranış müvəffəqiyyət əldə etmək və ya uğursuzluğa yol verməmək, insanlar üçün istəkləri və ya onlardan ayrılmaq istəklərini özündə cəmləşdirən davranış, güc qazanmaq və ya insanlara tabe olmağa

yönəlmiş davranış, özünə güvənən və ya köməksiz davranış və digər bəzi sosial davranış növləridir.

Son illərdə elm adamlarının diqqətini cəlb edən digər iki sosial davranış ***inamlı və köməksiz*** davranışdır. Özünə güvənən, maraqlarını müdafiə etməyə qadir olan insanın davranışına ümumiyyətlə etinasız davranış deyilir (ad ingilis sözünün təsdiqindən gəlir, özünə inam deməkdir).

Yuxarıda göstərilən bütün sosial davranış növlərindən son illərdə sosial psixoloqların diqqəti cəmiyyətin vəziyyəti, insanın mövqeyi və taleyi üçün xüsusi əhəmiyyət kəsb edənlər tərəfindən daha çox cəlb edilmişdir. Bunlar yaxşılıq və pisliyin müxtəlif təzahürləri, insanlar arasındakı dostluq və düşmənçilik, uğur və güc əldə etmək istəyi, inam (inamlılıq) və ya özünə şübhə (köməksizlik). Müxtəlif yaxşılıq təzahürləri arasında, öz növbəsində, insanlara kömək məqsədi daşıyan altruizm və digər təxribat davranışlarının öyrənilməsinə diqqət yetirilmişdir.

Mədəniyyət anlayışı isə nəinki çoxaspektlidir, həm də çoxfunksionaldır. Mədəniyyətin bir çox mühüm funksiyaları içərisində ən vacib olanı - tənzimləyici funksiyasıdır, yəni mədəniyyət insanların davranışını bu və ya digər dərəcədə müəyyənləşdirir. İnsanların davranışlarının fərdiləşməsində mühüm mədəniyyətlərarası və şəxsiyyətlərarası fərqlər mövcuddur. Mədəniyyət insanların sosial davranışlarına təsir göstərir və insanların davranışlarını müəyyənləşdirir. Belə davranışları sosiotipik davranışlar adlandırırlar. Bu davranış müəyyən mədəniyyətin tipik proqramlarını və icmalar üçün standart situasiyalarda olan davranışı tənzimləyir. Və eyni zamanda fərdləri şəxsi qərarların qəbul edilməsindən azad edir.Sosiotipik davranışının tənzimləyicisi kimi ənənə çıxış edə bilər. Dünya elmində son onilliklər ənənə dedikdə daha geniş proses və hadisələr başa düşülür. Müasir dövrdə ənənə anlayışı mədəniyyət üçün sabit (stereotipik) olan davranış formalarının daxil edilməsinə görə daha da genişlənib. Əvvəllər ənənə və adətlərə həyatın müxtəlif sferalarına aid olan kateqoriyalar kimi baxılırdı: ənənə cəmiyyətin mənəvi həyatına, adətləri isə müşahidə olunan davranışlara aid edirdilər. Buna müvafiq olaraq etnopsixologiyada ənənələr kimi nəsildən nəsilə ötürülən insanın dünyaya münasibətin xüsusiyyətləri dəyərləri, maraqları, əxlaqi normaları öyrənilirdi, adətlər kimi isə davranışın sabit formaları və ya stereotipləri öyrənilirdi.

Mədəniyyət anlayışı daha geniş anlayışdır və ənənə termini onun mərkəzi bir hissəsidir. Müasir etnopsixologiyada ənənələrin

məhz dəyərlər və normalar kimi öyrənilməsi daha geniş vüsət almışdır.

Ədəbiyyatın böyük bir həcmini təhlil etdikdən sonra U.Stefan və K.Stefan mədəniyyətin **11 ölçüsünü** seçmişlər.

1. İndividualizm və kollektivizm və yaxud fərdi/qrup məqsədlərinə yönəlmə
2. Mədəniyyətdə qəbul edilmiş normaların pozulmasına tolerantlığın dərəcəsi
3. Qeyri-müəyyənlikdən uzaqlaşma dərəcəsi
4. Maskulinizasiya/feminizasiya, yəni mədəniyyətdə qadın/kişi üçün stereotip keyfiyyətlərinin qiymətləndirməsi
5. "Yaxşı", "pis", "qarışıq" kimi insan varlığının təbiətinin qiymətləndirilməsi
6. Mədəniyyətin mürəkkəbliyi, onun differensiasiya dərəcəsi
7. Emosional kontrol, yəni emosional ekspressiyanın mümkün ola bilən dərəcəsi
8. Əlaqələrin yaxınlığı, yəni ünsiyyət zamanı mümkün ola bilən məsafə və toxunmalar
9. Fərd və "hakimiyyət" arasında məsafə
10. Yüksək məzmunluq/aşağı məzmunluq, yəni situasi-yadan asılı olaraq davranışda fərqlərin maksimallaşması/ minimizasiyası
11. İnsan/təbiət dixotomiyası, yəni insanın təbiət üzərində hökmranlığı, təbiətə tabe olması, təbiətlə harmoniyada yaşaması dərəcəsi.

"Mədəniyyət ölçüləri" müxtəlif çoxsaylı elementləri əhatə edir, cəmiyyəti və fərdin davranışını tənzimləyir. Lakin, bütün hallarda ənənələrin elementləri dəyərlər, normalar, adətlər strukturun mərkəzi elementləri kimi təhlil olunmalıdır. Triandis bunlar "mədəniyyət sindromları" adlandırmışdır. Məs, individualizmin mədəniyyət sindromu kimi mədəniyyətin ayrıca fərdə yönəlməsidir, kollektivizmin isə mədəniyyət sindromu hər hansı bir kollektivə (ailə, etnos, dini qrup və s.) yönəlməsidir.

Bir çox mühüm tədqiqatçıların fikrincə (Triandis, Berri) mədəniyyətin kollektivə və ya şəxsiyyətə yönəlməsində ən mühüm fərqlər əks etdirilir.

3. İndividualizm və kollektivizm. Sosial psixoloqlar bu mövzuyla son zamanlar maraqlanmışlar, lakin antropologiyada, sosiologiyada və ümumi psixologiyada bu mövzuya çox ciddi tədqiqatlar həsr olunmuşdur. Ameriakn psixoloqu C.Brunerə görə idraki inkişafa iki əsas mədəni faktorlar təsir göstərir dəyərlərin ya kollektivə və ya fərdə yönəlməsidir. Brunerə görə, individualist yönəlmə daha çox müasir mədəniyyətlər, kollektivist yönəlmə isə ənənəvi mədəniyyətlər üçün xarakterikdir. Bu mədəniyyətlərdə şəxsiyyətin subyektivliyi tətbiq olunmur, əksinə insanın və dünyanın birliyi, reallığı ideyası əsasdır. İnsanın mühit üzərində hökmranlığın olmamasını Bruner kollektivist yönəlməsi ilə əlaqələndirirdi, çünki ənənəvi cəmiyyətdə fərd mühitin şərtlərinə təsir etmək imkanlarına malik deyil. O özünü fiziki reallığdan və başqa fərdlərdən daha az ayırır.

Amerikalı tədqiqatçı individualist və kollektivist yönəlməsini formalaşdıran faktor kimi uşaqların erkən hərəkətlərini böyüklər tərəfindən şərhini əsas tuturdu. Məs, Seneqaldakı uolof tayfasında olan balaca uşaqların hərəki fəallığı özü - özlüyündə izah olunmur. Yalnız tayfanın üzvlərinə münasibəti bildirən nişan kimi izah olunurdu. Brunerin fikrincə, hərəki aktların sosial şərhi uolof uşaqlarının gələcəkdə özünü daha çox qrupla eyniləşdirmə etməsinə səbəb olacaq və onlar fiziki, sosial hadisələri az fərqləndirəcəklər.

İndividualist mədəniyyətlərdə isə uşağın diqqəti fiziki aktivliyin digər tərəfinə yönəldilir. Onun hərəkətləri hərəki aktların uğurlu nöqteyi-nəzərindən şərh olunur, digər insanlar isə bu aktların reallaşması üçün əhəmiyyətsiz olurlar.

İndividualizm/kollektivizm dixotomiyası bir çox digər tədqiqatçıları da maraqlandırmışdır. Amerikalı antropoloq Hsyu amerikalıları və çinliləri müqayisə etmişdir. Onun fikrincə, amerikalıların bütün həyat tərzi ayrıca fərddə mərkəzləşdirilib, çinlilərin isə həyat tərzi daha çox situasiyalarda, qrupda mərkəzləşdirilib.

Kollektivizm və individualizm mövzusunu Hofstedenin apardığı mühüm empirik tədqiqatlar zənginləşdirmişdir. O, öz tədqiqatlarını 50 ölkədə aparmış və nəticədə ən çox individualizmi ABŞ, Avstraliya, Böyük Britaniya vətəndaşları, ən az isə - Pakistan, Kolumbiya, Venesuela vətəndaşları nümayiş etdirmişlər.

İndividualizmin əsas mənası odur ki, insan ictimai məqsədlərə deyil, öz şəxsi məqsədlərə müvafiq olaraq qərarlar qəbul edir və hərəkət edir. İndividualist mədəniyyətlərdə "Mən" müstəqil, qrupdan kənar da yaşaya bilən bir vahid kimi müəyyənləşdirilir, fərdləri isə sosial qavrayışın əsas vahidləri kimi qavrayırlar. İndividualistlər nuklear ailədən başqa bir çox qrupların üzvüdürlər. Onlar ailə üzvləri ilə az identifikasiya olurlar və onlardan o qədər də asılı olmurlar. Qruplar fərdlərin davranışlarına az təsir göstərirlər. Hətta valideynlər uşaqlarının dostların, işin, yaşayış yerinin seçilməsinə az təsir edirlər. Qrup daxilində mübahisə və münaqişələr münasib hesab olunur. Emosional olaraq individualistlər özlərini başqalarından ayırırlar və təkliyə meyllidirlər.

İndividualist mədəniyyətin əsas dəyərləri əməllərində azadlıq, mülahizələrdə müstəqillik, əhatə üzərində hökmranlıq fərdə özünü hər bir mühitdə və ya təklikdə komfortlu hiss etməyə, başqalarından fərqlənməyə və müstəqil olmağa imkan verir.

İndividualist mədəniyyətlərdə davranış daha çox social yönəlişlərlə tənzimlənir nəinki qrup əxlaqı normalarla. Hətta belə mədəniyyətlərdə normaların pozulmasına normal baxılır orijinallığa, qeyri-adiliyə meyllilik alqışlanır. Mövcud olan normalar qrupdan asılı olmamağı həvəsləndirir pulları və əşyaları borc almaq qəbul olunmur.

Kollektivizmin əsas mənası qrup mənafelərinin şəxsi mənafelərindən üstünlüyü təşkil etməsidir. Kollektivist öz qərarlarının və hərəkətlərinin qəbulunda onun üçün mühüm olan cəmiyyət tərəfindən maraqlıdır. "Mən" qrup üzvlülüyü nöqteyi-nəzərindən müəyyənləşdirilir, sosial eyniləşdirmə daha önəmlidir nəinki, şəxsi eyniləşdirmə. Sosial qavrayışın əsas vahidləri isə qruplardır.

Kollektivistlər özlərini daha az qrupların üzvləri kimi dərk edirlər, lakin onlarla daha sıx bağlı olurlar. Onlar özlərini başqa

insanların həyatlarına cəlb edilmiş hiss edirlər, çətin anlarda kömək etmək tələbatı üstündür, bağlılığı göstərmək, seçim situasiyasında məsləhətləşmək və s. xarakterikdir. İnsanlararası əlaqələrdən danışanda bunu qayğı sözü altında ümumiləşdirmək olar.

Fərdlərin davranışına qruplar çox böyük təsir göstərirlər. Ən mühüm qruplar - ailə, qohumlar, iş yoldaşları hesab olunur. Bu qruplarda insanlar başqaları ilə öz daimi statuslarına əsaslanan qarşılıqlı vəzifə və gözləmələrlə bağlıdırlar.

Triandis kollektivizmin **iki tipini** göstərir:

Şaquli kollektivizmdə qrup üzvlərinin iyerarxiyası yüksək vurğulanır. Özünütəyinetmə qrup iyerarxiyasında xüsusi yerlə bağlıdır, fiziki və sosial məkan isə "hörmətli, az hörmətli" terminlərlə müəyyənləşir.

Üfüqi kollektivizmdə isə qarşılıqlı asılılıq və birlik yüksək vurğulanır.

Kollektivizm mədəniyyətin əsas dəyərləri ənənələrə riayət etmə, borc hissi, tabeçilik qrupun birliyinin qorunmasına, onun üzvlərinin qarşılıqlı asılılığına və harmonik münasibətlərə səbəb olur.

Kollektivist mədəniyyətlərdə qrup normaları davranışın daha vacib tənzimləyicisidir. Düzgün davranış, adətlərə görə yaşamaq daha yüksək qiymətləndirilir. Qrupdan asılılıq normativ həvəslən-dirilir: pulların və ya əşyaların borc edilməsi münasibətlərin qorunmasına səbəb olur.

Mövzu 8.Mədəniyyət və dil.

1. Mədəniyyətin dilin strukturuna təsiri
2. Mədəniyyət və leksika
3. Mədəniyyət və praqmatika
4. Xarici dilin effekti
5. Ünsiyyətin ümumi və spesifik-mədəni xüsusiyyətləri

Ədəbiyyat

13. Məmmədova S. Mədəniyyətşünaslıq- -Bakı-2001

14. Bayramov Ə.S, Əlzadə Ə.Ə.Psixologiya, Bakı, 2002

15. Əliyev R.İ. Mentalitet.Bakı, 2009

16. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.

17. Bayramov Ə.S.Etnik psixologiya, Bakı,2001.

18. C.V.Berri Mədəniyyətlərarası Psixologiya- -2002

Mövzu ilə bağlı elektorn resurslar

- https://cyberleninka.ru/article/n/kultura-i-yazyk-aspekty-vzaimodeystviya/viewer
- http://www.grandars.ru/college/sociologiya/kultura-i-yazyk.html

1. Mədəniyyətin dilin strukturuna təsiri

Mədəniyyət dilin strukturuna və funksional istifadəsinə təsir edir və dil özü də mədəniyyətin bir təzahürüdür. Dil də eyni zamanda bizim mədəni dəyərlərimizə və dünyaya baxışlarımıza təsir edir. Dil və mədəniyyət arasında qarşılıqlı münasibətlərin dövrü təbiəti bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, heç bir mədəniyyəti onun dilini anlamadan tam başa düşmək olmaz. Dil-bizim təfəkkür və dünyaya baxışlarımıza təsir etdiyi üçün, mədəniyyətin dilə təsiri anlamı, dünyaya baxışların mədəni fərqliliyin başa düşülməsində cox vacib bir tətbiqi hadisədir.

Linqvistlər dilin 5 əsas xüsusiyyətlərini təsvir ediblər: leksika, sintaksis və qrammatika, fonologiya, semantika və praqmatika.

Leksika (və ya dilin lüğəti) dildə olan sözlərdir. məs: ağac, içmək, yavaş-yavaş və s.

Sintaksis və qrammatika, sözlərin formalarının əmələ gəlməsini və mənalı cümləni yaratmaq üçün sözlərin birləşdirilməsini müəyyənləşdirən qaydalardır. Məs: ingilis dilində sözlərin cəm formasında ismin sonuna "s" əlavə olunur.

Fonologiya dildə sözlərin tələffüzünü tənzimləyən qaydalar sistemidir. Məs: ingilis sözü new (yeni) nyu kimi tələffüz olunur.

Semantika sözlərin mənasıdır.

Praqmatika müvafiq sosial kontekstdə dilin işlənilməsi və anlaşılmasını tənzimləyən qaydalar sistemidir. Məs: "nə isə soyuq oldu" bəyanatını iki cür şərh etmək olar: pəncərəni bağlamaq üçün bir xahiş kimi və ya havanın temperaturuna aid faktın təsdiq edilməsi kimi. Onun şərh olunması fiziki və sosial məzmundan asılıdır.

***Dilə yiyələnmə*. Dilə yiyələnmə nə dərəcədə anadangəlmə və nə dərəcədə öyrənmə prosesinin nəticəsidir? Bu günə qədər toplanmış sübutlar dilə yiyələnmə prosesinin bəzi aspektlərinin anadangəlmə, bəzilərin isə öyrənmə ilə bağlı olduğunu zənn etməyə imkan verir. Biz öz dilimizdə danışmağa necə öyrənirik? Bir çox mədəniyyətlərdə yayılmış mifə görə uşaqlar öz ana dilinə ətrafda eşidilən səsləri imitasiya edərkən (təkrar edərkən) yiyələnirlər. İndi məlum olub ki, imitasiya ana dilinə yiyələnmə prosesində heç də əsas strategiya deyil.**

Cin Berkonun eksperimentləri: fərziyyələrin yaradılması və yoxlanılması

1950-ci ildə keçirilən eksperimentlərdə məlum olub ki, uşaqlar təkcə eşitdiklərini imitasiya etmirlər, həm də dilə aid

müxtəlif fərziyyələr yaradırlar və yoxlayırlar. Cin Berko amerikalı uşaqlara xəyali bir varlığın şəklini göstərib və uşaqlara deyib ki, "bu wag"dır. Sonra tədqiqatçı uşaqlara iki "wag"ın şəklini göstərib və uşaqlardan şəkildə nə gördüklərini soruşub. Uşaqların əksəriyyəti burada iki "wag"s var söyləyiblər. "wag"s sözü ingilis sözü deyil və uşaqlar bu sözü əvvəllər eşidə bilməzdilər. Deməli, yeni olan "wag"s sözünü onlar imitasiya vasitəsilə yarada bilməzdilər. "wag"s sözünü cavab vermək üçün uşaqlar əvvəl ingilis dilinin qrammatikası ilə tanış olmalıydılar.

Uşaqlar eşitdiklərini sadəcə imitasiya etmirlər, onlar dilə aid fərziyyələr yaradırlar və yoxlayırlar. Görünün bütün dünyada uşaqlar öz ana dilində danışmağa bu universal strategiyadan istifadə etməklə öyrənirlər.

Müxtəlif mədəniyyətlərdə dilə yiyələnmə haqqında təsəvvürlər

Müxtəlif mədəniyyətlərdə uşaqların dilə yiyələnməsi barədə müxtəlif fikirlər var. Məs, Yeni Qvineyada kauli qəbiləsi hesab edir ki, uşaqların həm danışıq dilinin formalarına, həm də ünsiyyət vərdişlərinin yiyələnməsində əsaslı rəhbərlik etmək lazımdır. Onlar əmindirlər ki, uşaqlar özləri dilə və ünsiyyət vərdişlərinə yiyələnə bilməzlər. Kaulilər öz uşaqlarını düzgün ünsiyyət qurmağa öyrədirlər. Samoa adanın böyükləri isə hesab edirlər ki, uşaqlar

böyüklər üçün vacib olan heç bir şey deyə bilməzlər. Və buna görə də Samoa sakinləri öz uşaqlarını xüsusi olaraq danışmağa öyrətmirlər və heç bir söhbətlər aparmırlar. Faktiki olaraq uşaqlar böyüklərin deyil, öz bacı-qardaşlarının nitqini eşidirlər. ABŞ-da isə bir tərəfdən hesab edirlər ki, uşaqların ingilis dilində düzgün danışmağı üçün istiqamət lazımdır. Digər tərəfdən, amerikalılar uşaqların necə danışdıqlarına (yəni, qrammatika və sintaksisə) deyil, nələr danışdıqlarına (yəni, məzmununa) daha çox fikir verirlər.

N.Xomskinin nəzəriyyəsi. **Bütün mədəniyyətlərdə mövcud olan fikirlərə və təcrübəyə baxmayaraq uşaqlar böyüklərin köməyilə və köməyi olmadan öz dillərinə yiyələnə bilirlər və həmin dildə sərbəst danışırlar. Bu ümumi nəticə belə bir qənaətə gəlməyə imkan verir ki, insanların dilə yiyələnməsi universal və anadangəlmə bir qabiliyyətdir. Məşhur linqvist Xomskinin fikrincə, insanlarda dilə yiyələnmə aparatı mövcuddur, hansı ki, qrammatika, sintaksis və praqmatikanın sahələrində anadangəlmə qabiliyyətləri özündə ehtiva edir. Məhz bu aparatın köməyilə bütün mədəniyyətlərdə normal uşaqların dilə yiyələnmə və sərbəst danışması mümkündür. Halbuki bu aparatın mövcudluğu barədə birbaşa sübutlar yoxdur. Bu nəzəriyyə müasir dövrün uşaqların öz ana dilində sərbəst danışmağını izah edən ən yaxşı nəzəriyyələrdən biridir.**

2. Mədəniyyət və leksika. **Dil mədəniyyətin həm təzahürü, həm də məhsuludur. Bu hər bir mədəniyyət və hər bir dilə aiddir. Müxtəlif mədəniyyətlərdə dilin leksikasında fərqliliyə və oxşarlığa fikir vermək lazımdır.**

Bəzi dillərdə olan sözlər digər dillərdə yoxdur. Məs, eskimos dili qarı təsvir etmək üçün daha çox sözdən istifadə edir, nəinki ingilis dili. Linqvist Uorf ilk dəfə göstərmişdir ki, eskimos dilində qarı təsvir etmək üçün üç sözdən, halbuki ingilis dilində bir sözdən (snow) sözündən istifadə olunur. Bir çox başqa dillərdə də ingilis dilində olmayan sözlər var. Müxtəlif dillərdə bir çox sözlər var ki eyni məna daşıyır, lakin müxtəlif çalarları və mənaları olur. Məs., sındırmaq, kəsmək, içmək kimi sözlər hamının başa düşdüyü sadə və ümumi anlayışlar müxtəlif mədəniyyətlərdə müxtəlif müvafiq məna və çalarlar bildirə bilər və müxtəlif kontekstdə işlənə bilər. Müxtəlif mədəniyyətlərin insanları eyni bir sözə müxtəlif assosiyasiyalar yarada bilərlər. Öz ana dilimizin hər hansı bir sözü və başqa dildə onun tərcüməsi haqqında düşünəndə bu sözlərin dəqiq ekvivalentləri kimi qəbul etməməliyik.

Özünə və başqalarına göstəriş. İngilis dilində danışan insanlar söhbət zamanı özlərini bildirmək üçün şəxsi əvəzliklərdən istifadə edirlər: I (mən), You (sən) və s. bu sözləri kiminlə danışdığımızdan asılı olmayaraq işlədirik. Məs, professor, valideyn, dost və tanışlarla danışanda "I" əvəzliyindən istifadə edirik. Ünsiyyət zamanı həmsöhbətimizi bildirmək üçün"You" əvəzliyindən istifadə olunur. Amma bəzi dillərdə özünü və başqa insanları bildirmək üçün daha mürəkkəb bir sistem mövcuddur. Bu sistem danışan insanların qarşılıqlı münasibətlərin təbiətindən irəli gəlir. Məs, yapon dilində ingilis əvəzliklərin ekvivalenti var, amma onlar ingilis dilində kimi işlənilmir. Yapon mədəniyyətində dil, adət və davranışın digər aspektləri ünsiyyət kontekstindən müvafiq olaraq modifikasiya olunmalıdır. Yaponiyada dilə və davranışa təsir edən ən vacib xüsusiyyətlər status və qrup orientasiyasıdır. Davranışın bütün cəhətləri ünsiyyətdə iştirak edən insanın statusunun aşağı və yaxud yuxarı olmasından dəyişilir. Eynilə davranış və dil insanın hansı daxili qrupun üzvü olmasına əsasən də fərqlənir. Məs., Yaponiyada ünsiyyət zamanı müəllim özünü elə müəllim (sensey), həkim doktor, valideynlər isə "ata" və "ana" adlandırırlar. Əgər siz aşağı statusa maliksəniz, onda özünüzü aşağıdakı əvəzliklərdən biri ilə adlandırmalısınız "vataçi", "vatakusi", "boku", "ora". Amma qadınlar özlərinə "boku" və "ora" deyə bilməzlər. Daha yüksək statuslu insanla söhbət edərkən özlərinə "vataçi" deyirlər, kişilər özlərinə isə dostlarla, iş yoldaşlarıyla ünsiyyətdə "boku" və ya "ora" deyirlər. "Sən" əvəzliyin ("You") yapon dilində ekvivalentləri var"anata", "omae". Bunları ən yaxşı tanış olan insanlarla ünsiyyətdə işlədirlər. *Sayma sistemi.* Sayma sistemi də dilin strukturuna özünəməxsus təsir göstərir. Yapon dilində cisimlərin sayı üçün müxtəlif sıra saylarından istifadə olunur. Məs, dairəvi və silindrik

əşyalar üçün sıra saylarına "xon" şəkilçisi əlavə olunur (ippon, nixon), yastı əşyalar üçün isə "may" şəkilçisi əlavə olunur (icimai, nimai). İngilis dilində isə əşyalar sadəcə olaraq nömrələnir (first, second, third və s.). Yapon dilində 11-dən başlayaraq saylar başqa cür əmələ gəlir 11= on + bir (yu + içi), 12= on + iki (yu + ni) və s. İngilis dilində 20-dən sonra bu sistemlə əmələ gəlir: twenty one, twenty two.

2. ***Mədəniyyət və praqmatika.*** **Mədəniyyət dilin praqmatikasına da təsir göstərir, yəni müxtəlif sosial kontekstdən asılı olaraq dildən necə istifadə etmək lazımdır.**

Kaşıma 71 ölkənin dilində danışan 39 dillərin linqvistik və mədəni məlumatlarını toplayaraq tədqiq etmişdir. Mədəni göstəricilərə 4 xüsusiyyət daxil edilmişdir: individualizm, hakimiyyət məsafəsi, qeyri-müəyyənlikdən qaçması və maskulinlik. Alimlər belə bir nəticəyə gəliblər ki, şəxsi əvəzlikləri aradan götürən dillərdə mədəniyyətlər daha çox individualist mədəniyyətlərdir. Gudikunst ABŞ-da, Nişida isə Yaponiyada dilin istifadəsində mədəni fərqliliyi göstərən eksperimentlər keçirmişdilər. Yaponlar amerikalılara nisbətən öz qrupun daxilində münasibətləri daha yaxın münasibətlər kimi səciyyələndirirdilər. Mədəni fərqlər ünsiyyətin digər sahələrində mövcud oldu, məs, uşaq hekayələri, komplimentlər, tənqid, bağışlama və s. Amerikalılar üzr istəmək forması kimi izah etmək, anlatmağa üstünlük verirlər, yaponlar isə - kompensasiyaya. Sonrakı tədqiqatlar göstərdi ki, belə fərqlər fərdi, individual səviyyədə dəyərlər və mənlik şüuru ilə və bəzi şəxsi xüsusiyyətlərdən irəli gəlir.

Sepir-Uorf nəzəriyyəsi. **Sepir-Uorf nəzəriyyəsi linqvistik nisbilik fərziyyəsi kimi daha məşhurdur. Bu nəzəriyyəyə görə müxtəlif dillərdə danışan insanlar müxtəlif cür düşünürlər və bu onların dillərində olan fərqliliyindən irəli gəlir. Bu fərziyyə təfəkkür və davranışda olan mədəni fərqləri anlamağa imkan verir.**

1950-ci ildə Edvard Sepir və Benjamin Uorf bu fərziyyəni irəli sürdülər. Əgər Sepir-Uorf fərziyyəsi doğrudursa bu o deməkdir ki, müxtəlif mədəniyyətlərdə insanlar müxtəlif cür fikirləşir və bunun səbəbləri onların dillərin təbiətində, strukturunda və funksionallaşmasındadır. Onların təfəkkkür prosesləri, assosiasiyaları, dünyanı şərh etmə üsülları hətta eyni hadisələrin qavranması belə fərqli ola bilər, çünki onlar fərqli dildə danışırlar və bu dil onların təfəkkürünün strukturunun formalaşmasına imkan yaradır. Bu hipoteza fərz edir ki, daha çox dildə danışan insanların təfəkkürü müxtəlif strukturlara əsaslanır. İlkin tədqiqatlarda Kerol və Kasaqrande navaxo və ingilis dilinə danışan adamların müxtəlif əşyalara münasibətlərini müqayisə ediblər. Navaxo dilində linqvistik sistem daha mürəkkəbdir, məs, navaxo dilində müəyyən feillər cisimlərdən, əşyalardan asılı olaraq müvafiq linqvistik formalara dəyişilir. Linqvistik xüsusiyyətlər koqnitiv proseslərə təsir edir. Onların eksperimentlərində navaxo dilində danışan uşaqlar, ingilis dilində danışan uşaqlara nisbətən əşyaların daha çox formalarını fərqləndirirdilər.

Müasir dövrdə insanlar bir neçə dildə danışırlar. Və insanların fikirləri, hissləri və davranışları hansı dildə danışdıqlarından asılı olaraq fərqlənir. Məs., Meksikadan olan immiqrantlar həm ingilis, həm də ispan dillərində danışırlar. Əgər ispan dilində danışırlarsa müəyyən tərzdə düşünürlər, ingilis dilində danışanda başqa tərzdə düşünə bilirlər. Doğrudan da, iki dildə danışan bir çox insanlar söyləyirlər ki, hansı dildə danışdıqlarından asılı olaraq onlar müxtəlif cür fikirləşir, hiss və hərəkət edir. Biz dili öyrənəndə onu müvafiq mədəniyyət kontekstində öyrənirik. İki dildə danışmağı öyrənən insanlar iki fərqli mədəniyyət kontekstində bunu edirlər. Beləliklə, müxtəlif dilləri istifadə

etməklə insanlar müxtəlif cür düşünürlər amma dillər öz-özlüyündə təfəkkürdə olan fərqlərə görə cavabdeh deyil.

Sepir-Uorf fərziyyənin güclü və zəif tərəfləri vardır. Güclü tərəfi ondan ibarətdir ki, dildəki fərqlər təfəkkürdə fərqlər yaradır. Zəif tərəfi isə təfəkkürdə olan fərqlər yalnız dil ilə bağlı deyil.

Ervin fransız və ingilis dilini bilən fərdlərin reaksiyalarını müqayisə etmişdir. Onlara müəyyən şəkillər göstərilmişdir və bu şəkillərə əsasən hekayə fikirləşib danışmalıydılar. Əvvəlcə ingilis dilində, sonra isə fransız dilində. Ervin söyləyir ki, iştirakçılar fransız dilində danışarkən daha çox aqressiya, avtonomiya və bağlılıq nümayiş edirdirlər nəinki ingilis dilində. Ervin bu fərqləri fransız mədəniyyətində olan fərqlərlə bağlıyırdı. Və yaxud çin və ingilis dilini bilən bir immiqrantı götürək. O, monodilli çin mühitində böyüyüb və 8 yaşı olanda ingilis dilini Amerikaya köçəndə öyrənib. İndi onun 20 yaşı var, o tələbədir və valideynləri ilə yaşayır. Evdə yalnız çin dilində danışır, kollecdə və dostları ilə ingilis dilində. Sepir-Uorf fərziyyəsinə görə, evdə çin dilində danışanda o özünü çin mədəni normalarına müvafiq aparacaq. İngilis dilinə danışanda isə onun davranışı daha çox amerika normalarına uyğun olacaq. Uorf nöqteyi-nəzərincə, dillə bağlı olan davranışdakı fərqlər çin və ingilis dillərinin praqmatikasının müxtəlif sistemləri ilə izah etmək olardı. Lakin, bunu izah edən daha iki mexanizm mövcuddur: mədəniyyətə qoşulma fərziyyəsi və azlığa qoşulma fərziyyəsi.

Mədəniyyətə qoşulma fərziyyəsinə görə ikidilli immiqrantlar indiki anda ünsiyyət zamanı istifadə etdikləri dilə uyğun mədəniyyət dəyərləri və əqidəni qəbul edirlər. Başqa dilə keçdikləri zaman onlar eyni zamanda başqa mədəni dəyərlərinə keçirlər.

Azlığa qoşulma fərziyyəsinə görə ikidilli immiqrantlar özlərini etnik azlığların üzvləri kimi identifikasiya edirlər və çoxluğun mədəniyyət stereotiplərini qəbul edirlər.

4. Xarici dilin effekti. **İkidilli fərdlər qeyri-linqvistik tapşırıqlarını yerinə yetirərkən düşünmə zamanı çətinliklər çəkirlər. Bu çətinliklər xarici dil effekti kimi məşhurdur. İnsanlar xarici dildən istifadə edəndə onların düşünmə qabiliyyətinin müvəffəqiyyəti aşağı düşür. Ana dili və xarici dil arasında fərqlər daha çox olanda xarici dil effekti daha güclü özünü göstərir. Məs., xarici dil effekti daha güclü yaponlarda müşahidə olunur, çünki yapon və ingilis dili arasında fərqlər daha güclüdür, nəinki ingilis və alman dilləri arasında.**

5. Ünsiyyətin ümumi və spesifik-mədəni xüsusiyyətləri

Kommunikasiya müxtəlif yollarla otürülən və özünə çoxsaylı məlumatları daxil edən məzmunlu və mürəkkəb prosesdir. Mədəniyyət verbal və qeyri-verbal siqnalların kodlaşması və dekodlaşmasına hərtərəfli təsir edir. Bu təsirə görə mədəniyyətlərarası kommunikasiya prosesində konfliktlər və anlaşılmazlıqlar qaçılmazdır. Müasir dövrdə mədəniyyətlərarası kommunikasiya ilə bağlı mövzuların və problemlərin əhəmiyyəti daha da artır. Mədəniyyətlərarası maneələrə baxmayaraq müxtəlif millətlərin və xalqların nümayəndələri ilə ünsiyyət saxlamaq qabiliyyəti bizim həyatımıza təsir göstərir. Mədəniyyətlərarası ünsiyyət (kommunikasiya) bir çox tədqiqatların mövzusu olub.

Qeyd etmək lazımdır ki, kommunikasiyaya müxtəlif təriflər verilmişdir. Ən geniş tərifə görə, kommunikasiya bilik, ideya, fikir, anlayış və emosiyaların mübadiləsidir. Kommunikasiya niyyətli və niyyətsiz ola bilər. İki və daha çox insan arasında istəyərək kommunikasiya baş verirsə, bu niyyətli kommunikasiyadır. Bu

zaman kommunikasiya formaları kimi söhbət, danışıq, məktubun yazılması və s. çıxış edir. İki və daha çox insan istəmədən bir informasiyanı, məlumatı ötürürsə, bu niyyətsiz kommunikasiya olur.

Kommunikasiyanın daha iki növünü ayırırlar: mədəniyyətdaxili və ya şəxsiyyətlərarası kommunikasiya və mədəniyyətlərarası kommunikasiya.

Mədəniyyətdaxili və ya şəxsiyyətlərarası kommunikasiya eyni mədəni mühitin nümayəndələri arasında baş verir.

Mədəniyyətlərarası kommunikasiya isə bir neçə mədəniyyətin nümayəndələri arasında baş verir. Təbii ki, kommunikasiyanın bu növü daha mürəkkəb və çətindir.

Kommunikasiyanın komponentləri (modusları). **Kommu nikasiya prosesində insanlar iki moduslardan istifadə edərək ünsiyyət saxlayırlar: verbal və qeyri-verbal. Verbal modusa dil daxildir. Qeyri-verbal modusa isə dildən kənar vasitələr daxildir: mimika, göz kontaktı, jestlər, pozalar, intonasiya, məsafə və s.**

Kommunikasiya prosesləri: kodlaşma və dekodlaşma.

Kodlaşma insanların şüurlu və şüursuz olaraq müəyyən modusu və metodu seçməklə mesajı (məlumatı, informasiyanı) yaratmaq və kiməsə ötürməkdir. Uşaqlıqda insanlar sintaksis və qrammatika, fonologiya, praqmatika qaydalarını öyrənərək informasiyanı məharətlə kodlaşdırırlar. Böyüdükdə isə artıq bu proses barədə, yəni informasiyanı kodlaşdırmaq barəsində hər an fikirləşmirlər. Kodlaşdırma sanki şüurun daha az iştirakı ilə reallaşır. Eyni zamanda qeyri-verbal yolla ötürülən məlumatları müəyyənləşdirən qaydaları da öyrənirlər. İnformasiyanı kodlaşdıran və ötürən insana kommunikator deyilir.

Dekodlaşdırma kommunikatordan alınan informasiyanı qəbul etmək və onları məntiqli məlumatlara çevirməkdir. Dekodlaşdırma

prosesində verbal və qeyri-verbal davranışının qaydalarını bilmək çox vacibdir. Çunki bu qaydaları bilmədən informasiyanı səhv, qeyri-adekvat anlamaq olar. İnformasiyanı dekodlaşdıran insana resipient deyilir.

Kommunikasiyanın bu prosesləri çox sürətlə və ardıcıllıqla baş verən həddən artıq çətin proseslərdir.

İki əsas moduslardan (verbal və qeyri-verbal) və əsas proseslərdən (kodlaşdırma və dekodlaşdırma) başqa kommunikasiyanın digər komponentləri də mövcuddur.

Siqnallar kommunikasiya prosesində tələffüz olunan spesifik sözlər və hərəkətlərdir. Yəni məlumatın göndərilməsi zamanı kodlaşan verbal və qeyri-verbal davranış məs., məlumatı ötürən zaman istifadə etdiyimiz sözlər, səslər və eyni zamanda bu sözləri, səsləri müşayiət edən qeyri-verbal siqnallar: üzün ifadəsi, jestlər, pozalar, səsin intonasiyası və s.

Məlumatlar siqnallara qoyulan və onlardan çıxarılan mənalardır. Bu kommunikatorların kodlaşdıran və resipientlərin açıqlayan bilik, ideya, fikir, anlayış və emosiyalardır.

Kanallar müxtəlif sensor modallığlardır. Bu modallıqların vasitəsilə siqnallar ötürülür və açıqlanır. Ən geniş yayılmış kommunikasiya kanalları vizual (üzün ifadəsi, bədənin pozaları) və audial (sözlər, səsin intonasiya) kanallardır.

Mədəniyyətlərarası kommunikasiya prosesi mədəniyyətdaxili kommunikasiya prosesində yaranmayan bir çox müxtəlif əlavə psixoloji problemlərlə bağlıdır. Bunlardan əsası qeyri-müəyyənlik, konflikt və kontekstdir.

Mədəniyyətlərarası kommunikasiya və qeyri-müəyyənlik.

Kommunikasiya proseslərin bütün aspektlərinə mədəniyyətin geniş və dərin təsirini nəzərə alaraq, müxtəlif mədəniyyətin nümayəndələrinin istifadə etdiyi qaydalar eynidir. Qeyri-müəyyənlik həm verbal, həm də qeyri-verbal davranışa, həm kodlaşma, həm də dekodlaşma proseslərinə aiddir.

Mədəniyyətlərarası kommunikasiyanı mədəniyyətdaxili kommunikasiyadan fərqləndirən əsas xarakteristikalarından biri qarşılıqlı əlaqəni (interaksiya) həyata keçirən əsas qaydaların qeyri-müəyyənliliyi və ikimənalılığıdır. Mədəniyyətlərarası interaksiya iştirakçıları ünsiyyət zamanı çox vaxt başqaları üçün doğma olmayan verbal dildən istifadə edirlər. Buna görə də sözlərin mənasında qeyri-müəyyənlik yaranır. Qeyri-müəyyənlik qeyri-verbal kanalların mədəni fərqliliyi daha da gücləndirir. Şapiro öz tədqiqatlarında müəyyənləşdirmişdir ki, tələbələr mədəniyyətdaxili epizodları kommunikativ keyfiyyətinə və pozitiv gözləmələrə görə yüksək qiymətləndirirdilər, nəinki mədəniyyətlərarası kommunikasiyanın epizodlarını. Mədəniyyətlərarası kommunikasiya epizodlarını isə həyəcan, qeyri-müəyyənliyə görə daha yüksək qiymətləndirirdilər. Eyni ilə etnikdaxili görüşləri keyfiyyət və məmnunluğa görə yüksək qiymətləndirmişdilər, etnoslararası görüşləri isə həyəcan və qeyri-müəyyənliliyə görə yüksək qiymət vermişdilər. Bu nəticələr göstərir ki, mədəniyyətlərarası kommunikasiyanın qeyri-müəyyənlik dərəcəsi daha yüksəkdir.

Mədəniyyətlərarası kommunikasiya və konflikt. **Mədəniy yətlərarası kommunikasiya prosesində konflikt və anlaşılmazlıq qaçılmazdır. Mədəniyyətlərarası görüşlər zamanı insanların davranışları onların gözləmələrinə uyğun olmur. Çox vaxt belə davranış insanın dəyərlər və əxlaq sisteminə qəsd kimi başa düşülür. Bu neqativ emosiyalar yaradır, insanın "Mən" konsepsiyasını zəiflədir. İnteraksiya iştirakçıları siqnalları eynimənalı ötürüb və qəbul edə bilmədiklərinə görə mədəniyyətlərarası kommunikasiya epizodları onlarda frustrasiya və səbrsizlik hissi əmələ gəlir. Belə situasiyalarda insanlar asanlıqla özlərindən çıxa bilərlər, kefləri tez pozula bilər, interaksiyalara maraqları itə bilər.**

Əlbəttə ki, bu qeyri-müəyyənlik kommunikasiya prosesində konfliktə səbəb olur.

Mədəniyyətlərarası kommunikasiya və kontekst. **Mədəniyyətlərarası kommunikasiya ilə bağlı ən vacib mədəni parametrlərdən biri də kontekstdir. Bu parametri ilk dəfə Holl müəyyənləşdirmişdir.**

Yüksək kontekstli və aşağı kontekstli kommunikasiya. **Yüksək kontekstli kommunikasiyada informasiyanın çoxu fiziki kontekstdə mövcuddur, kodlaşdırılan və ötürülən hissələrində informasiya çoz az olur. Aşağı kontekstli kommunikasiya informasiyanın çoxu məhz kodlaşdırılan və ötürülən hissəsində mövcuddur. Holla görə amerikan, alman, skandinav və isveç mədəniyyətləri aşağı kontekstlidir. Asiya mədəniyyətləri isə yüksək kontekstlidir.**

Yüksək kontekstli mədəniyyətlər fikir və məlumatların ötürülməsi zamanı danışıq dilindən az istifadə edirlər. İnformasiyanın mühüm hissəsi kontekstin parametrləri ilə təsvir olunur fiziki mühit, interaksiya iştirakçıları arasında status münasibətləri, əvvəlki diskussiya, interaksiya iştirakçılarının məqsədləri və s. Yapon dilində "səssiz" kommunikasiya anlayışı var. Bu kommunikasiyanı yaponlar yüksək qiymətləndirirlər. Eyni ilə Koreya mədəniyyətində kommunikasiyanın belə bir növünü kommunikasiyanın ən ali forması hesab edirlər.

Aşağı kontekstli mədəniyyətlərdə isə fikir və məlumatların ötürülməsi zamanı daha çox dəqiq, aydın deyilmiş danışıq dilinə üstünlük verilir. Aşağı kontekstli mədəniyyətlər öz mövqeyini verbal dildə dəqiq ifadə etmək qabiliyyətinə əsasən rəğbətləndirirlər. Belə mədəniyyətlərdə verbal vərdişlər daha çox qiymətləndirilir.

Effektiv mədəniyyətlərarası kommunikasiyanı çətinləşdirən maneələr. **Varna mədəniyyətlərarası kommunikasiyanı çətinləşdirən 6 maneəni açıqlayıb:**

1. Oxşarlıqların ehtimalı. Mədəniyyətlərarası kommunikasiya zamanı anlaşılmazlığın səbəblərindən biri insanların hamısının eyni olması və yaxud bir-biri ilə asan ünsiyyətə girmək üçün bir-birlərinə oxşamaları fikridir. Təbii ki, insanlara bioloji və sosial tələbatlarında əsas oxşarlıqlar xasdır.

2. Dil fərqləri. İnsanlar mükəmməl bilmədikləri dildə ünsiyyət yaratdıqda güman edirlər ki, söz, fraza, cümlə onların çatdırmaq istədikləri mənada çatdırılır.

3. Səhv qeyri-verbal interpretasiya. Hər hansı bir mədəniyyətdə qeyri-verbal davranış kommunikasiya məlumatlarının böyük bir hissəsini təşkil edir. Və yad bir mədəniyyətin qeyri-verbal dilini düzgün başa düşmək çox çətindir. Qeyri-verbal davranışın səhv interpretasiyası asanlıqla konfliktlərə gətirib çıxarır. Bu isə kommunikasiya prosesini pozur.

4. Qabaqcadan əmələ gəlmiş yanlış fikir və stereotiplər. Stereotiplər də kommunikasiya proseslərə və bizim qavrayışımıza təsir edən təbii və qaçınılmaz psixoloji proseslərdən biridir. Stereotiplər bir çox psixoloji proseslərə arxalanır. Stereotiplərə gərəksiz istinad başqa insanları və onların verdiyi məlumatları obyektiv qiymətləndirməkdə maneçilik törədə bilər.

5. Qiymətləndirmək meyli. Mədəni dəyərlərə də müxtəlif neqativ qiymətlər verilə bilər. Bu effektiv mədəniyyətlərarası kommunikasiyaya maneə ola bilər.

6. Güclü həyəcan və ya gərginlik. Mədəniyyətlərarası kommunikasiya epizodları çox vaxt güclü həyəcan və ya gərginliklərlə bağlı olur. Lakin, həddən artıq həyəcanlanma disfunksional fikri proseslərə və davranışa gətirib çıxara bilər. Bu həmçinin

mədəniyyətlərarası kommunikasiyaya güclü neqativ təsir edir. Stress və həyacan mədəniyyətlərarası maneələri daha da gücləndirə bilər. Belə ki, insanlar kəskin interpretasiyalara, stereotiplərə arxalanaraq obyektiv sübutlara fikir vermirlər və digərlərini neqativ qiymətləndirirlər.

Mədəniyyətlərarası kommunikativ səriştəlilik. **Mədəniyyətlərarası kommunikativ səriştəlilik mədəniyyətlərarası kontekstdə effektiv kommunikasiya həyata keçirə bilmək qabiliyyəti başa düşülür. Son zamanlar tədqiqatçılar mədəniyyətlərarası kommunikativ səriştəliliklə bağlı müxtəlif faktorları misal gətiriblər. Şpicberqer bu faktorları özündə birləşdirən üç komponentli modeli işləyib hazırlamışdır.**

- Fərdi sistem- mədəniyyətlərarası kommunikasiyanı asanlaşdıran fərdlərin xüsusiyyətləri daxil edilmişdir.

- Epizodik sistem- səriştəliliyin qarşılıqlı təyinatlarına təsir edən interaksiya iştirakçılarının xüsusiyyətləri daxil edilmişdir.

- Nisbi sistem- mədəniyyətlərarası kommunikasiya səriştəliliyin vərdişlərini müxtəlif situasiyalarda və kontekstlərdə istifadə etmək xüsusiyyətləri daxil edilmişdir.

Qudikunst oxşar lakin bir az fərqli üç əsas komponentli bir modeli təklif etmişdir. Bu modelin əsas komponentləri bunlardır: motivasiya, biliklər və vərdişlər faktoru.

Motivasiya faktorlarına daxildir interaksiya iştirakçılarının tələbatları, təsəvvürləri, yeni informasiya üçün açıq olması və s.

Biliklər faktorlarına daxildir gözləmələr, ümumi informasiya kanalları, alternativ interpretasiya bilikləri, oxşarlıq və fərqliliyi bilmək və s.

Vərdiş faktorlarına daxildir empatiya göstərmək qabiliyyəti, çoxmənalılığa tolerant olmaq, yeni kateqoriyalar yaratmaq, davranışı dəyişmək və lazımi informasiyanı əldə etmək.

Bu üç faktorlar interaksiya iştirakçılarının qeyri-müəyyənlik və keçirdikləri stress və həyəcan dərəcəsinə təsir edir. Eyni

zamanda bu faktorlar interaksiya iştirakşıların kommunikasiya epizodlarına nə dərəcədə düşünərək yanaşmalarına təsir edir, yəni insanlar nə dərəcədə özlərinin və başqalarının davranışlarını təhlil edə bilirlər. Bu modelə görə, düşünərək yanaşdıqda qeyri-müəyyənlik və həyəcan azalır. Nəticədə effektiv kommunikasiya yaranır.

***Mədəniyyətlərarası həssaslıq(sensitivlik).*İnsanların mədəniyyətlərarası kommunikativ səriştəliliyi artıqca onlar qlobal və mədəni münasibətlərlə bir-biri ilə daha sıx bağlı olurlar.**

Bennet ilk dəfə olaraq mədəniyyətlərarası sensitivlik modelini hazırlamışdır. Bennet bu modeli mədəniyyətlərarası sensitivliyin inkişafının əsasını təşkil edən mədəni fərqləri qəbul edə bilən reallığın bir konstruksiya kimi başa düşürdü. Mədəniyyətlərarası sensitivlik etnosentrizm və etnorelyativizm çoxluğunda yerləşir. Bu modelə əsaslanaraq insanlar müxtəlif mədəni fərqləri tam inkar edə bilər və ya bu fərqləri tanıyıb qiymətləndirə bilərlər.

Mədəniyyətlərarası sensitivlik modeli 6 mərhələdən ibarətdir. Birinci üç mərhələ inkişafın etnosentrizm mərhələləridir, qalan üç mərhələ isə etnorelyativist mərhələlərdir.

1. İnkar etmə. Ən primitiv etnosentrik mərhələ mədəni fərqliliyi inkar etməkdən başlayır. İnsanlar bu mərhələdə özlərini digər mədəni qruplardan fiziki və ya psixoloji cəhətdən təcrid edə bilərlər.

2. Müdafiə. Bu mərhələdə artıq insanlar mədəni fərqlərin olmasını təsdiq edirlər amma özlərini bu fərqlərdən qoruyurlar, çünki bu fərqləri onların "Mən" konsepsiyasına bir təhlükə kimi qavrayırlar. Bir çox insanlar bu mərhələdə özlərini qorumaq üçün başqa mədəniyyətin nümayəndələrini ləkələyə, alçalda bilirlər. Və öz mədəniyyət qrupuna verdiyi qiymət başqalarına verdiyi qiymətdən çox yüksək olur.

3. Kiçiltmə. Bu mərhələdə insanlar mədəni fərqliliyi qəbul edirlər, lakin eyni zamanda bu fərqlərin onların həyatına təsirini azaldırlar. Ən geniş yayılmış üsul bütün mədəni fərqlərin "universallaşması" (məs, "bütün insanlar eynidir, bir-birinə oxşayır, və bu fərqlərə görə niyə narahat olmalıyam ki?") üsuludur.

4. Qəbul etmə. Bu mərhələdə mədəni fərqləri nəinki qəbul edirlər, hətta onlara hörmətlə yanaşırlar. Hörmət özünü iki səviyyədə göstərir: müxtəlif davranışlarda və mədəni dəyərlər səviyyəsində.

5. Adaptasiya. Bu mərhələdə insanlar müxtəlif mədəni fərqlərə uyğunlaşırlar və digər mədəniyyət nümayəndələri ilə əlaqə yaratmaq və ünsiyyət saxlamaq üçün vərdişlər əldə edirlər. Bu vərdişlərdən biri empatiyadır, yəni digər insanın keçirdiyi emosiya və hisslərini başa düşmək qabiliyyətidir. Başqa mədəniyyətlərdən olan insanlarla əlaqə yaratdıqda biz bu fərqlərə uyğunlaşırıq. İnsanlar situasiyaları təkcə koqnitiv olaraq başa düşmürlər, həmçinin də bu situasiyaları hiss edə bilirlər. İkinci vərdiş plyuralizm (çoxluq) anlayışıdır. İnsanlar fikrən dəyərlər, fikir, ideya və yönəlişlikləri anlamaq üçün çoxlu mədəni kontekstlər yaradırlar.

6. İnteqrasiya. Bu mərhələdə insanlar müxtəlif mədəni fərqləri kontekst nöqteyi-nəzərincə qiymətləndirməyə başlayırlar. Fərqlər tək bir mədəni mövqedən deyil, kontekst və çoxluluq əsasında da qiymətləndirilir. Bu mərhələ konstruktiv kənarlaşdırmaya gətirib çıxara bilər və fərdlər müxtəlif mədəni sistemlər daxilində fikrən yaşaya bilirlər.

Mədəniyyətlərarası psixologiyada milli hiss, milli xarakter və stereotip anlayışı

Plan:

1. **Mədəniyyətlərarası psixologiyada milli hiss anlayışı**
2. **Mədəniyyətlərarası psixologiyada milli xarakter anlayışı**
3. **Mədəniyyətlərarası psixologiyada stereotip anlayışı**

Babayeva Ş.R. Diplomatik xidmətin psixoloji əsasları. Bakı: ADPU-2019

2. Bayramov Ə. Etnik psixologiya. B., 2001
3. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı, 2007
4. Əliyev R.İ. Mentalitet. Bakı, 2009. 309 səh.
5. Əliyev R.İ. Şəxsiyyətin və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.442 səh.
6. Əlizadə. Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003. 352 səh.
7. Nuruzadə Ş. Etnik münaqişələr. Bakı, 2015.
8.

*** Mövzu ilə bağlı elektorn resurslar**

- **https://lovesushi29.ru/tr/vidy-stereotipov-stereotipy-vidy-vozniknovenie-i-minusy/**
- **https://tr.qaz.wiki/wiki/Cross-cultural_psychology**
- **https://cyberleninka.ru/article/n/stereotipy-natsionalnoy-kultury-v-mezhkulturnom-obschenii/viewer**

1. Mədəniyyətlərarası psixologiyada milli xarakter anlayışı

Bu anlayışlardan ilk vaxtlar ədəbiyyatda səyyahlar gəzdikləri ölkələrdə yaşayan xalqların həyat tərzini ifadə etmək üçün istifadə

edirdilər. Bəzi müəlliflər milli xarakter anlayışına xalqın temperamentini, bəziləri şəxsiyyətə məxsus olan keyfiyyətləri, digərləri isə sərvət dəyərlərini, xalqın hakimiyyətə, əməyə olan münasibətini aid edirdilər.

Ümumiyyətlə, milli xarakterin olub olmaması haqqında fikirlər çox ziddiyyətlidir. Bəzi tədqiqatçılar, ümumiyyətlə milli

xarakterin olmadığını iddia edirlər. Onlar belə hesab edirlər ki, hər hansı bir fərdə aid olan əlaməti dünyanın digər xalqları nümayəndələri arasında da müşahidə olunur. Əgər bu belədirsə onda, həmin xüsusiyyəti yalnız ayrıca götürülmüş bir xalqa aid etməyə ehtiyac yoxdur.

Deməli, tədqiqatçının xalqın davranış, fikir və münasibətlərində, eləcədə hiss və emosiyasında təzahür edən psixi xüsusiyyətlərdən hansıların milli xarakter hesab etməsi sırf nəzəri və metodoloji məsələdir. Bu məsələ ilə bağlı bəzi prinsiplərin nəzərə almaq lazımdır:

1) Milli xarakter ayrı-ayrı fərdlərdə özünü göstərən əlamətlərin cəmi deyil, o əhalinin böyük əksəriyyəti üçün səciyyəvi olan fikir, hiss və davranış birliyidir. İ.S.Kon yazır "xalqın xarakterini başa düşmək üçün ilk növbədə onun tarixini, ictimai həyatını və mədəniyyətini öyrənmək lazımdır. Bu prosesdə fərdi-psixoloji metodlar kifayət deyil".

2) Hər hansı bir əlaməti ayrıca götürülmüş etnik birliyiə aid etmək olmaz. Əlamətin nə özü, nə də ki cəmi maraqlı deyil. Əsas məsələ onun psixi keyfiyyətlərin stukturunda təzahür etmə xüsusiyyətidir. Məsələn, qonağa qarşı olan qayğı heç şübhəsiz qonşu ruslarda və farslarda da var. Amma, azərbaycanlı folklorunda, məişətində qonağı tərənnüm edən saysız-hesabsız nümunələr daha çoxdur. Yalnız qonağa aid olan məişət avadanlıqları saxlamaq, heç şübhəsiz qonaqpərvərliyin azərbaycanlıların milli xarakter olmasını sübut edir. Yaxud, spirtli içki qəbul etmək bir çox xalqlarda elə azərbaycanlılarda var. Amma, rus dilində içki məclisini səciyyələndirən, müvafiq durumu ifadə edən sözlük yaratmaq hələlik ruslara nəsib olmuşdur.

3) Xarakter əlamətləri millətin ümumi dəyətlər sistemi ilə əlaqəli şəkildə, onun sosial, iqtisadi, siyasi, coğrafi, dini faktorları ilə sırf əlaqəlidir. Məsələn, əməksevərlik ümumbəşəri keyfiyyətdir. Lakin, tarixi şəraitdən asılı olaraq əməyin mənası bu və ya digər mədəniyyətdə fərqli məzmun kəsb etmişdir. Uzun müddətli Avropa istisimarı afrika xalqlarının əməyə münasibətini dəyişdirmişdir. Uzun müddət avtoritar şəraitdə yaşayan xalqlar düz söz deməkdə çətinlik çəkirlər.

Fransız sözü olan mentalitet azərbaycan dilində işlənən dünyagörüşü, dünyanı dərketmə sözlərinə uyğun gəlir. Mentaltet daha çox kollektiv şüursuzluqdan qidalanır və təfəkkürdə, hiss və hərəkətlərdə gerçəkləşir. Etnosu qrup kimi səciyyələndirdikdə mentalitet xalqların sosial-mədəni xüsusiyyətlərini öyrənmək üçün ən yaxşı kateqoriyadır.Əksər hallarada "siyasət", "sosial-iqtisadi münasibətlər", "qanun", "ənənə" analyışları ilə izah edilməyən fikri, hadisəni, hərəkəti və hissləri mentalitet anlayışının səlahiyyətinə aid etməklə izah etməyə çalışırlar. Bu anlayışdan istifadə etməklə xalqın tarixində və mədəniyyətində özünü göstərən qəribə

və aydın olmayan sosial hadisələri aydınlaşdırmağa çalışırlar. Dərk olunmayan psixi fəaliyyəti mentalitetin əlaməti hesab edirlər.

"Mentalitet" latın sözü olan "mens", "mentis" ağıl, ruh, bilik mənasını verir. Bu sözün özü isə sanskrit dilində olan "manas" ağıl, ruh, bilik deməkdir. Etnosun mentaliteti uzun tarixi inkişaf prosesində formalaşır. *Mentalitet* milli xarakteri və milli sosial davranış modelini müəyyən edir. *Mentalitet* xalqın, millətin istər bütövlükdə, istərsə də ayrılıqda, onun hər bir üzvünün dünya və insan haqqında olan təsəvvürü və dəyərlər sistemidir. Biz hesab edirik ki, mentalitetin psixi miqyası daha genişdir. Hər bir xalqın, millətin milli xarakteri təşəkkül tapıb, formalaşdıqdan sonra *mentalitetə* çevrilir. Mentalitet qrup psixologiyası ilə şərtlənir və sosial məkanda daha qabarıq şəkildə özünü göstərir. Mentalitet emosional cəhətdən müəyyən tona malik olan sosial təsəvvürdür.

Mentalitet sosial qrup üzvlərinin sosial dünya haqqında sosial təsəvvürüdür. Biz hesab edirik ki, polietnik ölkə vətəndaşlarının hamısı üçün səciyyəvi olan psixoloji xüsusiyyətlərini mentalitet anlayışı ilə, monoetnik ölkə vətəndaşlarının xüsusiyyətlərini isə milli xarakter anlayışı ilə ifadə etmək olar. Məsələn, ABŞ polietnik ölkə olduğu üçün amerikan mentaliteti, Ermənistan isə daha çox monoetnik ölkə olduğu üçün erməni milli xarakteri işlətmək daha düzgün olar. Ümumiyyətlə, bizim fikrimizə görə milli xarakter anlayışı müasir dövrdə uğurlu istilah deyildir və ölkə, dövlət ərazisində onun işlədilməsi diskonyuktiv hisslərin oyanmasına, etnik dirçəlişə rəvac verir. Milli xarakter və yaxud etnik identifikasiyanın güclənməsi fərdin sosial mühitə adaptasiya qabiliyyətini zəiflədir. Bu da onun inkişafına mənfi təsir göstərir (J.Piaje).

Azərbaycan psixoloqu Ə.Bayramov milli xarakteri insanın makromühiti ilə əlaqələndirir və milli psixologiya, sosial münasibətlər, iqtisadi birlik, məkan vahidliyi, dil birliyi, dini inam və əqidə yaxınlığı, təbiətə münasibət, tarixi birlik forması kimi xalqda müəyyən dövr ərzində formalaşmış milli əxlaqi ənənə keyfiyyəti almış cəhətlər, həyata, insana, vətənə, yaxın adamlara, qohum-əqrabaya münasibətdəki eyniyyət milli xarakterin əsas təyinedici amillərini təşkil ediyini qeyd edir. Daha sonra göstərir ki, həmin amillərin təsiri ilə etnik və milli ümumilik əsasında adamlarda elə psixoloji xüsusiyyətlər formalaşır ki, onlar etnik və milli xarakterin nüvəsini təşkil edir. O, belə hesab edir ki, qrup, etnos və xalq üçün ümumi olan cəhətlərin olması milli xarakterin mövcudluğu ilə bağlıdır. Milli xarakter heç də fərdi xarakterlərin məcmusu kimi götrülə bilməz. Milli xarakter milli psixologiyanın ən əsas struktur komponenti, etnik simanı müəyyən edən başlıca əlamətdir. Prof.Ə.S.Bayramov etnik xarakterə belə tərif vermişdir: "**Etnik xarakter** dedikdə ayrıca bir fərddən asılı olmayan, ümumiləşmiş psixoloji keyfiyyət, etnosun hər bir üzvünün davranış və rəftarında, münasibətlər sistemində bu və ya digər dərəcədə təcəssüm edən psixi xüsusiyyət başa düşülür". Milli, etnik xarakter xalqın sosial tarixi və təbii mühiti ilə bağlı olaraq təzahür edən dinamik psixoloji xüsusiyyətdir. Milli xarakter sosial şəraitin dəyişilməsi ilə əlaqədar olaraq dəyişikliklərə məruz qala bilər. Bu tarixi təcrübə ilə də təsdiqlənir. Amma, dəyişikliyin məzmun və

istiqaməti müəyyən qədər millətin özünün öz taleyinə olan münasibətdən, o cümlədən öz xarakter əlamətlərindən asılıdır.Yəni sosializasiya institutları xalqda, millətdə hansı keyfiyyətləri formalaşdırmaq istəyir? Xalqı, milləti necə görmək istəyirlər? Çin filosofu Konfutsinin belə bir fikri var: "Xalq ot, hakimiyyət isə küləkdir. Xalqı hansı tərəfə istəsə, o tərəf də istiqamətləndirə bilər". Etnik xarakter, milli xarakter, psixi sima, mentalitet anlayışları dilimizdə daha çox sinonim sözlər kimi işlədilir. Bu cəhət həmin anlayışların xalqa, millətə məxsus olan sabit psixi xüsusiyyətləri, nisbətən dəyişməz keyfiyyətləri ifadə etməsilə bağlıdır. Xüsusilə, güzəran psixologiyası səviyyəsində daha da yaxınlaşdırılır və çox zaman məhz sinonim kimi də işlədilir.
Alman filosofu İ.Kanta görə insan iki aləmə mənsubdur. Təbiətə mənsubluq baxımından "təbiət insanı dəyişir", mənəviyyat cəhətdən azadlığına görə isə "insan özü-özünü dəyişir".
Qənaətcillik və səliqəli olmaq almanların milli xarakteridir. Amerikalıların bir-birinə sadəcə olaraq adları ilə müraciət etməsi heç də yaxınlıq əlaməti hesab olunmur. Halbuki, bir çox ölkələrdə belə müraciət həmin şəxslər arasında müəyyən yaxınlığın olmasını bildirir.

Milli xarakter millətin musiqi melodiyalarında, rəqslərində də öz əksini tapır. Bu cür müxtəliflik xalqların xarakteri, həyat tərzi, məşğuliyyət növü, sosial və təbii mühitə olan fərqli münasibətindən irəli gəlir. Milli azərbaycan rəqslərində kollektivizim, ispan rəqslərində isə individualizm elementləri diqqəti cəlb edir. Ərəb rəqslərində erotik hərəkətlər üstünlük təşkil etdiyi halda, azərbaycan rəqslərində əksinə geyimdən tutmuş, musiqi ritmlərinə qədər hər şey bədənin konturlarının gizlədilməsinə xidmət edir. Dirsəklərin çiyin səviyyəsində saxlanılması milli azərbaycan qadın rəqsinin atributu sayılır. Bu detal azərbaycan rəqsinin fərqləndirici əlamətlərindən biri hesab oluna bilər.
Milli xarakter insanların mimikasında, ekspressiyasında aydın surətdə nəzərə çarpır. Məsələn, yaponların ən bəd xəbəri gülə-gülə başqasına çatdırması bizi təəcübləndirir. Bu cəhət onların fərqli psixoloji xüsusiyyətlərə malik olduğunu, dünyanı başq cür qavradıqlarını sübut edir. Yapon filmlərinin əksəriyyətində qəhrəman sonda məhv olur. Hollivud filmlərində isə əksinə qələbə çalır və sağ qalır. Yapon dünyaduyumuna görə faciəvi sonluq həm də fərəhli sonluq kimi qavranılır, çünki öz borcunu nəyin bahasına olursa-olsun yerinə yetirən adamların iradə gücünü təsdiq edir. Yaponların qənaətinə görə xarakterin gücü valideynlərin iradəsinə qarşı çıxmaqda yox, bu iradəyə tabe olmaqda özünü göstərir. Milli xarakter övlad tərbiyəsində də özünəməxsus şəkildə təzahür edir.
Azərbaycan ailəsində oğlan uşaqlarının təbiyəsi iradi keyfiyyətlərin, qızların tərbiyəsi isə daha çox analıq vərdişlərinin formalşdırılması istiqamətində həyata keçirilir. Ailə və uşaq azərbaycanlı xarakterinin affektiv mərkəzində dayanır. Təsadüfi deyildir ki, "Kitabi Dədə Qorqud" dastanında oğlu olanı ağ, qızı olanı qızılı, oğlu-qızı olmayanı isə qara çadıra dəvət etməsi milli mentalitetimizdən qaynaqlanır.

Hər bir xalq ilk növbədə özünü yaxşı dərk etmıək üçün özünə xas olan etnik, milli xarakterin yaxşı öyrənməli, onun müsbət və

mənfi cəhətlərini özü üçün ayırd etməli, mənfi cəhətlərdən uzaqlaşmağı, müsbət tərəflərini isə inkişaf etdirməyi özü istəməli və bacarmalıdır. Hər bir millət özü-özünü inkişaf etdirməlidir. Elə xalqlar vardır ki, özü öz lətifəsində gülüş obyekti kimi təqdim olunur. Çox təəsüf ki, biz özümüzə gülə bilmirik. Əksər hallarda lətifə "qəhrəmanlarımız" özümüz olmur. Xalqın, millətin özünün-özünə gülə bilməsi çox mühüm psixoterapevtik effekti olan profilaktik tədbirdir. Heç şübhəsiz bu hərəkət psixoloji cəhətdən sağlamlığa aparan yoldur. İkinci mənfi xüsusiyyət tənqidi münasibət bəsləməkdən çəkinməyimiz və bunu etməyi münasibətlərin pozulması kimi qavramağımızdır. Belə hesab etmək olar ki, xalqın hal-hazırkı durumu onun psixoloji keçmişindən xəbər verir. Psixoloji keçmiş və gələcək milli xarakterlə bağlıdır.

Heç də hər bir hərəkət, davranış və hiss millətə, xalq aid olan xarakter əlaməti hesab oluna bilməz. Milli, etnik xarakter o halda götürülür ki, həmin əlamət xalqın həm şifahi, həm yazılı mədəniyyətində öz yerini yusun və əks olunsun. Məsələn, qonağa olan hörmət əksər dünya xalqalarının məişətində yer tutur. Ruslarda da evin otaqlarının birinə "qonaq" otağı adı vermişlər. Amma, Azərbaycan folklorunda qonağı tərənnüm edən, onunla bağlı çoxlu sayda bayatı, lətifə, tapmaca, dualara, atalar sözü, sınamalara digər xalqların folklorunda rast gəlinmir. Hətta, azərbaycanlı evində qonaq üçün xüsusi olaraq nəzərdə tutlan qab-qacaq və yatacaq dəstinin olması fikrimizi sübut edir. Azərbaycanlı adətinə görə qonağın el-obada toxunulmamazlıq statusu olur və hamının onu gözləməsi vacibdir. Hətta qonaq gedəcəyi evin adını deməsi bəs edir ki, o, elə yolda ikən müəyyən imtiyaz əldə etmiş olsun.

İlk etnik birliyə nəsili misal göstərmək olar. Nəsil ailələrdən əmələ gəlir və qan qohumluğuna əsaslananır.Bir neçə nəsl birliyi əsasında əmələ gələn böyük insan qrupu tayfa adlanır. Ailələr nəsildə birləşən kimi , iki və daha çox nəsil də tayfanı əmələ gətitrir. Bir kökdən olan, lakin sonralar ayrılmış nəsillər birliyi tayfa adlanır. Nisbətən daha böyük sosial birlik xalqdır. Bu birlik, artıq, qan qohumluğuna deyil, eyni sosial əraziyə, qonşuluq əlaqələrinə əsaslanır, ona görə də, xalqı sırf etnik birlik kimi səciyyələndirmək olmaz. Buraya etnik cəhətdən bir olmayan başqa adamlar da daxil olduğundan, o, sosial-etnik birlik adlandırıl-malıdır. *Xalq* insanların tarixən yaranmış və dil, ərazi, müəyyən mədəniyyət birliyinə əsaslanan insan birliyidir. Bu birliyin möhkəmlənməsi və dərinlşməsi nəticəsində xalq özünün yeni inkişaf mərhələsinə keçir və yeni birlik olan millətin yaranması baş verir. **Millət üçün** xarakterik olan əlamətlər bunlardır: insanların tarixən yaranmış sabit birliyi, ərazi birliyi, iqtisadi həyat birliyi, dil birliyi; din, inanc və etiqad birliyi; adət - ənənə yaxud mədəniyyət birliyi.

Şəxsi mənafeyin ön planda olması, "Mən" hissinin "Biz" hissindən üstün tutulması insan birliyinin xalq, əksinə "Biz" hissinin "Mən" hissini üstələməsi isə milli mənafeyin ön planda dayanması qrupun millət səviyyəsində formalaşdığını göstərir. Millət səviyyəsində təşkkül tapmış sosial qrup üzvlərinin bir-birinə

qarşı tələbkarlığı, xalq səviyyəsində təşəkkül tapan qruplardan əsaslı şəkildə fərqlənir. Xalq səviyyəsinə insanlar arasında mövcud olan qarşılıqlı münasibətlərdə bir-birinə qarşı laqeydlik, etinasızlıq, ictimai mülkiyyətə yad münasibət müşahidə olunur. Millət səviyyəsində isə ictimai qınağ, ciddi münasibət, adət-ənənlərə hörmət ünsiyyət və fəaliyyət zamanı qarşılıqlı münasibətlərdə tələbkarlıq, ictimai mülkiyyətə sahiblik hissi özünü göstərir.

Azərbaycan filosofu, prof. A.Əsədov etnosu köçəri və icma tayfalarının təkamül prosesinin məhsulu sayır və onun yaranmasını dövlətin əmələ gəlməsi ilə əlaqələndirir. O, yazır ki, dövlətin yaranması ilə köçərilərin və icmaçıların vahid bir etnosa doğru təkamülü başlayır və bu təkamül vahid xalqın formalaşması ilə başa çatır. Dillərin genetik qohumluğu, xalqların genetik qohumluğundan xəbər vermir, xalqların haçansa vahid bir dövlətin ərazisində yaşadıqlarından xəbər verir.

Canlıların əksəriyyətindən fərqli olaraq insan nə sürü, nə də ayrıca yaşayan növ adlandırıla bilməz. İnsan yanaşma növündən asılı olaraq, gah sosium, gah da etnos kimi nəzərdən keçirilən kollektivdə yaşayır. Daha dəqiq desək, hər bir insan eyni zamanda həm cəmiyyət üzvü, həm də xalqının nümayəndəsidir. Amma bu iki anlayış bir müqayisəyə gəlmir və müxtəlif təbəqələrə aiddir.

Kollektiv daxilində olan insan iqtisadi formasiyalar vasitəsilə daxili səbəblər üzündən inkişafı etməsi, onun bioloji strukturu ilə əlaqəli deyil.

Bir şey heç kimdə şübhə doğurmur ki, yer üzərində etnos xaricində olan bircə adam belə yoxdur. İstənilən şəxs “Sən kimsən?” sualına bir an belə düşünmədən ”türk”, “rus”, “ərəb” “yapon” və s. cavabını verir. Deməli, şüurda etnik mənsubiyyət - ümumi hadisədir. Görəsən, bu adam¬ların hər biri öz cavabını necə mənalandırır? Öz xalqım, millətim, tayfam dedikdə o nəyi nəzərdə tutur və qonşulardan fərqini nədə görür? Etnik diaqnostikanın indiyə qədər həll olunmayan problemi də elə budur (L.N.Qumilyov, 2001). Tərifə ehtiyac yaranır, lakin burada fikir çarpazlaşması meydana çıxır. “Etnos ümumi mənşə ilə şərtlənən hadisədir”, “etnos dil ümumiliyindən doğan mədəni hadisədir”; “etnos bir birinə bənzəyən insanlar qrupudur”; “etnos bu və ya digər formasiyadan asılı olaraq insanları ümumiləşdirən şərti təsnifdir” (bu o deməkdir ki, etnos kateqoriyası qeyri-realdır); “etnos ümumi özünüdərk əsasında birləşmiş insan toplusudur”; “etnos sosial kateqoriyadır”. Təbiətlə ictimai insanın mütənasibliyinə dair baxışlarının təfərrüatlarına görə fərqlənənləri ümumiləşdirdikdən sonra onlardan üçünü qeyd etmək olar:

1. “Vahid” coğrafiya insanın bütün fəaliyyətini təbii qanunauyğunluqlara çevirir.
2. Bəzi tarixçi və etnoqraflar bəşəriyyətlə ilgili bütün fenomenləri sosial hesab edərək, yalnız anatomiya və qismən də fiziologiyanı istisna sayırlar.
3. Antropogen proseslərdə materiyanın hərəkətinin ictimai və təbii (mexaniki, fiziki, kimyəvi, bioloji) formalarının təzahürləri fərqləndirilir.

Heç də hər bir hərəkət, davranış və hiss millətə, xalq aid olan xarakter əlaməti hesab oluna bilməz. Milli, etnik xarakter o halda götürülür ki, həmin əlamət xalqın həm şifahi, həm yazılı mədəniyyətində öz yerini yuysun və əks olunsun. Məsələn. Qonağa olan hörmət əksər dünya xalqalrının məişətində yür tutur. Ruslarda da evin otaqlarının birinə "qonaq" otağı adı vermişlər. Amma, Azərbaycan folklorunda qonağı tərənnüm edən, onunla bağlı çoxlu sayda bayatı, lətifə, tapmaca, dualara, atalar sözü, sınamalara digər xalqların folklorunda rast gəlinmir. Hətta, azərbaycanlı evində qonaq üçün xüsusi olaraq nəzərdə tutlan qab-qacaq və yatacaq dəstinin olması fikrimizi sübut edir. Azərbaycanlı adətinə görə qonağın el-obada toxunulmamazlıq statusu olur və hamının onu gözləməsi vacibdir. Hətta qonaq gedəcəyi evin adını deməsi bəs edir ki, o, elə yolda ikən müəyyən imtiyaz əldə etmiş olsun. Termin kimi işlədilməsinə baxmayaraq "xalq" "millət", "milliyyət", "mentalitet" sözləri heç də hamı tərəfindən eyni mənada işlədilmir. "Xalq" sözü ilə adətən latıncadan populus, fransızcadan peuple, almancadan Volk, ingiliscədən people sözlərini tərcümə etdikləri halda, millət latın sözü (natio) olmaqla alman, fransız,ingilis dillərində tamamilə eyni cür (nation) yazılır. Almanca "xalq" (volk) sözü ilə adətən bir dövlətin vətəndaşlarının toplumu bildirilir, belə ki, alman xalqı ifadəsi Almaniya dövlətinin vətəndaşı olan hər bir kəsi, yəni almanları, türkləri, polyakları əhatə edir, lakin İsveçrə, yaxud da Avstriya almanlarına aid edilmir. "Millət" termini ilə isə adətən bir dövlətdə birləşməsə də dil, mədəniyyət, tarix, yaxud da heç olmazsa, milli şüur birliyi ilə bağlanan insan toplumu bildirilir. Beləliklə, "türk milləti" dedikdə Türkiyə, Almaniya, Rusiya və okeanın o tayında Amerikanın vətəndaşı olan və özünü türk hesab edən bütün türklər nəzərdə tutlur.
"Xalq" sözü dövlət hüququna aid olduğu halda "millət" sözü daha çox etnoqrafik termindir. "Milliyyət" bu söz işlətmə baxımından "millət" sözündən törəmə termindir və hər hansı ayrıca bir şəxsin, yaxud bütöv bir millətin psixoloji mənsubluğunu bildirir. Fransız və ingilis dillərində "xalq" "millət" terminləri adətən əks mənalarda işlədilir. "Fransız milləti" ifadəsi Fransada yaşayan bütün vətəndaşların toplumunu bildirir. Fransızca "millətlər" arasında müqavilə, saziş və müharibələrdən danışılır, alman dilində isə bu cür hallarda "xalqlar" haqqında danışmağa üstünlük verirlər.

Məşhur arxeoloq və xəzərlərin tarixinin görkəmli araşdırıcısı M.İ.Artamonovun fikrinə görə, "sinif kimi etnos da sosial təşkilat deyil, hal, vəziyyətdir. Bu zaman insanın mədəni səviyyəsi nə qədər yüksək olarsa, onun təbiətdən asılılığı da bir o qədər az olar. Bu, hamıya məlum həqiqətdir". Millətlər, xalqlar arasında özünü göstərən etnopsixoloji fərqlər başqa amillərlə yanaşı həm də hər hansı bir anlayışa həmin xalqın nəyi daxil etməsindən asılı olaraq yaranır. Məsələn, xeyirxahlıq anlayışında bizim əsas hesab etdiyimiz keyfiyyətlər ingilislərin həmin anlayışla bağlı əsas əlamət kimi götürdükləri keyfiyyətdən fərqlənir. Təfəkkür sözlə vəhdət təşkil edir. İnsan dünyanı həm birinci (duyğu üzvləri) həm də ikinci siqnal sistemi, yəni nitq və dil vasitəsilə dərk edir, onun köməyi ilə qavrayır, ünsiyyətə girir, münasibət bəsləyir və müvafiq hisslər keçirir. Hər bir anlayış onun əsas əlamətlərinin götürməklə möhkəmlən-

dirilməlidir. Burada problem ondadır ki, eyni bir anlayışa ola bilsin xalq və millətlərdən bir-birindən fərqli şəkildə müxtəlif əlamətlər əsasında möhkəmləndirə bilərlər. Elə etnik fərqlər də məhz bu prosesdə özünü göstərir. Yəni bir xalqın bir anlayışa daxil etdiyi keyfiyyətlər başqa bir xalqın həmin anlayışa daxil etdiyi keyfiyyətlərdən fərqlənirsə onda onlar arasında qarşılıqlı münasibətdə problem yaranır. Əgər bir anlayış eyni əlamətlər əsasında formalaşırsa və həmin əlamətlər əsasında möhkəmləndirilirsə onda problem yaranmır.

Əsas məsələ xalqın, etnosun şüurunda, təfəkküründə anlayışın hansı əlamətlər əsasında formalaşması və yaddaşda möhkəmləndirilməsidir. Onun hesabına biz bir-birimizi düzgün başa düşür, düzgün qavrayır və eyni intellektual platformada qarşılıqlı təsirdə olur, ünsiyyət və fəaliyyət göstəririk. Məsələn, boşanma anlayışını necə başa düşür, qavrayır, qiymətləndiririk?

Məsələn, "xoşbəxtlik" anlayışı azərbaycan dilində iki sözdən "xoş" və "bəxt" sözlərinin birləşməsindən yaranmışdır. Yapon dilində isə xoşbəxtlik sözü "siavase" deməkdir və iki sözün "suru"-etmək və "avaseru" qoşulmaq, uyğunlaşmaq; avase tərəf müqabilə uyğunlaşmaq, "müstəqillikdən" azad olmaq kimi sözlərin birləşməsindən əmələ gəlmişdir . Yaponlarda "xoşbəxtlik" həyatın zahiri, görünən tərəfinin ətrafdakıların baxış və qiymətləri ilə razılaşdırılması kimi dərk olunur. Göründüyü kimi yaponlarda xoşbəxtlik şəxsiyyətin özündən asılı olduğu halda, azərbay canlılarda xoşbəxtlik daha çox taleyin qisməti kimi qavranılır və insandan asılı olmayan anlayış kimi izah olunur. Yapon təfəkküründə insanın xoşbəxt olması onunun özünün iradəsindən yəni, başqaları ilə uyğunlaşa bilməkdə, onların fikir və qiymətlərini nəzərə almaqda azərbaycanlı təfəkküründə isə xoşbəxtlik onun iradəsindən kənardadır yəni, özgəsindən, daha dəqiq ifadə etsək alın yazısından asılıdır.

Beləliklə, etnik və ya milli xarakter dinamik xüsusiyyət kimi təbii və sosial mühitin, eləcə də dilin təsiri altında formalaşır. Xüsusilə, dildə olan söz və anlayışların necə başa düşülməsi, şərh və izah olunması əsas məsələdir. Etnik və ya milli fərqlərdə məhz bu məsələdə olan fərqlərdən irəli gəlir.

Milli xarakter *millətin tarix boyu formalaşan davamlı psixoloji xüsusiyyətlərin birliyi olub, insanların tipik həyat və adəti davranış tərzini müəyyən edən, eləcə də onların əməyə, başqa xalqlara, millətlərə, öz mədəniyyətinə münasibətində ifadə olunan psixoloji xüsusiyyətdir.* Mili xarakterdə şüur, ideologiya, mənəvi mədəniyyət və ictimai psixika birləşir. Ətraf aləmə münasibət inlanların milli şüurunun istiqamətini səciyyələndirir.

Milli xarakter heç də sabit psixoloji xüsusiyyətlərin məcmusu deyil. Milli xarakter də həyat şəraitinin, siyasi, iqtisadi və sosial vəziyyətdən asılı olaraq, eləcə də ideoloji təsirdən asılı olaraq dəyişir.

Milli xarakter əməyə, başqa xalqlara, özünə və ətraf aləmə bəslənən münasibətdə özünü təzahür etdirir. Məsələn, 2013-cü ildə Fransada eynicinslilərin nigahı haqqında dövlət qanun qəbul edildikdən sonra nigaha girən 18-20 yaşlı iki "oğlanın" valideynlərinin bu hadisəni çox böyük sevinclə qarşılaması və öz

oğlanları ilə fəxr etməsini "Evronyus" kanalı ilə bütün dünyaya elan etməsi mədəniyyət və ya milli xarakter məsələsidir.
Xarakter o cümlədən etnik və ya milli xarakter -fərdin və ya qrupun sosial və ya təbii mühitə adaptasiya olunmasının ən əlverişli üslubudur.

2. Mədəniyyətlərarası psixologiyada milli hiss anlayışı

İnsan ətraf aləmdə baş verən hadisələri sadəcə olaraq qavramaqla, yadda saxlamaqla kifayətlənmir. O eyni zamanda həmin cisim və hadisələrə, insanların davranış və hərəkətinə, fikir və istəyinə müəyyən münasibət göstərir və müəyyən hisslər keçirirlər. Hiss və emosiya da real dünyanın əks etdirilməsinin bir formasıdır. Insanın keçirdiyi hiss və emosiyaların müxtəlif və rəngarəng çalarları var. Xalqa, millətə məxsus olan makromühit adekvat milli hisslərin yaranmasına təsir göstərir. Etnik-milli hisslər ilk növbədə özünüdərketmə ilə bağlıdır. Etnik-milli hisslər xalqın, artıq formalaşmış millətin həyat fəaliyyətini, tarixi keçmişini, gələcəyini və bu gününü əks etdirir.deməli, etnik-milli hisslər etnopsixologiyanın mühüm tərkib hissəsi olan etnik özünüdərketmənin məxsusi cəhəti kimi özünü göstərir.çünki etno-sun, xalqın, millətin formalaşması uzun tarixi inkişafın, xüsusilə etnosun, xalqın psixologiyasının özünəməxsusluğunu təyin edən başlıca amil kimi çıxış edir. Elə bu mənada xalqın və ya millətin hər bir fərdini müəyyən etnik-milli mühitdə yaşaması və tərbiyə alması onda özünəməxsus hiss və emosiyaların yaranması üçün əsas zəmin olur. Etnik-milli hisslər özündərketmə ilə əlaqədar olduğu üçün onların əmələ gəlməsində millətin özünütəhlil, özünümüqayisə, özünümüşahidə, özünüqiymətləndirmə və özünə-nəzarət kimi psixoloji mexanizmlərdən istifadəsi zəruridir. Əks təqdirdə nə etnik özünüdərk, nə də müvafiq etnik-milli hisslər yaranmayacaqdır. Etnik-mili hisslər, etnik xarakter əbədi və dəyişməz deyildir. O, dinamik prosesdir xalqın həyat tərzinin, sosial-iqtisadi şəraitin dəyişilməsilə o da müəyyən dəyişikliyə məruz qalır. Etnik-milli hisslər əsasən xalqın və millətin ərazi, dil, iqtisadi və mənəvi həyat birliyi, dini etiqadı, inamı və qadağalar sistemi əsasında formalaşır.

Milli hisslər *çox mürəkkəb, sosial-psixoloji hal olub, insanların bilavasitə daxil olduqları qrupun həyatında baş verən hadisələrə bəslədiyi emosional reaksiya ilə bağlıdır.* Milli hisslərin formalaşmasına müxtəlif xarici və daxili amillər təsir göstərir. Milli hisslər yalnız bir millətin başqa millətə olan münasibəti ilə məh-dudlaşmır, bu bütövlükdə millətin daxili strukturudur. Milli hisslər millətlərarası qarşılıqlı münasibətlərin, eləcə də siyasi və iqtisadi şəraitin təsirinə məruz qalır. Milli hisslər özünün predmetliliyi, sosial-etnik təmayüllüyü, incəliyi və yüngüllüyü, az və ya çox dərəcədə dərk olunanlığı, həmçinin emosionallığı və ardıcıllığı ilə digər sosial hisslərdən fərqlənir.
Milli hisslərin formalaşmasının əsas mərhələsi xalqın, əhali səviyyəsindən çıxıb millət səviyyəsinə keçə bildikidən sonra başlayır. Onu da qeyd etmək lazımdır ki, milli hisslərin, milli şüurun formalaşması bir qədər ləng baş verir. Xalqın, əhalinin, toplumun millət səviyyəsinə yetişməsi onun inkişafının göstəri-cisidir. Əgər insanlar məkan mənsubiyyətini, milli mənsubliy-

yatdan ön plana keçirirsə deməli, həmin bölgənin insanlarında "biz" hissi hələ də formalaşmayıb və özlərini millət səviyyəsində hələ də dərk etmirlər. Insanları bir millət daxilində regional mənsubiyyətə görə "özünkülərə" və "özgələrə" bölmək və fərqli münasibət bəsləmək, yerliçilik, məhəlləçilik, tayfabazlıq kimi neqativ hisslərin mövcudluğu milli özünüdərkin zəif formada cərəyan etdiyini əks etdirir, millətin isə hələ də tayfa, qəbilə səviyyəsində düşündüyünü və hərəkət etdiyini göstərir. Millətin bütün tarix boyu ağılı, zəhməti və əməyi ilə əldə etdiyi və ya yaratdığı maddi və mənəvi dəyərlər, coğrafi ərazi, adət və ənənəsi, dili, dini, məişəti, ədəbiyyatı, fəlsəfəsi idarəetmə üslubu, sosial-iqtisadi birliyi ilə milli birlik insanların milli hisslərinin predmeti kimi çıxış edir. Etnik milli hisslər bir qayda olaraq xalq, millət üçün səciyyəvi olan etnik stereotiplər, adət və ənənələr, sərvət dəyərlərinin icrası ilə əlaqədar olaraq baş verir. Məsələn, 2013-cü ildə Fransada eynicinslilərin nigahı haqqında qanun qəbul edildikdən sonra nigaha girən 18-20 yaşlı iki "oğlanın" valideynlərinin bu hadisəni qarşılaması çox böyük sevinclə və öz oğlanları ilə fəxr etməsi və bütün bunların "Avronyus" kanalına çıxarılması mədəniyyət və ya milli xarakter məsələsidir. Çətin ki, Azərbaycanda, hətta Rusiyada da bu cür "oğulları" ilə fəxr edən hisslər yalnız bir millətin başqa millətə olan münasibəti ilə məh-dudlaşmır, bu bütövlükdə millətin daxili strukturudur. Milli hisslər millətlərarası qarşılıqlı münasibətlərin, eləcə də siyasi və iqtisadi şəraitin təsirinə məruz qalır. Milli hisslər özünün predmetliliyi, sosial-etnik təmayüllüyü, incəliyi və yüngüllüyü, az və ya çox dərəcədə dərk olunanlığı, həmçinin emosionallığı və ardıcıllığı ilə digər sosial hisslərdən fərqlənir.

Formalaşmş olan milli hisslər daima onun ödənilməsini tələb edir, yəni insanlarda həmin hisslərin yaşanılmasına tələbat yaradır. Milli hisslərlə bağlı tələbatın ödənilməsi milli hisslərin daha da güclənməsinə və daha da inkişaf etməsinə səbəb olur. Milli hisslər ödənilməzsə bəşəri hisslər də əmələ gəlmir. Milli hisslərin yüksək səviyyədə inkişafı heç də millətçiliyə deyil, bəşəriliyə, beynəl-miliyə aparır. Milli hisslərin yaranması, formalaşması və inkişafı psixikanın qanunlarına uyğun olaraq bəşəri hisslərin meydana gəlməsi üçün zəmin hazırlayır.

Etnik-milli hisslər mürəkkəb sosial təbiətli mürəkkəb hisslər-dəndir və milli gerçəkliyin emosionalcasına əks etdirən genetik idrak formasıdır. Milli özünüdərk milli hisslərdən yaranır. Milli hisslər (milli mənsubiyyət hissi, milli qürur və ləyaqət hissi, milli fəxr) olmadan milli özünüdərk prosesi baş vermir. "Özünüdərk-etmənin" məzmunu özü və öz rolunun dərk edilməsi ilə bağlı biliklər təşkil edir.

Milli hisslər kompleksinə daxil olan hisslər arasında **milli qürur hissi** daha çox inkişaf etmişdir. Milli-etnik qürur hissinə daxil olan mənəvi-psixoloji xüsusiyyətlərdən özünəhörmət, milli qürur, milli ləyaqət, özünün tarixdəki yeri, ona verdiyi töhfə, dünyanın mədəniyyət, elm və incəsənət xəzinəsinə verdiyi töhfə, özünün milli dəyərlərə sadiqliyi ilə əlaqəlidir. Xalqın, millətin maddi və mənəvi sərvəti, onun əldə etdiyi naliyyətlər, tarixin səhnəsindəki rolu və yeri, bəşəriyyətin tərəqqisi yolunda atdığı addımlar, elm,

mədəniyyət və incəsənət sahəsindəki uğurları onun milli qürur hissinin obyektini təşkil edir. Milli qürur hissi həm də xalqın, millətin öz müstəqilliyi, azadlığı uğurunda apadığı mübarizə tarixi ilə, dövlətçilik ənənəsilə bağlıdır. Ona görə də milli qürur hissi-milli-etnik hisslərdən ən yüksəyi və güclüsü olduğu üçün millətin şüurunun dərin qatlarına daxildir.

Milli hiss bir qayda olaraq milli maraqla vəhdət təşkil edir. Milli hiss, milli özünüdərk, milli identiklik olmadan insan özünün milli marağını dərk edə və onu müdafiə edib qoruya bilməz. Milli hiss və milli maraq çox güclü psixoloji amildir həmrəylik, birlik hissinin yaranmasına təsir göstərir. Bu hisslər ətrafında insanlar tezliklə birləşir və özlərinin milli maraqlarını müdafiə etməkdən zövq alırlar.

Milli hisslər və millətçilik hissləri anlayışlarını fərqləndirmək lazımdır. Milli hisslər daha çox vətənpərvərliklə əlaqəlidirsə, millətçilik daha çox şovinizmə, xudbinliyə yaxındır. ***Millilik və vətənpərvərlik*** öz vətənini, dövlətini xalqını, millətini sevmək, onun inkişafı yolunda xidmət göstərməklə asossasiya olunursa, ***millətçilik*** öz millətindən savayı bütün başqa xalqlara, onun mədəniyyətinə neqativ münasibət bəsləməklə əlaqəlidir. Vətənpərvərlikdən fərqli olaraq millətçilik daha çox əməldə yox, sözdə vətəni, milləti sevməkdir.

Millətçilik özündə bir neçə neqativ hiss və emosiyalar kompleksini birləşdirir:

- Milli antipatiya hissi
- Milli eqoizm hissi
- Milli ədavət, nifrət və kin hissi
- Milli şovinizm, hegemonluq, lovğalıq hissi

2.6. **Mədəniyyət və emosiya**

İnsanlar üçün həm universal, həm də fərqli emosiyaların olması etnopsixoloji mədəniyyət faktrı ilə bağlıdır. Mədəniyyət, etnopsixoloji fərqlə insana təsir göstərir və onun emosional-iradi sferasını formalaşdırır. Bunula oxşar və fərqli hisslər yaşanılır. İnsan emosiyalarının tədqiqi ilə aparılan krosskultural tədqiqatların bir qismi emosiyaların ifadə olunması (mimika) ekspressiyası ilə bağlıdır.

İnsan emosiyaları heç də təməl emosiyalarla məhdudlaşmır. Sadəcə olaraq digər emosiyalar həmin emosiyalar əsasında formalaşır və mədəniyyətin təsirindən asılı olaraq fərqli şəkildə təzahür edir. Ekman və Frizen ziddiyətli suallara aydınlıq gətirmək üçün emosiyaların ifadəsinin mədəni qaydaları konsepsiyasını təklif etdilər. Onlar qeyd edir ki, mədəni fərqlər universal emosiyaların ifadə olunması ilə bağlı irəli sürülən qayda və şərtlərdə özünü göstərir. Öz fərziyyələrini yoxlamaq üçün Ekman və Frizen yoxlanılanlara güclü stres yaradan film nümayiş etdirmiş və onların reaksiyasını videolentə çəkmişlər. Ekspremention birinci

mərhəlləsində yoxlanılanlardan başqa zalda heç kim olmamışdır. İkinci seriyada isə yoxlanılanlardan eksperimentatorla birlikdə filmə baxmaq təklif olunur. Çəkilişin nəticələrinin təhlili əsasında məlum oldu ki, amerikanlardan fərqli olaraq yaponlar, başqaların iştirakı şəraitində neqativ emosiyalarını gizlətmiş və yalnız gülümsəmişlər. Deməli, mədəni dəyərlərin təsiri olmadığı mərhələdə, həm amerikanlar, həm də yaponlar eyni formada yaşadıqları emosiyaları göstərmişlər.Yəni güclü stresə uyğun olaraq qəzəb, qorxu hissini ekspresiya etmişlər. İkinci mərhələdə isə mədəni fərqlər dərhal özünün təsiri göstərmiş və yaponlar yalnız təbəssümlə reaksiya vermişlər. Ona görə ki, özündən yaşlı şəxsi kədərləndirmək, ümumən başqasına neqativ emosiyanı nümayiş etdirmək yapon əxlaqına görə olmaz. Göründüyü kimi, birinci mərhələdə emosiyaların universallığı, ikinci mərhələdə isə mədəni fərqlər özünü göstərdi.

"Keep smiling" amerikanların gündəlik həyatda qarşılıqlı münasibətlərin tənzimlənməsi üçün istifadə etdiyi etiket qaydasıdır. İslam əxlaqında gülüş, təbbəsüm sədəqə səviyyəsində dəyərləndirilməsinə baxmayaraq, bu etiket qaydası hal-hazırda amerikanlar tərəfindən daha çox istifadə olunur. Bu gün amerikanların gündəlik ünsiyyət zamanı istifadə etdikləri amerikansayağı təbbəsüm, heç də ondan istifadə edən şəxsin əhvalının göstəricisi deyil. Bu sadəcə olaraq işgüzar təbəssümdən başqa bir şey deyil. Ona görə də ilk dəfə amerikanlı ilə rastlaşan emiqrant elə başa düşməsin ki, qarşı tərəf onu gördüyü üçün sevinir.

3. Mədəniyyətlərarası psixologiyada stereotip anlayışı

Psixologiya elminin, xüsusilə onun sosial və etnopsixologiya sahələrində istifadə edilən əsas analyışlardan biri də stereotip, sosial stereotip və etnik stereotip analyışlarıdır. *İlk növbədə onu qeyd edək ki, stereotip sözü yunan dilində* ***stereos möhkəm*** **+** ***tupos iz*** *deməkdir.* **Sosial stereotiplər** *hər hansı bir hadisə, qrup, tarixi şəxsiyyət, peşə, xalq haqqında yalnız müvafiq sosial məkanda yaşayan insanlar üçün səciyyəvi olan təsəvvürlərdən ibarət olan psixi hadisədir.* İnsanlar sosial stereotiplərə sosializasiya prose- sində yiyələnirlər. "Sosial stereotip" termini ilk dəfə amerikan sosioloqu ***U.Lipman*** tərəfindən **1922-ci ildə** "İctimai fikir" əsərində işlədilmişdir. U.Lipmana görə, stereotiplər mədəniyyətlə deter- minasiya olunan, nizamlanan "dünya təsviridir" və onun köməyi ilə mürəkkəb sosial obyektlərin qavranılması üçün göstərdiyimiz səylərə qənaət edir və dəyərləri, mövqeyimizi və hüququmuzu mü- dafiə edirik. Başqa sözlə ifadə etsək, stereotiplər sosial informasiya axınında insanı istiqamətləndirir və ona özünü qiymətləndirməsini qorumağa kömək edir. Stereotiplər sadə, ümumiləşmiş və bəzən də təhrif olumuş şəkildə olduğu üçün o qədər də etibarlı deyildir. Hər bir stereotipdə sosial obyektlər haqqında müəyyən biliklər öz əksini tapır, lakin onların əsas funksiyası heç də bunula bağlı

deyildir. Stereotiplər əsasən sosial obyektlərə (peşə, xalq, qrup, müəyyən sinif, əhali təbəqəsi və s.) müəyyən münasibət yaradır, eləcə də fərdin sosializasiyasına kömək edir. *Stereotiplər insanların şəxsi təcrübəsinin ümumiləşdirilməsi əsasında formalaşdırılr. Adətən tamaşa etdiyimiz filmlər, oxuduğumuz müxtəlif ədəbiyyat nümu- nələri, eşitdiyimiz əhvalatlar və söhbətlər, eləcə də şahidi oldu- ğumuz hadisələr müəyyən sosial obyekt haqqında müvafiq stereo- tipin yaranmasına eləcə də olan stereotipin daha da möhkəm- lənməsinə səbəb olur.* Sosial stereotiplər bir tərfdən insanların, xalqların bir-birini yaxşı başa düşməyə, digər təfrəfdən də düzgün dərk etməsinə mane olur. Deməli, əsas məsələ sosial stereotipin adekvatlıq dərəcəsindən çox asılı olur. Sosial stereotipin yaranması bir tərəfdən müvafiq sosail obyektə olan münasibətdən, digər tərəfdən həmin obyekt haqqında əldə etdiyimiz məlumatın nə dərəcədə həqiqəti əks etdirməsindən asılıdır. Müasir dövrdə qloballaşma şəraiti, dünya xalqları arasında inteqrasiyanını güclənməsi, xalqlar haqqında əsassız şəkildə formalaşmş olan neqativ stereotiplərin aradan qalxmaslına köməklik göstərir.Lakin, bəzi hallarda xalqlar, millətlər arasında olan konfliktlər, maraqların toqquşması və yaxud qarşıdurmanın olmasında marağı olan daxili və xarici qüvvələr qəsdən neqativ stereotiplərin yayılmasına səy göstərirlər. Dünyada siyasi balansın tənzimləyiçisi rolunda çıxış edən SSRİ-nin süqutundan sonra bəzi xristian ölkələri, dünyaya təkbaşına hakimlik etmək üçün "müsəlman" stereotipi yaratmış və islam, yaxud müsəlman ölkələrində, islam mədəniyyəti üçün səciyyəvi olan xüsusiyyətlər haqqında neqativ heterostereotiplər formalaşdırmaqla, həmin xalqlar qarşı təhdidlər edirlər.

Etnik stereotiplərin məzmununda emosional qiymətləndirmə var. Belə ki, stereotiplərin həm koqnitiv, həm də emosional aspekti var. İnsanların başqa qruplara olan münasibəti, onlarla bağlı formalaşan stereotipdə özünü göstərir. Bu mənada stereotiplər həm müsbət, həm də mənfi emosional yükə malik olur.

S.Fisk stereotiplərin dörd növünü ayırd etmişdir:

- *nifrət stereotipi bu stereotip adətən "yad, özgə" aşağı statuslu və mötəbər olmayan qruplara münasibətdə özünü göstərir, "soyuq" kimi qiymətləndirilir;*
- *heyranlıq stereotipi bu stereotip özünkülər hesab etdiyi qruplara münasibətdə təzahür edir və onlara mötəbərlilik, yüksək status və "istilik" aid edilir.*
- *həsəd stereotipi bu stereotip yüksək statuslu, yad, özgə, mötəbər, lakin "soyuq" qruplara münasibətdə özünün göstərir;*
- *paternalist stereotipi isə aşağı statuslu, mötəbər olmayan lakin, "isti" olan qruplara qarşı münasibətdə özünü göstərir.*

Ethik stereotiplərin digər mühüm xüsusiyyəti onların *davamlı* olmasıdır. Yəni formalaşmış olan stereotip uzun müddət işləyir, qarşılıqlı münasibətə təsir göstərir. Stereotipin dəyişməsi, yenisi ilə əvəz olunması xeyli müddət tələb edən, çətin prosesdir. Etnik stereotiplərin digər xüsusiyyətləri onların razılaşdırılmış və qeyri dəqiq olmasıdır. A.Teşfel etnik stereotiplərin razılaşdırılmış əlamət olmasını vacib şərt hesab edir və qeyd edir ki, qrup üzvlərinin böyük əksəriyyətinin fikir, hiss və davranışında özünü göstərdiyi halda, həmin hadisəni etnik stereotip kimi qəbul etmək olar. Etnik stereotipərin qeyri-dəqiq olması qarşılıqlı münasibətlərin düzgün qurulmasına, şəxsiyyətlərarası qavrayışda konfliktlərin yaranmasına səbəb olur. 50-ci illərdən başlayaraq amerikan psixoloqu O.Klaynberq "həqiqət rüşeymi" fərziyyəsinin irəli sürdü və bu fərziyyəyə görə stereotiplərdə həqiqi biliklər, yalançı məlumatlardan həmişə çox olur. Beləliklə, etnik stereotilər gerçəkliyi nə qədər təhrif olunmuş şəkildə əks etdirsə də, biz onu real həyatdan alırıq. Beləliklə, etnik stereotiplər, əksər hallarda stereotipləşdirilən qrupun real xüsusiyyətlərini əks etdirir.

Sosial kauzal atribusiya dedikdə başqasının davranış və hərəkətinin səbəbinin izah edilməsi başa düşülür. Etnik birliklər, ayrı-ayrı qruplar arasında konflikt, problem bəzi hallarda iştirakçıların bir-birinin davranışının səbəbini düzgün başa düşə bilməməsi ilə bağlıdır. Müəyyən edilmişdir ki, adətən qrup üzvləri əldə etdikləri naliyyətləri, yaxşılıqları, müsbət hərəkətləri, xeyirxahlığı öz adlarına çıxır, daxili keyfiyyət hesab edir, uğursuzluqları, koflikti, mübahisəni, neqativ davranışı,

aqressiv hərəkəti isə başqaları ilə onların pis hərəkəti ilə şərtləndiyini göstərirlər. Aparılmı tədqiqatlarla bir daha təsdiq olundu ki, insanlar öz qruplarının pozitiv, başqa qrup üzvlərinin, yəni başqa xalqların isə neqativ hərəkətlərinin səbəbini daxili amillərlə, yəni xalqın və etnosun daxili keyfiyyətlərilə əlaqəli olduğunu sübut etmişlər. Özünkülərinin pis hərəkətlərini, başqalarının isə yaxşı hərəkətlərini xarici səbələrlə əlaqəli baş verdiyini göstərirlər. Öz və başqa qrupunu uğur və uğursuzluğunu bu cür izahı etnosentrik atribusiya adlanır. Sosial atribusiyanın ən əsas funksiyası- pozitiv qrup identikliyini formalaşdırmaq, ona nail olmaq və gücləndirməkdir.

Stereotiplər insan qrupu və birliyi haqqında ümumiləşmiş təsəvvür olub, əsasən psixoloji xüsusiyyət və əlamətləri özündə əks etdirir. Güzəran psixologiyasında stereotiplər adətən mənfi əlamətləri ifadə edir, əslində isə stereotiplər həm müsbət, həm də mənfi məzmuna malikdir. Məsələn, yaponlar ağıllı, almanlar səliqəli, fransızlar modabaz, çinlilər zəhmətkeş, ruslar kefli, ingilislər soyuqanlı və etibarsız, yəhudilər xəsis, azərbaycanlılar qonaqpərvər, ermənilər hiyləgər və yaltaq olurlar. Stereotiplər heç də həmişə etibarlı mənbəə hesab olunmur. Onlar həm yanlış, həm də düzgün ola bilər. Triandis "faktiki"müşahidələrə əsaslanan stereotipləri sosiotip adlandırmağı təklif etmişdir. Stereotiplərin formalaşmasının başa düşmək üçün bu prosesin psixoloji təhlilini aparmaq lazımdır. Stereotiplər normal psixoloji prosesin məhsuludur və qavrama prosesini asanlaşdırır. Stereotiplər əsasən aşağıdakı proseslər nəticəsində meydana çıxır: seçici diqqət, qiymətləndirmə, anlayışların formalaşdırılması və kateqoriyallaş- dırma, atribusiya, emosiya, hafizə.

Qeyd etdiyimiz psixi proseslər bir birilə qarşılıqlı əlaqədə və təsirdə olmaqla stereotipləri psixi həyatımızın zəruri tərkib hissəsinə çevirmişdir. Stereotiplər, bizə ətraf aləmdə baş verən hadisələri, xüsusilə də insan qruplarını başa düşməkdə bizə əlavə səy göstərməyimizə qənaət etməyimizə kömək edir. Digər tərəfdən hər hansı qrup haqqında formalaşan stereotip qarşılıqlı münasibətin qurulmasına, qavrama və anlama prosesində özünəməxsus çətinliyin yaranmasına və qruplararası zidiyyətin baş verməsinə səbəb olur. D.Matsumoto, stereotipləri mental anlayış kateqoriyası hesab etmişdir (121). Stereotiplər, insanların gözləntilərindən asılı olaraq möhkəmləndirilir. Insanların gözləntisi də, onlarda formalaşan stereotiplərə uyğun olaraq dəyişir. Etnik stereotiplər-digər psixoloji proseslər kimi insanın "Biz" konsepsiyasına daxildir.

Etnik stereotiplər bir halda fərdin özünün müşahidəsi nəticəsində, əksər hallarda isə sadəcə olaraq nəsildən-nəsilə ötürülmək yolu ilə mənimsənilir. Müasir dövrdə stereotiplərin yaranması və məhkəmləndirilməsində KİV və ölkə ərazisində aparılan sosial siyasət, eləcə də qonşu etnoslar , xalqlara, qruplara olan münasibət əsas rol oynayır. Məsələn, ermənilər türklər haqqında daima mənfi stereotip, ruslar haqqında isə müsbət stereotip yaratmaqla əhalidə müvafiq münasibətin əmələ gəlməsinə nail olurlar.

Etnik stereotiplər milli özünüdərkə, etnik identifikasiyaya təsir, millətdə "biz" hissini qoruyub saxlayan və inkişaf etdirən etnopsixoloji hadisədir.

Paternalizm siyasi ideologiya kimi inkişaf etməkdə olan ölkələrə və xalqlara göstərilən "atalıq qayğısı", bu məqsədlə kömək göstərmək, xeyirxahlıq etmək. Əslində isə bu "qayğıkeşlik" ölkənin siyasi və iqtisadi cəhətdən asılı vəziyyətə salmaq üçündür. Paternalizm həm də sahibkarın, özünün istisimarçı münasibət və fəaliyyətini gizlətmək üçün həyata keçirdiyi xeyriyyə tədbirləridir.

Ruslar yaxşı içki içən olurlar. Ailədə qısqanc deyillər. Yəhudlilər çox xəsis və varlı olurlar. İngilislər sabit insanlar deyil, hər şeydə öz xeyirlərini güdür və varlı olurlar. Afrikalılar temperamentli, almanlar dəqiq və yığımcıl, ingilislər soyuqanlı, fransızlar modabaz, qafqazlılar qanar təbiətli, azərbaycanlılar qonaqpərvər olurlar. Avtostereotiplər əksərən müsbət, hetereostereotiplər isə həm müsbət, həm də mənfi olur. Etnik stereotiplər iki yerə bölünür: avtostereotiplər və heterosteretiplər.

Stereotip sözü yunan dilində stereos möhkəm + tupos-iz deməkdir.

Sosial stereotiplər hər hansı bir hadisə, qrup, tarixi şəxsiyyət, peşə, xalq haqqında yalnız müvafiq sosial məkanda yaşayan insanlar üçün səciyyəvi olan təsəvvürlərdən ibarət olan psixi hadisədir.

Autostereotiplər (auto stereo types) fərdin daxil olduğu qrupa (etnos, xalq, millət) aid olan

ümumiləşmiş təsəvvürdür. ***Heterostereotiplər*** (hetero-stereotypes) başqa, yad qrupa (etnos, xalq, millət) aid olan ümumiləşmiş təsəvvürdür.
Atribusiya (attribution) özümüzün və ya başqasının davranışının səbəbi haqqında hasil etdiyimiz qənaətdir.
Etnik stereotiplər sosial mühitin heykəltaraşı kimi qrupun və ya fərdin davranışında "artıq" olanı yonub "təmizləyir, onu müvafiq mühitə daha asanlıqla uyğunlaşmasını təmin edir.

Mövzu 10.Mədəniyyətlərarası adaptasiyanın xüsusiyyətləri

Plan:

1. Mədəniyyətlərarası adaptasiya probleməri

2. Mədəniyyət sarsıntısı ("mədəni şok") və mədəniyyətlərarası adaptasiyanın mərhələləri.

3. Fərdi və qrup faktorları

4. Qrup və fərdlər üçün mədəniyyətlərarası əlaqələrin nəticələri

5. Mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq

Ədəbiyyat:

Babayeva Ş.R. Diplomatik xidmətin psixoloji əsasları. Bakı: ADPU-2019
2. Bayramov Ə. Etnik psixologiya. B., 2001
3. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı, 2007
4. Əliyev R.İ. Mentalitet. Bakı, 2009. 309 səh.
5. Əliyev R.İ. Şəxsiyyətin və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.442 səh.
6. Əlizadə. Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003. 352 səh.
7. Nuruzadə Ş. Etnik münaqişələr. Bakı, 2015.
8. Агеев В.С. Межгрупповое взаимодействие: социально-психологические проблемы.- М., 1990

*** Mövzu ilə bağlı elektorn resurslar**

https://kp-tts.ru/az/psihologiya-kross-kulturnoi-adaptacii-teoriya-kross-kulturnoi.html

https://cyberleninka.ru/article/n/osobennosti-mezhkulturnoy-adaptatsii-latinoamerikanskih-studentov-v-rossii/viewer

Mədəniyyətlərarası adaptasiya probleməri

Müxtəlif ölkə və millətlərin arasında vasitəsiz əlaqələrin yaradılması onların arasında daha asan və etibarlı münasibətlərə gətirib çıxarar. Bütün miqrantlar yerli əhali ilə qarşılıqlı münasibətlərdə olanda çətinliklərlə rastlaşırlar. Həmin ölkənin adətləri qəribə, ölkə isə sirli gəlir. Bəzən şəxsiyyətlərarası ünsiyyətin çoxalması stereotiplərin daha da güclənməsinə də gətirə bilər. Ona görə müxtəlif ölkə və xalqlar arasında daha etibarlı ünsiyyətin hansı şərtlərlə qurmasını təyin etmək vacibdir.

Tədqiqatçılar müxtəlif mədəniyyət və etnoslarının nümayəndələrinin qarşılıqlı əlaqələrinin əlverişli olması üçün bir neçə dəyişkən kəmiyyətləri nəzərdən keçiriblər:

1. *Qarşılıqlı əlaqələrin müddəti (daimi, uzun və qısa).*
2. *Məqsəd (birgə fəaliyyət, təhsil, asudə vaxt)*
3. *Cəmiyyətin həyatına qoşulma tipi (iştirakdan müşahidəyə qədər)*
4. *Əlaqələrin tezliyi və dərinliyi*
5. *Status və hüquqların nisbi sabitliyi*
6. *Açıq-aşkar fərqli xüsusiyyətlər (dil, din, irq)*

Lakin, ünsiyyətin əlverişli şərtləri olduqda belə miqrantlarda yerləşdikləri ölkənin nümayəndələri ilə ünsiyyətdə çətinliklər və gərginliklər yarana bilər. Çox vaxt miqrantlarda nostalji hisslər baş qaldırır. Alman filosofu və psixiatrı Yaspersin qeyd etdiyi kimi vətən həsrəti insanlara çox qədimdən tanış olan bir hissdir. Ona görə də mədəniyyətlərarası adaptasiyanın öyrənilməsi çox böyük əhəmiyyət daşıyır. Geniş mənada bu mürəkkəb bir proses sayəsində insan yeni mədəni mühitlə bir uyğunluq tapır. Adətən adaptasiyanın daxili tərəfini qeyd edirlər, hansı ki, məmnuniyyət və həyat dolğunluğu hissləri ilə ifadə olunur. Xarici tərəfi isə fərdin yeni qrupun sosial və mədəni həyatında olan iştirakında ifadə olunur.

Mədəniyətlərarası adaptasiya problemlərinə maraq elm dünyasında XX əsrin əvvəllərinə təsadüf edir. Lakin, uzun müddət ciddi araşdırmaları yalnız etnoloqlar (Redfild, Linton) aparmışdır. İlkin olaraq akkulturasiyaya (mədəniyyətə adaptasiya) qrup səviyyəsində olan bir fenomen kimi baxılırdı.

1950-ci illərdən başlayaraq kütləvi miqrasiya prosesləri mədəniyyətlərarası adaptasiyaya marağın yaranmasını stimullaşdırılmışdır. İlk olaraq insanın yad mədəniyyətə uyğunlaşa bilməmək hadisəsinə psixiatrlar diqqət yetirmişdilər. İsveçrə həkimi Hofer vətən həsrətini nostalgiya (qüssə) adlandırmışdır və bu problem XVII-ci əsrdən öyrənilməyə başlanılmışdır.

Mədəniyyət sarsıntısı ("mədəni şok") və mədəniyyətlərarası adaptasiyanın mərhələləri.

Mədəniyyət sarsıntısı anlayışı amerika antropoloqu K.Oberq tərəfindən təqdim olunmuşdur. Oberqin fikrincə, yeni mədəniyyətə daxil olma xoşagəlməz hisslərlə müşayiət olunur dostların və statusun itirilməsi, rədd edilmə, mədəniyyətlərarası fərqləri dərk etmə zamanı narahatlıq və təəccüb, dəyərlərdə, eləcə də sosial və şəxsi identifikasiyada qarışıqlıq.

Mədəniyyət sarsıntısının simptomları çox müxtəlifdir: qida, suyun keyfiyyəti, qabların, yataq dəstlərinin təmizliyi barədə daimi

narahatçılıq, başqa insanlarla fiziki kontaktların qorxusu, ümumi narahatçılıq, alkoqol və narkotiklərə aludə, psixosomatik xəstəliklər, depressiya və intihar cəhdləri. Situasiya üzərində kontrolu itirmək hissi, şəxsi səriştəsizlik və ümidlərin doğrulmaması, yerləşdikləri ölkənin nümayəndələrinə qarşı qəzəb, aqressiya, düşmənçilik hisslərində ifadə oluna bilər.

Çox vaxt "mədəni şok" neqativ nəticələrlə müşahidə olunur, lakin onun pozitiv tərəfi də var. Bəzən mədəniyyət sarsıntısı nəticəsində fərdlərdə yaranan ilkin narahatlıq yeni dəyərlər və davranış modellərinin qəbuluna gətirib çıxarır. Bu isə şəxsi inkişaf və şəxsi artım üçün cox vacibdir. Bundan çıxış edərək kanada psixoloqu Berri "mədəni şok" əvəzinə "akkulturasiya stressi" anlayışını təklif etmişdir, çünki "şok" sözü neqativ təcrübə ilə assosiasiya olunur. Mədəniyyətlərarası əlaqələr nəticəsində isə müsbət təcrübə də əldə olunur, problemlərin qiymətləndirilməsi və aradan qaldırılması.

Triandis adaptasiya prosesinin 5 mərhələsini qeyd edir:

I mərhələ. "Bal ayı" ruh yüksəkliyi, yüksək əhval-ruhiyyə, böyük ümidlərlə xarakterizə olunur. Doğrudanda, çoxlarını xaricdə gözləyirlər (tələbələri, iş adamlarını, qohumları). Onları qəbul edənlər çalışırlar ki, onlar özlərini evdəki kimi hiss etsinlər, hətta müəyyən güzəştlərə gedirlər. Lakin, bu mərhələ tez keçir.

II mərhələ. Bu mərhələdə tanış olmayan mühit artıq öz neqativ təsirini göstərməyə başlayır. Xarici şəraitdən başqa yeni mədəniyyətdə insana psixoloji faktorlar da təsir edir: yerli sakinlərlə qarşılıqlı anlaşılmazlıq hissi və onlar tərəfindən rədd edilmə. Bunlar hamısı frustrasiya, depressiya, ümidsizlik, özünü itirmə kimi emosiyaların yaranmasına gətirib çıxarır. Bu mərhələdə insan reallıqdan qaçmaq istəyir və daha çox öz yerliləri ilə ünsiyyət saxlayaraq öz təəssüratlarını onlarla bölüşür.

III mərhələ. Bu mərhələdə "mədəni şokun" simptomları kritik nöqtəyə çata bilər, bu da müxtəlif xəstəliklər və tam çarəsizlik hissində ifadə olunur. Yeni mühitə uğurla adaptasiya olunmayanlar isə vaxtından əvvəl öz vətəninə qayıdırlar.

IV mərhələ. Lakin çox vaxt yad ölkəyə gələnlər ətraf mühitdən sosial yardım alırlar və onların köməyi ilə mədəni fərqləri aradan qaldıra bilirlər- dili öyrənirlər, yerli mədəniyyətlə tanış olurlar və s. Bu mərhələdə depressiya yavaş-yavaş nikbinliklə, inam və razılıq hissi ilə əvəz olunur. İnsan özünü cəmiyyətin həyatına daha da uyğunlaşmış və inteqrasiya olunmuş hiss edir.

V mərhələ. Bu mərhələ tam və uzunmüddətli adaptasiya ilə xarakterizə olunur, yəni mühitin tələblərinə cavab olaraq fərdin stabil dəyişiklikləri başa düşülür. Uğurlu adaptasiya fərdin öz vətənində adaptasiya səviyyəsi ilə eyni olmalıdır.

Lakin, çox uğurla adaptasiya olunmuş insanların iztirabları vətənə döndükdən sonra da davam edə bilər. Çünki, onlar "re-adaptasiya" dövründən keçməlidirlər, "qayıdış şoku" keçir-məlidirlər. Əvvəl onlar yüksək əhval-ruhiyyədə olurlar, dostların və qohumların görüşlərinə şad olurlar, öz ana dilində danışmaq imkanından sevinirlər, sonralar isə təəccüblə dərk edirlər ki, öz doğma mədəniyyətin xüsusiyyətləri onlara qəribə gəlir.

Çoxsaylı empirik tədqiqatlar bu mərhələlərinin universallığına şübhə ilə yanaşmışdılar. Çünki, insanlar yeni mədəni mühitə düşdükdə mütləq olaraq bu mərhələlərin hamısından keçmirlər. "Mədəniyyət sarsıntısını" bütün insanlar keçirmir. Bəziləri isə mədəniyyət sarsıntısının simptomlarını hissi edən kimi öz vətəninə dönürlər və vətənə qayıdış da həmişə travmatik olmur.

Yeni mədəni mühitə adaptasiya prosesinə bir çox faktorlar təsir göstərir. Bu faktorları ***fərdi*** *və* ***qrup*** *faktorlara bölmək olar.*

Fərdi faktorlar**:**

1. ***Fərdi fərqlər - demoqrafik və şəxsi.***

Adaptasiya prosesinə yaş çox güclü təsir göstərir. Balaca uşaqlar daha tez və uğurla uyğunlaşırlar, məktəblilər üçün isə bu proses çətinləşir, çünki sinifdə xarici görünüş, dil, ədaları, hətta fikirləri ilə öz yoldaşlarına oxşamalıdırlar. Mədəni mühitin dəyişilməsi yaşlı insanlar üçün ən ağır bir sınaq olur. Bir çox psixoterapevt və həkimlərin fikrincə, yaşlı mühacirlər yad mədəniyyətə tamamilə uyğunlaşa bilmirlər.

Kişilərə nisbətən qadınlar adaptasiya prosesində daha çox problemlərlə üzləşirlər.

Adaptasiyanın uğurlu olmasına təhsil də öz təsirini göstərir: nə qədər ki təhsil alidir, o qədər də "mədəni şokun" simptomları az olacaq. Demək olar ki, yüksək intellektual və alitəhsilli cavanlar daha uğurla adaptasiya olunurlar.

2. ***Fərdin həyat təcrübəsi.***

Miqrantların dəyişikliyə hazırlığı da çox böyük rol oynayır. Əgər onlarda adaptasiyaya motivasiya varsa bir çox hallarda onlar dəyişikliklərə daha həssas olacaqlar (məs., xaricdə oxuyan tələbələrin məqsədi diplom almaq və vətənə döndükdə yüksək prestijli işə düzəlmək. Bu məqsədə görə onlar müxtəlif çətinliklərə dözə bilirlər).

Hər hansı bir ölkənin tarixi, mədəniyyəti, həyat, yaşam tərzi ilə ilkin tanışlıq da adaptasiya prosesinə təsir göstərir. Uğurlu adaptasiyanın ilk addımı ölkənin dilini bilməkdir. Bu əlacsızlıq və asılılıq hissini azaldır və ölkə "sahiblərinin" hörmətini qazandırır.

Adaptasiya prosesinin uğurlu keçməsinə təsir edən ən vacib faktorlarından biri də yerli sakinlərlə dostluq əlaqələrin yaradılmasıdır. Yerli sakinlər arasında çoxlu dostları olan insanlar daha çox informasiya əldə etmiş olurlar.

Adaptasiya prosesinə təsir edən *qrup faktorları* içərisində qarşılıqlı əlaqədə olan mədəniyyətlərin xüsusiyyətlərini qeyd etmək lazımdır:

1. ***Mədəniyyətlərarası oxşarlıq və fərqlər dərəcəsi.***

Çoxsaylı tədqiqatların nəticələri göstərir ki, mədəniyyət sarsıntısının təzahür dərəcəsi mədəni distansiya (məsafə) ilə əlaqəlidir. Yəni nə qədər ki yeni mədəniyyət öz doğma mədəniyyətə bənzəyirsə, adaptasiya prosesi bir o qədər az travmatik olacaq. Babiker mədəni distansiya indeksini təklif etmişdir. Bu indeksə dil, din, ailə strukturu, təhsil səviyyəsi, iqlim, qida, geyim və s. daxil etmişdir.

Adaptasiya prosesinə obyektiv mədəni distansiyadan başqa digər faktorlar da təsir göstərir:

- iki xalqın münasibətləri arasında münaqişə, müharibə, soyqırımın olub və ya olmaması;

- *ev sahibi ölkənin xüsusiyyətləri ilə tanışlığın dərəcəsi və dil sərişt*əliyi;

- *statusların bərabərliyi və ya bərabərsizliyi*

*2. **Doğma mədəniyyətin xüsusiyyətləri***

Ənənələri çox güclü olan və davranışları rituallaşmış ölkənin nümayəndələri çətin adaptasiya olunurlar. Bu Yaponiya, Koreya, Çin, Cənub-Şərqi Asiya vətəndaşlarıdır.

Çox vaxt "böyük dövlətlərin" nümayəndələri pis adaptasiya olunurlar, çünki onlara xas olan təkəbbürlük imkan vermir ki, onlar başqalarını öyrənsinlər. Bu ölkələrin sakinləri hesab edirlər ki, onlar yox, başqaları onları öyrənməlidirlər. Məs., rus və amerikalılar öz dillərindən başqa dil öyrənmək istəmirlər, lakin kiçik dövlətlərin sakinləri bir çox xarici dilləri öyrənməyə üstünlük verirlər.

3.Xarici ölkənin xüsusiyyətləri, xüsusilə gəlmələrə təsir etmə üsulları: onları assimillyasiya etməyə və ya mədəni fərqliliyə tolerantlıq nümayiş etdirmək. Məs., yaponlar gəlmələrdən çox vaxt uzaqlaşırlar, qaçırlar.

Qrup və fərdlər üçün mədəniyyətlərarası əlaqələrin nəticələri. Mədəniyyət sarsıntısı və mədəniyətlərarası adaptasiya tədqiqatlarına uzun müddət klinik aspekt xas idi. Lakin, son zamanlar dünya sosial psixologiyasında bu problemi etnoslararası və mədəniyyətlərarası münasibətləri nəzərə almaqla dərindən təhlil etmək barəsində də fikirlər söylənilmişdir.

Boçner qrup üçün mədəniyyətlərarası əlaqələrin nəticələrini 4 ümumi kateqoriyaya aid edib:

- *soyqırım*, yəni qarşı qrupun məhv edilməsi

- *assimilyasiya,* yəni dominant qrupun adət, norma və inamların könüllü və ya məcburi, tədricən qəbul edilməsi

- seqreqasiya , yəni qrupların ayrı inkişaf kursu

- *inteqrasiya*, yəni cəmiyyətə birləşmə prosesində qrupların öz mədəni identikliyini qoruyub saxlamaq.

Bu modelin müəllifi fərdlər üçün də mədəniyyətlərarası əlaqələrin mümkün nəticələrini göstərmişdir.

Adaptasiya prosesində "qaçaq" yad mədəniyyətin xeyrinə öz mədəniyyətindən imtina edir; "şovinist" doğma mədəniyyətin xeyrinə yad mədəniyyətindən imtina edir; "marginal" iki mədəniyyət arasında tərəddüd edir; "vasitəçi" iki mədəniyyəti sintez edir.

Oxşar konseptual sxemi Berri də təklif etmişdir. Onun fikrincə, həm fərd, həm də qruplar 4 strategiyadan istifadə edə bilərlər. Bunları akkulturasiya strategiyaları adlandırmışdır.

- *İnteqrasiya*- qarşılıqlı əlaqədə olan qruplar və onların nümayəndələri öz mədəniyyətini qoruyub saxlayırlar, eyni zamanda bir-biri ilə sıx münasibətlər yaradırlar.

- *Assimilyasiya*- qrup və onun üzvləri öz mədəniyyətlərini itirirlər, amma digər mədəniyyətlə əlaqələri saxlayırlar

- *Separatizm*- qrup və onun üzvləri öz mədəniyyətini saxlamaqla digər mədəniyyətlərdən imtina edirlər.

- *Marginalizasiya*- qrup və onun üzvləri öz mədəniyyətlərini itirirlər, amma digər mədəniyyətlərlə də sıx əlaqə yaratmırlar.

Bu modellərin müəllifləri uğurlu adaptasiya yad mədəniyyətlə assimilyasiya olmaması fikri ilə həmrəydilər. Bu nəinki yeni mühitə sosial və emosional uyğunlaşmadır, çünki insan yeni cəmiyyətdəki həyata yaxşı uyğunlaşmış ola bilər. Mədəniyyətlərarası adaptasiya yeni mədəniyyətə qoşulma, onun norma, dəyərləri və davranış modellərinin tədricən mənimsənilməsidir. Bununla yanaşı əsl adaptasiya hər hansı bir mədəniyyətə öz mədəniyyətinin zənginliyini itirməmək şərtilə sosial və psixoloji inteqrasiyasıdır .

Mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq.

Fərdlərin mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq təlim proqramların hazırlanmasından ibarətdir. Təlim proqramların hazırlanmasına **maarifləndirmə, istiqamətləndirmə, təlimatlandırma və treninqlər** daxil edilir.

Maarifləndirmənin məqsədi, yeni mədəniyyət, etnos haqqında biliklərin əldə edilməsidir (ölkənin tarixi, coğrafiyası, adət-ənənələri və s.).

İstiqamətləndirmənin məqsədi, insanı yeni ölkənin xüsusiyyətləri ilə tez məlumatlandırmaq.

Təlimatlandırma müxtəlif problemlərə geniş baxışı təmin edir və ya hansısa ayrı-ayrı aspektlərə diqqətini cəmləşdirir.

Treninq digər qrup üzvləri ilə vasitəsiz qarşılıqlı əlaqələr yaratmağa kömək edir. Hər hansı bir treninq proqramı bir neçə suallara cavab verir, yeni mühitdə insanlarla əlaqələri necə yaratmaq olar, yad mədəniyyətin norma və dəyərlərini necə mənimsəmək olar və s.

Mövzu 11. Etnik psixoloji xüsusiyyətlər və mədəniyyətlərarası qarşılıqlı münasibətlər

Plan:

1. Etnik-psixoloji xüsusiyyətlər haqqında
2. Etnosun düşüncə və davranış tərzinə etnosentrizmin təsiri
3. Etnosentrizm və millətçilikdə başqa xalqlara hörmətin, beynəlmiləlçiliyin millətlər arasında qarşılıqlı münasibətlərdə yeri.
4. Mədəniyyətlər arasında qarşılıqlı münasibətlərin formaları.

Ədəbiyyat:

Babayeva Ş.R. Diplomatik xidmətin psixoloji əsasları. Bakı: ADPU-2019
2. Bayramov Ə. Etnik psixologiya. B., 2001
3. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı, 2007

4. Əliyev R.İ. Mentalitet. Bakı, 2009. 309 səh.
5. Əliyev R.İ. Şəxsiyyətin və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.442 səh.
6. Əlizadə. Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003. 352 səh.
7. Nuruzadə Ş. Etnik münaqişələr. Bakı, 2015.

*** Mövzu ilə bağlı elektorn resurslar**

https://sesqazeti.az/news/kivdf/199807.html

http://www.anl.az/down/meqale/ses/2012/fevral/229827.htm

1. Etnik-psixoloji xüsusiyyətlər haqqında

Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır. Yəni etnos və ya xalq kim olduğunu, özünü nə zaman və necə dərk etdiyini, hansı mənəvi-psixoloji keyfiyyətlərə, adət-ənənələrə, stereotip və yönümlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını da yaxşı bilməlidir. Bu isə xalqın etnik-psixoloji xüsusiyyətlərini tarixi planda araşdırmadan, onu ətraflı öyrənmədən mümkün deyildir. Odur ki, xalqın etnik-psixoloji xüsusiyyətlərinin köklərini araşdırmaq üçün həmin xalqın etnogenezinə, xüsusən də etnik-psixoloji tarixinə, orada baş verən etnik proseslərə xüsusi diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, xalqa məxsus etnik-psixoloji xüsusiyyətlərin məcmusu, ilk növbədə həmin xalqın folklor və bədii ədəbiyyat materiallarında əks olunur. Həmin yazılı abidələrin psixoloji təhlili xalqın etnik-psixoloji xüsusiyyətlərinin təşəkkül prosesini izləməyə imkan verir. Bu cəhətdən xalqımızın qədim tarixə malik olan "Kitabi-Dədə Qorqud" dastanları xüsusi əhəmiyyətə malikdir. Həmin eposda Azərbaycan xalqının əcdadlarına məxsus etnik xarakter əlamətləri, stereotip və yönümlər, hisslər, davranış tərzi, adət-ənənələr və s olduqca canlı şəkildə öz əksini tapmışdır.

Etnik psixoloji xüsusiyyətlər içərisində ilk növbədə diqqəti cəlb edən cəhət etnosun özünüdərketməsi və etnik şüur səviyyəsidir. Yəni özünüdərketmə və etnik

mənsubiyyətin anlamı etnik əlamətlər sırasında başlıca yer tutur. “Kitabi-Dədə Qorqud” dastanlarının sosial-psixoloji və etnopsixoloji təhlilindən aydın olur ki, dastanda təsvir olunan oğuz etnosunda özünüdərketmə, yəni müəyyən etnosa mənsubiyyətin anlaşılması aydın surətdə nəzərə çarpır. Başqa sözlə, oğuz etnosunun formalaşması sosial-psixoloji mexanizm etibarilə “Biz” və “Onlar” münasibətlərinin dərk edilməsi və qiymətləndirilməsi səviyyəsində cərəyan edir. Burada etnosun özü haqqında biliyi ilə başqa etnos haqqında biliyi, şüur səviyyəsini isə özü ilə bərabər daha çox başqaları, yəni digər etnos haqqında bilik kimi xarakterizə edilir. Deməli, etnik özünüdərketmə əsasən öz birliyi haqqında, etnik şüur isə həm də başqa birliklər haqqında olan bilikdir.

Etnik özünüdərketmə etnos üzvlərinin və etnik birliklərinin davranış və rəftarı, münasibətlər sistemi, xarakteri, mənəvi keyfiyyətləri, nailiyyət və nöqsanları haqqında təsəvvür və mülahizələrlə ayrılmaz surətdə əlaqəlidir. Məlumdur ki, etnik psixoloji xüsusiyyətlərin təşəkkülünün əsasının “biz” və “onlar” qarşıdurması, yəni öz etnosunu başqa etnoslara qarşı qoymaq, onları qarşılaşdırmaq əsasında aralarındakı oxşar və fərqli cəhətlərin dərk edilməsi təşkil edilir. Etnik qruplar arasında belə qarşıdurma, qarşılaşdırma varsa deməli, özünüdərketmə də vardır. Bu cəhət etnik ümumiliyin və etnik fərqin dərk edilməsi və qiymətləndirilməsi üçün çox vacibdir. Deməli, etnik qrupun özü haqqında xüsusi bir reallıq kimi aydın təsəvvürü onun özünü başqa qruplardan və etnoslardan fikrən ayrılmasını tələb edir.Yəni etnik özünüdərketmə qabiliyyəti məhz etnik özünüdərketmədə təcəssüm edir və bu etnik özünüdərketmə isə etnosun dilində, xalq adət-ənənələri sistemində rəvayətlərdə, əfsanələrdə, miflərdə, müxtəlif inamlarda, rituallarda, milli zövqlərdə, üslublarda və s. obyektivləşir.

Etnik özünüdərketmə çox mürəkkəb fenomen kimi bir-biri ilə qarşılıqlı əlaqə və münasibətdə olan bir sıra komponentlərdən ibarətdir. Buraya daxildir:

a)etnofərqləndirici əlamətlər və təsəvvürlər sistemi;

b) etnik avtostereotiplər;

c) etnik hisslər;

d) fərdlərin müəyyən etnik birlik və identifikasiyası (özünü etnos üzvləri ilə eyniləşdirməsi, onlara bənzətməsi) və s.

Dastanların psixoloji təhlilindən aydın olur ki, bütün bu cəhətlər etnosda özünü aydın surətdə biruzə verir. Etnik özünüdərketmənin təşəkkülü ümumən etnosun tərəqqisi üçün böyük əhəmiyyətə malikdir. Çünki etnosun özünüdərketməsi səviyyəsi bir tərəfdən xalqın, millətin obyektiv şəkildə fəaliyyətdə olan əlamətlərinin xüsusiyyətlərinin inikasıdır və müvafiq avtostereotiplərdə etnik identifikasiyalarda, tarixi keçmişi, ərazi birliyi haqqında təsəvvür və anlayışlarda təsbit olunur.

Etnosun formalaşması və özünüdərki etnos üzvlərində psixoloji stabillik yaradır. Çünki etnik ümumilik nəsillərarası birlik sayəsində yaranır və zamanca davamlıdır.

Deməli, etnos üçün üçün, yəni onun mövcudluğu və özünüdərketməsi üçün nəsillərarası əlaqənin, öz adət-ənənəsini, öz identikliyini hifz etməsi zəruridir.

Nəzərə almaq lazımdır ki, xalqın milli birliyini hifz edib saxlamaq üçün onun sosial və etnik identikliyinə xüsusi diqqət yetirilməlidir.

Etnosun özünüqiymətləndirməsi mürəkkəb proses olub, onun özünü necə dərk etməsi ilə əlaqədardır. Yəni etnosun özünü dərk etməsi onun özünü, öz imkanlarını, öz keyfiyyətlərini və başqa etnoslar içərisində öz yerini və mövqeyini qiymətləndirmə onun davranış və rəftarının tənzim olunmasını təmin edir.

Etnosun ətraf aləmə, başqa etnoslara münasibəti onun özünüqiymətləndirməsindən asılıdr. Bunula da etnosun özünü necə qiymətləndirməsi onun inkişafına, tərəqqisinə, fəaliyyətinin səmərəliliyinə təsir edir. Burada heç şübhəsiz ayrı-ayrı şəxslərdə olduğu kimi, etnosun iddi səviyyəsi də mühüm rol oynayır. Yəni etnos öz qarşısına nə dərəcədə çətin və ya asan məqsəd və ya vəzifə qoyur, onları necə yerinə yetirir, bunun üçün intellektual imkanlarını, iradi səyininə dərəcədə səfərbər edə bilir. Yəni etnosun iddia səviyyəsi ilə real imkanları arasında ziddiyyətin artması onun özünü düzgün qiymətləndirməsinə ciddi təsir edir və nəticədə onun davranış və rəftarı qeyri-adekvat olur, bunun da sayəsində etnosda

emosionallıq, həyəcanlılıq artır. Etnosun qeyri-adekvat özüünqiymətləndirməsi onunla digər etnoslar arasında konfliktlərin yaranmasına da səbəb ola bilər.

Əlbəttə, etnosun özünüqiymətləndirməsi dinamik bir proses kimi, yəni inkişaf edən, dəyişilən, yeni keyfiyyətlər kəsb edən bir sosial-psixoloji fenomendir və bir sıra amillərlə şərtlənir.

Məlumdur ki, etnosda milli mənlik şüurunun formalaşması ilk növbədə, xalqın özünü düzgün dərk etməsi və adekvat qiymətləndirməsi ilə əlaqədardır. Sokratın hikmətli fikrini yada salmaq faydalı olardı: "Sən özün özünü dərk et, əgər özün özünü dərk edərsənsə, bütün dünyanı, kainatı dərk etmiş olarsan". Bu fikir ümumən xalqa aid olmaqla yanaşı, etnosun hər bir fərdinə də eyni dərəcədə aiddir.

Sual 2. Etnik identiklik. Vahid identifikasiya prosesi sosial identikliyin yaranmasına səbəb olur. Teşfelə görə sosial identiklik "fərdin Mən-konsepsiyasının özünün sosial qrupa üzvlüyünün və bu üzvlüyə verilən dəyər və emosional əhəmiyyətin dərkindən dərkindən yaranan hissəsidir". Bundan başqa ən ümumi mənada sosial identiklik öz qrupunun digər sosial birliklərlə müqayisəsinin nəticəsidir.

Etnik identliklik – şəxsiyyətin sosial identikliyinin tərkib hissəsidir, özünün müəyyən etnik birliyə mənsubiyyətinin dərki ilə şərtlənən psixoloji kateqoriyadır. Burada ilk növbədə etnik identikli və etniklik anlayışlarının fərqləndirmək lazımdır. Etniklik müəyyən obyektiv əlamətlər hesabına (valideynlərin etnik mənsubiyyəti, doğum yeri, dil, mədəniyyət) etnik mənsubiyyyəti bildirən sosial kateqoriyadır. Qeyd etmək lazımdır ki, real həyatda heç də həmişə etnik identiklik rəsmi etnikliklə üst-üstə düşmür.

Etnik identiklik ilk növbədə özünü müəyyən etnosun nümayəndəsi kimi dərk etməyin koqnitiv-emosional prosesinin nəticəsidir.

Etnik identikliyi sosial identikliyin tərkib hissəsi hesab etməklə yanaşı tədqiqatçılar onun özünəməxsus xüsusiyyətlərini də fərqləndirməyə çalışmışdırlar. Amerikan etnoloqu J.Devosa görə etnik identiklik identikliyin indiki zamana və gələcəyə orientasiya olunmuş digər formalarından fərqli olaraq mədəni ənənələrə və

keçmişə əsaslanan formasıdır. Q.U.Soddatov isə etnik identikliyin daha bir xüsusiyyəti kimi mifolojili fərqləndirmişdir.

Etnik identikliyin strukturunda əsasən iki komponenti fərqləndirirlər: koqnitiv (öz qrupu haqqında biliklər, təsəvvürlər və etnodifferensasiya olunmuş əlamətlər üzrə öz üzvlüyünün dərk olunması) və affektiv (öz qrupunun keyfiyyətlərinin qiymətləndirilməsi, ona üzvlüyə münasibət və bu üzvlüyün əhəmiyyəti). Bəzi müəlliflər əlavə olaraq etnik identikliyin davranış komponentini də fərqləndirirlər və onu müəyyən qrupa üzvlüyün yalnız dərk olunması kimi deyil həm də təzahürü kimi başa düşürlər.

Müxtəlif tədqiqatçılar tərəfindən etnik identikliyin koqnitiv komponentinin əsas tərkib hissələri etnik orientasiya, qrup konsepsiyası və s. kimi terminlərdə ifadə olunmuşdur. Lakin onlardan ən mühümü birinci, etnik qrup haqqında biliklərdən təşkil olunmuş etnik məlumatlılıq, ikincisi isə etnik adlandırmadır.

Sual 3. Etnik identikliyin formalaşması mərhələləri. İnsanın həyatında onun hansı etnik birliyə mənsub olması məsələsinin mərkəzi mövqe tutması fikri mühüm əhəmiyyət kəsb edir. İnsanların əksəriyyəti üçün gündəlik məişət problemləri daha mühümdür. Lakin qrup mənsubiyyəti ilə bağlı psixoloji məsələləri də diqqətdən kənar qoymaq olmaz. Həyatın müəyyən mərhələsində hər bir insan və ya birlik üçün "mən kiməm?" ("biz kimik?") sualı əhəmiyyətli problemə çevrilə bilir.

Belə problemlər adətən uşaqlıqda, etnik identikliyin formalaşması prosesində yaranır. Məsələn, valideynləri hələ o doğulmamış Özbəkistandan Moskvaya köçən oğlan rusların əhatəsində yaşayır, rus dilində danışır və öz həmyaşıdları ilə arasında heç bir fərq hiss etmir. Lakin məktəbdə asiyalı görkəminə görə dostlarının ona müəyyən ləqəblər verməsinin səbəbini ilk öncə anlamasa da sonradan çox şeyi dərk etdikcə "milliyyətcə sən kimsən?" sualına "özbək" cavab verir. Yaxud da ABŞ-da yaşayan rus immiqrant ailəsində doğulmuş qız, uşaqlıqdan amerikanların əhatəsində böyüyür, dili gözəl bilir, amerikan dostları ilə çox vaxt keçirdir və amerikan olması ilə fəxr edir. Lakin böyüdükcə o, öz individuallığını nümayiş etdirmək istəyir. Özünün "rus amerikanlı" olmasını biruzə verməyə çalışır.

Bu uşaqların özlərini hansı etnik qrupa mənsub hesab etmələri və ətrafdakıların onları hansı etnik birliyə aid etmələri sualına cavab vermək üçün etnik identikliyin formalaşması qanunauyğunluqları ilə tanış olmaq lazımdır.

Etnik identikliyin formalaşması prosesi uşağın psixi inkişafına müvafiq bir neçə mərhələdən keçir. Uşağın özünü etnik birliyə mənsubiyyətini dərk etməsi ilə bağlı ilk inkişaf konsepsiyalarından biri Jan Piajenin adı ilə bağlıdır. J.Piaje etnik identikliyin inkişafını "vətən" anlayışı ilə bağlı koqnitiv modellərin qurulması kimi nəzərdən keçirmiş, etnik hissləri isə etnik hadisələr haqqında biliklərə özünəməxsus cavab hesab etmişdir. Piaje etnik identikliyin formalaşamasının 3 mərhələsini fərqləndirmişdir:

1. 6-7 yaşında uşaq öz etnik mənsubiyyəti haqqında ilk qeyri-sistematik ve fraqmental biliklərə yiyələnir. Bu yaşda uşaq üçün ən əsas ölkə və etnik qrup yox, ailə və vasitəsiz sosial mühitdir.
2. 8-9 yaşında uşaq artıq özünü etnik qrupu ilə dəqiq identifikasiya edir, identifikasiyanın əsaslarını dərk edir – valideynlərin milliyyəti, yaşayış yeri, doğma dil. Milli hisslər oyanır.
3. kiçik yeniyetmə yaşında (10-11) etnik identiklik tam həcmdə formalaşır, müxtəlif xalqların xüsusiyyətləri qismində onlar tarixin unikallığını, ənənəvi məişət mədəniyyətinin spesifikliyini qeyd edirlər.

Etnosun özünüdərki və adekvat qiymətləndirməsi üçün sosial identikliklə yanaşı, etnik identiklik də vacibdir. Deməli, etnik identiklik sosial identikliyin bir hissəsidir. Lakin etnik identiklik insanın müəyyən etnik ümumiliyə aid olmasını aydın surətdə anlamaqla bağlıdır.

Bir sıra hallarda sosial şəraitin xarakterindən etnosun davranış və rəftarının məzmun və istiqamətindən asılı olaraq xalqın müəyyən şəxslərində və hətta sosial qruplarında belə neqativ etnik identiklik formalaşa bilər. Burada, əlbəttə stereotipləşdirmə mexanizmi, yəni kimə və ya kimlərəsə mənfi münasibətin bütün xalqa aid edilməsi hallarına da rast gəlinir.

Müasir dövrdə etnik identiklik getdikcə güclənir. Bu da elmi-texniki tərəqqi və iqtisadi amillərlə yanaşı, sosial-psixoloji amillərdən də asılıdır. Məlumdur ki, psixoloq üçün etnos hər şeydən əvvəl psixoloji birlik, psixoloji ümumilikdir. Bu halda etnos üzvlərində ümumi mənəvi sərvətlər formalaşır və onların hər birinin öz etnosu tərəfindən müdafiə olunmasına inam güclənir. Başqa sözlə, etnosun formalaşması və özünüdərki etnos üzvlərində psixoloji stabillik yaradır. Çünki etnik ümumilik nəsillərarası birlik sayəsində yaranır və zamanca davamlıdır.Bunun üçün etnik tərkibin stabilliyi mövcuddur və etnosun hər bir üzvü davamlı etnik statusa malikdir, onu etnosdan "xaric etmək" mümkün deyildir. Burada ümumi etnik psixoloji xüsusiyyətlərin, ümumi mədəniyyətin mövcudluğu əsas şərtdir. Hər bir etnosun mədəniyyəti öz əcdadlarına və tarixi ənənələrinə köklənmiş olur. Bu mənada amerikan etnoloqu Marqaret Mid haqlı olaraq qeyd edir ki, etnosda yaşlı nəslin keçmişi hər bir yeni nəslin gələcəyidir. Yəni yaşlıların həyat tərzi – onların övladları üçün gələcəyin sxemidir.

Mədəniyyətlər arasında qarşılıqlı münasibətlərin formaları

Qruplararası münasibətlər psixologiyasının qanunauyğunluqlarına diqqet yetirən alimlərdən biri U.Samner olmuşdur. O, 1906-cı ildə nəşr olunan Xalq adətləri əsərində etnosentrizm fenomenlərini təsvir etmişdir. Məlumdur ki, etnosentrizm öz etnik qrupuna üstünlük vermək, digərinə münasibətdə isə ədavət hissi və qərəzli mövqe tutmaqda özünü göstərir. U.Samnerin başqa etnoslara münasibətdə pozitiv xarakteristikaların şişirdilmiş etnosentrizm konsepsiyasında öz etnosunun başqa etnoslardan üstünlüyü hissi, ədavət və neqativ münasibətlərin büruzə verilməsi təhlil olunur. Bu zaman öz etnik qrupunun mədəniyyəti, adət və ənənələri, dəyərləri və başqa psixoloji xüsusiyyətləri etalon kimi götürülür. U.Samner başqa etnoslarla münasibətdə yaranan ədavət və neqativ münasibətləri öz etnosu çərçivəsində qrupdaxili birliyi saxlamaqda zəruri şərt kimi qiymətləndirərək etnosentrizmə etnik qrupların qarşılıqlı əlaqəsinin universal mexanizmi kimi baxır.Zigmund Freydin qruplararası münasibətlər aspektində iki tezisini qeyd etmək olar: autqrup ədavətinin qaçılmazlığı və qrupun stabilliynin və identifikasiyasının saxlanması vasitəsi kimi autqrup ədavətinin funksiyasının müəyyən olunması. Freyd autqrup düşmənçiliyinin mexanizmini erkən ailə münasibətlərinin emosional ambivalentliyində görürdü. Freydə görə rəqiblik va aqressiyanın obyeti olan bu münasibətlər eyni zamanda təqlid edilən, yamsılanan sevgi və nifrətlə də xarakterizə oluna bilər. Erkən uşaqlığın emosional münasibətlərinin ambivalentliyi qrupa keçir: ataya olan sevgi qrup liderinə transformasiya edilir, düşmənçilik və aqressiya autqrupa yönəlir. Lakin sonraki tədqiqatların əksəriyyətində Freydin qruplararası münasibətlər konsepsiyası

qəbul olunmasa da, bütövlükdə digər qruplara münasibətdə qruplararası münasibətlərin tədqiqində ədavət, aqressivlik məsələləri ana xətti təşkil edirdi. _M.Şerif isə konflikt problemini başqa qruplararası konflikt istiqamətdə tədqiq etmişdir. O, qruplararası ədavətin kökünü müxtəlif qrupların məqsəd və maraqlarında, yəni bu qrupların nümayəndələrinin rəqiblik münasibətlərində görür. M.Şerif eksperimentlərini 50-ci illərin ortalarında Amerikanın Robers Keyve vilayatində keçirmişdir. Exsperimentlar bir neçə il ərzində yeniyetmələrin tədqiqatın əsas yerləşdiyi yay düşərgəsində aparılmışdır. Məqsədi qruplararası qarşılıqlı əlaqənin xarakterinin (rəqib, yoldaşlıq, kollektiv, kooperasiya) qruplar arasında və qrup daxilində təşəkkül tapmış qarşılıqlı münasibətin xarakterinə təsirini öyrənmək olmuşdur. Bu məqsədlə düşərgənin administrasiyası yeniyetmə qruplar arasında qarşılıqlı əlaqəni elə təşkil etmişdir ki, o, sırf yarış xarakteri daşısın və bu yarışda yalnız bir qrup qalib gələ bilsin. Müşahidə və sorğuların nəticəsinə uyğun olaraq tədqiqatçılar gruplar arasında əmələ gələn ədavətin və eyni zamanda qrupdaxili həmrəyliyin möhkəmlənməsinin şahidi olmuşlar. Eksperimentin müxtəlif mərhələlərində qrupların təşəkkülü müxtəlif cür baş verirdi. Eksperimentin əvvəlində yeniyetmələr düşərgənin təmizliyi ilə birlikdə məşğul olurdular va tədqiqatçılar yeniyetmələr arasında baş verən təbii proseslərə, yəni tanışlıq və qarşılıqlı münasibətlərin formalaşmasına müdaxilə etmirdilər. Lakin sonrakı mərhələdə, yani yarışdan sonra yeniyetmələr 2 qrupa bölünərək tanışlıq zamani əmələ gələn dostluq münasibətlərini pozmağa başladılar. Rəqabətdən qabaq isa qrupların nümayəndələri arasında ədavət olmamışdır. Tadqiqatçılar sonra eksperimentdə dəyişiklik edirlər: əvvəlcə rəqib olan qruplar həlli güclərinin birləşməsini tələb edən problemli situasiyaya salınırlar. Bu mərhələdə tədqiqatçılar ədavətin azaldığını, lakin tam aradan qalxmadığını müşahidə etmişlər. Bu eksperiment əsasında M.Şerif belə bir nəticəyə gəlir ki, qruplararası konfliktin asas səbəbi qruplar arasındakı qarşılıqlı əlaqənin xarakterindən (həmrəylik və ya rəqabətdən) asılıdır. M.Şerifin eksperimentləri qruplararası münasibət psixologiyasının eksperimental tədqiqinin asasını qoymuşdur. Qruplararası qarşılıqlı münasibətlər sahəsində əsasən qərbi Avropa alimlərinin tədqiqatlari həm nəzəri keyfiyyətinə, həm də kəmiyyətinə görə daha iralidədir. Bu baxımdan Q.Teşfelin tədqiqatları daha diqqətəlayiqdir. Son illər onun tədqiqatları başqa ölkələrdə keçirilən tədqiqatlara mühüm təsir göstərmişdir. Qərbi Avropada bu sahədə bir çox samballı işlər meydana çıxmışdır. Sosial identiklik nəzəriyyəsi sosial-iqtisadi dəyişikliklər şəraitində yeni sosial qrupların yaranması ilə əlaqədar qruplararası differensasiya qrupdaxili inteqrasiya problemine daha ve konstruktiv yanaşmağa imkan verir. İlk dəfə Teşfelin tədqiqatlarında qruplararası münasibətlərin tənzimlənməsi sosial psixologiyanın predmeti kimi tədqiq edilir. Onun tədqiqatlarında qruplararası münasibətlərin tənzimlənməsini müəyyən edən bir sıra koqnitiv proseslər öz əksini tapır. Teşfelin konsepsiyasında qruplararası münasibətlər psixologiyası sosial psixologiyanın müstəqil sahəsi və hətta sosial psixologiyanın əsas predmeti kimi qəbul olunub.

Mövzu 10 : Azərbaycan xalqının psixoloji xüsusiyyətləri

Plan:

1. Azərbaycan xalqının psixoloji xüsusiyyətləri və başlıca keyfiyyətləri.
2. Azərbaycan xalqının etnik tərkibi.
3. Azərbaycanda etnik azlıq, qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi

Ədəbiyyat

4. **Məmmədova S. Mədəniyyətşünaslıq- -Bakı-2001**
5. **Bayramov Ə.S, Əlzadə Ə.Ə.Psixologiya, Bakı, 2002**
6. **Əliyev R.İ. Mentalitet.Bakı, 2009**
7. **Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.**
8. **Bayramov Ə.S.Etnik psixologiya, Bakı,2001.**
9. **C.V.Berri Mədəniyyətlərarası Psixologiya- -2002**

Mövzu ilə bağlı elektorn resurslar

https://sesqazeti.az/news/kivdf/199807.html

http://www.anl.az/down/meqale/ses/2012/fevral/229827.htm

https://azkurs.org/sumqayit-dovlet-universiteti-serbest-is-2-fenn-psixologiya.html?page=3

1. Azərbaycan xalqının psixoloji xüsusiyyətləri və başlıca keyfiyyətləri.

Azərbaycan xalqının yaratdığı minillik mədəniyyəti özünün estetik zövqü, milli xüsusiyyətilə səciyyələnir. Qədim Azərbaycan ərazisində xalq formalaşmağa başlayandan onun incəsənəti, musiqisi, təsviri sənəti, bədii, elmi təfəkkürü də müəyyən şəkil almağa başladı

Ölkənin yerləşdiyi strateji mövqeyə baxmaq yetər ki, onun mədəniyyəti, məişət xüsusiyyəti haqqında dünyanın çoxdan bilgili olduğunu anlayasan. Şərq ilə Qərb arasında qapı rolunu oynayan

qədim Azərbaycan ərazisində xalq adət-ənənələri, mədəniyyət miladdan daha əvvəl şəkillənmişdir. Misal üçün Qobustan qayaüstü rəsmlərinin yaşı əsrlər, qərinələrlə ölçülür. Bu da ona dəlalət edir ki, bu xalqın musiqi ənənəsi şox qədimdir. Əsrlər bundan qabaq biz musiqi dinləmiş, rəqs etmişik. Demək olar ki, sivilizasiyanın musiqi ilə tanış olmadığı dönəmdə biz mədəniyyətimizlə birgə vardıq. İnkişafının pik nöqtəsində olan Avropanın intibahdan xəbəri olmadığı bir vaxtda Azərbaycan xalqı mədəniyyətində bunu əsrlər öncə yaşamışdı. Qərb bizdən daha sonralar kültürdə yüksəlişin nə demək olduğunu bilmişdir. Odur ki, Azərbaycan incəsənətinin inciləri Londonun Viktoriya və Albert, Parisin Luvr, Nyu Yorkun Metropoliten, İstanbul muzeylərinin antikvar əsərləri hesab olunur.

Azərbaycan xalqının adət -ənənələri. Söz yox ki, xalqımızın məişət adətləriAzərbaycan mədəniyyə tinin əsas tərkib hissəsidir.

Əhalinin məişət həyatında bu gün də qorunub saxlanılan bu mental dəyərlər əhəmiyyətlidir. Onu Azərbaycan kültürünün ayrıca sahəsi kimi öyrənsək bir neçə istiqamət yaranacaqdır. Vaxtilə köçəri xalqların əsas oturaq məskəni olduğundan xalq adət-ənənələrində müxtəliflik mövcudddur. Həmçinin İslamın dini adətləri də yerli xalqın mentalitetində bir sıra dəyişikliklər etmişdir.

Azərbaycanda toy şənlikləri qədim və zəngin xalq adət-ənələrinə söykənir. Ölkənin bir sıra rayonlarında əhalinin etnik tərkibinin müxtəlifliyinə və fərqləndirici xüsusiyyətlərin olmasına baxmayaraq, toy şənlikləri bir-birinə çox bənzəyir. Elçigetmə, nişantaxma və toy adətlərinin dərin kökləri vardır.

Oğlan toyu və qız toyunun ayrı-ayrı keçirilməsi kimi adət mövcuddur. Yəni, toy iki mərhələdə keçirilir. Xüsusilə kənd yerlərində əvvəllər qız və oğlan toyu birlikdə 3 gün - cümə, şənbə və bazar günləri davam edərdi. Nikah gecəsi oğlan toyundan sonra olur və bəy təntənəli surətdə gəlini öz evinə aparır. Nikah bağlanması isə, birinci toyda (qız toyunda) həyata keçirilir.

Üzəçıxdı. Təzə gəlin qayınatasından yaşınır və onun gözünə görünmür. Toydan 10-15 gün sonra qayınana süfrə hazırlayır. Ailənin bütün üzvlərini çağırır. Gəlindən başqa hamı gəlib oturur. Belə olanda qayınata gəlini səsləyir və özü onu gedib gətirir. Sonra gəlinə qiymətli bir hədiyyə verib ona, bu ailənin ən əziz üzvü olduğunu söyləyir. Bundan sonra gəlin heç kimdən yaşınıb çəkinmir.

Gəlingördü. Toydan 2-3 ay sonra qız evi oğlan evinə xəbər göndərir ki, "filan gün gəlirik gəlini görməyə". Oğlan evi hazırlıq görür. Yaxın qonum-qonşudan 3-4-nü dəvət edir. Qızın anası da yaxın adamlardan götürüb qudasıgilə gəlir. Yeyib-içib şənlənirlər. Axırda qızın anası gəlinə və bəyə gətirdiyi hədiyyələri verib qayıdırlar.

Ayaqaçdı. Gəlini gördükdən sonra gəlinin anası qızını və kürəkənini evinə qonaq çağırır. Buna "ayaqaçdı" deyirlər. Ayaqaçdıya həm kişilər, həm də qadınlar gəlirlər. Böyük məclis qurulur. Qızın valideynləri bəyə və gəlinə aldığı hədiyyələri

verirlər. Həmin gün qızı evdə qonaq saxlayırlar. 1-2 gündən sonra əri gəlib onu aparır. "Ayaqaçdı"dan sonra bəylə gəlin istədikləri vaxt həmin evə gedib gələ bilərlər.

Qonaqçağırma. "Ayaqaçdı"dan sonra həm oğlan, həm də qız tərəfdən ən yaxın qohumlar bəylə gəlini qonaq çağırırlar. Bu da bir növ "ayaqaçdı"ya bənzəyir. Qonaq çağırarkən bəyə və gəlinə hədiyyə verirlərDünya yaranandan xalqlar özünəməxsus adət-ənənə yaratmış və bu ənənələri nəsildən-nəsilə ötürmüşlər. Azərbaycan xalqı o xoşbəxt xalqlardandır ki, özünün adət-ənənəsini yaratmış və dövrün, zamanın dəyişməsinə baxmayaraq, onu yaşatmışdır. Sevinc üzərində qurulan, meydana gələn adət-ənənə sonradan tarixi hadisə olaraq xalqımızın milli bayramı kimi formalaşmışdı. Artıq bütün dünyada qeyd olunmaqda olan Novruz bayramı da Azərbaycan xalqının tarixi qədim olan bayramlarındandır. Tarixi mənbələrə əsasən, demək olar ki, hələ qədim zamanlarda bu bayram 12-15 gün qeyd olunub.

2. Azərbaycan bayramları

Azərbaycanın özünün milli bayramları vardır. Bu bayramlar xüsusi adət-ənənələrlə qeyd olunur. Xüsusi adət-ənənə ilə qeyd olunan bayramlardan biri də Novruzdur. Novruz xalqımızın milli bayramıdır. Sambalına, vüsətinə, kütləviliyinə görə, adət-ənənə zənginliyi baxımından onunla müqayisə ediləcək ikinci bir bayram yoxdur. Novruz adətləri, Novruz etiketləri xalqımızın say niyyətinin, humanist xarakterinin, yüksək əxlaqi-mənəvi keyfiyyətlərinin təcəssümüdür.

Azərbaycan xalqının milli adət-ənənəsinə görə Novruz bayramında küsülülər barışmalı, qohumlar bir-birini ziyarət edib,bayram süfrələri açmalıdırlar. Bir məqamı da xatırlamaq lazımdır ki, bayramın gəlişi ilə qız-gəlinlər milli adət-ənənəyə uyğun olaraq libaslar geyinir, evlər bəzədilir, palaz-paltar yuyulur, həyət-baca süpürülərək təmizlənir. Təbii ki, axşam vaxtı qaranlıq düşəndə bütün el-obada tonqallar qalanır. Tonqalların üstündən hər kəs ənənəyə uyğun olaraq üç dəfə hoppanmaqla köhnə ilin azar-bezarının elə köhnə ildə də qalmasını arzulayır. Novruz bayramında süfrələrə cürbəcür xörəklər, meyvələr, şirniyyatlar düzülür. Süfrənin bəzəyi isə səməni olur. Novruz bayramında hər evdə səməni cücərdilməlidir. Cücərdərkən niyyət tutmaq lazımdır. Əgər səməni göyərərsə, niyyətin çin olacaq deməkdir.

Novruz bayramında milli adətlərimizdən biri də, yumurta boyamaqdır. Bəzədilmiş yumurta, qədim mədəniyyətləri olan xalqların mərasimlərində dünyanın yenidən canlanmasının rəmzi kimi xarakterizə edilərdi. Bayram süfrəmizi şəkərbura, paxlava ilə bərabər rənglənmiş yumurtalar da bəzəyir. Bu da canlı aləmin yenidən oyanışına işarədir. Yumurta adətən qırmızı rənglə boyanır. Qırmızı rəng isə bəşəriyyətin şadyanalıq içində yaşamaq istəyinin təcəssümüdür.

Təbii ki, bu halda süfrədən gü-çiçək, su, güzgü, qızıl əşyaları da əskik olmur. Süfrəyə aş gətirildikdə isə ailə üzvlərinin hər birinin adına şamlar yandırılır. Adət-ənənəyə uyğun olaraq bayram günü hər kəs öz evində olmalıdır. Qəm-kədəri unudub, şən əhval-ruhiyədə və bir-birinə xoş sözlər deməlidirlər. Novruz bayramı bəzən insanın yaranışı ilə də əlaqələndirilir. Yəni insanın dörd

ünsürdən su, od, torpaq və küləkdən yarandığı qeyd olunduğu kimi, Novruz bayramında da dörd çərşənbə mövcuddur. Hər çərşənbə bir ünsürlə əlaqələndirilir. İlk çərşənbə Su, yəni Bahara doğru çayların buz bağlayan hissəsi əriyib çaylara tökülür, torpaq yavaş-yavaş islanmağa başlayır. İkinci, çərşənbə Od çərşənbəsi adlanır. Bu anlama görə Bahara doğru Günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində tonqallar qalayırlar. Üçüncüsü, Yel çərşənbəsidir. Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yellədir. Dördüncü çərşənbə isə Torpaq çərşənbəsi adlanır. Torpağı, ana təbiəti Tanrı su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də ilk yaz əkinini xışla, kotanla məhz torpaq çərşənbəsi günündə başlayırlar.

Ramazan bayramı. İslamın müqəddəs bayramları arasında orucluq mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın" müxtəlif fəsillərə təsadüf etməsində isə ilahi bir hikmət vardır.

Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Orucluqda sürmə çəkməməli, ətirlənməməli, tütün, gül iyləməməli və orucu pozan digər hərəkətlərdən imtina etməlidir. Orucluq dövründə adam dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu vaxt şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbər (s.ə.s.) buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlarda zəncirdə olar. Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini (qəzasını) tutmalı və ya fidyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı,tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur. Orucluğun başa çatdığı gün fitr bayramı dlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hərkəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.O ayda bir xeyir işləyən kimsə digər aylarda bir

fərz işləmiş kimi olar. O ayda bir fərz işləyən isə digər aylarda yetmiş fərz işləyən kimidir. O, səbr ayıdır, səbrin qarşılığı isə Cənnətdir.

Qurban bayramı. İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir. Üç səmavi dinin yəhudilik, xristianlıq

və İslamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlıq heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur. Bəzən bir neçə adam bir heyvan alıb onu öz aralarında bölüşməklə, yaxud gedib bazardan ət alıb gətirməklə öz qurbanını kəsmiş hesab edirlər. Lakin İslam dininə görə bunlar qurbanlıq hesab olunmur. Əlbəttə, bir neçə nəfər yığışıb bir dananı qurban kəsə bilərlər, bu şərtlə ki, hər bir şəxsə düşmüş ət payınıən azı üç hissəyə bölmək mümkün olsun. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər. Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə. Qurbanlığın nə ətindən, nə dərisindən, nə də heç bir hissəsindən satmaq olmaz. Qurban sırf və ixlasla Allah üçün alınmalı, Onun üçün kəsilməli və Onun üçün paylanmalıdır, heç bir qarşılıq və ya mənfəət əldə etmək üçün istifadə olunmamalıdır.

Mövzu 13. Çin və yapon xalqının psixoloji xüsusiyyətləri

Plan:

1. Çinlilərin işgüzar həyatının xüsusiyyətləri.
2. Çinlilərin sosializasiya məsələlərinə münasibətləri.
3. Çin xalqının psixoloji xüsusiyyətləri və başlıca keyfiyyətləri.
4. Çinlilərin milli xarakterinin əsas xüsusiyyətləri.
5. Çin təhsil sistemi.

6. Yaponların milli xarakterinin əsas xüsusiyyətləri.
7. Yapon təhsil sistemi
8. Yapon xalqının psixoloji xüsusiyyətləri

Ədəbiyyat

1. Məmmədova S. Mədəniyyətşünaslıq- -Bakı-2001
2. Bayramov Ə.S, Əlzadə Ə.Ə.Psixologiya, Bakı, 2002
3. Əliyev R.İ. Mentalitet.Bakı, 2009
4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
5. Bayramov Ə.S.Etnik psixologiya, Bakı,2001.
6. C.V.Berri Mədəniyyətlərarası Psixologiya- -2002

Mövzu ilə bağlı elektorn resurslar

https://az.wikipedia.org/wiki/%C3%87in_Xalq_Respublikas%C4%B1

https://cyberleninka.ru/article/n/psihologicheskie-osobennosti-kitayskogo-etnosa/viewer

Şərqi Asiyada yerləşən dünyada əhalisinin sayına görə birinci, sahəsinin böyüklüyünə görə isə üçüncü ölkədir. Çin 22 əyalət, beş muxtar bölgə, dörd birbaşa idarə olunan bələdiyyə (Pekin, Tyantszin, Şanxay və Çuntsin) həmçinin Honkonq və Makao xüsusi inzibati bölgələrindən ibarətdir.

1. Çinlilərin işgüzar həyatının xüsusiyyətləri. Çin işgüzar mədəniyyəti milli stereotiplər, zənginliyə qarşı olan motivasiya və münasibət, işgüzar məqsədin reallaşması dərəcəsindən ibarətdir. Çin xalqının spesifikliyi onun işgüzar həyatının xüsusiyyətlərini də müəyyənləşdirir. Yəni işlərin aparılmasının forma və üsulu, biznesmenlərin davranışlarının xüsusiyyətləri, qərar qəbul etmənin xüsusiyyətləri, gəlirlərin əldə etməsinə yönəlişlik bütün bunlar iş adamlarının həyat və fəaliyyətindən və sosial-tarixi şəraitdən asılıdır. Müasir çin iş adamları qeyd edirlər ki, həyatda xoşbəxtliyin əsas ölçüsü həm gəlir, həm də mənəvi məmnunluq gətirən işdir. Çinlilərin düşüncəsində ziddiyyət də yer alır, bir tərəfdən xoşbəxtlik pullda deyil fikri, digər tərəfdən isə pul pul gətirər fikri. Həyatdan pul qazanmaq üçün istifadə edilməlidir, yaxşı yaşamaq üçün isə varlı və zəngin olmaq lazımdır.

Çin biznesinin xüsusiyyətlərindən biri etnik və ya klan xarakterin daşımasıdır. Çox vaxt çinlilər öz gəlirlərindən sadəcə "öz" adamları ilə iş qursunlar deyə imtina edə bilərlər. Çin mentalitetinin xüsusiyyətləri işgüzar həyatda öz əksini tapıb. Çinlilər öz şəxsi dəyər, maraq və mənafelərini özgələrindən üstün tuturlar. Nadir halda başqa insanların fikirlərinə onlar qulaq asırlar və həmişə öz bildiklərini edirlər. Ona görə də çinlilərlə danışıqlar aparmaq çətindir: bir tərəfdən sizinlə razılaşırlar sonda isə öz bildiklərini edirlər. Bu çinlilər üçün normaldır və onların fikrincə rəqabətin bir metodudur. Çinlilər insanlardan öz məqsədlərinə görə istifadə edə bilirlər. İnsanlara baxarkən onların sosial statusunu, əlaqələrini, çevrəsini və texniki vərdişlərini müşahidə edirlər və qiymətləndirirlər. Çində xarici vətəndaş partnyor deyil məhz sirrlərin alınmasının bir kanalıdır. Çinlilər çox asanlıqla, məharətlə və heç bir əziyyət çəkmədən insanları öz tərəflərinə çəkə bilirlər. Çində uğurlu biznes təşkil etmək üçün çin etnik stereotiplərini və etnik şüurunu bilmək mütləqdir. Bu sahədə uğur əldə etmək üçün ilk öncə çin partnyorla dost olmaq lazımdır.

İşgüzar mədəniyyət üzrə amerikalı mütəxəssislər Çin işgüzar həyatının səkkiz vacib tərkib hissələrini qeyd ediblər.

1. Şəxsi əlaqələrin qurulması (guanxi). Çinlilər işgüzar həyatda şəxsi əlaqələrə çox böyük yer ayırırlar, yəni dost, qohum, tanışlardan istifadə edirlər. Çinlilər unutqan deyillər. Onlar öz keçmişlərini heç vaxt unutmurlar.
2. Vasitəçi. Çində iş qurmaq üçün mütləq vasitəçidən istifadə etmək lazımdır. Çunki Çində özgələrə həmişə şübhə ilə yanaşırlar, etibar etmirlər. Vasitəçi bunu aradan götürə bilər və şəxsi əlaqələrdən istifadə edərkən biznes qurmaq olar.
3. Sosial status. Qərb mədəniyyətin nümayəndələri üçün çinlilərin formal, rəsmi qaydaları anlaşılmazdır, çinlilər danışıqlar zamanı statusa, yaşa çox diqqət ayırırlar.
4. Yaxşı şəxsi münasibətlər. Çinlilər üçün biznes partnyorları arasında isti və harmonik münasibətlər vacibdir.
5. Bütöv təfəkkür. Çinlilər danışıqlar zamanı bütün mövzuları bir-birinə qatırlar, bir məsələni qoyub digərinə keçirlər.
6. Qənaətçilik. Çinin siyasi və iqtisadi qeyri-sabitliyi insanlara öz pullarına qənaətlə yanaşmağı öyrədib.
7. Çin danışıq üslubunun bir xüsusiyyəti də var. Çinli iş adamları eyni zamanda bir neçə iş partnyorlar ilə danışıqlar apara bilərlər. Qərb iş adamları bunu hörmətsizlik kimi qəbul edirlər, lakin çinlilər üçün bu təsir etmə yollarından biridir.
8. Əməksevərlik. Çinlilər məqsdlərinə çatmaq üçün yorulma dan çalışırlar.

2. Çinlilərin sosializasiya məsələrinə münasibətləri. Çində ailə tərbiyəsi sahəsində də çox maraqlı və zəngin ənənələr olmuşdur. Qədimdən başlayaraq ailə tərbiyəsinə çinlilər böyük yer ayırmışdılar. Müasir dövrün estetik tərbiyəsi haqqında ən məşhur "Şan Şu" əsərində imperator ailə tərbiyəsi haqqında öz fikirlərini söyləmişdir. Qeyd etmək olar ki, Çində qədim dövrdən başlayaraq ailə tərbiyəsi nəzəriyyəsi daima inkişaf edirdi. Çin Xalq Respublikası yarandıqdan sonra cəmiyyətin sosial sistemi dəyişildi, lakin ailə tərbiyəsi sahəsində o qədər də dəyişikliklər olmadı. Çinin ailə tərbiyəsinin əsas prinsiplərini nəzərdən keçirək:

1. İmperatordan tutmuş siravı insana qədər hamı "Uşaqların tərbiyəsi valideynlərin vəzifəsidir" fikrilə razılaşırlar. Bütün dövrlərdə hesab olunurdu ki, uşaqları tərbiyə etmək valideynlərin borcudur. Uşaqları yalnız böyüdüb amma tərbiyə etməyən valideyn natamam valideyn hesab olunurdu. Qədim Çin şerində deyilirdi: uşağı böyüdüb, tərbiyə etməmək atanın günahıdır. Hesab olunur ki, Çində insan öz övladını təkcə erkən uşaqlıqda deyil bütün həyatı boyu tərbiyə etməlidir.
2. Ailə tərbiyəsi təkcə uşaqlar və ailə üçün önəmli deyil. Eyni zamanda cəmiyyət və ölkə üçün də vacib məsələlərdən biridir. Çinlilərin fikrincə, ölkə böyük bir ailə kimi yaşamalıdır. Uşaq erkən yaşdan anlamalıdır ki, o təkcə öz ailəsi üçün deyil, bütün xalqın qayğısına qalmalıdır.
3. İlk növbədə uşağa özünü cəmiyyətə layiq aparmağa öyrətmək lazımdır, sonra isə uşağın əsas yerinə yetirəcəyi vəzifələri öyrətmək lazımdır. Çində deyirlər, əgər işdə uğur əldə etmək istəyirsənsə, özünü layiq aparmalısan (insan olmalısan). Konfutsinin nəzəriyyəsinə görə, insan ilk öncə "jen"ə malik olmalıdır. "Jen" insanlıq, humanistlik, insanlara məhəbbətdir.
4. Uşaqların müstəqilliyi. Çində uşaqlar çox erkən yaşdan müstəqil olmağa başlayırlar. Valideynlər onları erkən yaşdan əməyə alışdırırlar və pullara qarşı düzgün münasibət formalaş-ırırlar. Valideynlər öz uşaqlarının gələcəyi üçün pul yığmırlar ki, uşaqlar bu pullara arxayın olub, ümidlərini bu pullara bağlasınlar. Həmçinin valideynlər öz uşaqlarına sosial statuslarından istifadə etməyidə qoymurlar.
5. Uşaqlara milli ənənələri ötürmək vacibdir. Çin ənənələrinə görə insanda aşağıdakı müsbət keyfiyyətlər inkişaf olunmalıdır: müstəqillik, əməksevərlik, valideyn və qohumlara qarşı hörmət və sevgi, ölkəyə sadiqlik,cəsarət, işin keyfiyyətli yerinə yetirilməsi, nəzakətlilik, dürüstlük və s. bu keyfiyyətlər uşaqların tərbiyəsində əsas götürülür.
6. Erkən dövrün tərbiyəsi daha məqsədəuyğun hesab olunurdu. Qədim dövrdən başlayaraq məhz məktəbəqədər dövrün tərbiyəsi daha zəruri hesab olunurdu, çünki yenidən tərbiyə həmişə uğursuz və daha çətin olurdu.
7. Uşaqları sevgi və eyni zamanda ciddilik şəraitində tərbiyə etmək lazımdır, onlara düzgün nümünələr göstərilməlidir.
8. Yaxşı ətraf mühit. Tərbiyə ilə bağlı istənilən ədəbiyyatda "Men"adlı ana haqqında təsvirlərə rast gəlmək olar. Bu ana öz uşaqlarının inkişafına müsbət təsir edə biləcək yaxşı qonşuları olsun deyə üç dəfə evini dəyişmişdir. Qədim çin mütəfəkkirləri söyləyirdirlər: ətraf mühit sözsüs tərbiyədir.
9. Dürüstlük. Çinlilər uşaqların dürüst böyümələrinə çox böyük önəm verirlər, uşaqlar böyüklərin həyatını müşahidə etməklə dürüst və ya yalançı olmağı öyrənirlər.
10. Valideynlərin şəxsi nümunəsi. Valideynlərin ardıcıl və daimi müsbət nümunələri uşaqların tərbiyəsinə yaxşı təsir edir. Müasir Çində uşaqların tərbiyəsinə münasibət bir qədər dəyişilib. Təhsilin dəyəri artıb, oğlanlarla yanaşı qızlar da təhsil almağa meyllidirlər. Məkətəbəqədər təhsil müxtəlif forma, üslub və məzmunda həyata keçirilir. Çində uşaqların tərbiyəsi dövlət qayğısı səviyyəsində həyata keçirilən bir tərbiyədir. Yaş yarımlıq uşağı artıq müstəqilliyə öyrədirlər, onu oxumaq, saymaq , rəsm çəkmək öyrədirlər. çində uşaqlar müstəqil, fəal, ünsiyyətçil, sözə qulaq asan və anlaşıqlı olurlar.Uşaq

doğulandan sonra ana bütün ev işlərindən azad olur. O çox gəzməməlidir, hərəkət etməməlidir, çox vaxt yataqda olmalıdır, saçını kəsdirməməlidir, ayaqlarınıisti saxlamalıdır, soyuq əşyalara toxunmamalıdır. Bəzi ərzaqları, meyvələri yeməməlidir, yaşıl çay içməməlidir. Bütün işləri onun əvəziinə qohum qadınlar edir. Uşaqlara çox erkən yaşdan çin çubuqlarından istifadə etməyi öyrədirlər. Bu uşağın kiçik motorikasının inkişafına təsir edərək onu daha ağıllı edir.

3. Çin xalqının psixoloji xüsusiyyətləri və başlıca keyfiyyətləri.

Çin xalqının dini və inanclar sistemi. ÇXR konstitusiyası Çinin hər bir vətəndaşı üçün din azadlığına zəmanət verir. Ölkədə dini işlər üçün xüsusi komitə fəaliyyət göstərir. Hökümət dini fəaliyyətə maneə olmamaqla etiqad azadlığını təmin edir. Çində kilsə və məbədlərin hüquqları qorunur və ateistlərin ictimai yerlərdə təbliğatı qadağandır. Bundan başqa , dövlət din xadimlərinə ölkənin siyasi həyatında iştirak etməyə icazə verir. Çin və Şanxay ictimai elmlər akademiyalarında buddizm, islam və xristianlıq bölmələri olmaqla dünyəvi dinləri tədqiq edən institutlar fəaliyyət göstərir. Bundan başqa, İslam teoloji institutu, Nankin birləşmiş teoloji seminariyası, Çin buddizmi institutu mövcuddur.Bu gün Çində 100 milyondan çox dindar yaşayır və onlar öz dini mərasimlərini sayı 85 mini ötən məbəd, məscid və başqa yerlərdə həyata keçirir.Çində dinin tarixi çox qədimlərə gedib çıxır, əgər Hindistanda din hökmranlığı və hindlinin dini düşüncəsi metafizik təxəyyülə dolmuş hesab edilirsə, Çində başqa tip dini görüşlər yaranıb. Çində dinin əsas elementlərinə animizm və politeizm daxil olub. Çinlilər hesab edirlər ki, dünya ruhlarla doludur. Şər ruhlar (quy) xəstəlik və bədbəxtlik gətirir. Bu ruhlardan qorunmaq və ya qovmaq üçün isə müxtəlif tilsim və rituallardan istifadə edilirdi. Çinlilər dünyanın iki elementin "İn" və "Yan" ın birləşməsindən yaranmasına inanırdılar. "İn" qaranlıq, qadın, şər hesab olunurdu. Bu keyfiyyətləri özündə cəmləşdirən şər ruh "quy" idi. "Yan" isə istilik, işıq, xeyir, kişi demək idi və özündə bu keyfiyyətləri təcəssüm etdirən şeylər "quy"dan müdafiə olunmaq üçün bu keyfiyyətlərdən istifadə edə bilərdi. Çində daha beş əsas dini təlim : konfutsizm, daosizm, buddizm, islam və xristianlıq yayılmışdır.Dindən çox etik-siyasi təlim olan konfutsizm e.ə. III əsrdən 1912-ci ildə respublika elan olunanadək dövlətin dəstəyindən istifadə edib. Konfutsi fəlsəfəsi özlüyündə ailə və əxlaq kodeksini birləşdirir. Daosizm din olaraq Çinə daha çox bağlı olsa da, buddizmin təsirini əks etdirir. Buddizm Hindistanda yaransa da, Çində geniş yayılıb və burada yüzlərlə buddist məbəd və monastırları tikilib. Müsəlmanlar Çinin hər yerində, xüsusilə, ölkənin şimal-qərb və cənub-qərb rayonlarında yaşayır. Xristianlıq Çində Avropa və Amerika missionerləri vasitəsiləyayılmağa başlayıb. Çinlilər üçün müqəddəs insan o biri dünyada zövq almağa və əzabdan qurtulmağa çalışanlar yox, qəbul edilmiş normalara uyğun və ləyaqətlə yaşamağa öyrəşənlər hesab olunur.Konfutsiçilik Çində e.ə.V-VI əsrlərdə yaranıb. Çin imperiyasının müəyyən tarixi məqamlarında isə konfutsiçilik əsas din, rəsmi dövlət ideologiyası funksiyasını oynayıb. Konfutsiçilik həm siyasi, həm inzibati sistem,

həm də iqtisadi və sosial proseslərin əsas tənzimləyicisi, bir sözlə, Çin həyat tərzinin özülü idi. 2000 ildən çox bir müddətdə konfutsiçilik çinlilərin ağıl və duyğularının formalaşmasına, onların inanclarına, psixologiyalarına, düşüncələri-nə, davranışlarına və məişətlərinə ciddi təsir etdi. Etik-siyasi təlim olan konfutsiçi-liyin mərkəzində insan əxlaqi,ailə və dövlətin idarə olunması məsələləri durur. Konfutsi üçün çıxış nöqtəsi kimi "səma" və "səmavi təsir" konsepsiyası əsas götürülür. Konfutsi təlimində əsas yeri "jen" (insanilik, humanizm) ailə, cəmiyyət və dövlətdə insanlar arasında münasibətlər tutur. Daosizmin əsas anlayışı Dao anlayışıdır. Dao qeyri-cismanidir və hissi qavrayışa qapılmır, o, hər yerdə ve heç haradadır, formasız və məzmunsuzdur, sonsuz və əbədidir, boş, lakin bitməz-tükənməzdir. O tanrılar da daxil olmaqla, hər şeyin ilk əcdadıdır. Buddizm. Budda Nepal Himalayının yamaclarındakı kiçik vilayətdə hökmranlıq edən Şakya hökmdar nəslindəndir. Budda "aydın" deməkdir, bu onun ruhani adıdır. Budda təlimi iki müddəa ətrafında fırlanır: iztirab və nicat. Bütün Budda təlimi "dörd nəcib həqiqətə" söykənir. Bu həqiqətlər aşağıdakılardır: iztirab, iztirab mənbəsi, iztirabı yox etmə və iztirabı yox etməyə aparan yol. Buddizm Çinə e.ə. I əsrdə daxil olmuşdur. Eramızın IV əsrində bu dinin hər yerdə yayılması başlayır və tezliklə buddizm ölkənin ən nüfüzlu dininə çevrilir. Buddist nəzəriyyəsində üç başlıca istiqamət təşəkkül tapmışdır: çin buddizmi, tibet buddizmi (lamaizm) və pali buddizmi

4. Çinlilərin milli xarakterinin əsas xüsusiyyətləri

Çinin milli adət və ənənələri. Çin milli adət və etiket qaydaların əsasında böyüklərə hörmət, ehtiram hissi, ənənələrə qayğılı münasibət, keçmişə maraq və qəbul olunmuş qayda və ritualların qorunması dayanmışdır.Çində bütün xarici vətəndaşlara çox mehriban yanaşırlar. İctimai yerlərdə onlar diqqət obyektinə çevrilirlər. Çinlilər mehriban və ünsiyyətçil olduqlarına görə tanış olmayan insanlarla asanlıqla əlaqəyə girirlər. Çinlilər ictimai nəqliyyatda, ictimai yerlərdə tanış olmayan insanlarla söhbət etməyə hazırdılar. Çin dövləti dünyada özünün etiketi, mərasimləri, ənənələri ilə tanınır. Bu ənənələr qədin dövrdən müasir dövrdə qədər gəlib çıxıb. Çinlilərin salamlaşma ritualının 2000 ilə yaxın yaşı var. Müasir dövrdə belə salamlaşma ritualından dövlət səviyyəsində keçirilən rəsmi tədbirlərdə və milli bayramlarda istifadə edilir. İş insanları müasir salamlaşmadan istifadə edirlər amma hörmət əlaməti olaraq mütləq başlarını yavaşca tərpətməlidirlər. Müasir gənclər bir qədər qədim salamlaşma ritualından uzaqlaşıblar təkcə başlarını tərpədirlər. Hətta ünsiyyət zamanı hətta **telefonla danışarkən** belə tez tez baş əyirlər. Yaponlar ***əl ilə görüşməyi*** qəbahət hesab edirlər. Görüşəndə avropasayagı görüşmək, qucaqlaşmaq və öpüşmək qəbul deyil. Çinlilərdə ***ad soyaddan sonra gəlir***, adla müraciət etmə yalnız ən yaxın dostlar və qohumlar arasında olur. "Siz" əvəzliyindən çinlilər yaşlı insanlara və əsasən yad insanlara deyə müraciət edirlər.Çinlilərin ünsiyyətinin vacib hissəsi hədiyyələrin verilməsi təşkil edir. Çin düşüncəsinə görə hədiyyə vermək diqqətçilik əlamətidir. Çox bahalı hədiyyəyə çinlilərin münasibəti birmənalı deyil. Onlar hədiyyəni verərkən və onlardan hədiyyəni alarkən ***iki əllə almaq*** lazımdır. Çin etiket xüsusiyyətlərinə görə onlar

hədiyyədən imtina edə bilərlər lakin bir neçə nəzakətli təkidlərdən sonra qəbul edirlər. Çinlilər qonaq getməyə və qonaq qəbul etməyi çox sevirlər. Əgər siz dəvət olunmusunuz gecikmək olmaz əksinə tez gəlmək yaxşıdır. ***Qonaqlıqda uzun müddət oturmaq olmaz, bu nəzakətsizlik hesab olunur.*** Qonaq öz dostu ilə gələ bilər. Çinlilər bütünqonaqlara qarşı xoş və mehriban münasibət göstərirlər və çalışırlar ki, qonaq onlardan razı qalsın. Çin incəsənəti və poeziyası dərin mənaya malikdir. Çin rəssamların əsərləri boyaları və texnikaları ilə heyran edir. Dünyanın ən nəhəng kəşfləri məhz Çində ixtira olunmuşdur(kompas, ipək, porselen və s). Nəhayət, yalnız çinlilər Böyük İpək yolu vasitəsilə digər dövlətlərlə əlaqə yaratmışlar.Çinin mədəniyyəti müxtəlif ənənələrin, zamanın, inancların təəccüblü və heyranedici qarşılaşmasıdır. Hətta müasir çin rəssamların əsərlrində qədim dövrün abu-havasını hiss etmək olar.Çin mədəniyyətinin ən parlaq simvolu kalliqrafiyadır. Bu qədim dövrdə yaranmış xüsusi yazı üsüludur və müasir dövrdə isə kalliqrafiya incəsənətin ən unikal istiqamətinə çevrildi. Öz məzmununa görə kalliqrafiya musiqi və poeziya ilə müqayisə oluna bilər. İyeroqliflər vasitəsilə Çinin ritmini və harmoniyasını ötürürlər. Çin kalliqrafiyasında xüsusi pələng üslubu var, xalq təbabətində isə pələng gimnastikası var. Mərkəzi Çindəbelə bir adət: gəlinin cehizinə xəmirdən yoğrulmuş pələnglər qoyurlar. Çində qadınlar iş səhəsində kişilərlə bərabər hüquqlara malikdirlər, onlarda məsuliyyətli vəzifələrdə çalışırlar. Ancaq Çin ənənəsinə görə çin qadını sadə və təvazökar olmalıdır. Qadına toxunmaq, əlindən tutmaq, geyinməyə kömək etmək qadağandır. Ənənəvi çin toyu müasir dövrdə dəyişikliklərə uğrayıb lakin bəzi adətlərdən simvolik olaraq istifadə edilir. Çində toya münasibət həmişə ciddi olub.Toyu mütləq günün ikinci yarısına salırlar, saatın əqrəbləri mütləq yuxarıda olmalıdır ki, bu da ruzi-bərəkət, uğur, xoşbəxtlik əlamətidir. Toydan əvvəl bəy və gəlin öz evlərində qohum və qonaq üçün süfrə açırlar.

Çin ailəsində valideynlərə xüsusi hörmət saxlanılır. Toyda onlar üçün ayrıca masa ayrılır.Əgər Çində ərə getməmiş qız vəfat edərsə və başqa bir ailədə evlənməmiş gənc də vəfat edərsə onlar bu ölülərin nigah mərasimini keçirirlər və bir qəbirdə basdırırlar.Bu qəribə adətin müxtəılif açıqlaması var. Qədim Çin ənənəsinə görə, ölü tənhalıqda qalmamalıdır.Digər səbəb isə vəfat etmiş gənc ailədə olan növbəti üzvün yolunu bağlamır.

Yas mərasimləri .Qədim dövrlərdə Çində yas mərasimləri bir sıra adətlərlə həyata keçirilirdi. Məsələn vəfat etmiş insanın burnuna və ya ağzına pambıq parçadan olan ipliklər qoyulur, ən zəif nəfəsdə belə iplər tərpənir. Qadınlar çox səs-küylə ağlıyırlar ki, qonşular və yoldan keçənlər bunu bilsinlər. Sonra qohumlar, qonşular vəfat etmişi ziyarət etməyə başlayırlar. Ayaq tərəfə iki şam qoyurlar ki, onun o dünyada gedişini işıqlansın. Sonra qonq və barabanlarda ifa edirlər ki, "kölgələr dünyasına" keçən zaman ölən şəxsin yaxşı əhvalı olsun.Çox vaxt ölünü matəm yürüşü ilə müşayət edirlər. Əvvəllər Çində matəm rəngi ağ rəng hesab olunurdu. Müasir dövrdə isə ölən şəxsin qohumları qollarına qara rəngli lent bağlayırlar. Əgər qadın vəfat edibsə- sağ qola, kişi sol qola bağlayırlar.

Çinlilərin milli xarakteri. Çin milli xarakterinin özəyini ailəyə yönəlmiş xüsusi çin düşüncə tərzi təşkil edir. Çin cəmiyyətinə məxsus olan kollektivizm, qarşılıqlı kömək, altruistlik kimi keyfiyyətlər avropalıları çox təəccübləndirir.“Qızıl orta” prinsipini təbliğ edən Konfutsi və Lao-Tsının təlimləridə çinlilərin xarakterik xüsusiyyətlərini və həyat tərzinin spesifikliyini müəyyənləşdirmişdilər. Orta məxrəci seçərkən, yəni öz davranışlarında ifratçılıqdan uzaq olmaqla çinlilər özləri üçün uzunömürlülük və fiziki rifahı təmin edirlər. Bu Çin filosofların fikirləridir və müasir çinlilər çalışırlar hər yerdə və hər şeydə mötədilliyi və təmkinliyi gözləsinlər.Çində öz hisslərini açıq şəkildə bildirmək qəbul olunmur. Mimikaları o qədər də ifadəli deyil, hisslər haqqında məlumatı gözlər və qaşlardan oxumaq olar.Çinlilərin tərifə spesifik yanaşmaları var, insanın özünü tərifləməsi ümumiyyətlə normal qiymətləndirilmir,təvazökarlıq alqışlanır. Çinlilərin nə zaman dürüst və ya nəzakətli olduqlarını fərqləndirmək çətin olur, çunki onlar çox vaxt təvazökarlıqdan irəli gələn nəzakətli davranışı nümayiş etdirirlər. Bu baxımdan tərifi qəbul etməmək yalnız nəzakətlilik formuludur. Çində insana başqa insanların ətrafında səs qaldırmaq yaxşı hal deyil. Çinlilər üçün şəxsi reputasiyanı qorumaq çox vacıbdir.Çinlilər problemləri daha da şisirtməmək üçün konfliktlərdən və xoşagəlməz situasiyalardan qaçmağa meyllidirlər. Çinlilər üçün kollektivizm ön plandadır. “Uğur hamıya mənsubdur” şüarını çinlilər həmişə yadda saxlayırlar. Kollektiv məsuliyyətlilik bütün xalqa məxsusdur. Əgər bir müəssisə gəlir baxımdan ziyan çəkirsə, rəhbərlik bütün işçilərin maaşını azaldacaq və bu addımı da hamı anlaşıqlı qəbul edəcəklər.Çinlilərin özünəməxsus milli xarakteri bir sıra faktorların təsiri altında formalaşmışdır: xarici əlaqələrdən təcrid olma, xüsusi yazı qaydası, kənd təssərüfatının aparılmasının çox ağır şərtləri, dini və fəlsəfi təlimlər və s.

Çinlilərin milli xarakterinin əsas xüsusiyyətləri:

1. Özünəqapalılıq. Çinlilərin intraversiyaya meylliliyi müxtəlif səviyyələrdə şəxsi səviyyədən başlayaraq dövlət səviyyəsində təzahür olunur. Emosiyaların xarici ekspressiyasının açıq şəkildə göstərilməsi qəbul olunmazdır və hətta bir sıra mürəkkəb etik rituallarla əvəz edilir bu isə avropalıların gözündə ikiüzlülük kimi qavranılır. Əgər təsadüfən iki insan qarşılaşırsa, hər ikisi bir -birinə dərin hörmətlərini nümayiş etdirirlər. Hər ikisi göstərməlidirlər ki, digəri ağıllı, tərbiyəli və inkişaf etmişdir hətta əslində heç də belə olmasa belə. Az tanış olan insanlarla çinlilər özlərini qəribə aparırlar: sifət və bədənlərini heç tərpətmirlər, düz otururlar, dodaqları azca tərpənir və səsləri çox sakit olur, həmsöhbətin düz üzünə baxmaqdan qaçırlar və pıçıltı ilə danışırlar. Düşünürlər ki, belə yalnız düşmən və bir-birinə nifrət edənlər baxırlar. Bəlkə də, məhz bu xüsusiiyyət Çin dövlətini illər ərzində xarici əlaqələrdən uzaq və qapalı saxlamışdır.
2. Sadə məntiqli konstruksiyalara meylilik. Çinlilərin düşuncə tərzini praktik düşüncə tərzi hesab etmək olar. Zəruri olmayan mürəkkəbləşmələrdən uzaq olurlar. Çinli adətən sadə intellektual konstruksiyalara üstünlük verir çünki onları yadda

saxlamaq asan olur və həyat və fəaliyyət üçün əlverişli və rasionaldırlar.
3. Təşəbbüskarlıq. Yaponiyada çinli dərzi, bərbərin həyatını bir yapon professor belə təsvir etmişdir: "Onlar yalniz balıqla qidalanırdılar və hər bir yenni qənaət edərək yığırdılar."Əgər çinlinin imkanı bir az yaxşılaşırsa o bir köhnə velosiped alır və rayonları gəzərək alver etməyə başlayır. Sonra özünə inam artanda o motosiklet alır, artıq o nəinki alver edir, malları satır hətta malları faizlə verir. Sonda çinli özünə mağaza açır və daha yaxşı şərait yaradır.
4. Kollektivizm. Çətin iqlim və təbii şərait, həmçinin təbii fəlakət çinlilərdə ciddi intizam, fərdin qrupdan yüksək dərəcədə asılılığı, qrupun fikirlərinə etibarlılıq, qrupun üzvlərinə qarşılıqlı köməketmə kimi xüsusiyyətlər formalaşdırır.
5. Praqmatiklik. Qida resurslarında məhdudiyyət çinlilərdə ifrat dərəcədə qənaətçiliyə, praqmatizm və hər şeyi hesaba almağa xüsusiyyətləri formalaşdırdı. Praqmatik çinlilər öz məqsədlərinə çatmaq üçün sərfəli yolu detallara qədər hesablayırlar.
6. Qəddarlıq. Əgər siz gülümsəyən çinli ilə rastlaşsaz fikirləşməyin ki, o sizə səmimi şəkildə gülümsəyir.Bu yalnız nəzakətlilik təbəssümü də ola bilər. bəzən çinlilərdə təbəssümdəm aqressiyanı bir addım ayırır.
7. Yazı sistemi. Çinlilərin milli xarakterinin formalaşmasında yazı sisteminin xüsusi və böyük rolu olub. Çin yazı sistemi onları başqa xalqlardan sanki təcrid etdi özünü başqa ölkələrin təsirindən və müdaxiləsindən sanki qorudu.
8. Çin mentaliteti. Çinlilər avropalı mentalitetindən tamamilə fərqlidir. Çinlilərin davranışı avropalıların davranışından fərqlidir.

Yapon mədəniyyəti

1. *Yaponların milli xarakterinin əsas xüsusiyyətləri.* Yaponiya sirli şərq ölkəsidir. Onun ənənələri minillik tarixə malikdir və bu günə kimi yaponlar tərəfindən saxlanılır. Yapon mədəniyyəti cəmiyyətdə davranış tərzi, ailə münasibətləri ilə daima diqqət mərkəzində olan xalqlardan biridir. Yaponiya elə bir dövlətdir hansı ki, orada cəmiyyət aydın strukturlaşdırılmışdır.Burada ənənələrdən və xalqın mədəniyyətindən kənar və ayrıca yaşayan ailələr tapmaq demək olar ki, mümkün deyil. Bütün yaponlar tərbiyə və təlimdə, eyni zamanda cəmiyyətdə və ailədə eyni qanunlara tərəfdardırlar.

Yapon psixologiyasında qrup heç vaxt insanı təhdid etmir, əksinə ona kömək olur. Mahiyyət etibarı ilə yapon cəmiyyəti kollektivizmə, ittifaqa, birgə yaşayış qaydalarına əsaslanan qapalı cəmiyyətdir. Yapon nadir halda ola bilər ki, qrup daxilində razılaşmadan hansısa qərar qəbul etsin. Böyük firma və şirkətlərdə az adam olur ki, yapon cəmiyyəti üçün xarakterik olan adət və ənənədən kənara çıxmaq və müstəqil qərar qəbul etmək hüququnda

olsun. Bəzən əcnəbilər bu xüsusiyyətə görə yaponları məkirli, hiyləgər hesab edirlər. Ünsiyyət partnyorunun xətrinə dəyməmək üçün, nəzakətli olsun deyə edilmiş təklifə "yox" deyə bilməyən yaponu əcnəbilərin hiyləgər, bic adlandırması sadəcə olaraq yapon mədəniyyətinin bilməmək səbəbindən irəli gəlir. Bu zaman yapon belə bir zehniyyətdən çıxış edir ki, onun susması, heç də bizlərdə olduğu kimi, "susmaq razılıq əlamətidir" kimi yox, imtina kimi yozulacaq. Yaponiyada insan özünü sosial qrupdan kənarda təsəvvür edə bilmir və ona görə də burada cəmiyyətdə gərginlik heç də başqa ölkələrdə olduğu kimi yüksək deyil. İnsanın davranışı sanki, ana südü ilə mənimsənilən nəzakət qaydaları, sosial qadağalarla ciddi şəkildə reqlamentləşdirilmişdir. Yaponiyada doğulub boya başa çatan, yapon dilindən başqa heç bir dil bilməyən, hətta əcdadları belə bu ölkədə yaşayan əcnəbi yaponlunun gözündə heç vaxt əsl yapon olmayacaq. Əsl yapon olmaq üçün gərək genetik olaraq yapon olmaq lazımdır. Əcənbi qadınla evlənmiş yaponun nigahı yalnız, onun xanımı özünə yapon adı götürdükdən sonra rəsmi olaraq qəbul olunur. Məlumdur ki, uzun müddət əcnəbi ölkədə yaşamış yapon diplomatlarının uşaqları öz vətənlərinə qayıtdıqdan sonra adaptasiya problemi ilə qarşılaşırlar. Buradan belə nəticə çıxarmaq olmaz ki, yaponlar rasistdirlər. Sadəcə olaraq onlar üçün dünya iki hissədən yapon və qeyri-yapondan ibarətdir. Yaponlarda nəsil şəcərəsinə, soykökə çox həssaslıq göstərirlər. Ukrayina mənşəyli emiqrant Berequvanın oğlu Fransanın baş nazir olması, yaxud yapon Fuximorinin Peru prezidenti olması nə fransızları, nə də peruluları təəccübləndirmədi. Amma, hətta ulu babası VII əsrdən Yaponiyaya gəlmiş olan emiqrantın iticəsinin Yaponiyanın baş naziri olmasının təsəvvür etmək qeyri mümkündür. ətraf aləmlə, başqa xalqlarla əlaqədə, ünsiyyətdə olduqda yaponlar özlərinin bənzərsizliyi haqqında olan fikirləri təkzib etməyə yox, əksinə onu təsdiq etməyə çalışmırlar. ***Yaponlar vizit kartını-Meyşi*** adlandırırlar.

Psixologiya hesab edir ki, insan biopsixososial varlıqdır. Yəni, insan xarakterinin bəzi cəhətləri bioloji olaraq genetik amillərlə şərtlənirsə, bəziləri həyatda qazanılır. Insanın düşdüyü sosial və təbii mühit də insan xarakterinə öz təsirini göstərir , onda müəyyən "naxışlar" (xarakter əlamətləri) vurur. Bu mənada müasir yapon xarakterindəki bəzi əlamətləri coğrafi determinizm prinsipi əsasında izah edilə bilər. Belə ki, Yaponiyanın yerləşdiyi coğrafi ərazi, onun iqlimi, təbiəti və s. amillər yapon xarakterinin formalaşmasında müəyyən rol oynamışdır. Yapon torpaqlarının əksəriyyətinin qeyri məhsuldar olması, təbii sərvət qıtlığı, əlverişsiz iqlim şəraiti, əhali sayının artımı, ölkənin ada dövləti olması, materiklə quru əlaqəsinin olmaması, əcnəbi ölkələrə emiqrasiyanın çox çətin olması və s.obyektiv amillər yaponları gərgin əməklə məşğul olmağa, özünü dolandırmaq üçün vasitələr axtarmağa, yalnız özlərinə ümid etməyə məcbur etmiş, çıxış yolunu çalışmaqda, zəhmətdə görüblər. Bunu nəticəsində yapon milli xarakterində zəhmətkeşlik, əməksevərlik, qənaətcillik, məqsədyönlülük, məqsədə çatmaq üçün xırdaçılıq, daxili intizam hissi, özünənəzarət, çətinliyə qarşı dözümlülük kimi keyfiyyətlər

formalaşmışdır.Yaponlar ***son dərəcə işgüzardırlar.*** Yaponlar ad günlərində, işdən kənar vaxtlarda, bayramlarda ən çox ***milli geyimlərə*** üstünlük verirlər.

Millətin, xalqın xarakteri, psixologiyası onun təfəkkür tərzində özünü biruzə verir. Tədqiqatçıların böyük əksəriyyəti yapon təfəkküründə bir-biri ilə birləşə bilməyən cəhətlərin vəhdətdə olduğunu göstərirlər: mücərrəd düşüncəyə meyillilik, yaradıcılıq, rasionalizm və eyni zamanda fikri əməliyyatlarda lənglik, özünə inamsızlıq, təşəbbüskarlıqdan uzaq olmaq.

Yapon xarakteri üçün səciyyəvi olan əsas əlamətlərdən biri ***qrupa, kollektivə, topluma tabe olmaq,*** ona özünü təslim etmək, səcdə etməklə bağlıdır. Başqa sözlə ifadə etsək yaponlar qrupa, kollektivə pərəstiş edir və ona tabe olmağı özlərinə fəxr bilir, bundan zövq alır, bu xüsusiyyəti müsbət qiymətləndirir onu iradə əlaməti hesab edirlər. Əsrlər boyu Yaponiyada fərdin kollektivə tabeçiliyi olmuşdur. Əvvəllər feodala, sonra imperatora, bu gün isə firmanın rəhbərinə. Yapon adət edib ki, "kiminsə adı, şərəfi uğurunda" çalışsın. Yapon özünü şəxsi göstəricilər, naliyyətlər (peşə, ixtisas, yaşayış yeri, vəzifə və s.) əsasında deyil, aid olduğu qrup, kollektiv adından təqdim edir.
Yaponlar üçün fərdi həyat, fərdi xoşbəxtlik o qədər də sevindirici, üzrəkaçan deyil. Yapon həyatını qrupdan kənarda təsəvvür edə bilmir. Ona görə də yaponlar qrup şəklində işləməyə, gəzməyə, istirahət etməyə, səyahət etməyə, oxumağa, əylənməyə, bayram etməyə çox böyük üstünlük verirlər. Hər bir yaponlu qrup üçün faydalı olan iş görməyə, qrupa xeyir verməyə çalışır və bundan qürur hissi keçirir. Qrup mənafeyini şəxsi mənafeydən yüksək tutmaq yapon əxlaqının mühüm xüsusiyyətidir. Dünya xalqları bir-birindən həm də özünün qadağalar sistemi ilə fərqlənir. Ictimai-sosial münasibətlər qadağalar vasitəsilə tənzimlənir.Alman psixoloqu V.Vundt yazır ki, tabu insanlığın yazılmamış ən köhnə qanunudur. Tabu hətta dindən əvvəldir. Bu mənada insanın qrupdan kənar edilməsi, uzaqlaşdırılması, qrupa daxil olmasına qadağanın qoyulması yapon üçün ən sərt cəza hesab olunur. Bu cür cəza nə oğurluğa, dələduzluğa görə yox, qrup marağına xəyanət edildiyi halda verilir. Bu davranış tərzi kiçik yaşlardan uşaqlara tərbiyə olunur. Məsələn, ruslar uşağı evdə saxlamaqla, həyətə buraxmamaqla cəzalandırırlarsa, yaponlar tam əksinə uşağı evə buraxmayacaqları ilə xəbərdarlıq edirlər. Yaponiyada qrup daxilində ünsiyyətdə olarkən mütləq özünü aşağı mövqeydən təqdim edir. Belə olan halda, yapon mədəniyyətini bilməyən insan belə hesab edəcək ki, bu şəxsin heç bir qürur hissi, özünə hörmət etmir. Bu heç də belə deyil. Nəzakətli ünsiyyət, tərəf müqabilinin mövqeyini özündən yüksək tutmaq yaponlar arasında qəbul edilmiş etiket qaydasıdır. Yaponla ünsiyyətdə olarkən diqqətli olmaq lazımdır. Əgər sizə təklif etməyiblərsə, onda əyləşmək olmaz. *A.Hiroyuki* yazır ki, yaponlar natiqlik qabiliyyətini heç də yüksək dəyərləndirmirlər, əksinə belə adamlara qarşı inamsızlıq göstərirlər. Onlar üçün susmaq aktiv ünsiyyət vasitəsidir. Susmaq müxtəlif məna ifadə edə bilər o cümlədən narazılığı, qəzəbi və s.

Yapon yaxşı tanımadığı adamlar arasında susmağa üstünlük verir və söhbətə qoşulmaq zərurəti yarananda özünü o qədər də yaxşı hiss etmir.Yapon atalar sözünə görə "***Susmaq gözəl danışmaqdır***".

Hər bir xalqın psixologiyasına dərindən bələd olmaq üçün mütləq o xalqın tərbiyə sistemini öyrənmək lazımdır. Yaponlar uşağa qarşı çox mülayim davranır və tərbiyə edirlər. Uşağı demək olar ki, heç vaxt döymürlər, onların üstünə qışqırmır, yalnız dilə tutmaqla, şəxsi nümunə, valideyn qarşısında borc hissi əsasında tərbiyə edirlər. Yaponiyada uşaqların tərbiyəsi barəsində bir neçə qayda mövcuddur:

I - uşaqla 5 yaşa qədər "kral" kimi rəftar edirlər, yəni bu bir növ tam şəkildə icazə dövrüdür.

II -15-yaşa qədər "qul" kimi davranırlar, yəni sərt məhdudiyyət dövrü.

III -15 yaşdan sonra uşaqla "bərabər" rəftar edirlər. Kiçik yaşda yapon uşaqlarının tərbiyəsi "yumşaq və hər şeyi bağışlayan" qaydada keçirilir. Uşaq meydançasında uşağa qışqırıq eşitməssiniz, xüsusən də cəmiyyətin gözü qarşısında. Yaponiyada heç vaxt uşaqları vurmurlar. Ən ciddi cəza ana tərəfindən hərəkətin bəyənilməməyidir, hansı ki,bu ciddi bir baxış və ya intonasiya ilə ifadə olunur. Yaponiyada uşaqlarə söymək qəbul edilməmişdir, xüsusilə də, 2 yaşa qədər.Tərbiyənin bünövrəsi birinci olaraq onları əhatə edən insanlara nəzakətli olmağıdır. Bütün tərbiyə qaydası çox əsrlik ənənələrə tabe edilmişdir, hansılar ki , bunları cəmiyyətdə normal şəkildə qəbul edirlər. Beləki, onlar açıq nümunə şəklində şuluqluq edən uşaqlara qarşı bir hiylə işlədirlər. Həmin uşaqları " itirilmiş uşaq " və ya yapon dilində " mayqo" adlandırırlar. Ənənəyə görə, Yaponiyada ictimai yerlərdə və evdə balaca uşaq ananın əlində olur və yaxud da onu xüsusi örpəklə öz üzərinə bağlanılır. Ancaq körpə bütün günü eyni vəziyyətdə olmaqdan bezikir və ayaqlarını dartmağa başlayır. Belə olduqda isə ana onu küçəyə "itməyə" buraxır və ya icazə verir. Xoşbəxtlikdən bu ölkədə uşaqların oğurluq halları olmur və nəqliyyat hərəkəti kifayət qədər təhlükəsizdir. Bütün yaponlar bu hiyləyə yaxşı bələddirlər və körpəni tapmağa kömək edirlər. Bunu sakit tərzdə, polis olmadan asanlıqla həll edirlər. Bu zaman, ana yaxın bir yerdə olanlara nəzarət edir, eyni zamanda da ətrafdakılar ananı görürlər. Onlar körpəni axtarmağa kömək edirlər. Bu zaman onlar uşağa ana istiliyindən və qayğısından məhrum olmağının nə demək olduğunu hiss etdirirlər. Pis " mayqo" olmağın, daha sonra necə "amae"(yapon dilində- qayğı) olub ,ana istiliyinə, qayğısına qovuşmağın hissini yaşadırlar. Bir qayda olaraq bu həmişəlik uşaq üçün dərs olur və o daha anadan uzaqlaşmağa çalışmır, özü "amae"ni yenidən itirməyindən ehtiyat edərək, özünü nadinc aparmır. ***Yapon xaraketirnin əsasını "amae" və həya hissi*** təşkil edir. Yapon anaları öz körpəsini sakitləşdirərkən belə bir fraza işlədirlər -*"Bəyəm sənəcnəbisən?"*.Yaponlar üçün bu çox təhqiredici bir şəkildə səslənir, hətta kiçik yaşda belə ən qorxulu vəziyyət odur ki, hamı kimi olmayasan və yaxud " öz şəxsi simanı" itirəsən. Yapon ailəsində 5 yaşdan 15 yaşa qədər körpənin tərbiyəsi kardinal şəkildə dəyişir və o ciddi qaydaların çərçivəsinə düşür. Bu dövrdə şəxsiyyətin sərt sınması başlanır. Uşaqda məhz bu andan

bütünlüklə fərdini boğmağa və kollektivist təfəkkürüformalaşdırmağa çalışırlar. Bu dövrdə məktəbəqədər tərbiyənin və məktəb təhsilinin bütün sistemi bu hədəfə xidmət etməyə yönəldilir. Bu hamı kimi olmaq, seçilməmək, lağa qoyulmamaq və eqoist olmamaqdan ötrü yaranmışdı. Yaponiya məktəblərində " idzime" anlayışı mövcuddur. Bu anlayışda uşaq hamı kimi olmaq istəməyəndə, başqaları onu təqib edirlər, ələ salırlar,hətta döyürlər. Kiçik məktəbdə uşaq müəllimlərin və orada oxuyan böyük siniflərin himayəsi altındadır. Lakin burada şəxsiyyətlə mübarizə artıq tam sürətlə gedir, zahiri görünüşdən başlayaraq, eyni forma, eyni çantalar- oğlanlarda qara, qızlarda- qırmızı olur. Orta məktəblərdə şagirdlərə münasibət daha sərt olur. Nümunə üçün almanlardan ciddi "tabe qaydaları" götürülmüşdür. Səhər sıraya düzülmə və himnin xorla oxunmasından başlanır. Forma və şagirdlərin zahiri görünüşü barəsində isə ciddi nizam-intizama riayət olunur. Artıq burada qruplar şəklində ciddi bölgü olur. Məsələn, əgər uşaq(şagird) yaxşı üzə bilmirsə onu həmin hovuzdakı qrupdan ayırıb, ayrı bir qrup təşkil edirlər. Buna görə də, orta məktəbdə qruplarda yer üstündə mübarizə başlanır və bu səbəbdən də yaşıdların arasında münasibət pozulur. Bu dövr uşaqların həyatında çox ağrılı keçir. Qayğısız uşaqlıqdan böyük həyata keçid dövründə yeniyetmələr tərəfindən tez-tez intihar halları baş verir. Bunun səbəbi isə stress və sərt çərçivələrdə qoyulmuş şərtlərdir. Yalnız 15 yaş sərhəddinə çatanda, Yaponiyada uşaq böyük insan hesab edilir və onlarla bərabər hüquq və davranışlar çərçivəsində münasibət qururlar. Bu dövrdə uşaqların əksəriyyəti bu kollektivin şüuru ilə uyğunlaşmış olurlar. Yaponiyada oğlanların tərbiyəsi qızların tərbiyəsindən kəskin sürətdə fərqlənir. Oğlan - gələcəyin kişisi və ailə başçısıdır. Onların tərbiyələrinin bünövrəsi samurayların ənənələri ilə sıx bağlıdır: böyük bir cəsarətlə həyatın ağrı və əziyyətlərini daşımağı bacarmalıdır. Ona görə cavan oğlanlara həsr olunmuş bayramlarda havaya müxtəlif rəngli *karpın* təsvirlərini buraxırlar. Yapon mədəniyyətində "*karp*"- simvolik balıqdır. O uzun müddət suyun axınına qarşı üzə bilir. Bununla kişinin həyatın çətinliklərinin öhdəsindən necə gəlməli olduğunu sübut etməyə çalışırlar.Yapon ailəsində qız gələcəyin anası, ailənin qoruyucusudur. Erkən yaşlarında ona sakit, dözümlü olmağı, ailə başçısına (kişiyə) qulaq asmağı öyrədirlər. Konfutsi təliminə görə: "Gənclikdə qadın "anaya", evli olduqda "ərə", qocaldıqda isə "öz oğluna" tabe olmalıdır.

Amelya Notomb "*Qorxu və titrətmə*" adlı kitabında yapon ailəsində qızların tərbiyəsinin maraqlı interpretasiyasını gətirib. Yaponlarda ***ag rəng*** matəm rəngi hesab olunur. Yaponlar erkən yaşda onların yaxşı, mənəvi hissələrini öldürür və qıza hədsiz qadağalar qoyurlar. Beləki qız hər hansı tələblərlə razılaşmırsa ona belə cavab verirlər: "Əgər sənin belə yaşamaq xoşuna gəlmirsə, bircə çıxış yolu var- intihar" . Bu sözlər heç də istehza kimi səslənmir. Çünki Yaponiyada ***intihar- hörmətli aktdır***, yəni bu insanın yaxınları və ailə üzvləri buna hörmətlə yanaşırlar. Həmin şəxsdə özünə layiqli yer tutmuş sayılır. Yaponiyada 18 yaşla 25yaş arası qızlarda pul qazanmaq, oxumaq və özünə karyera

qurmaq dövrü başlanır. Əgər 25 yaşdan sonra ailə həyatı qurmayıbsa, özünü ailəsinə həsr etməyibsə öz ailəsini rüsvay etməmək üçün yeganə üsul boz kostyum, ağ corab, dabansız ayaqqabı geyinib saçını kəsdirib,cidi formada olmaq olur. Ancaq düşünməyin ki, yaponlar belə həyatdan əzab çəkirlər. Onlar başqasının həyat tərzini görməyiblər.Onların anaları, nənələri, böyük nənələri də belə yaşayıblar. Yapon tərbiyə sistemi haqqında nəticə çıxardarkən Mark Siseronun sözlərini xatırlayaq:" Hər kəs özunə". Yapon sistemində uşaqların tərbiyəsində minusları və üstünlükləri axtarmaq yanlış olardı. Beləliklə, yapon cəmiyyəti bunu minillik ənənələri ilə qəbul edib. Bu mədəniyyəti olduğu kimi, ittiham etmədən, tənqid etmədən, tərifləmədən və köçürmədən qəbul etmək lazımdır. Yaponların möhkəmliyinə paxıllıqcasına həsəd aparmaq olar. Çünki əsrlik ənənələrini saxlamaqla yanaşı, nəsildən nəsilə ötürməni məharətlə bacarırlar. Ancaq yapon tərbiyəsinin bəzi prinsiplərini aşağıdakı kimi göstərmək olar:

- Uşağın həyatının birinci illəri ana özünü onun tərbiyəsinə həsr etməyə məcburdur. Onunla daim ünsiyyət saxlamalı, hərəkətlərini başa salmalı, şeir və nağıllar oxumalıdır ki, uşaq daim onun sevgisini və qayğısısnı hiss etsin.
- Valideynlər uşağa səslərini yüksəltməməlidirlər, xüsusən də kənar şəxslərin qarşısında .
- Ardıcıllıq prinsipi- hansı ki, burada böyük uşaqlar kiçiklərə kömək edirlər, sosial mühitdə onların bələdçisi olurlar, onlara mehribanlığı, həssaslığı, rəhmli olmağı və zəiflərə kömək etməyi öyrədirlər.
- Valideynlər uşaqların taleyində məsuliyyət daşıyırlar,o vaxta qədər ki, uşaq sərbəst surətdə öz ayaqları üstündə möhkəm dursun.
- Uşaqlar öz valideynlərinə və onların fikirlərinə hörmət etməlidirlər.

Yaponiya öz adət-ənənələrini bir qismini bu günə kimi yaşada bilmişdir. Yapon adətlərinin, bayramlarının dəyişilmə-məsinin əsas səbəbi dövlətin özünü təcrid siyasəti olub. ***"Yerində olmayan mismarın başına çəkic dəyər"*** frazasını yaponlar geyim seçərkən istifadə edirlər.

Yapon əxlaqında valideynə və özündən böyüklərə hörmət ən başlıca yerdə durur. Yaşca özündən böyüklərə hörmət özünü təkcə ailədə yox, həmçinin iş yerinlərində, ünsiyyətdə və.s yerlərdə özünü göstərir.

Müasir yapon cəmiyyətində artıq valideynin fikrini nəzərə almaq yavaş-yavaş itməkdədir. Buna səbəb isə yapon gənclərinin avropa və amerika yaşam tərzinə meyil göstərməsidir. Qədim yapon cəmiyyətində valideynin istəyi ilə evlənmək və ya valideynin peşəsinin davam etdirmək indiki dövrdə demək olar ki, yox səviyyəsindədir. Bunu yaşlı yaponlar əsasən yaponiyada yaşam səviyyəsinin yüksək olması və müasir yapon gəncinin hər istədiyini pula əldə edə bilmək fikri ilə izah edirlər.

Müasir Yaponiyada ailə daxilində qalan adətlərdən bir nikah mərasimidir. Yapon gəncləri özləri sevdikləri şəxsi seçsələrdə, onu

öz ailəsi ilə mütləq tanış etməlidir. Yapon qızına elçi düşmüş Yapon oğlanı hörmət əlaməti olaraq qızın atasının qarşısında diz çökərək onun qızının qayğısına bundan sonra özünün qalmaq istədiyini bildirir, yalnız qızın atasının onu ayağa durmasını istədikdən və oğlana "mən qızımın qayğısına qalmağı bundan sonra sənə həvalə edirəm"-sözlərini dedikdən sonra oğlan ayağa dura bilər.

Yapon cəmiyyətində valideynə yaxşı baxmaq, onun qayğısına qalmaq hər bir yaponun borcu kimi hesab edilir. Müasir Yaponiyada yaşlıların qocalar evinə qoyulması və ya yaşlıların özlərinin qocalar evində yaşamaq istəməyinə pis baxılmır. Yaşlılar bunu əsasən evdəkilərin vəziyətinin ağırlaşdırmamaq üçün, gənc nəsil isə gərgin iş rejminə görə onlara lazım olan qayğını göstərə bilməyəcəklərindən bunu edirlər. Bu hadisə isə müasir Yaponiyada 70-ci illərə aid olan "bir dam altında üç nəsil"- yəni övlad, ata-ana, baba və nənə- deyimində olan baba-nənə ifadəsinin yoxa çıxmasına səbəb olmuşdur. Artıq əksər yapon uşaqları baba və nənə anlayışının nə demək olduğunu bilmirlər. Onlar baba və nənələrini qocalar günündə ziyarət edirlər, lakin bunu daxildən gələn sevgi hissinə görə deyil ,sadəcə qədimdən qalan yaşlılara hörmət əlamətinə görə edirlər.

Yaponiya dövləti yapon gənclərində yaranmış laqeydlik hissini aradan qaldırmaq və ya ***yaşlı yapon baba və nənələrinin nəvələrinə qarşı isti münasibətini yaratmaq üçün*** 2005-ci ildən fəaliyyət göstərən xüsusi kurslar açmışdır. Bu kurs vasitəsi ilə yaşlı baba və nənələr özlərinin yadan çıxartdıqları kiçik nəvələrinə qarşı necə davranmaq lazım olduğunu öyrənirlər. Həmçinin yaşlılara gənc yapon nəvəsi ilə psixoloji necə davranmaq lazım olduğunuda izah edilir. Burda əsasən ailədə münaqişəli vəziyyətlər düşərkən, konfiliktlərdən necə yayınmaq və məsələni necə düzəltmək lazım olduğu yaşlılara öyrədilir. Bu psixologiya əsasında artıq çətinliyə düşən nəvə özünə qəsd etmək əvəzinə baba və nənəsindən kömək istəyə bilər. Kurslarda iştirak edən baba və nənələrin əksəriyyəti 20 ildən çoxdur ki, qucaqlarına körpə götürməyiblər. Buna görədə onlar körpəni necə çimizdirmək, onun altını necə dəyişdirmək və yatızdırmaq lazım olduğunu bir də öyrənirlər. Bu kursların sayəsində kariyera qurmaq istəyən yapon qadınları öz övladlarını qayğısına qalmağı ata və analrına tapşırırlar. Beləliklə müasir yapon psixologiyası üç əsas dinin təsiri altında formalaşmışdır: sintoizm, buddizim və konfutsiçilik. Hər bir yapon ailəsində ***uşağa, təbiətə məhəbbətin aşılanması*** sintoizm, buddizm dinləri ilə bağlıdır. Sintoizm və buddizim kimi dinlərdə ***ağacın, daşın, çayın və digər təbiət məhsullarının ruhu*** olduğu qəbul olunur. Sinto yapon xarakterində təbii gözəlliyə həssaslıq, vurğunluq, təmizkarlıq kimi keyfiyyətlər formalaşdırmışdır. Buddizim dözümlülük, möhkəm iradə konfutsiçilik isə şəxsiyyətlərarası münasibətlərdə daima ierarxiyanı gözləmək, yaşlılara və ierarxiyanın yuxarı pilləsində dayananlara tabeçilik, sədaqətlilik kimi keyfiyyətləri aşlamışdır.

Yaponiyada iki din tarixən möhkəmlənmiş və indi də xalqın həyatında hakim mövqe tutur: sintoizm və buddizm. Sinto ən qədim yapon dinidir.Onun yaranma tarixi çox qədimlərə gedib çıxır.

Yaponların dünyanın və yaponların yaradılışı haqqında ilk mifoloji görüşlər və rəvayətlər, o cümlədən sintoizm haqqında ən qədim məlumat "Kodziki" və "Nixonqi" salnamələrində rast gəlinir. Yapon təəsüvvürünə görə ilk əvvəl kainatda xaos, qarışıqlıq hökm sürürmüş. Sonradan göy yerdən aralanıb, İzanami (qadın) və İzanaqi (kişi) yaradılıb. İzanaqi torpağı, o cümlədən Yaponiya adalarının yaradıcısı və demiruqu kimi təsvir olunur. Rəvayətə görə İzanaqi qurunu sudan ayırmaq üçün səmadan göy qurşağı ilə göyün körpüsündə dayanaraq uzun nəhəng nizəsi ilə dənizidən adaları yaratmışdır: nizədən süzülən damcılardan adaların qövsvari silsiləsi yaranır. Bu ölkənin qədim adı ***Yamoto sözünün mənalarından biri "Dağların yolu" ifadəsi*** rəvayətin mahiyyətini ifadə edir. Çünki, Yaponiya hər şeydən əvvəl dağlar, adalar diyarıdır. Yaponiyada günəş həmişə dağların arxasından doğur və dağların arxasında da qürub edir.

6.Yapon xalqının psixoloji xüsusiyyətləri

Yapon dilində ölkənin hüdudlarını aşan və əcnəbi vətəndaşın Yaponiya haqqında təsəvvüründə onlar qədər səciyyəvi obraz yaradan sözlərdən biri kimono, qeyşa, samuray, ninza sözləridir. Bu sözlər çoxlarına məlum olsa da mahiyyəti haqqında heç də həmişə düzgün təsəvvür yaratmır. ***"Qeyşa" sözü iki qey - talant, istedad və sya- insan*** heroqlifdən əmələ gəlmişdir və hərfi tərcüməsi incəsənət adamı deməkdir. Qeyşa -həqiqətən istedaddır, çünki, o həm yaxşı rəqqas, yaxşı müğənni, yaxşı aktyor, yaxşı natiq, yaxşı filosof, yaxşı çələng ustası, həm də yaxşı sensey ifaçısı olmalıdır. Qeyşa biliyi, bacarığı və mədəniyyəti ilə insanlara xidmət edən sənət adamıdır, xidmətçidir. Amma, əxlaqsız qadın deyil."Hər şeyin öz yeri var" əxlaqı ilə yaşayan yaponlar qadınları üç kateqoriyaya bölürlər: ev xanımı, nəsil artırmaq üçün; qəlb üçün- qeyşa və nəhayət şəhvət hissi üçün -oyran Bu sənətin Yaponiyada çox qədim keçmişi var. Tədqiqatçılar qeyd edirlər ki, yapon dilində qeyşa sözü XVIII əsrin ikinci yarısından etibarən işlənməyə başlanmışdır. 11—15 yaşda müvafiq kursu bitirdikdən sonra qızlara fəaliyyətə yeni başlayan qeyşa, daha doğrusu mayko adı verilir. Əksər hallarda maykonun adı böyük bacının adının bir hissəsi verilir. Bu adı aldıqdan sonra onlar müvafiq surətdə geyinməli və müvafiq saç düzümü formasından istifadə etməlidirlər. Bundan sonra böyük qeyşalar onları öz müştəriləri ilə tanış etməlidirlər. Böyük bacının təcrübəli olması bu mərhələ üçün çox vacibdir, belə ki, o nə qədər məşhur olarsa, maykonun yaxşı müştəri bazasına malik olması imkanı da bir o qədər çox olur.

Mövzu 14. İngilis və alman xalqının psixoloji xüsusiyyətləri

Plan:

1. İngilis xalqlının milli xüsusiyyətlərinin, adət-ənənələrinin, əxlaq normalarının, düşüncə və təfəkkür tərzinin öyrənilməsinin zərurəti.
2. İngilislərin işgüzar həyatının xüsusiyyətləri
3. İngilis xalqının dini və inaclar sistemi.
4. Alman milli xarakterinin əsas xüsusiyyətləri.
5. Alman adət-ənənələrinin, həyat tərzinin, mədəniyyətinin özünəməxsusluğu.. Almaniyada tərbiyə sistemi.
6. Almanların işgüzar həyatının xüsusiyyətləri

Ədəbiyyat

7. Məmmədova S. Mədəniyyətşünaslıq- -Bakı-2001
8. Bayramov Ə.S, Əlzadə Ə.Ə.Psixologiya, Bakı, 2002
9. Əliyev R.İ. Mentalitet.Bakı, 2009
10. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
11. Bayramov Ə.S.Etnik psixologiya, Bakı,2001.
12. C.V.Berri Mədəniyyətlərarası Psixologiya- -2002

Mövzu ilə bağlı elektorn resurslar

https://studme.org/61905/psihologiya/anglichane

https://sites.google.com/site/englishproverbsandsayings/home/osobennosti-anglijskogo-nacionalnogo-haraktera-i-mentaliteta/osobennosti-anglijskogo-nacionalnogo-haraktera-i-mentaliteta

İngilis xalqlının milli xüsusiyyətlərinin, adət-ənənələrinin, əxlaq normalarının, düşüncə və təfəkkür tərzinin öyrənilməsinin zərurəti

İngilislər ən qədim tarixi olan xalqlardan biridir. Dünyada bir çox müstəmləkələrə məhz ingilislər sahib olmuşdur. Onlar zəhmətkeş, tarazılıqlarını saxlayan, dostcanlı, ehtiyatlı və ləyaqətli insanlardır. Onların idealı müstəqillik, təhsilli olmaq, daxili özünəhörmət, dürüstlük və fədakarlıq, xeyirxahlıq, zərif davranışlı, kübarlıq, yaxşı iş üçün zaman və pul xərcləyən, idarə etməyi və tabe olmağı bacaran, qarşıya qoyulmuş məqsədə çatmaqda əzmli, səs-küyü və öyünməyi sevmirlər.

Bununla bərabər, ingilislərlə gündəlik ünsiyyətdə ingilis milli xarakterini anlamaq çox vaxt çətin olur. Burada konformizm və individualizmin, qəribəlik və yatımlılıq, xoşüzlülük və qapalılıq, yadlaşma və şəfqətlilik, sadəlik və fəxrlilik (snobizm) kimi paradoksların qəribə birləşməsi vardır.
İngilis milli xarakteri alman və fransızdan əsaslı şəkildə fərqlənir. İngiltərənin siyasi fəaliyyəti, sərbəst möhürü, dənizdə ağalığı və nəhəng sənayesi o qədər genişləndirilib ki, hər bir milli xarakterini daşıyan insan ən sakit qərar verməklə bərabər enerjili və həlledici işgüzarlıqları ilə seçilirlər (F.Engels).
Böyük Britaniyanın sakinlərinin mühüm psixoloji xüsusiyyəti onların yüksək praktikliyidir. Müşahidələrə əsasən qeyd edilir ki, onlar həyat və fəaliyyətlərində hədəf tutduqları praktik məqsədlərdən başqa heç nə görmür. Sənaye-ticari fəaliyyətlə uzunmüddətli fəal iştirakı həm yüksək praktiklik, həm də nəzəri və mücərrəd biliklərə məlum laqeydlik gətirdi. Bu isə, öz növbəsində, abstraktlıq hesabına vizual qabiliyyətlərin və obrazlı düşüncənin güclənməsinə kömək etdi. Bir çox tədqiqatçılar qeyd edirlər ki, ingilislərin qeyri-maddi (gözlə görülməyən) kateqoriyalar ingilislərə aydın deyil, onlar yalnız görüb və duyduqlarını anlayırlar, ingilislərdə təsəvvür zəifdir və abstraktlaşdıra bilmirlər. İngilislərin bütün elmi fənnləri onların praktik əhəmiyyətinə görə nəzərə alınır. Həqiqət onlar üçün yalnız konkret ifadə formasında mövcuddur. Əgər yüksək praktiklik, əməksevərlik və işgüzarlıq, mübahisəsiz olaraq, ingilislərin milli xarakerinin müsbət cəhətləridirsə, onda nəzəriyyəyə laqeydlik, zəif təsəvvür və abstraklaşdırmayı bacarmamaq onların kompromisə meylliliyini gücləndirir. Tarix göstərir ki, qismən də olsa, lakin əhəmiyyətli nəticələr əldə etmək üçün ingilislər uzaq perspektivdə onlara zəif təsvir olunan mücərrəd prinsipləri qurban verməyə hazırdırlar.

Ticari sahədə uzunmüddətli və davamlı fəaliyyəti ilə və digər dövlətləri zəbt etməklə, ingilislərin milli psixologiyasında quru hesablama və məharətlilik, təmkinlilik, dözümlülük və özündən əminlik xüsusiyyətlərini yaratmışdır. BuYaxın keçmişdə olan puritanlıq da özünə sahib olmaq bacarığı və özünə intizam tələb edən prinsipləri ilə buna təkan verdi. İngilislər üçün əsas həyati dəyərlərdən biri də maddi rifahdır. Heç kimin sərvəti bu şərəfdən istifadə etmir. Böyük Britaniyadakı bir şəxsin sosial mövqeyi nə olursa olsun, alim, hüquqşünas, siyasətçi və ya bir din xadimi olsun, ilk növbədə bir tacirdir. Hər hansı sahədə, onun ilk narahatlığı mümkün qədər çox qazanmaqdır.
İngiltərədə ənənələr fetişə, kulta çevrilmişdir, ondan zövq alırlar. Hər bir millətdə olduğu kimi, ingilislərin də bir çox adətləri vardır. Bunların arasında bədən tərbiyəsi, ailədə, məktəbdə, universitetdə, fabrikdə, zavodda ənənəyə çevrilmişdir. İngilislərin sadə, rahat gündəlik geyimlərə ənənəvi marağına əsasən onlar hətta kostyumları ilə fərqlənməyi belə hörmətsizlik kimi qəbul edirlər.
İngilislər qida qaydalarını düzgün şəkildə yerinə yetirirlər. Birinci yeməyi səhər yeyirlər, saat birdə ikinci səhər yeməyi, saat 17-də çay, saat 19-20-də nahar. İngilislər şam yeməyini sevmirlər. Yemək zamanı qadalara ciddi əməl edilir, beləcə də ölçülmüş həyat və iş rejiminə ciddi əməl olunur. İngiltərədə özgələrə gülünc, hətta

qəribə görsənən ənənələrə inadla riayət edirlər. İnsanların həyatını korlayan ənənələr də az deyildir.
Qrupdakı İngilislər yüksək psixoloji tutumlara sahibdirlər. Eyni zamanda, onlar bir-birlərinə hisslərini ötürmək və hiss etmək üçün deyil, hərəkət etmək üçün bir araya gəlirlər.
İqtisadiyyatda uzunmüddətli qeyri-bərabər inkişaf və müstəmləkə siyasətinin davamlı inkişafı, təcrid olunma, İngiltərəni başqa dövlətlər və xalqlardan üstün tutan, millətin mövqeyinin və bütövlüyünün təhlükəsizliyinin dərki - bütün bunlar yüksək qürur, təkəbbürlük və hətta itiağıllılıq kimi milli xüsusiyyətlərin inkişafına kömək etdi. İngilislər öz vətənlərində hər şeyin başqalarından daha yaxşı olduğuna inanırlar. Ona görə də əcnəbilərə üstünlüklərini çox şişirdilmiş bir halda yuxarıdan aşağı baxırlar. Bir çox tədqiqatçılar belə hesab edirlər ki, ingilislər bu səbəbdən qapalı, az danışan və asosialdır. Eyni zamanda, ada dövlətinin sakinlərinin xarici nəzarəti və sakitliyinin altında emosionallığını və nadir daxili həssalığını tapmağı öyrənmək lazımdır.
İngilislər ətrafdakı hadisələrə və insanlara qarşı, eyni zamanda özlərinə qarşı yüksək yumor hissi, yumşaq, istehzalı, ironiyalı və tənqidi cəhətdən təvazökar münasibətə sahibdirlər. Amma bu fransızın burada parlaq, uğurlu, gülməli və ağlının incəliyini və ixtiraçılığını, müvəffəqiyyətliliyini, kəskin ifadəliliyini göstərən parlaq yumoru deyil, əşyaların real vəziyyətini əks etdirən düşüncələrin sadəliyi və yüngül skeptisizmdir.

1. İngilislərin işgüzar həyatının xüsusiyyətləri

istifadə olunur. Kahı ilə Sezar salatı, vineqret, və ya tərəvəzlər və bərk bişirilmiş yumurta ilə Şefin salatı da çox populyardır. Başqa populyar salatların sırasında mayonezli kələm və yerkökü salatı və kərəviz, alma və qozdan hazırlanan Valdorf salatlarıdır. Duzdür, sağlam və qidalı xörəklərin hazırlanması müəyyən vaxt və səyləri tələb edir. Lakin, bunuda unutmamalıyıq ki, qidanın hazırlanması həmçinin cəhd və fantaziya tələb edən incəsənətdir. Milad və Yeni il bayramı (Christmas day and New Year's Day) Bir Xristiyan bayramı olan Noel baba, Həzrət İsanın doğum günü olaraq hər il 25 dekabrda qeyd olunur. Hər kəs evində bir şam ağacı bəzəyir ve altına hədiyələr qoyurlar. Bunun yanında insanlar bir-birinə təbrik kartları yollayır, küçələr və evlərin ətrafı işıqlarla bəzənir. Yeni il sabahı hədiyələr verilir və 24-dən 25-inə başlayan axşam ailə üzvləri bir araya gəldiyi evdə yemək yeyirlər, sonra da kilisələrdə dua etməyə gedirlər. Bütün dünyanın qeyd etdiyi yeni ildə hər kəs evini işıqlarla doladırır və gece saat 12:00-də möhtəşəm fişəng olur. Yeni il günü hər yedə tətil olur və ertəsi gün her yerdə böyük endirimlər olur. Pasxa günü (Easter day) Pasxa bayramı olaraq tanınan bu bayramın tarixi hər il dəyişir. Əsasən bahar mövsümündə bir bazar gününə uyğun gəlir. Xristiyan dünyası üçün Həzrəti İsanın yenidən dirilişi mənasını daşıyan bu xüsusi gündə yenə ailələr bir araya gəlir və yemək yeyib, dua edirlər. Bu özəl gün baharın gəlişini də bildirir. Şəhidlər günü (Memorial Day) May ayının son bazar ertəsi günü qeyd olunan bu gün Amerikan şəhidlərini anma günüdür. Müstəqillik günü (Fourth of July) Amerikan bayramları arasında ən önəmli olan bu bayram, Amerikanın müstəqilliyinin elan edilməsi ilə bağlı qeyd olunur.

Amerikada din. ABŞ Konstitusiyasına edilən birinci dəyişiklik dinin azad həyata keçirilməsinə zəmanət verir və quruluşuna uyğun olaraq Konqres qanunların qəbul edilməsinə qadağa qoyur. Din Amerikan mədəniyyətində əhəmiyyətli bir rol oynamaq-dadır. İnkişaf etmiş ölkələr arasında Amerika Birləşmiş Ştatları ən dindar ölkələrdən biri kimi qəbul edilir. 2002-ci ildə edilən Pew Global Attitudes Project anketinə görə ABŞ-ın dünyadakı inkişaf etmiş ölkələr arasında vətəndaşlarının əksəriyyətinin dinin həyatlarında çox əhəmiyyətli bir rol oynadığını ifadə etdiyi tək ölkə olduğu ortaya çıxmışdır.

Din və dövlət iki ayrı hörmətli quruluşdur. Rəsmi işlərdə İncil üzərinə and içmək, "Tanrı Amerikanı qorusun" duası ABŞ-da dinə və ya dövlətə bağlı bir zəiflik meydana gətirməz, iki sahədə bir-birinə müdaxilə etməz.

Ümumi milli din şəxsiyyətində dünya xeyr və şər qüvvələrinin vuruşduğu bir sahədir. ABŞ yaxşılığın və demokratiyanın qoruyucusudur, şər qüvvələrə qarşı düşmənlərə meydana gəlmə halında belə hücum edə bilər. Armageddon Döyüşü, dünyanın sonunu gətirəcək döyüş, Qüdsə 90 km uzaqlıqdakı Megiddoda ediləcək və şər qüvvələr məğlub olacaqdır. Tanrı azadlığı qoruma vəzifəsini ABŞ-a vermişdir, onlar seçilmiş millətdir.Din olaraq isə , ABŞ-da ümumi ; % 73 Xristian (% 48 Protestant , % 22 Katolik , % 2 Mormon , % 1 Ortodoks), % 19,6 ateist ya da heç bir dinə bağlı olmayan, % 1,7 Musevi , % 5,6 digər inanclar, 0,7% Buddist, % 0,6 Müsəlman, 0,4% hindu, % 0,3 unitar universalist, % 0,1 Pagan, Vika və Druid yaşamaqdadır. Şinto,

Kaodaizm, Sikhism, Jainizm, Taoizm, Bəhailik, Ekankar, Amerikan yerli dini və Kemetizm kimi digər bir çox din də Amerikada təmsil olunur. *Amerikaya ilk qul kimi gətirilən xalq afrikalılar olmuşdur.*

Amerikan xalqının stereotipləri. Müsbət stereotiplər. Alicənablıq və Əliaçıqlıq: Amerikalı siyasətçi olan Uillam Bennetə görə Amerikanların müsbət xüsusiyyətləri onların əliaçıq olmasıdır. O, qeyd etmşdir ki, Amerika Birləşmiş Ştatları bir çox ölkəyə kömək və təchizat göndərir və amerikalılar xeyriyyəçi və ya könüllü insanlar kimi qəbul edilə bilər. 2010-cı ildə xeyriyyə yardımı komitəsini araşdırması nəticəsində müəyyən olunmuşdur ki, amerikalılar 55%-lə dünyadakı digər insanlara kömək etmək istəyən digər ölkələr arasında 5-ci yeri tutmuşdur.

Pozitivlik: amerikanlar çox müsbət və pozitiv düşünməyə meyilli xalqdır və bu da onların ən böyük gücüdür.

Çalışqanlıq: amerikanlar işlərinə çox böyük diqqət yetirirlər və bütün işlərdə çalışırlar ki, uğur qazansınlar.

Mənfi stereotiplər. Obezite (piylənmə, həddindən artıq köklük) Amerika xalqının 3-də biri piylənmə xəstəsi olması, onların ayaqüstü yeməkdən (fast food) çox istifadə etməsi və kök olmaları kimi sterotipin yaranmasına gətirib çıxartmışdır. 2014-cü ildə aparılmış statistikaya görə ABŞ-dakı heç bir ştatda piylənmə xəstəliyi olan əhalinin faizi 20%-dən aşağı olmadı. Bəzi ştatlarda (Arkanzas, Luiziana, Mississipi, Texas və qərbi Virciniya) bu göstərici hətta 35% olaraq qeydə alındı.

Silaha aludəçilik. Amerika Birləşmiş Ştatlarının silahlar üçün tarixi bir sevgisi vardır və bu tez-tez amerika mətbuatında təsvir olunur. Amerikalıların böyük bir hissəsi odlu silahlara malikdir və burada baş veren ölümlərin əsas səbəbi odlu silahlardır.

Materializm, istehlak və həddindən artıq kapitalizmə meyillilik. Bəlkə də amerikalıların ən ümumi stereotipi iqtisadi materializmdir. Onlar puldan başqa heç nəyə bu qədər dəyər vermir, hər şeyi iqtisadi dəyərlərinə görə qiymətləndirir.

İrqçilik və ayrı seçkilik. Amerikalılar irqçi millət kimi tanınır, əksər hallarda azlıqlara qarşı ayrı seçkilik edirlər. İrqçilik amerika tarixinin əhəmiyyətli bir mövzusudur və bu gün də çox aktualdır. A.Eynşteynin sözlərinə görə qeyd etsək irqçilik amerikanın ən pis xəstəliyidir. Amerikaya "rəngli" bir cəmiyyət kimi baxılır, amma amerikalılar arasında ayrı seçkilik və qərəzlilik hələ də mübahisəlidir.

Özündən razılıq və eqoistlik. Amerikalılar təkəbbürlü insanlar kimi görünür. Onlar tez-tez xarici mətbuatda milliyətçi və həddindən artıq vətənpərvər kimi təsvir edilirlər.***Amerikalılara görə əgər şəxs varlıdırsa deməli ağıllı , güclü və yaxşıdır.*** *Əsgərlik həvəsi*. Digər geniş yayılmış stereotip budur ki, amerikalılar "dünya polisləri" olmaq istəyir və bütün dünyanın onların köməyinə ehtiyacı olduğuna inanirlar. Bu hətta hərbi müdaxiləyə gətirib çıxartsa belə - heç nədən çəkinmir və müdaxilə edirlər. Belə ki onlar böhran vəziyyəti yaradır və həmin böhranı həll edərək özlərini qəhrəman adlandırırlar.*Çox çalışqanlıq*. Çalışqanlıq müsbət stereotip olsa da, amerikalılarda bu həddindən artıq çox olmuş və burada karyera həvəsi günlük həyatı məhv etmişdir. Burada iş saatları daha uzun, tətillər daha qısadır.*Amerikalılar qapıı açıq olan kabinetdə işləməyi üstün hesab edirlər. Amerikalılara görə kabinet qapısıının açıq olması kabinet sahibinin otaqda olmasından və heç bir gizlin işi olmamasından xəbər verir.*

Bütün bu stereotiplərlə yanaşı amerika bütün dövlətlər tərəfindən çox güclü dövlət kimi tanınır. Soyuqqanlılıq, təkəbbürlülük onların əsas stereotipləridir. *Amerikan mətbəxi*. Amerikan mətbəxinin tarixi XVII-XVIII əsrlərdən başlayaraq İngilis mətbəxindən gəlmişdir. Daha sonra Şimali Amerika mətbəxi İngilis mətbəxini mənimsəmişdir. Daha sonralar amerika mətbəxinin formalaşmasında ispan, fransız, italyan, slavyan və buraya mühacir kimi gələn başqa ölkələrin mətbəxləri ilə qarışmışdır. Buna görə də amerikan yeməkləri dedikdə bura pizza, sosiska, hamburger daxildir. Həmçinin amerikanlar tərəvəz salatlarını da sevirlər. Məhz XX əsr amerikan mətbəxinin tam formalaşması dövrü hesab edilir. İlk növbədə bu dövrdə Amerikan mətbəxinin formalaşmasının səbəbi şəhər əhalisinin kəskin surətdə artması, kənd əhalisinin isə azalmasıdır. Sənaye sahələrinin inkişafı və bu inkişafda Amerikanın rəqabət aparması üçün çoxlu güc və vaxt tələb edirdi. Buna görə də çətin yeməklərin hazırlanması çox da vacib deyildi. Daha çox tez hazır olan "fastfood" üstünlük təşkil edirdi. "Fastfood"un yaranması çoxda asan olan bir proses deyildir. İnsanlar çox vaxt aparmayan yeməkləri ixtira etmək istəyirdilər. Nəticədə yarımfabrikatlar və daha sonra konservalar yarandı. Onlardan soyuq şəkildə isitmədən də qida kimi istifadə edilirdi. Bu kateqoriyaya hamburqer, hot-doq, kartof free və başqaları daxildir. Hal-hazırda Amerika cəmiyyətində insanların qidasının əsas hissəsini "fastfood" və ya təbii məhsullardan hazırlanmış milli yeməklər təşkil edir. İnsanların "fastfood"u seçməklərinin əsas səbəbi dadlı və qiymətinin sərfəli olmasıdır. Bununla yanaşı əgər siz hər hansı bir amerikanlının evinə getsəniz, masanın üzərində fastfood yox amerikanların milli mətbəxinə aid bir yemək görəcəksiniz. Hər hansısa bir yeməyin resepti ştatdan asılı olaraq dəyişə bilər. Məsələn, şimal ştatlarına xarakterik olan yeməklər əsasən: kartof, mal ətindən bifşteks və şokoladlı tort. Həm də orta qərbə italyanlar cox təsir etdiyinə görə burada milli yeməklərə pizza da aid edilir. Cənub-qərbin milli yeməklərinə isə meksikanlar təsir etmişdir. Belə olduqda amerikanın cənub-qərb hissəsinin milli yeməklərinə: faxitos, takos, burritos daxildir. Amerikan yeməklərində əsasən düyü qarnir kimi verilir. Həmçinin amerikan mətbəxini və yeməklərini özəlləşdirən bir səbəb də onların ədviyyatlardan geniş istifadə etməsidir. Xüsusilə də, burada istiot, sarımsaq, zənçəfil, darçın, qərənfil, vanil kimi ədviyyatlardan istifadə edilir. Amerikan mətbəxinin əsas simvolu olan yemək almalı piroqdur. Amerikan mətbəxi öz rəngarəngliyi ilə və müxtəlifliyi ilə insanları heyran edir. Hətta Amerikan mətbəxi çox da uzun və dərin tarixə malik olmasa da, hal-hazırda Amerikan reseptləri bütün dünya mətbəxlərinə təsir etməsi tamamilə inkar edilməz faktdır. İspanlar yalnız adi ərzaqlardan istifadə edərək yeməklər yaratmamışdılar. Onlar həm də meksika-hindularının fikirləri ilə öz fikirlərini birləşdirmiş və Amerikan mətbəxinin bir hissəsini formalaşdırmışdılar. ABŞ-da ***hinduların vətəndaşlıq hüququ*** 1924-cü ildə tamamlanmışdır. Quldarlıq Amerika tarixində bir faciədir. Quldarlıq Amerika mətbəxinə çox güclü təsir göstərmişdir. Qara dərililər Amerikaya ekzotik kulinar komponentləri (araxis, okru) gətirmişdilər. Halbuki, bu komponentlər birinci Peruya daha sonra Şimali Amerikaya

Afrikadan gətirilmişdir. Afrika qulları əsasən donuz əti ilə qidalanırdılar. Donuzun yaxşı hissələrini qulların sahibləri yeyirdi, qalan yerləri isə qullar dadlı yemək vəziyyətinə salıb yeməli idilər. Amerikaya çin və italyan mühacirləri də gəlmişdilər və bu mühacirlərin də Amerika mətbəxinə güclü təsiri olmuşdur. Əgər siz Amerikaya getsəz hansısa böyük restorana girsəz orada yeməklərin İtalyan və Çin mətbəxinin elementlərini görəcəksiniz. Əlbəttə, Çin mətbəxi Amerikada İtalyan mətbəxindən sonra ikinci yer tutur. Çin mətbəxini Amerikaya dəmir yolunda işləmək üçün gələn mühacirlər gətirmişdir. Əslində Çin mətbəxi Amerikaya tez bir zamanda yayılmamışdır. Onlar ilk əvvəl ərzaq məhdudiyyəti olduğuna görə sadəcə tərəvəzlərdən ibarət sadə yeməklər bişirirdilər. Daha sonra bu yeməklər böyük şəhərlərə yayıldiqca çin-amerikan mətbəxini formalaşdırmışdır. Hal-hazırda çin-amerikan mətbəxinə misal olaraq tərəvəzli rulet, pelmen (xəngəl) supu, bişmiş düyü göstərmək olar.

Amerikan xalqlının psixoloji xüsusiyyətlərinin, adət-ənənələrinin, əxlaq normalarının, düşüncə və təfəkkür tərzinin öyrənilməsi zərurəti.

Amerikalılarda ailə. Uşaqlar 16 yaşına çatdıqda evdən ayrılırlar, onlar bizə görə çox erkən yaşda işləməyə başlayırlar. Orada universitetlərdə təhsil haqqı çox bahalı olduğu üçün uşaqlar məktəbi bitirdikdən sonra universitetə girməyə çalışmırlar, təhsil almaq istəmirlər. Universitetdə oxuyan uşaqların çoxu isə yay aylarında müxtəlif işlərdə işləyərək təhsil haqqlarını ödəməyə çalışırlar. Azərbaycan ailələrindən fərqli olaraq onlarda ata-anaya münasibət tamamilə fərqli olur. Ana övladını hər dəqiqə müdafiə etməyə çalışmır, psixoloji olaraq ona dəstək durur, lakin həyatın çətinliklərindən müstəqil olaraq keçməsini daha məsləhətə uyğun hesab edirlər. Kaliforniyada demək olar ki, hər evin qabağında limon ağacı əkilir. Onların əksəriyyəti evlərinin ətrafında özləri üçün lazım olan hər şey edirlər. Əksər amerikalıların həyatları evlərini, evləri isə həyatlarını dəyişir. Meqapolislərdən uzaqlarda yaşayan amerikalıların ailələrində uşaqlar valideynlərinə ev işlərində kömək edir. Bir çox yeniyetmələr xəstəxanalarda işləyərək özlərinin ehtiyaclarını ödəməyə çalışırlar. Amerikalılar qayda qanuna qarşı çox diqqətlidirlər. Siqaret çəkilməyən yerdə siqaret çəkmək, yerə zibil atmaq, qırmızı işıqda yol keçmək, işə vaxtında gəlməmək kimi qanun pozuntularına görə çox ağır cəzalanırlar. İş həyatında çox ciddi qanunlar vardır. Onlar üçün xüsusi iş həyatı və iş əxlaqı vardır.
İnsan münasibətləri. Amerikada insanlar çox gülərüzdürlər, xüsusən də başqa ölkələrdən gələnlərə qarşı çox mehribandırlar, diqqətlidirlər. İngilislər və fransızlar kimi özündən razı və soyuq deyillər. Tanımadığınız bir insan sizə tezdən Salam verə və ya necəsən soruşa bilər, bu sizi təəccübləndirməsin. Onlar hər an sizinlə dialoq qurub, münasibət qura bilərlər. Amerikalılar avropalılara nisbətən daha istiqanlıdırlar. Hər bir amerikanlı gün ərzində 50 nəfərlə cox qısa və lakonik danışıb, münasibət qura bilərlər. Balaca uşaqları sevələmək, başını sığallamaq onlar üçün

adət edilməz bir şeydir. Tanımadıqları insanların uşaqlarına kənar bir adam yaxınlaşarsa bunu çox pis qəbul edərlər. Hətta onu təcavüz belə adlandıra bilərlər. Ona görə də bu məsələdə ehtiyyatlı olmaq lazımdır. Amerikalıya necəsən deyə soruşduqda həmişə müsbət cavab verməyə çalışırlar. Çünki onlar öz problemləri ilə heç kəsi yükləmək istəmirlər. Problemi olan insanlara isə psixoloqa müraciət etməyi tövsiyyə edirlər. Avropalı və amerikalını müqayisə edərkən çox sıx istifadə edilən bir cümləni qeyd etmək yerinə düşərdi. "Avropalılar üçün 100 km çox uzun məsafə, amerikalılar üçün 100 il çox üzün zamandır". Bunun mənasını belə açа bilərik ki, amerikanin qərblə münasibəti çox uzun bir tarixi əhatə etdiyi 100 il çox, avropalıların ölkələri kiçik olduğu üçün 100 km çox uzun məsafəni ifadə edir.

Şiddət bir çox amerikalının həyatının bir hissəsidir. Hər hansı bir qalmaqal zamanı amerikalılar həmən əl-qol davasına başlamırlar. Haqlı olduqda belə polislər tərəfindən nəzarətə götürülə bilərlər. Amerikalılar pis ifadələrdən istifadə edirlər, amma əl qol davası etmirlər. Amerikalılar həyatda hər şeyin ən yaxşısına sahib olmaq üçün çox işləyə bilərlər və çox şeyi fəda edə bilərlər. Amerikalılar onların bacarıq və uğurlarına lağ edən insanları sevmirlər. Amerikalılar çox zaman gülümsəyirlər, onlar sizi sevməsələr belə gülümsəyirlər. Metroda sizi tanımayan biri belə sizə salam verib, gülümsəyə bilər. Amerikada əgər ingiliscə danışmasanız üzünüzə baxar və heç bir şey anlamaz. Bu vəziyyət onlar üçün qəribə gəlir. İspan dili orada çox yayılsa belə onlar yenə də ingiliscə danışmağa üstünlük verirlər. Amerikalılar ABŞ-ın vətəndaşı olan hər bir kəsə qarşı hörmətlə yanaşır və onun keçmişini axtarmırlar, çünki orda yaşayan hər bir insanın kökü onsuz da başqa-başqa yerdəndir.

Daha sonra amerikada barda, oteldə və digər iaşə yerlərində bəxşiş vermək qəbul edilməzdir.

Amerikanların işgüzar həyatının xüsusiyyətləri.

Amerikada yaşamaq üçün çox çalışmaq lazımdır. Daha çox çalışırlar, qazanırlar və xərcləyirlər. Necə deyərlər, Nyu Yorkda insanlar yerimir, qaçır. Həyat burda çox tez keçir. Hər kəsin gedəcək bir yeri var. Avtobusdan istifadə edən amerikalılar mütləq kartlarını pulla təmin edirlər. Çünki, avtobusda "mənim yerimə pul verərsiniz", "mən pulunu verərəm" deyə bir məntiq yoxdur. Amerikada avtomobil yolları çox səliqəlidir. Amerikada avtobuslar heç vaxt gecikmir, hər avtobusun dayanacaqdan keçmə vaxtı vardır. Əgər siz 2 dəqiqə gecikmisinizsə növbəti avtobusu gözləməli olacaqsınız. Onlarda Google Maps sistemi çox güclü işləyir.

Amerikan xarakteri. Dəqiqlik çox önəmlidir. Onlar birinə saat 5-də görüşməyə söz veriblərsə, deyilən vaxtda orda olacaqlar. İşə gecikdikdə müxtəlif bəhanələr gətirib özlərini vəziyyətdən çıxaracaqlar kimi bir məsələ yoxdur. Müdriyyət bu bəhanələrin heç birini qəbul etmir və işçiyə töhmət verirlər. Amerikalılar müstəqil düşüncəyə malikdirlər. Onlar üçün ən önəmli şey xoşbəxt olmaqdır. Bir amerikalı üçün Suriyada nələr baş verdiyinin heç bir mənası yoxdur, əgər xoşbəxtdirsə deməli hər şey yaxşıdır.

Amerikalılar avropalılarla müqayisədə kütlə psixologiyasına malikdirlər. Əgər hər hansı bir məsələ kütləvi informasiya tərəfindən pislənirsə (məs: müsəlmançılıq) ətrafda hamı bir mənalı olaraq bunu qəbul edir və heç bir araşdırma aparmır.
Amerikalılar marginal düşüncələrə qarşıdırlar. Onların yanında terror, kommunizm, antimilitarizm kimi fikirlər söyləsəniz amerikalı sizə qarşı çıxar. Onlar sizi anlamaz, sizi dinləməz. Hər bir amerika vətəndaşı öz ordusunu sevir və onun ordusunun dünyaya sülh gətirdiyinə inanır. Amerikalı başqa irqdən olan insana qarşı daha tolerantdır, çünki özü də başqa irqdəndir. Amerikada bir yerli amerikalıdan çox çinli və meksikalı görə bilərsiniz. ***Amerikada klassik geyim və klassik rənglər-boz, göy, ag rəngli paltarlar özünə inam və nüfuzun rəmzi hesab olunur***
Amerikalılar idmanın bir şou olduğunu düşünür. Orada bütün insanlar bacardıqları qədər idmanın müxtəlif növlərindən istifadə edirlər. Hətta səhərlər böyük bir insan kütləsinin qaçmasını görə bilərsiniz. Bu səhər yürüşü adlanır. Şəhərdə hər yerdə böyük televizorlar vardır və onlarda spor kanalları açıqdır. Amerikalılar çox rahat geyinməyə üstünlük verən insanlardır. Onlar tərlikdə, cinsdə gəzər, həyata gülümsəyər, gecələr kartof yeməyi çox sevərlər və bunda zövq alarlar.
Amerikada kütləvi informasiya vasitələri çox vaxt xalqa uydurma informasiyalar çatdırır. Bunu əgər bir kanal edirsə, digər kanallar da eyni informasiyanı təkrar edir. Məsələn, "Amerikada terrorist var" xəbəri bütün kanallarda görə bilərsiniz. Bunula da amerika xalqı çox asanlıqla idarə olunur. Amerika xalqı materialist xalqdır. Xüsusilə də, onlar pulu olan adama qarşı insan kimi davranırlar, yox əgər kasıbdırsa amerikan kütləsi sizi əzə bilər. Ona görə də ən yaxşı variantda onlar pullarının olmadığını heç kimə söyləmirlər. *Amerikada klassik geyim və klassik rənglər-boz, göy, ag rəngli paltarlar özünəinam və nüfuzun rəmz hesab olunur*
Amerikan ailəsində tərbiyə. Kiçik amerikalılar özünü doğuşdan azad hiss edirlər: valideynlər özüylə əyləncə gecələrinə, restoranlara və muzeylərə onları həvəslə götürürlər. Bütün ictimai yerlərdə paltarını dəyişmək və uşağı yedizdirmək imkanı var və ətrafdakı heç kəs onun davranışına nə olursa olsun qəzəblənməyə başlamayacaq. Əgər valideynlər körpəni cəzalandırmağı zəruri hesab edirlərsə, onlar adətən onun hansısa bir sevinclərindən məhrum edirlər: kinodan, oyuncaqlardan və ya gəzintilərdən. Lakin oğulu və ya qızı necə lazımdır cəzalandırmaq bütün amerikalılar tərəfindən inkar edilmir.
Təhsil. Amerikan valideynləri çox narahat olmurlar, əgər məktəbə daxil olan zaman uşaq hələ oxuya və yaza bilmirsə onlar əmindirlər ki, onların oğulu və ya qız dəqiq savadsız qalmayacaqlar. Amerikada ibtidai siniflərdə ən vacib fənn ***İfadəli oxudur***. Hazırlıq siniflərində müəllimlər həmçinin körpələrə xüsusilə təlim vermirlər, onlarla mahnı əzbərləyir, plastilini formaya salırlar, şəkil çəkirlər, nağıllar yazırlar. Lakin əgər yuxarı sinif şagirdində oxumağa həvəs yaranmırsa heç kim ona təzyiq göstərməyə başlamayacaq, amerika müəllimləri bu seçimə hörmət edirlər. Əgər insan cəbri və ya ədəbiyyatı öyrənmək istəmirsə, onda bunu etməmək hüququna malikdir. Uşağın müvəffəqiyyəti haqqında müəllim fərdi görüş zamanı valideynlərə deyir, ona görə əlaçı sinif yoldaşını

oğluna və ya qızına nümunə göstərmək şansı yoxdur. Əxlaq və mənəviyyat haqqında anlayışları şagirdlərə öyrətmək üçün böyük insanların aforizmlərindən ibarət müxtəlif plakatlar məktəbin divarlarında asılır.*Amerikanın məşhur yazıçıları* ***M.Tven, T.Drayzer, E.Heminquey, Lonqfello*** *və digərlərinin adını çəkmək olar.*

Böyüklərlə ünsiyyət. Valideynlər həmişə məktəbin həyatında praktik olaraq iştirak edirlər və öz uşaqlarının işləriylə daim maraqlanırlar. Uşağın istənilən nailiyyəti, məktəb konsertində çıxışı və ya yaxşı qiyməti bütün ailənin sevincinə və heyranlığına səbəb olur. Demək olmaz ki, amerika məktəblərində dərslərdə tam xaos hökm sürür, onlardan çoxunda elə qaydalar var ki, riayət etmək lazımdır. Tamamilə sərt intizam da var, lakin uşağın şəxsiyyətinə, onun fikirlərinə, onun inanclarına böyüklər həmişə hörmət edir.

Azadlıq. Amerika uşaqları, öz Avropa həmyaşıdlarıyla müqayisədə, gecə təxminən bir-iki saat daha gec yatırlar. Burada vaxtda fərqi yoxdu valideynlər oğulların və qızların arzularına daha azad yanaşırlar, müəllimlər üçün öz şagirdlərinin qərarlarına baxmaq sadədir: məsələn, hamilə yeddinci sinif şagirdi, heç vaxt "məktəbin utancı" olmayacaq, ona sadəcə məktəbin tibb bacısı diqqət ayıracaqdır. Amerikalılar tez sərbəst olurlar və doğma ailədən ayrılırlar, qohumlardan kömək gözləmirlər amerika nənələri və babaları, məsələn, səyahət etməyə və şəxsi işlərlə məşğul olmağa üstünlük verərək heç vaxt nəvələr ilə oturmurlar.

Amerikada uşaqların tərbiyəsinin əsas xüsusiyyətləri:

1.Ata uşaqlarla oturur, ana ailəni təmin edir. Amerika üçün tamamilə normal hadisədir.

2.Uşaqlar pərəstiş etmənin və heyran olmanın predmetidir.

3. Uşaq ailənin bütün üzvləriylə bərabər səsvermə hüququna malikdir.

4. Uşağa hörmət edirlər və toxunulmazlıq hüququna malikdir.

5. Uşaqlara hərəkətlərin tam azadlığı çox tez verilir. Beləcə onları müstəqilliyə öyrəşdirirlər. Əgər uşaq palçıqda oynamağı arzu edirsə, ana hirslənməyəcək və ata qayışını çəkməyəcək. Çünki hər kəsin öz səhvləri və təcrübə hüququ vardır.

6. Nənələrlə və babalarla nəvələr nadir hallarda görüşürlər, bir qayda olaraq onlar başqa ştatlarda yaşayırlar.

7. Amerikalılar üçün uşağın ətrafında mənəvi atmosfer əhəmiyyətlidir. Məsələn, çimərlikdə hətta balaca qız çimərlik geyimində hökmən olacaqdır.

8. Şəxsi həyata hüquq. Bu qaydaya riayət etməyi amerikalılar hətta körpələrdən tələb edir. Uşaqlar valideynlərdən ayrı otaqlarda yatırlar və hər halda körpə gecə su içmək istəsə və ya valideynin yorğan-döşəyində kabuslardan gizlənmək istəsə də ana- ataya toxunmaq olmaz. Heç kim hər beş dəqiqədə uşaq çarpayısına qaçmır.

9. Uşaq doğulana kimi mövcud olan həyat tərzi doğuşdan sonra da davam edir. Uşaq dostlarla səs-küylü əyləncə gecələrindən və görüşlərdən imtina etmir, onlar bu yerlərə körpəni də özləri ilə götürürlər və onun ağlamağına baxmayaraq, qonağa saxlamağa verirlər.

10.Uşaq tibbinin əsas şüarı "tələşə düşməyin". Təzə doğulmuş körpənin müayinəsi qısa ola bilər "çox gözəl uşaqdır!" deyirlər . Həkimlər tərəfindən sonrakı müşahidəyə gəlincə körpənin zahiri görünüşü həkim üçün əsas amildir. Əla görünür? Deməli, sağlamdır.

Fransa mədəniyyəti və xalqının psixoloji xüsusiyyətləri

1. Fransa əhalisinin gündəlik həyat tərzi, adət-ənənələri

Avropada etnik cəhətdən fransızlara bənzəyən xalq çətin ki, tapılsın. Fransada hətta şimallılarla cənublular nəinki xarakterlərinə görə, hətta xarici görünüşlərinə görə də bir-birlərindən xeyli fərqlənirər. Məsələn, Şimalda əsasən hündür boylu, açıq mavi gözlü və sarışın saçlı adamlar üstünlük təşkil edir, cənubda isə daha çox alçaqboylu, enlikürəkli, əsmər, qarayanız adamlara çox rast gəlinir. Fransada bir-biri ilə tanış olduqları zaman əsasən sənətini və vəzifəsini deyil, harada doğulduqlarını soruşurlar. Bu daha çox paytaxtda yaşayanlarda özünü göstərir. Çünki Fransanın müxtəlif əyalətlərinin özünəməxsus xüsusiyyətləri vardır. Bununla da onlar kiminlə və necə ünsiyyət qurmağın, rəftar etməyin üsullarını təyin edə bilirlər. Yəqin ki, fransızların xarakteri ona görə ziddiyyətlidir ki, onlar özlərində müxtəlif əyalətlərin müxtəlif xüsusiyyətlərini daşıyırlar.

Başqa xalqlardan fərqli olaraq fransızlar əsasən oturaq xalq hesab olunur. Fransa tarixində kütləvi emiqrasiya halına az rast gəlinir. Hətta xaricdə yaşayan fransızlar da qocalanda vətənə dönməyə üstünlük verirlər.

Etiket qaydaları və ünsiyyət. Fransızlar bir qayda olaraq əl ilə görüşürlər. Xüsusilə də, kimsə başqa bir şəxsi onlara təqdim edəndə, onlar bir-birinin əlini möhkəm sıxırlar. Dostlar da, həmçinin bir qayda olaraq əllə görüşürlər, lakin qadınlar qucaqlaşır və bir-birini öpürlər. Məsələn, ailə daxilində olanlar görüşərək bir-birini qucaqlayırlar. Başqa regionun əhalisi görüşərək 2-3, bəzən də 4 dəfə bir-birlərinin yanaqlarından öpürlər. Fransızlar ailə daxili müracətdə bir-birlərinə “sən”, kənar şəxslərə “siz” deyə müraciət edirlər. Kənar şəxslərə “sən” deyə müraciət etmək nəzakətsizlik hesab olunur. Amma yaşlı adamlar uşaqlara, uşaqlar da öz aralarında bir-birlərinə “sən” deyə müraciət edirlər.

Fransız xalqının milli hissləri. Cənublu fransızların hərəkətlərinin arxasında çox vaxt təbii fikirlər və hisslər durur. Burada şəxsi münasibətləri, insanların bir-biri ilə əlaqəsi əsasən tanışlıq üzərində qurulur. Bu qarşılıqlı əlaqələrdən də adətən “müştəri” termini yaranır ki, bu da bəzən dairəvi formada rüşvətxorluqla əlaqələrə gətirib çıxarır. Onun bəhrəsini də yerli klanlar və mafiya qrupları görürlər. Demək olar ki, bütün cənub fransızlarının sifətində sadəlövh cizgisi var. Lakin onlar hiyləgər, lağlağı və danışqan adamlardır. Çox tündməcaz olurlar.

Şimalla Cənub arasındakı fərq onların tarixi taleləri ilə də müəyyən edilir. Ölkənin Cənub hissəsi Roma Qalliyasından əmələ gəlib. Əsasən rum mənbələrində qallar cəsarətli, zirək, fərasətli, gözəl danışmağı bacaran, ünsiyyətcil, lakin ehtiyatsız, şöhrətpərəst, qərarsız, tamamilə qayda-qanuna riayət etməyən xalq kimi təsvir

olunmuşdur. Əlbəttə ki, fransızlar öz xüsusiyyətlərini yaxşı bilir, özlərinə hesabat verməyi bacarırlar.

Fransızların təbiətə münasibəti. Fransanın bənzəri olmayan ərazisində çoxlu təzadlar və müxtəliflik görmək mümkündür. Fransada yolun hər döngəsində mənzərə dəyişilir. Aralıq dənizinin Cənubunda bütün rənglər açıq çalarlıdır. Burada çoxlu şam və zeytun ağaclarına da rast gəlinir. Fransa müxtəlif balıq növləri ilə də zəngindir. Bu ərazinin sıldırım dağları, təpələri vardır. Fransanın Cənubu isti iqlimə mənsub olduğundan, aydın təbiət buranın insanlarının da təbiətinə uyğun gəlir. Fransanın şimalında isə əksinə, heç nə günəşli cənubdakı kimi deyildir. Səma tez-tez yağışlı buludlarla örtülür, soyuq küləklər Atlantik okeandan və La-manş boğazından əsir, hər yeri duman bürüyür. Yol qırağında hər iki tərəfdə cərgə ilə alma bağları, qovaq və cökə ağacları salınıb. Uzaq, Şimal-Şərqdə Nord (Şimalda) və Pa-de-Calé (Kale limanı) əhalisi əsasən kartof və çuğundur əkməklə məşğul olur.

Fransızlar alma şərabına daha çox üstünlük verdiklərindən, şimalda üzümlüklər artıq yox olmaq üzrədir. Üzüm tənəklərinin yerini maya göbələyi əvəz edir. Şimalda yaşayan insanların təbiəti də cənubdakılardan tamamilə fərqlənir.

Fransızların temperamentinin təzahür xüsusiyyətləri. Ümumilikdə fransızla ***rasional düşüncəli, sentimental*** xalq hesab olunur. Fransanın cənubunda olan aydın təbiət buranın insanlarının temperamentinə də uyğun gəlir. Cənublular cəld, çevik, ünsiyyətcil insanlardır. İsti iqlimə mənsub olduqlarından onlara evdə oturmaq darıxdırıcı gəlir, həyətə, kafeyə getməyə can atırlar. "Günəş vannası" qəbul edir, çay stolu arxasında son yerli mətbuatı müzakirə edirlər. Kəndlərdə və şəhərlərdə əsasən yaşlı kişilər möhtəşəm Çinar ağaclarının kölgəsində və fantanların kənarında yığışaraq, kart və ya domino oynamaqla günlərini keçirdirlər.

Cənubla şimal insanlarının temperament fərqi də böyükdür. Şimalda yaşayan fransızlar az ünsiyyətli və az danışan olurlar, lakin onlar işdə çox ciddi və bacarıqlı, dostluqda isə çox möhkəm və davamlı olurlar. Onlar öz keşmiş ənənələrini də qoruyub saxlayırlar. Şimalda yaşayanlar cənubdakılardan fərqli olaraq küçədə vaxt keçirməyi xoşlamırlar. Onlar havanın soyuq keçməsi ilə əlaqədar olaraq rahat evdə oturmağa üstünlük verirlər.

Fransızların adət-ənənələri. Fransızlar öz keçmiş adət-ənənələrini qoruyub saxlamağı bacarırlar. Burada çoxlu həvəskar (fan) klublar, folklor dərnəkləri fəaliyyət göstərir. Bayram günlərində şəhərin küçələrində möhtəşəm karnavallar keçirilir.

Ənənəvi xalq kostyumu olan qadın kostyumu büzməli geniş ətək, qollu köynək, önlük və papaqdan ibarətdir. Kişi kostyumu isə şalvar, köynək, jilet, gödəkcə boyun dəsmalı və şlyapadan ibarətdir. Kənd kişilərinin və fəhlələrinin baş örtüyü kimi indi də beretlərdən istifadə edirlər. Kostyumun əsas elementləri bütün Fransada eynidir. Ənənəvi vilayət kostyumlarının fərqi yalnız müxtəlif önlük və örtüklərlə seçilir.

Fransızlar özlərinin milli mətbəxləri ilə də fəxr edirlər. Hər bir fransız əyalətində ənənəvi xörəklərin olmasına baxmayaraq,

fransızların qidasında ümumi xarakterik xüsusiyyətlər daha çoxdur. Onlar çoxlu tərəvəz və meyvələrdən istifadə edirlər. Pendir istehsalında fransızlar böyük ustalıq nümayiş etdirirlər. Fransız stolunun ayrılmaz atributu çaxır olduğundan, fransızlar çaxır istehsalına görə də dünyada birinci yerdə durur. Ən çox alma şərabına üstünlük verirlər.

Fransız xalqının başqa xalqlara münasibəti. Fransızlar daim özünü təsdiqə çalışırlar. Başqalarının qeybətini qırmağı sevirlər. Bununla belə, başqalarının özləri haqqında fikirlərinə həssalıqla yanaşırlar. Onlar qapalı ingilisdən, ciddi almandan daha ünsiyyətcil, italyanlara nisbətən daha ciddidirlər, lakin fransızların ünsiyyətcilliyi heç də birmənalı deyil. Əgər amerikalı tanışlıqdan yarım saat sonra əlini sənin ürəyinə vurur və evinə qonaq dəvət edərsə, fransız bunu etməz. Fransıza "sən deyə" müraciət etmək uzun vaxt tələb edir. Fransızların işğüzar həyatında şəxsi əlaqə və tanışlıq böyük rol oynayır. İşğüzar tanışlıq zamanı fransıza hökmən ***vizit kart*** verilir. Onlar tanışların təhsilinə də xüsusi fikir verirlər. Ona görə də vizit kartda təhsil aldığı müəssisənin adının göstərilməsi vacibdir.

Fransızlar o qədər də dəqiq deyillər. Onların qəbullarının öz qaydası var. Daha yüksək statuslu şəxs bir qayda olaraq görüşə gec gəlir. Tutaq ki, siz firmanın prezidenti ilə şam yeməyinə dəvətlisinizsə, arxayın ola bilərsiniz ki, o, ən azı yarım saat gecikəcək. Stol arxasında ənənəvi mövzu teatr, kino, sərgilər haqqında danışıqlardan ibarət olur.

Fransızlar özlərini təqdim etmək qaydalarına xüsusi əhəmiyyət verirlər. Geyimə qarşı mühafizəkardırlar. Adətən zövqlə geyinirlər. Açıq, parlaq rənglərə üstünlük verirlər. Onlarda əzilmiş, ütüsüz paltarda gəzmək qəbahət sayılır. Qadınlar daş-qaş, zinət əşyaları taxmağı o qədər də xoşlamırlar. Hər kəsin cəmiyyətdə mövqeyi, sosial statusu asanlıqla gözə çarpır. Görüşərkən əl tutur və bir anlığa bir-birilərinin gözlərinin içinə baxırlar. Adətən işgüzar görüşlərdə yemək verilir. Yemək zamanı siqaret çəkmirlər, belə hesab edirlər ki, siqaret yeməyin dadını qaçırdır.

Əgər siz fransızca danışmasanız, gərək bu dili pis bildiyinizi söyləyə, üzrxahlıq edəsiniz. Fransızlar mahir natiqdirlər. Söhbət zamanı tez-tez mövzuya uyğun zarafatlar edirlər. Fransızların ilk dəfə tanış olduqları adama ilk sualları bu olur: "sən hardasan?". Bu sualla əsasən onlar digər bölgədən olan fransıza müraciət edirlər ki, həmsöhbətinin xarakterik xüsusiyyətlərini müəyyən edə bilsin.

Fransızların ailəyə, uşaqlara münasibəti. Fransızların ailəyə münasibətinin də özünəməxsus xüsusiyyətləri vardır. Övlad məhəbbəti, ona öz nəslinin davamçısı kimi baxmaq istənilən insanın genetik xüsusiyyətidir. Bununla belə, hər bir xalq bu məhəbbəti müxtəlif şəkildə təzahür etdirir. Burada təbii ki, valideynin xarakteri, sosial mühiti, milli xüsusiyyətləri, əxlaq dəyərləri və s. öz təsirini göstərir.

Fransız uşağa məhəbbətini italyanlar kimi hay-küylü şəkildə bildirmir. Ümumiyyətlə, fransızlar rasional düşüncəli sentimental xalqdırlar. Fransızlar uşağa qarşı çox da ürəyi yumşaq deyillər. Uşağa qarşı biganə və sərt olurlar. Onlar uşağın erkən qabiliyyətini daha çox qiymətləndirirlər. Fransada ictimai yerlərdə bərkdən

ağlayan uşağa nadir hallarda rast gəlinir. Onlar uşağı həddən artıq əzizləyərək, nazını çəkərək yedizdirməyi xoşlamırlar. Ümumiyyətlə, Fransada öz qabında yemək saxlamaq mədəniyyətsizlik hesab olunduğundan, uşağa da öz yeməyini sonadək yeməyi öyrədirlər. Fransızlar uşağa soyuq dəyməsin deyə onu heç vaxt qalın geyindirmirlər. Anaya hörmət 1-ci dərəcəli vəzifədir. Böyük uşaqlar ev işlərində anaya kömək edirlər. Yad adamların yanında uşaqlar özlərini ciddi və sakit aparır, heç vaxt böyüklərin sözlərini kəsmirlər. Onlara müraciət edilməzsə söhbətə qarışmırlar. Bir sözlə, onlar özlərini inamlı və böyük adam kimi aparırlar. Fransızlar amerikalılar kimi uşaqların pul qazanmaq üçün qəzet paylamağını, maşın yumağını səmərəli vasitə hesab etmirlər. Fransızlar ev işlərində yaxından iştirak etməyi kişi işi hesab edirlər, yəni stol açmaq, qab yumaq, zibil atmaq, ev yığışdırmaq və s. kimi işlərdə kömək etməyi normal qəbul edirlər.

Nənələrin öz nəvələrinin daim qayğısına qalması qəbul edilmir. Yalnız şənbə və bazar günləri nəvə ancaq bir neçə saatlığa nənənin yanında qala bilər. Bundan başqa əgər nənə kənddə yaşayırsa, nəvə yay tətilini nənəsi ilə birgə keçirə bilər.

Fransızların həyat tərzi. Fransızlar pula qarşı çox tələbkardırlar, pul yığmağı xoşlayırlar. Bəzən bu hal onlarda xəsisliyə çevrilir. Fransızlar riskli işə pul yatırmaqdansa, onu qoruyub-saxlamağı üstün tuturlar.

Fransızların işgüzar həyatında şəxsi tanışlıq və şəxsi münasibətlər mühüm yer tutur. Fransızların xarakterindəki fərdilik ünsiyyətli olmaq halına üstün gəlir. Onlar çay stolu arxasında oturaraq hər mövzuda səmimi söhbət etsələr də, öz qəlblərini başqalarına açmağı xoşlamırlar. Fransıza "sən" deyə müraciət etmək uzun vaxt tələb edər. Onlar özləri ilə başqaları arasında həmişə müəyyən məsafə saxlayırlar.

Fransada ali təhsilə xüsusi diqqət yetirirlər. Ölkənin ən görkəmli iş adamları və elitası əsasən məşhur ali təhsil müəssisələrinin məzunları arasından çıxır.

Fransızlar öz ölkələrinin tarixinə, mədəniyyətinə, dilinə çox ehtiramla yanaşırlar. İşgüzar görüşlər zamanı gərək fransızca danışmağa çalışasan, bu dili bilmədikdə isə, üzr istədikdən sonra başqa dildə danışa bilərsən.

Onlar çox dəqiqdirlər və qonağı da təyin edilmiş vaxtda qarşılamağı xoşlayırlar. Fransızlar mətbəxi özlərinin milli fəxri hesab etdiklərindən, masanın üzərindəki yeməklərin və içkilərin keyfiyyətinə də xüsusi fikir verirlər. Stola çox tünd içkilər qoyulur, sağlıq deyilmir, hesabı da dəvət edən şəxs ödəyir. Söhbətə əsasən kofe verildikdən sonra başlayırlar. Adətən masa arxasında kino, sərgilər, kitablar, Fransız mədəniyyəti və incəsənəti, turizim kimi mövzulardan söhbət edirlər.

Fransanın mədəniyyəti və dini. Fransanın şimalı ilə cənubu onların tarixi talelərində də fərqlənir. Ölkənin Cənubu Roma Qalliyasından əmələ gəldiyindən, burada Roma mədəniyyətinin böyük təsiri vardır. Burada mədəniyyətin əsasını Antik Roma mədəniyyəti təşkil edir. Bəzi Cənub şəhərlərində hələ də antik amfiteatrlar, həmçinin rum qullarının tikdikləri möhtəşəm azverdunlar qalmaqdadır. Marselin əsasını da qədim yunanlar qoymuşlar. Fransız ənənəvi mədəniyyəti özünəməxsus cəhətlərini

yaşayış məskənlərinin xarakterində, yaşayış evlərinin tiplərində və milli mətbəxində saxlamışdır. Ölkənin Şimal-Şərq hissəsinin Pikardiya, Şampan, Lotoringiya və Elzasın düzənlik və təpəlik rayonları üçün küçə və cərgəvi planlı böyük kəndlər xarakterikdir. Əkin sahələri az olan hissələrdə isə Bretan, Normandiya, Akvitaniya və Pravansda kiçik qəsəbələr üstünlük təşkil edir. Burada kəndli mülkləri bir-birindən hasarlar vasitəsilə ayrılırlar. Fransa kəndlərində əsasən küçə və paralel sırada düzülmüş birmərtəbəli evlər geniş yayılmışdır. Fransanın dağlıq rayonlarında Alp tipli yaşayış evləri geniş yayılıb.

Fransanın əsas dini xristian dinidir. Fransada xristianlığın qolları protestant və katolikdir. Fransızlar həftənin bir günü kilsəyə gedərək ibadət edirlər. Fransanın şimalında dinə etiqad cənuba nisbətən daha çox yayılmışdır. Bundan əlavə Fransada islam dininə də etiqad edənlər çoxdur. Hal-hazırda Fransa əhalisinin 10%-ni müsəlmanlar təşkil edir. Bunlar əsasən Afrikadan gələn ərəblər, misirlilər, tümənlər və əlcəzairlilərdir.

İxtisas ölkə xalqlarının dili. Milli xüsusiyyətlərin formalaşmasının öz qanunauyğunluqları var və ondan yan keçmək olmaz. Bunların içərisində xalqın dili ilə onun ruhu arasında birbaşa bağlılıq vardır. Dil hər bir xalqın öz düşüncəsinin, təfəkkürünün aynasıdır.

Bir ailəyə daxil olan dillər (dil ailəsinə) öz aralarındakı müxtəlif dərəcəli qohumluqlarını saxlayırlar. Bununla əlaqədar olaraq dil ailələri budaqlara, onlar da öz növbəsində qrup və yarımqruplara ayrılırlar. Hind-Avropa dil ailəsi. Bu dil ailəsi 12 budağa ayrılır: Hind, İran, Slavyan, Baltik, Alman, Kelt, İtalyan, Roma, Alban, Yunan, Anadolu, Toxar.

Roman dilləri budağı Roma imperiyasının dağılmasından sonra latın dilinin danışıq dialektlərindən əmələ gəlmişdir. Bunlar: İspan, Portuqaliya, Katalon, Fransız, Provansal, İtalyan, Sardin və Retoraman (Fransız, İtaliyan və Alman dilləri ilə yanaşı, İsveçrənin dövlət dili), Rumin, Moldav dilindən ibarətdir.

German tayfaları olan Frankların, Almanların, Burqunların hücumları Qalliyada Roma hakimiyyətinə son qoydu. Burada Franklar daha möhkəm dövlət yaratmağa müvəffəq oldular. Fransanın ərazisi Frank dövlətinin əsası oldu. 843-cü ildə Karlın (Charle le Man) imperiyasının 3 hissəyə bölünməsi etnik xüsusiyyətləri və dildəki dəyişiklikləri əks etdirir. Müasir Fransanın ərazisini əhatə edən Qərbi Frank krallığının əhalisi latın dili əsasında formalaşmış roman dilində, Şərqi Frank Krallığının əhalisi isə german dilində danışır. Roman dili burada vahid dil deyildir.

Hazırda fransız dilində (ana dili və dövlət dili kimi) 90 mln-dan çox əhali danışır. Bundan başqa Belçikanın Valloniya əyalətində Hunsemburqda, İsveçrədə, Kanadanın Kvebek (Quebec) əyalətində fransız dilində danışırlar. Keçmişdə Fransanın əsarətində olmuş Afrikada, Asiyada Okeaniyada və Karib dənizi sahillərində də fransız dilində danışan əhali az deyil.

Fransızların işğüzar üslubu. Fransada həyat şəraiti çox yüksəkdir. Qərbi Avropa, eləcə də dünya mədəniyyətinin inkişafında Fransızların müstəsna rolu olmuşdur. Fransada təhsilə xüsusi əhəmiyyət verirlər. Burada 400-ə qədər ali təhsil müəssisəsi vardır. Parisdə 13 universitet fəaliyyət göstərir. Fransada ailəyə gəlir gətirən maddi şeylərin 30-dan çox adı var: maaş, yardım,

qonorar, gəlir və s. ***Fransızlar yazıçının dövlət qonorarını dövlət qulluqçusunun maaşından daha mötəbər hesab edirlər (hətta dövlət qulluqçunun gəliri dəfələrlə çox olsa belə).***

Fransızların pula, var-dövlətə özünəməxsus münasibətləri vardır. Onlar qənaətçilliyi daha düzgün hesab edirlər. Bəzən isə bu "xəsisliyə" çevrilir. Qənaət edib pul toplamaq və qocalıqda həyatını təmin etmək çoxlarının azusudur. ***Onore de Balzak*** heç də təsadüfi demirdi ki, "***Yoxsulluq qurtaranda xəsislik başlayır".*** Fransızlar riskli maliyyə avantürası etməkdənsə qənaət etməyi üstün tuturlar.

Fransa yüksək surətdə inkişaf etmiş aqrar-sənaye ölkəsidir. O, ən yüksək inkişaf etmiş "Böyük yeddilərdən "biridir. Kənd təsərrüfatı məhsulları istehsalına görə Fransa ABŞ və Kanadadan sonra 3-cü yerdədir. Fransa Avropada ən çox taxıl, ət və süd məhsulları, kərə yağı və pendir istehsal edən ölkələrdəndir. Ölkənin Cənub və Cənub-qərbində günəbaxan, qarğıdalı əkirlər, eləcə də, balıqçılıq əsas sahələrdən sayılır. Ölkə kifayət qədər dəmir, uran, boksit və s. kimi təbii ehtiyatlara malikdir. Burada maşınqayırma, aviakosmik, radioelektronika, dəmirçilik sənayesi yüksək səviy-yədə inkişaf etmişdir.

Meşə təsərrüfatı sənayesi də burada əsas sahələrdən sayılır. Bununla yanaşı ölkənin cənub-qərbində, Bordo yaxınlığında zəngin neft yataqları da vardır.

Fransa yüksək elmi-texniki potensiala malikdir. Ölkə əhalisinin təxminən yarısı xidmət sahələrində səhiyyə, təhsil, maliyyə işi, turizm və s. sahələrində də çalışır. Fransa xarici ticatət sahəsində dünyada ABŞ, Almaniya və Yaponiyadan sonra 4-cü yeri tutur. Milli gəlirin 30%-i sosial sahədə ayrılır. Ölkədə televiziya və kino sənayesi də çox yüksək səviyyədə inkişaf etmişdir.

Fransız filmlərinin bir çoxu dünyanın qızıl fonduna daxil edilmişdir.

Fransızlar hesab edirlər ki, həyatda uğur qazanmaq əməksevərlik yolu ilə mümkündür. Bir qısım fransıza görə düzlük və çeviklik insana uğur qazandırır. Fransızların yarışı hesab edir ki, çox böyük pullar düz yolla qazanılmır. Ona görə də fransız milyarderləri qəzetdə, televiziyada tez-tez görünməkdən çəkinirlər.

İxtisas ölkəsi xalqının cöğrafi mühiti və söykökü haqqında (fransızlar). Fransızlar. Avropa kontingentində ən qədim və bənzəri olmayan, zəngin tarixə və mədəniyyətə malik olan xalqlardandırlar. Fransanın məhdud ərazisində çoxlu təzadlar və müxtəliflik görmək mümkündür, nəinki Avropanın digər ərazilərində. Bəzi ölkələrdə 100 kmlərlə yol gedirsən, lakin yol boyu dekarasiya dəyişilmək qalır. Lakin Fransada yolun hər döngəsində mənzərə dəyişilir.

Aralıq dənizinin cənubunda bütün rənglər açıq-çalarlıdır-mavi səma, qızılı günəş, qırmızımtıl torpaq: uzun və yumşaq iynələri olan cənub Şam ağaclarının budaqlarından və zeytun ağacının yarpaqlarından süzülən gümüşü rənglər, üfüqə yüksələn sıldırım dağlar, təpələr və s. Havadan bəzən yaşıl otların iyi, bəzən də meşə yanğından əmələ gəlmiş otların iyi gəlir: bəzən isə zeytun yağında qızardılmış balıq iyi gəlir.

Aydın təbiət buranın insanlarının temperamentinə də uyğun gəlir. Cənublular cəld, çevik insanlardır.

Fransanın Şimalında isə, əksinə heç nə günəşli cənubdakı kimi deyildir. Səma tez-tez yağışlı buludlarla örtülür. Soyuq küləklər Atlantik

okeanından və La Manşdan əsir, hər yeri duman bürüyür. Yol qırağında hər iki tərəfdə cərgə ilə alma bagları, qovaq ağacları və cökə ağacları salınıb. Südündən məşhur normand pendiri hazırlanan inəklər, sanki saqqız çeynəyirlər.

Daha uzaqda şimal şərqdə Nordda (Şimal) və Palekaledə (Pa-de Kale) əsasən tarlalardan yığılmış kartof və çuğundur təpələri piramida şəklində ucalır,evlərin bacalarından tüstülər qalxır. Burada çox hissəsi tərk edilmiş evlərin paslı damları görünür.

Şimalda üzümlüklər yox olur. Üzüm tənəklərini maya göbələyi sıxışdırıb aradan çıxarır. Əslində fransızlar üzüm şərabına deyil, alma şərabına üstünlük verirlər. Şimalda adamlar cənublilardan fərqli olaraq küçələrdə oturmağı xoşlamırlar, onlar pis hava şəraiti ilə əlaqədar olaraq rahat evlərində, mənzillərində olmağı xoşlayırlar. Şimallı fransızlar az ünsiyyətli və az danışan almalarına baxmayaraq, işdə çox ciddi və bacarıqlı, dostluqda isə çox ümidverici və inanılmış olurlar.

Şimalla cənub arasındakı fərq onların tarixi taleləri ilə də müəyyən edilir. Ölkənin cənub hissəsi Roma qalliyasından əmələ gəlib. Burada mədəniyyətin əsası antik (yəni Yunan və Roma dünyası, onun mədəniyyəti və tarixi) - qonşu İtaliyanınkına əsaslanır. Bəzi cənub şəhərlərində hələ də antik amfiteatrlar (qədim Yunan və Romalılarda dairə və yarımdairə şəkilli açıq tamaşaxanalar) həmçinin Rum qullarının tikdikləri möhtəşəm akveduklar (çay, dərə üzərində körpü şəklində çəkilən su kəmərləri) qalmaqdadır. Marselin əsasını da qədim yunanlar qoymuşlar. Provansda kəndlərin sakinlərinin üzü, sanki orta əsrlərdə yaşayan Afrika müsəlmanlarının sifətini xatırladır. Həmin ərəb =sarasın-burada uzun müddət-xaç yürüşünədək hökmranlıq etmişlər. Əsasən Rum mənbələrində Qallar cəsarətli, zirək, fərasətli, gözəl danışmağı bacaran, ünsiyyətli, lakin ehtiyatsız, şöhrətpərəst, qərarsız, tamamilə qayda-qanun riayət etməyən xalq kimi, təsvir olunmuşdur. Əlbəttə ki, fransızlar öz xarakter xüsusiyyətlərini yaxşı bilik və özlərinə hesabat verməyi bacarırlar. Ona görə də, indiki fransızlar tarixdəki öz keçmiş qəhrəmanlarını dövlətin maraqlarına əzmlə qulluq etmiş adamlarını (öz çatışan və ya çatışmayan cəhətləri) sevərək yad edirlər. Ona görə də, qadın düşgünü və qadınların sevimlisi olan, lakin çox dözümlü və ehtiyatlı olan IV Henrix əfsanəvi döyüşlərin qəhrəmanı və diplomatik bacarığa malik Kardinal Rişelye və ya Fransaya pərəstişi olan general De Qoll (Charle de Goll).

Şimalda fransızların mənşəyi buranı öz əsarətində saxlamış bir çox tayfaların, almanların, keltlərin, vest qotların, frankların, burqundların, normanların mənşəyinə əsaslanır. Ona görə də, fransızlar əvvəl özlərini fransız, sonra isə digər tayfaların törəmələri hesab edirlər. Yəqin ki, fransızların xarakterləri ona görə ziddiyyətlidir ki, onlar özlərində müxtəlif əyalətlərin əhalisinin müxtəlif xüsusiyyətlərini cəmləşdirirlər. Qədim fransız atalar sözündə deyildiyi kimi,"Hər şeydən bir az olmalıdır ki bütöv dünyanı yaradasan".

Başqa xalqlardan fərqli olaraq, fransızlar əsasən oturaq xalq hesab olunurlar. Fransa tarixində kütləvi şəkildə emmiqrasiya olunmaq halına az rast gəlinir. 1685-ci ildə XIV Rüdoviqin "dini-

azadlıqların ləvğ edilməsi” qərarını verməsindən sonra dini təqib lərdən qaçaraq Almaniyaya, İsveçrəyə, Hollandiyaya, İngiltərəyə fransız-protestantlarını göstərmək olar. Bir də, XVI əsrdə Jak Kartın Kanadanın Kvebek əyalətini işğal etməsindən sonra buraya süni yerləşdirilən xeyli sayda fransızları misal çəkmək olar. Bu günədək burada-Kvebekdə 6 milyona qədər insan fransız dilində danışır. Hazırda xaricdə yaşayan fransızların sayı 1,5 milyonu ötmür ki, onların da çoxu qocalanda “vətəndə ölməyə” qayıdırlar.